# GİRİŞ

Son illər psixologiya elminin sürətlə inkişaf etməkdə olan sahələrindən biri praktik psixologiyadır. Onun meydana gəlməsi istehsal, təhsil, tibb, hüquq, ailə və nikah,əməyin elmi təşkili və s. praktik fəaliyyət sahələrində psixoloji biliklərdən ekspertiza, diaqnostika və konsultasiya kimi tətbiqi ehtiyacların tələbləri ilə şərtlənmişdir. **Praktik psixologiya** psixoloq-mütəxəssisin fəaliyyətinin strategiya və taktikasını müəyyən edən iş prinsiplərinin və peşəkar ustanovkalarının özünəməxsus sistemidir. Onun tərkibində fərdi və qrup psixoterapiyası, ünsiyyət treninqi, ailədaxili münasibət məsələləri ilə bağlı psixoloji məsləhətlər və **məktəb psixoloji xidməti** diqqəti xüsusi olaraq cəlb edir.

XXI yüzillikdə Azərbaycan məktəbinin, bütövlükdə təhsil sisteminin uğurları bütün başqa şərtlərlə yanaşı, həm də məhz psixoloji biliklərin məktəb təcrübəsində nə dərəcədə səriştə ilə gerçəkləşməsindən, psixoloji xidmətin təhsil sistemindəki rolundan asılı olacaqdır.

**Təhsil sistemində psixoloji xidmət** pedaqoji psixologiyanın formalaşma mərhələsində olan yeni sahələrdən biridir. Artıq son dövrlərdə tətbiqi pedaqoji, sosial psixologiya və şəxsiyyət psixologiyası kimi sahələr doğru olaraq ümumi bir adla – **praktik psixologiya** adlandırılır. Son 10 il ərzində psixologiyanın praktik-tətbiqi sahələrində çalışan psixoloqların sayı əhəmiyyətli şəkildə artmışdır.

Müasir dövrdə inkişaf etmiş bir sıra xarici ölkələrdə stress, depressiya, nevrastaniya və s. kimi ruhi iztirablardan əzab çəkən insanlar nevopotoloq və psixoterapevtlərlə yanaşı, psixoloqlara və psixoloji xidmət mərkəzlərinə də müraciət edirlər. Elmi statistika sübut edir ki, dünyada 450 milyondan artıq insan psixi problemlərdən əziyyət çəkir ki, onların sırasında məktəb yaşlı uşaqların sayı heç də az deyildir. Psixi problemlərin bəşəriyyəti bürüdüyü indiki dövrdə atılmış körpələr və qocalar evlərində, nikah evlərində, təhsil

müəssisələrində, hərbi hissələrdə, cəzaçəkmə müəssisələrində və s. insanlar psixoloji yardıma daha çox ehtiyac duyurlar. 1992-ci ildən etibarən 10 oktyabr hər il Ümumdünya psixi sağlamlıq günü kimi qeyd edilir.

Praktik psixoloqun fəaliyyəti o halda səmərəli ola bilər ki, o öz iş təcrübəsi əsasında peşəkarlıq səviyyəsini daim artırmaq qayğısına qalsın, öz həmkarları ilə müntəzəm dialoq aparsın, elmi ədəbiyyatları daim izləməklə elmi-nəzəri hazılıq səviyyəsini yüksəltmək səylərini artırsın.

Qeyd olunan bu amillərin hər biri qarşılıqlı olaraq bir – biri ilə sıx bağlıdır. Onlardan biri təmin olunmadıqda, praktik psixoloqun peşəkarlıq keyfiyyətlərindən danışmaq əbəsdir. Məsələn, şəxsi təcrübə kifayət qədər deyilsə, onda praktik psixoloqun şəxsi mövqeyi olmadığından onun həmkarları ilə dialoqu baş tuta bilməz. Praktik psixoloqun öz həmkarları ilə peşəkar dialoqu olmadıqda isə onun başqalarının təcrübəsi ilə tanışlığı, özünün və başqalarının baxışlarına tənqidi münasibəti formalaşa bilməz. Praktik psixoloq dünyanın aparıcı psixoloji cərəyanları, nəzəriyyə və təcrübəsi ilə tanış olmadan zamanın artan tələblərindən geridə qalmış olur. Bu sahədə çalışan mütəxəssislərin qarşılıqlı əlaqələrinin zəif olması həm psixoloji nəzəriyyə, həm də akademik psixologiya üçün ciddi problemlər yaradır. Psixoloji nəzəriyyə dedikdə biz ilk növbədə şəxsiyyət nəzəriyyəsini, emosiyaları, yaşantıları, sosial psixologiya nəzəriyyəsini, yəni, birbaşa praktik psixologiya ilə bağlı olan nəzəriyyələri başa düşürük.

Psixoloji nəzəriyyə sadəcə olaraq yalnız praktik, tətbiqi əsasları, istiqamətləri müəyyən etməklə məşğul olmur. Nəzəriyyə praktikadan çıxış edir, daha sonra isə o praktikanı zənginləşdirir. Dünya psixologiya elmində də nəzəriyyə ilə təcrübənin qarşılıqlı münasibətlərinin dialektikası belədir.

Psixoloji təcrübə şəxsiyyət psixologiyası üçün vacib emprik material verir. Bir tərəfdən müştərinin praktik psixoloqla ünsiyyəti laboratoriya eksperimenti ilə müqayisədə real həyat situasiyasına daha yaxındır,

digər tərəfdən belə ünsiyyət adi həyat situasiyasına nəzərən daha aydındır və kifayət qədər dəqiq nəticələr əldə etməyə imkan verir.

Psixoloji praktika şəxsiyyət psixologiyası qarşısında daha yeni və adekvat məqsədlər qoyur. Şəxsiyyət psixologiyasında öyrənmə obyekti insan, onun şüuru, yaşantıları və hissləridir.

Praktik psixologiyanın konstruktiv nəzəriyyəsi **praktik psixologiya → nəzəriyyə → praktik psixologiya** tsikli üzrə inkişaf edir.

Uzun illər boyu akademik psixologiya kifayət qədər geniş və müxtəlif təşkilati formalarda inkişaf etmişdir. Respublikamızda praktik psixoloji xidmət sisteminin tətbiqinə təxminən 20 il əvvəl ilk dəfə təhsil sistemindən başlanmışdır və onun böyük perspektivləri vardır. Professor Ə.Ə.Əlizadənin qeyd etdiyi kimi, “XXI yüzillikdə Azərbaycan məktəbinin uğurları bütün başqa şərtlərlə yanaşı, həm də məhz psixoloji biliklərin məktəb təcrübəsində nə dərəcədə səriştə ilə gerçəkləşməsindən asılı olacaqdır”.

Hazırda məktəblərdə psixoloqların sayının get-gedə artması təhsil sahəsindəki problemlərin praktik həllinə müəyyən təkan versə də, hələlək məktəblərdə psixoloji xidmətin statusu aşağıdır. Məktəb psixoloqları uşaq şəxsiyyətinin inkişafı və tərbiyəsi nəzəriyyəsini zənginləşdirə biləcək yeni faktlar əldə etmək, inkişafın qanunauyğunluqlarını şərtləndirən səbəb-nəticə əlaqələrini müəyyən etmək imkanlarına malik deyillər. Praktik psixoloq yararlı diaqnostik metod və vasitələrlə şagirdin intellektual, iradi-emosional və şəxsiyyət yönümdə inkişaf səviyyəsini müəyyən etmək metodikalarını əldə etmək imkanına malik olmalıdır.

Psixologiya nəzəri fundamental elmlərdən biridir. O, insan haqqında elmlər sistemində mərkəzi yer tutur. İ.P.Pavlov psixologiyanın insan haqqında son elm, Z.Freyd isə təbiətşünaslıqdan sonra ikinci həqiqi elm hesab edirdi. L.S.Vıqodski yazırdı ki, “gələcək cəmiyyətlərdə psixologiya insan haqqında həqiqi elm olacaqdır. Rus psixoloqu A.N.Leontyev XXI əsri psixologiya əsri adlandırmışdır. Psixoloji nəzəriyyə həm də aydın ifadəli

praktik istiqaməti ilə fərqlənir: insanın daxili aləmini dərk etmək, bu biliklər əsasında şəxsiyyətin formalaşması, onun təlimi, tərbiyəsi və inkişafı prosesini planlı və mütəşəkkil şəkildə idarə etmək. Psixoloqların praktik sahədə apardıqları iş tətbiqi məzmun daşıyır, bu və ya digər fəaliyyət sahəsində qarşıya çıxan problemin rasional həllinə xidmət edir.

Qeyd etmək lazım gəlir ki, son 10 ildə təhsil sistemində psixoloji xidmətin təşkilinin səmərəliliyinin yüksəldilməsi üçün müəyyən işlər görülsə də, hələlik bu sahədə xeyli çətinliklər vardır. Məktəb psixoloqları sınaqdan çıxmış diaqnostik metodikalara və inkişafetdirici-korreksiya proqramlarına, zəruri test bankına böyük ehtiyac hiss edirlər. Azərbaycan psixoloqlarından Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, İ.Ə.Məmmədov, R.N.Məmmədzadə, R.İ.Əliyev, L.Ş.Əmrahlı, Ə.X.Zeynalabdinova və b. son illər bu sahədəki boşluğu doldurmaq sahəsində xeyli işlər görmüşlər. Bu sahədə **Azərbaycan Praktik Psixoloqlar Assosiasiyasının (1999)** və **"Məktəb psixoloqu" (2001)** qəzetinin fəaliyyətini də təqdirəlayiq hesab etmək olar.

Azərbaycanda praktik məktəb psixoloqlarının hazırlanması istiqamətində həyata keçirilən ilk təşəbbüslər 1989-cu ilə təsadüf edir. 20 ilə yaxın bir dövr keçməsinə baxmayaraq bu gün onların fəaliyyətini tənzimləyən hüquqi-normativ baza hələ də yox səviyyəsindədir.

Azərbaycan Təhsil sistemində psixoloji xidmətin milli mentalitetə, düşüncə tərzinə və eyni zamanda mütərəqqi beynəlxalq təcrübə ilə inteqrasiyaya əsaslanan modeli yaradılmalıdır.

Təqdim olunan bu vəsait Ali məktəblərin bakalavr və magistr pillələrində psixologiya, pedaqogika və psixologiya ixtisasları üzrə təhsil alanlarla yanaşı praktik məktəb psixoloqlarının elmi və metodik baxımından qarşılaşdıqları çətinliklərin aradan qaldırılmasına kömək məqsədi daşıyır. Dərs vəsaiti "Təhsil sistemində psixoloji xidmət" (Bakı, 2002) adlı proqrama uyğun yazılmışdır. Kitab girişdən, 2 əsas hissədən, onlara daxil edilmiş 13 fəsildən və yarımfəsillərdən, əlavələr və ədəbiyyat siyahısından ibarətdir.

Vəsaitdə şəkil, cədvəl və sxemlərdən də istifadə olunmuşdur.

Dərs vəsaitində təhsil sistemində psixoloji xidmətin elmi-nəzəri, praktik və tətbiqi sahələrinə geniş yer verilmiş, praktik psixoloqun fəaliyyətinin bütün istiqamətləri üzrə işin sistemi öz əksini tapmışdır.

**Müəllif**

# I HİSSƏ

## Təhsil sistemində psixoloji xidmətin elmi-nəzəri əsasları

## I fəsil. Psixoloji xidmətin nəzəri məsələləri

### 1.1.1. Təhsil sistemində psixoloji xidmətin mövzusu, məqsədi və vəzifələri

Təhsil sistemində psixoloji xidmət cəmiyyətin inkişafının müasir mərhələsində və perspektivdə ən zəruri komponentlərindən biridir. Onun tətbiqinin məqsədəmüvafiqliyi hər bir uşağın fərdi xüsisiyyətlərinin, həyata yaradıcı münasibətinin inkişaf etdirilməsi tələbatı ilə müəyyənləşdirilir.

Müasir dövrdə bu vəzifələrin yerinə yetirilməsində təhsil sistemi xeyli çətinliklərlə qarşılaşır. Bu çətinliklərin yaranmasının başlıca səbəblərindən biri, təlim və tərbiyə proseslərinin uşağın inkişafı, onun şəxsiyyətinin formalaşması haqqında mövcud biliklər kompleksinə zəif istinad edməsi ilə əlaqədardır. Uzun illər boyu təlim-tərbiyə vəzifələrinin işlənib hazırlanmasında təhsil sisteminin rəhbər orqanları deklarativ şəkildə şagirdin şəxsiyyətinin formalaşdırılması zərurətini irəli sürsə də, əslində məktəbin fəaliyyətinin nəticələrinin qiymətləndirilməsində, şagirdlərin psixoloji xarakteristikaları, psixi inkişaf göstəriciləri nəzərə alınmamışdır. Məktəblərdə təlim-tərbiyə işlərinin səmərəliliyi bir qayda olaraq bilik, bacarıq və vərdişlərin inkişaf səviyyəsi ilə müəyyənləşdirilmişdir. Bu meyar vacib, zəruri olsa da, müasir dövrdə kafi hesab edilə bilməz. Çünki bu göstəricilər uşağın şəxsi və psixi inkişafının tam mənzərəsini əks etdirməyindən, öyrənilmiş materialların şagirdin şəxsi sərvətinə çevrilmə vəziyyətini, mənimsənilmiş təlim materiallarının şagirdin təfəkkürünün və qabiliyyətlərinin gələcək inkişafına təsirini açmağa imkan vermir. Başqa sözlə desək, bu halda təlim-tərbiyə prosesinin özünün nə dərəcədə səmərəli olması məsələsi aydın olmur. Müəllim müxtəlif yaşlı uşaqlarla apardığı təlim-tərbiyə prosesində müəyyən çətinliklərlə qarşılaşır. Bu çətinliklər sırasına münaqişəli məsələləri və situasiyaları, şagirdlərin

şəxsi və intellektual inkişafında normadan kənaraçıxma hallarının profilaktikası və korreksiyasını və s. aid etmək olar. Müəllimlər öz şəxsi təcrübəsi və intuisiyalarına əsaslanmaqla şagirdləri qiymətləndirir, onlar haqqında fikir söyləyirlər ki, bu da əvvəlki təəssüratlar əsasında formalaşmış qənaətlərdən başqa bir şey deyildir. Bu halda müəllimdə şagirdin davranış motivləri, hərəkət və əməlləri haqqında həqiqi və dəqiq məlumatlar olmur.

Psixoloji biliklərin məktəb həyatına tətbiqi sahəsində ötən illərin təcrübəsinin təhlili göstərir ki, həqiqətən müəllimlərə ənənəvi qaydada ünvanlanan psixoloji tövsiyələr adətən səmərəsizdir, peşəkar psixoloji hazırlıq səviyyəsi tələb edir.

**Təhsil sistemində psixoloji xidmət təhsil müəssisələrində psixoloji biliklərdən ekspertiza, diaqnostika, korreksiya, konsultasiya və s. məqsədləri üçün kompleks istifadəni nəzərdə tutan praktik fəaliyyət sistemidir.**

Müasir dövrdə təhsil sistemi məktəb psixoloqlarının simasinda pedaqoji, sosial psixologiya sahəsindəki yeni nailiyyətlərin gündəlik məktəb həyatına tətbiqini reallaşdıran mütəxəssislərlə təmin olunmaqdadır.

Səriştəli praktik psixoloq uşaqların psixi inkişafında baş verən keyfiyyət dəyişikliklərini vaxtında qeydə almaqla, onların yaş və fərdi xüsusiyyətlərini nəzərə alan təlim və tərbiyənin optimal metod və vasitələrinin seçilməsi və səmərəli tətbiqində məktəbin pedaqoji kollektivinə kömək göstərmiş olur. Bununla belə, psixoloji xidmətin mahiyyətini yalnız psixoloji biliklərin praktikada tətbiqi mövqeyindən qiymətləndirmək doğru olmazdı. O, psixologiya elminin özünün gələcək tərəqqisinə təkan verir: praktik psixoloqların fəaliyyəti bu elmə aid nəzəriyyə və konsepsiyaların, tədqiqat metodlarının təcrübə ilə uyğunluğunun yoxlanılması üçün geniş imkanlar açır.

Müasir təhsil sistemində geniş tətbiq olunan psixoloji xidmət haqqında konsepsiyalar içərisində **İ.V.Dubrovina** və **L.M.Fridmanın** konsepsiyaları özlərinin orijinallığı ilə fərqlənir. Onların konsepsiyalarının modifikasiyaları əsasında bir sıra digər konsepsiyalar da yaradılmışdır.

**İ.V.Dubrovinanın təklif etdiyi konsepsiyanın** əsas mahiyyəti ondan ibarətdir ki, bir nəfər psixoloq təkbaşına yüzlərlə məktəbli ilə çoxcəhətli iş qurmalıdır. Fikrimizcə, "Təhsil sistemində psixoloji xidmət haqqında Əsasnamə"də göstərilən vəızifələri bir nəfər psixoloqun təklikdə icra etməsi o qədər də inandırıcı görünmür.

İ.V.Dubrovinanın konsepsiyasında məktəb psixoloqunun işinin "həkim modeli" əsasında qurulmasına üstün əhəmiyyət verilir. Burada psixoloqun əsas vəzifəsinin profilaktika və psixi inkişafdakı qüsurların korreksiyasından ibarət olması ön plana çəkilir.

**L.M.Fridmanın təklif etdiyi psixoloji xidmət konsepsiyasında** isə psixoloq pedaqoji kollektivin üzvü kimi öz məqsəd və vəzifələrini təkbaşına, birbaşa şagirdlərlə deyil, müəllimlər – məktəb və sinif rəhbərləri, həmçinin şagird özünüidarə orqanları vasitəsilə reallaşdırması nəzərdə tutulur.

Təhsil sistemində psixoloji xidmətin həyata keçirilməsi uşaqların təlim və tərbiyə işində elmi-psixoloji biliklərin nəzərə alınmasını vacib bir tələb kimi qarşıya qoyur. Təhsil müəssisələrində psixoloji xidmət işini həyata keçirən məsul şəxs psixologiya üzrə ixtisas hazırlığına malik ali təhsilli praktik psixoloqlardır. Onlar körpəlik dövründən başlayaraq erkən gənclik (böyük məktəb yaşı) dövrünədək uşağın taleyi ilə bağlı təlim və tərbiyə məsələlərinin həllində fəal iştirak edirlər. Uşaq doğulduğu gündən orta məktəb təhsilini başa vuranadək davam edən həyat illərində peşəkar psixoloqun diqqət mərkəzində olmalıdır. Bu dövr ərzində, yəni həyatın ilk 16-18 ili dövründə uşağın psixi inkişafı sistematik müşahidə obyekti olmalıdır. Bu inkişafın gedişi prosesində müntəzəm psixodiaqnostik müayinələr aparılır, uşağın psixi inkişaf tempi və xarakteri qiymətləndirilir,

onun təlim və tərbiyəsinin səmərəliliyinin yüksəldilməsi üçün tövsiyələr verilir və onların həyata keçirilməsi üzərində nəzarət təmin olunur.

Psixoloji xidmət müasir təhsil sisteminin üzvi komponentlərindən biridir. Onun tətbiqi uşaqların intellektual imkanlarının, şəxsiyyətyönümlü potensiallarının, təbii imkan və qabiliyyətlərinin, maraq və meyillərin vaxtında aşkara çıxarılmasını, təlim və tərbiyə prosesləri vasitəsilə maksimum inkişaf etdirilməsini təmin edir. Psixoloji xidmət uşaqların psixi inkişafının imkanlarını aşkara çıxarır, onların pedaqoji proses vasitəsilə maksimum şəkildə reallaşmasına əlverişli imkan yaradır. Uşaqların əksəriyyətindən öz psixi inkişafının göstəricilərinə görə geri qalan uşağın inkişafında ləngiməyə səbəb olan amilləri vaxtında aşkara çıxaran psixoloq bu səbəblərin aradan qaldırılmasına yönəlmiş məqsədyönlü fəaliyyəti ilə fəal rol oynamış olur. İstedadlı və üstün qabiliyyətli şagirdlərlə iş prosesində praktik psixoloq ilk növbədə erkən yaş dövrlərində uşaqlarda təbii imkanların aşkara çıxarılması, onların qabiliyyətlərə çevrilməsi üçün inkişafetdirici proqramların hazırlanmasında iştirak edir, psixi inkişafın sürətli gedişi üçün mövcud imkanların maksimum səfərbərliyə alınması istiqamətində əməli tədbirlər həyata keçirir.

Təhsildə praktik psixoloji xidmətin qarşısında duran məqsədlərdən irəli gələn bir sıra mühüm və təxirəsalınmaz **vəzifələri** vardır. Psixoloji ədəbiyyatlarda həmin vəzifələr ümumi və konkret olmaqla iki yer ayrılır. Praktik psixoloqun **ümumi vəzifələrinə** aşağıdakılar aiddir:

1. Uşaqlarla iş zamanı hər bir yaş dövrünün potensial imkanlarının reallaşdırılmasını təmin etmək;
2. Uşaqların maraq, qabiliyyət, meyl, hiss, münasibət, əyləncə və həyat planlarının gerçəkləşdirilməsi üçün onların fərdi xüsusiyyətlərini inkişaf etdirmək;
3. Uşaq bağçasında, internatda, məktəbdə və s. uşağın normal inkişafı

üçün əlverişli psixoloji iqlim yaratmaq, yaşlılar və yaşıdları ilə onun məhsuldar ünsiyyət şəraitini təmin etmək;

4. Uşaqlarla yanaşı müəllimlərə, valideyinlərə, tərbiyəçilərə vaxtında psixoloji yardım göstərmək.

Məktəb psixoloqunun **konkret vəzifələrinə** aşağıdakılar daxildir.

1. Şagird şəxsiyyətinin və sinif kollektivinin öyrənilməsi;
2. Uşaqların məktəb şəraitinə adaptasiyasının təhlili;
3. Uşağın yaşlılar və yaşıdları ilə qarşılıqlı münasibətlərinin öyrənilməsi;
4. Profilaktik və korreksiyaedici işin təşkili üçün diaqnostik metodikalar paketinin seçilməsi;
5. Şagirdlərin maraq, meyl və qabiliyyətlərini aşkara çıxarmaq və onları inkişaf etdirmək;
6. Psixoloji yardıma ehtiyacı olan uşaqlara kömək etmək.

Təhsildə psixoloji xidmət bu vəzifələrin həyata keçirilməsi üçün ilk növbədə əlverişli təhsil və tərbiyə mühitinin yaradılmasını, hər bir uşağın ruhi-mənəvi inkişafı, psixi sağlamığı naminə normal pedaqoji-psixoloji amillərin olmasını tələb edir. Belə şəraiti isə psixoloq yalnız təkbaşına deyil, müəllimlər və uşaqların valideyinləri ilə birlikdə yarada bilər.İnkişafın müxtəlif dövrlərində uşaqların psixi, psixofizioloji və şəxsiyyət baxımından normal inkişafını təmin etmək təhsil sistemində psixoloji xidmətin qarşısında duran **başlca vəzifədir.** Bu baxımdan təhsildə psixoloji xidmət uşağın inkişafı naminə aşağıdakı əsas istiqamətlərə yönəlməlidir:

1.Təlim-tərbiyə müəssisələrində şəxsiyyətin inkişafını təmin edə biləcək həyat tərzinin formalaşdırılması;

2. Uşağın inkişafı üçün bağçada, məktəbdə, internatda və s. inkişaf üçün əlverişli psixoloji iqlimin yaradılması, hər bir inkişaf mərhələsində bu və ya digər fəaliyyət sahəsində maksimum müvəffəqiyyətin əldə edilməsinin təmin olunması;

3. İnsanın hər bir yaş mərhələsində şəxsiyyət, intellektual və peşə hazırlığı baxımından maksimum təmin edilməsi, uşaqlarla iş zamanı onların inkişaf imkanlarının öyrənilməsi və onların reallaşdırılması;
4. Hər bir uşağa fərdi yanaşmanın təmin edilməsi, fərdi xüsusiyyətlərin, maraq və meyillərin, hiss və münasibətlərin, əyləncə və həyat planlarının inkişaf etdirilməsi;
5. Uşağın pedaqoji və psixoloji baxımdan öyrənilməsi;
6. Şəxsiyyət və intellektual baxımdan inkişafda kənaraçıxma hallarının profilaktikası və korreksiyasının həyata keçirilməsi;
7. Yetim, valideyin himayəsindən məhrum olmuş, qaçqın və köçkün uşaq və yeniyetmələrin fiziki və əqli inkişafında müşahidə olunan geridəqalma hallarının sosial-psixoloji reabilitasiyasını həyata keçirmək;
8. Böhranlı və ekstremal vəziyyətlərdə uşaq və yeniyetmələrə, müəllim və valideyinlərə kömək göstərmək;
9. Ailədə uşaqların tərbiyəsi, əlverişli ailə mikromühitinin yaradılması üçün valideyinlərə, onları əvəz edən şəxslərə psixoloji məsləhətlər vermək;
10. Uşaqlara, valideyinlərə, müəllim və tərbiyəçilərə öz vaxtında psixoloji yardım göstərmək.

Təhsil sistemində psixoloji xidmətin qarşısında duran ən başlıca, həm də mürəkkəb **vəzifə** təlim və tərbiyənin keyfiyyətinin yüksəldilməsinə xidmət edən tədbirlərin daim nəzarətdə saxlanılmasıdır. Bu proseslərin uşaqların inkişafının təbii və sosial qanunlarına uyğunlaşdırılması, təlim və tərbiyə nəzəriyyəsinin əsas müddəaları ilə uzlaşdırılmasının zəruriliyi praktik psixoloqun fəaliyyətinin əsas sahələrindən biri olmaqla, daim diqqət mərkəzində saxlanılmalıdır. Praktik psixoloq psixologiya elminin təmsilçisi olmaqla uşaqların təlimi və tərbiyəsinin metodlarının optimal seçimini bu elmin mövqeyindən qiymətləndirir, müxtəlif uşaq təlim və tərbiyə müəssisələrində elmi əsaslara söykənən praktik tövsiyələrin hazırlanmasını həyata keçirir.

Təhsil sistemində psixoloji xidmətin başlıca **məqsədi** məktəbəqədər və məktəb yaşı dövründə uşaqların, böyüməkdə olan nəslin fərdiyyətinin, həyata yaradıcı münasibətinin formalaşdırılmasına digər subyektlərlə birlikdə fəal təsir göstərməkdən ibarətdir. Onun fəaliyyət diapazonunda uşaqların maraq və meyillərinin inkişaf etdirilməsi, şəxsiyyətinin və intellektinin formalaşmasında qüsurlara səbəb olan amillərin müəyyənləşdirilməsi, bu cür qüsurların profilaktikası və korreksiyası, yəni onların qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi vəzifələri ön planda durur. Təhsildə psixoloji xidmətin ən öncül məqsədlərindən biri də şagirdlərin psixi cəhətdən sağlamlığının təmin edilməsindən ibarətdir. Elmi tədqiqatlar çoxdan sübut etmişdir ki, psixi sağlamlığın əsasını ontogenezin bütün mərhələlərində sağlam psixi inkişaf təşkil edir. Psixi sağlamlığa qayğı uşağın daxili aləminə həssas və qayğıkeş münasibət tələb edir. Həyatın lap erkən dövrlərindən başlayaraq uşağın hiss və yaşantılarına, əyləncə və maraqlarına, bilik və qabiliyyətlərinə, ətraf aləmə, yaşlılara, ictimai həyat hadisələrinə münasibətlərinə həssaslıqla yanaşmaq lazımdır.

Müasir təhsil sistemində psixoloji xidmət praktik psixoloqun qarşısında aşağıdakı konkret və həlli vacib vəzifələri qoyur:

1. Uşaqların məktəb təliminə hazırlığı səviyyəsini aşkara çıxarmaq, onların məktəb təlimi şəraitinə, məktəb həyatına daha yaxşı uyğunlaşmasını təmin etmək üçün müəllimlərlə birlikdə fərdi iş proqramı tərtib etmək;

2. Uşağın həyatında keçid və böhran dövrlərini xüsusi nəzarətdə saxlamaq; uşaqların birinci sinfə daxil olması, ibtidai siniflərdən əsas, əsas təhsil pilləsindən orta məktəbə daxil olması ilə əlaqədar təlimə hazırlığını müəyyənləşdirmək, müəllimlərlə və valideynlərlə birgə fərdi iş proqramı tərtib etmək;

3. Təlimdə geridə qalan və mürəkkəb davranışlı (“çətin”) uşaqlarla diaqnostik korreksiya işlərini həyata keçirmək;

4. Şagirdlərin intellektual, şəxsiyyət və iradi-emosional sferasının, diaqnostikasını həyata keçirmək, onların korreksiyasını aparmaq;

5. Şagirdlərin müəllimlərlə şəxsiyyətlərarası münasibətlərindəki konfliktlərin psixoloji səbəblərini aşkara çıxarmaq və aradan qaldırmaq.

6. Məktəb rəhbərlərinə, müəllimlərə və valideynlərə şagirdlərin təlimi, tərbiyəsi və inkişafının psixoloji problemləri, onların diqqətinin, hafizəsinin, təfəkkürünün, nitqinin, iradəsinin, emosional və intellektual aləminin xüsusiyyətləri haqqında məlumat vermək.

### 1.1.2. Təhsil sistemində psixoloji xidmətin əsas prinsipləri

Təhsil sistemində çalışan psixoloqun işi müəyyən **prinsiplər** – onun fəaliyyəti üçün zəruri olan bir sıra başlıca tələblər üzərində qurulur. Həmin prinsiplər ümumi və xüsusi olaraq iki qrupa ayrılır. Bu prinsiplərdən biri **fərdi yanaşmadır.** Psixoloqun işi formalaşmaqda olan şəxsiyyətin fərdi xüsisiyyətlərinin aşkara çıxarılmasına, onun fərdi inkişafı və korreksiyası üsullarının axtarışına, təlim və davranışda onun üzləşdiyi fərdi problemlərin və çətinlkilərin aradan qaldırılmasına yönəlmişdir. **Psixoloqun pedaqoqlar və valideyinlərlə əlbir fəaliyyəti** adlanan ikinci mühüm prinsip uşağın inkişafı, təlimi və tərbiyəsində marağı və payı olan hər bir subyektin – ailənin və pedaqoji kollektivin ümumi pedaqoji məqsəd ətrafında birləşməsini - cəmiyyətin layiqli vətəndaşının formalaşması istiqamətində birgə fəaliyyətini nəzərdə tutur. Praktik psixoloqun fəaliyyətini tənzimləyən üçüncü prinsip **psixoloqun hüquq və vəzifələrinin gözlənilməsi** adlanır ki, bunlar da "Təhsil sistemində psixoloji xidmət haqqında Əsasnamə"nin "Psixoloji xidmət işçisinin hüquq və vəzifələri" adlanan IV bölməsində konkret şəkildə öz əksini tapmışdır.

Təhsil sistemində psixoloji xidmətin **ümumi prinsipləri** aşağıdakılardır

- **Sistemlilik**- psixoloji xidmət işində diaqnostik, inkişafetdirici- korreksiya, profilaktik, konsultativ və maarifləndirmənin tamlığı.
- **Elmilik**–müayinələrin keçirilməsində sınaqdan çıxarılmış, etibarlı metodikalardan istifadə. Psixoloji informasiyanın analitik təhlili üçün riyazi statistikadan istifadə, psixoloji və sosioloji proseslərin modelləşdirilməsi.
- **Məxfilik**- sosial-psixoloji xarakterli məlumatlardan **korrekt** istifadənin zəruriliyi.Bütün növ işlərin uşağın və ya onun valideyninin razılığı ilə keçirilməsi. Uşaq haqqında şəxsi informasiyanın yayılmasının yolverilməzliyi;
- **Müvafiqlik**- xidmətin məqsəd və vəzifələrinin təhsilləndirici prosesin imkan və tələbatlarına uyğunluğu;
- **Səriştəlili**k-_mütəxəssisin işində peşəkarlıq və məharət;
- **Kompleksliik və çoxvariativlik**-xidmətin təhsil müəssisinin bütün sahələrinə məqsədyönəlmiş təsirdə olması;
- **Səmərəlilik**-diaqnostik, analitik-qiymətləndirici, inkişafetdirici-korreksiya texnolojiyalarından istifadənin nəticələrində səmərəliliyi nəzərdə tutur;
- **Asanlıq-** şagirdlər, müəllimlər və valideyinlər üçün anlaşıqlı və asan tövsiyələrin hazırlanması;

Qeyd olunan fundamental əhəmiyyətli ümumi prinsiplərlə yanaşı, praktik psixoloqun fəaliyyəti müəyyən təşkilati xarakterli **xüsusi prinsiplərin** də nəzərə alınmasını tələb edir. Bunlardan biri **psixoloqun iş metod və formalarının çoxcəhətliliyi** prinsipidir. Bu prinsip psixoloqun praktik fəaliyyətində rəngarəng iş formalarının seçilməsinin zəruriliyini, peşəkarlığın geniş olmasını, dar ixtisaslaşmadan və birtərəfli yanaşmadan uzaq olmağı, xaos, sistemsizlik, moda aludəliyi, peşə təkəbbürlüyü kimi halların yolverilməzliyini nəzərdə tutur.

Praktik psixoloqun fəaliyyətinə yönəldici istiqamət verən prinsiplər sırasında **mənəviyyatlılıq prinsipi** xüsusilə mühümdür. Psixoloq öz

fəaliyyətində nəsihətçilikdən, əxlaqi ibarəbazlıqdan mümkün qədər qaçmalı, əxlaq məsələləri ilə bağlı problemlərin həllində "qızıl orta"nı tapmağı bacarmalıdır. **Varislik prinsipi** psixoloqu bir mütəxəssis kimi təcrübədən faydalanmaqla mühafizəkarlıqdan qaçmağa, yeni pedaqoji texnologiyalar və innovasiyaların məntiqini mənimsəməyə yönəlir. Praktik məktəb psixoloqunun işində mühüm prinsiplərdən biri kimi göstərilən **özünüaktuallaşdırma prinsipi** xüsusi səciyyə daşıyır. Bu prinsip inkişafın daxili mənbəyini axtarmaqla, psixoloqu daxili passivliyə qarşı fəali müqavimət göstərməyə yönəltməklə yanaşı, işdə özünü "həlak etmək" meylindən də uzaq olmağa səsləyir.

**Peşə əməkdaşlığı prinsipi_** praktik psixoloqu bir peşə icmasının üzvü kimi (assossiasiya, cəmiyyət və s.) peşə qurumuna qoşulmağa, burada fəal mövqe qazanmağa, öz peşəsinə uyğun ədəbiyyatları oxumağa, təcrübə mübadiləsi aparmağa, qabaqcıl təcrübədən faydalanmağa və s. istiqamətləndirir.

Dəqiqlik, ağıllı və düşünülmüş kompromissə hazır olmaq, işdə üstün sahələri ayırd etməyi bacarmaq, nikbinlik, emosional xarakterli münasibətlərdən uzaq olmaq, eyforiyaya uymamaq və s. kimi prinsiplərin də nəzərə alınması praktik psixoloqun yaradıcı xarakterli işində uğurlu nəticələrrinə əldə edilməsinə yardım etmiş olur.

### 1.1.3. Təhsil sistemində praktik psixoloji xidmətin əsas istiqamətləri

Təhsildə psixoloji xidmət bütün təhsil sisteminin sadəcə olaraq vacib hissəsi deyil, o həm də elmi, tətbiqi, praktik və təşkilati istiqamətlərin bütövlüyünü nəzərdə tutan inteqral hadisədir. Bunlarla yanaşı təhsil sistemində psixoloji xidmətin elmi, aktual və perspektiv olamaqla 3 əsas istiqaməti fərqləndirilir. **Elmi istiqamət** təhsil sistemində elmi cəhətdən

əsaslandırılmış psixoloji xidmət konsepsiyasının yaradılmasını, təlim və tərbiyə müəssisələrində psixoloqun funksiyaları və mövqeyinin müəyyən edilməsini, praktik psixoloqun texnologiyasının və zəruri avadanlıqlar kompleksinin işlənib hazırlanmasını nəzərdə tutur. Bu texnologiya şəxsiyyətin inkişafı və formalaşmasının elmi tədqiqatlar əsasında əldə edilmiş təlim və tərbiyə göstəricilərinə əsaslanmalıdır. Təhsil müəssisələrində praktik psixoloqlar konkret bir problemin həlli ilə bağlı uşaqlarla, sinif kollektivi ilə, müəllimlər və valideyinlərlə işləyirlər. Onlar heç də təhsildə psixoloji xidməti üçün yeni proqram və metodların işlənib hazırlanması,psixi qanunauyğunluq-ların tədqiqi və s. ilə məşğul olmurlar. Praktik psixoloq üçün bu materialları elm təqdim edir. Praktik psixoloq elmin verdiyi bu nailiyyətlərdən peşəkarlıqla faydalanmağı və onlardan öz işində tətbiqi yönümündə istifadə etməyi bacarmalıdır. Praktik psixoloq uşaqların psixi, şəxsi və fərdi inkişafına, məktəb təhsilinin sonunda məzunların həyati özünütəyinetməsi, müstəqil hayata sərbəst daxil ola bilməsi üçün maksimum təsir göstərməyi bacarmalıdır.

Psixoloji xidmət sistemli konkret bir fəaliyyət sahəsidir. Onun həyata keçirilməsi **aktual və perspektiv** olmaqla iki əsas istiqamətə əsaslanır.

**Aktual istiqamət** çərçivəsində uşaqların təlimi və tərbiyəsi işindəki konkret çətinliklər, davranışdakı pozuntular, münasibətlər sistemində yaranan ünsiyyət çətinlikləri ilə bağlı təxirəsalınmaz problemlər və vəzifələr müzakirə edilir və həll olunur.

**Perspektiv istiqamət** çərçivəsində uşağın fərdi xüsisiyyətlərinin nəzərə alınması ilə bağlı proqnozlaşdırıcı proqramlar, onun ahəngdar inkişafı, yaradıcı həyata psixoloji hazırlığı üçün konkret proqramlar hazırlanır və həyata keçirilir. Bu isə öz növbəsində hamının və hər bir kəsin inkişafı üçün əlverişli psixoloji şəraitin yaradılması zəminində mümkündür.

Adları qeyd olunan aktual və perspektiv istiqamətlərin hər biri sıx şəkildə əlaqəlidir və biri-birinə təsir göstərir. Lakin psixoloji xidmət sisteminin qarşısında duran məqsəd və vəzifələr baxımından perspektiv istiqamət daha önəmlidir. Burada ən mühüm cəhət praktik psixoloq tərəfindən uşağa münasibətdə ilk və son məqsədləri bir-biri ilə düzgün uzlaşdırmaqdan ibarətdir.

Praktik psixoloq uşaqla qarşılıqlı münasibətinin **ilk mərhələsində** onun sistematik məktəb təliminə hazırlığı vəziyyətini müəyyənləşdirir. Bu vəzifənin yerinə yetirilməsi üçün hal-hazırda praktik psixoloqlar üçün xeyli kompleks müayinə (diaqnostika) proqramları və metodikaları vardır. Bu metodikalardan düzgün istifadə etməklə psixoloq hər bir uşağın təlimi və tərbiyəsi üçün optimal təsir vasitələrinin müəyyənləşdirilməsinə nail ola bilər.

Məktəb psixoloqunun uşaqla qarşılıqlı münasibətinin son mərhələsində məqsəd onun həyati özünütəyinetməyə, peşəseçməyə, istiqamətləndirməkdən, şəxsi və sosial yetkinliyini müəyyənləşdirməkdən ibarətdir. Həyati özünütəyinetmə böyük məktəb yaşı dövründə meydana gəldiyinə görə, bu prosesdə psixoloji hazırlıq praktik psixoloqdan aşağıdakı cəhətləri nəzərə almağı tələb edir.

a) məktəblilərdə yüksək səviyyədə psixoloji strukturların, hər şeydən əvvəl özünüdərketmənin formalaşdırılması;
b) şəxsiyyətin daxili zənginliyini, məzmunca dolğunluğunu təmin edən tələbatların formalaşma səviyyəsini; mənəvi yönəlişliklərin, zaman perspektivləri və dəyərlərə yönəlişliklərin səviyyəsinin müəyyənləşdirilməsi;
c) hər bir böyük məktəblinin öz qabiliyyətləri və maraqlarını dərk etməsinə və bunun nəticəsi kimi onun fərdiyyətinin təşəkkülünə nail olmaq.

Praktik psixoloqun işgüzar fəaliyyətinin önəmli istiqamətlərdən biri **psixoprofilaktikadır**. Onun başlıca vəzifəsi uşağın normal intellektual və

mənəvi inkişafına əngəl yaradan, ləngidici təsirə malik amilləri vaxtında aşkara çıxarmaq və aradan qaldırmaqdan ibarətdir. Bu məsələ ilə məşğul olan psixoloji xidmət işçisi kimi praktik məktəb psixoloqu öz fəaliyyətində uşaqların psixi inkişaf qanunauyğunluqlarından irəli gələn biliklərə, ilk növbədə psixologiya və tibbin hüdudlarında yerləşən **patopsixologiya** və **defektologiya** elmlərinin təqdim etdiyi praktik biliklərə istinad edir.

Təhsil sistemində psoxoloji xidmətin yerinə yetirdiyi praktik vəzifələrdən biri pedaqoji prosesin birbaşa iştirakşıları olan uşaqlara, müəllimlərə, valideynlərə və təhsil müəssisələri rəhbərlərinə praktik təsirdən ibarətdir. Bu təsirin gedişində psixoloq qeyd olunan subyektlərə təlim və tərbiyənin gedişində birbaşa kömək göstərmiş olur. Bu halda praktik psixoloq pedaqoq, psixoterapevt, məsləhətçi və korrektor rolunda çıxış edir.

Müasir tibb elmi bir çox xəstəliklərin, xüsusilə ürək-damar, mədə-bağırsaq tipli xəstəliklərin psixogen mənşəli olduğunu sübuta yetirmişdir. Bu eynilə insanın psixologiyası, davranışı və münasibətlər sistemində birbaşa təsiri olan endokrin sistemə də aiddir. Bu sahədə praktik iş aparan psixoloq bu tipli xəstəliklərin yaranması və kəskinləşməsi haqqında xəbərdarlıq edir, insanların psixologiyası və davranışına xüsusi metodlarla təsir edir, üzvi reyaksiyalarla bağlı xəstəliklər haqqında konkret tövsiyyələr verməklə, onların müalicəsi üçün əlverişli imkan yaratmış olur.

Təhsil sisteminin idarəetmə strukturlarının işçiləri idarəetmə sahəsində adamlara, qrup və kollektivlərə rəhbərlikdə psixoloji köməyə ehtiyac duyurlar. Ona görə də, təhsildə idarəetmə strukturunun işçiləri idarəetmə psixologiyası, insanların qarşılıqlı münasibətlərinin psixologiyası, habelə qrup fəaliyyətinin səmərəliliyini şərtləndirən amillər haqqında zəruri psixoloji biliklərə malik olmalıdırlar. Təlim və tərbiyə işi ilə məşğul olan hər bir yaşlı adamın uşaqların inkişafı və onların idarə olunması haqqında biliklərə sahib olması onun fəaliyyətinin səmərəliliyinə stimul

yaradan amillərdən biridir. Bu biliklər ixtisas və peşə hazırlığı sistemində ali pedaqoji təhsil müəssisələrində zəruri minimum həcmində verilsə də, zaman keçdikcə bu biliklərin çoxu qismən və ya tam şəkildə köhnəlir, daim yeniləşməyə, tamamlanmağa ehtiyac duyur. Psixoloji xidmət bu və ya digər pedaqoqun bütün pedaqoji fəaliyyəti dövründə mövcud biliklərin korreksiyası funksiyasını da yerinə yetirir.

Təhsil müəssisələrində çalışan psixoloq digər bilik sahələrinin nümayəndələri - pedaqoqlar, defektoloqlar, sosioloqlar, həkimlər, hüquqşü-naslarla birlikdə uşaqların taleyi ilə bağlı olan müxtəlif vəzifələrin yerinə yetirilməsində iştirak edir. Bu vəzifələr sırasında ilk növbədə öz yaşıdlarından əhəmiyyətli şəkildə fərqlənən, xüsusi diqqət, qayğı, spesifik münasibət tələb edən uşaqlarla iş prosesində pedaqoji işin qeyri-adi forma və metodlarından istifadə olunmasının zəruriliyi ön palnda durur. Burada söhbət hər şeydən əvvəl öz inkişafı baxımından həmyaşıdlarından geridə qalan və istedadlı uşaqlardan gedir. Birinci qrupa aid edilən uşaqların təlimi və tərbiyəsində onların imkanlarına uyğun yüngül, çətinlik dərəcəsi aşağı olan öyrədici proqramlar, ikinci qrup üçün isə, əksinə, adi uşaqlardan fərqli olaraq daha mürəkkəb, dolğun proqramların tətbiqi tələb olunur. Məqsədyönlü hazırlanmış belə proqramlar ilk növbədə ilkin pedaqoji-psixoloji ekspertizadan keçirilməli, müxtəlif ixtisasdan olan mütəxəsis pedaqoqların rəyləri əsasında qiymətləndirilməli, müvafiq kateqoriyalardan olan uşaqların optimal inkişfının təmin edilməsi baxımından yararlığı müəyyənləşdirilməlidir. Bu zaman belə bir cəhət xüsusilə diqqət mərkəzində saxlanılmalıdır ki, öz inkişafında geridə qalan, fiziki və psixi cəhətdən zəif olan uşaqlar üçün hazırlanmış yüngülləşdirilmiş təlim və tərbiyə proqramları onların normal uşaqlardan geridə qalmasının daha da dərinləşməsinə gətirib çıxarmasın. Əksinə, belə proqramlar inkişafetdirici məzmuna malik olmalı, geridə qalan uşaqların sürətli inkişafını təmin etməli, psixoloji baxımdan adi normal

uşaqlarla onlar arasındakı fərqlərin azaldılmasına xidmət etməlidir. Bu cür asan, lakin sürətli inkişafetdirici proqramların hazırlanması istedadlı uşaqlar üçün mürəkkəb inkişafetdirici proqramalrın hazırlanmasından xeyli çətindir.Ona görə də, praktik psixoloqun fəaliyyətində psixi inkişaf baxımından geridə qalan, ləngimə halları müşahidə olunan uşaqlarla işə yaşıdlarını üstələyən uşaqlara nəzərən daha çox vaxtın ayrılması zərurəti yaranmış olur.

Bəzən uşaqlarla iş prosesində onların gələcək taleyi ilə birbaşa əlaqəsi olan problemlər yaranır. Uşağın pedaqoji-psixoloji baxımdan əvəzlənməsi mümkün olmayan ciddi əqli qüsurları tibbi-psixoloji ekspertiza ilə təsdiqləndikdə onun kütləvi məktəbdə təhsilini davam etməsi və ya onun mümkünsüzlüyü ilə bağlı məsələlərin həlli zərurəti meydana çıxır. Belə hallarda praktik psixoloqun üzərinə daha böyük məsuliyyət, obyektiv qərar qəbul etmək məsuliyyəti düşür. O, uşaq haqqında ixtisaslı və məsuliyyətli ekspert rəyi verməli, onun gələcək taleyi üçün pedaqoq, həkim, defektoloq, hüqüqşünas və b. ilə birgə bu məsiliyyəti bölüşməlidir.

Psixoloji xidmət mürəkkəb, çoxsəviyyəli **struktura** malikdir. O, təhsil sistemini yuxarıdan aşağıya doğru – Təhsil Nazirliyindən başlamış, məktəbəqədər müəssisələrdə və məktəbdə mövcud olan uşaq qruplarınadək bütün pillələri əhatə edir. Bu məqsədlə bir çox xarici ölkələrin təhsil nazirliklərində və baş idarələrdə **baş psixoloq** vəzifəsi fəaliyyət göstərir, psixoloji xidmət işi aparan xüsusi şöbələr ayrılır. Psixoloji xidmətin ayrı-ayrı cəhətləri ilə bağlı məsələlər – onun kadr, proqram, metodik və hüquqi-normativ təminatı bu bölmə və strukturlar tərəfindən işlənib hazırlanır. Bir sıra xarici ölkələrdə dövlət tabeçiliyində olan idarəetmə orqanları psixoloji xidmətin elmi-metodik mərkəzi rolunu oymayır. Ölkələrin ayrı-ayrı vilayətlərində, iri şəhərlərində yaradılan belə mərkəzlər müvafiq regionda təhsilin idarə olunması ilə məşğul olan yerli idarə və şöbələrdə psixoloji xidmətin həyata keçirilməsinə elmi-metodik

rəhbərliyi təmin edirlər. Onlar müvafiq regionda uşaqların inkişafı haqqında informasiyalar toplyır, yerlərdə praktik psixoloqların ixtisasın artırılması məsələlərini, o cümlədən onların zəruri elmi-metodiki ədəbiyyatlarla təminatını yerinə yetirirlər. Belə mətkəzlərə yüksək peşə-ixtisas hazırlığına malik universitet təhsilli psixoloqlar və ya bu sahədə elmi dərəcəsi olan şəxslər rəhbərlik edir. Bu mərkəzlərdə çalışan psixoloq-mütəxəssislər uşaqlarla birbaşa iş aparmırlar. Onların işi yerlərdə praktik psixoloqlarla işin elmi-metodiki əsaslar üzərində qurulmasını təmin etməkdən və onların fəaliyyətinə nəzərətdən ibarətdir. Təhsil sistemində psixoloji xidmətin aşağı struktur bölmələri isə bilavasitə uşaqlarla, təhsil sisteminə müəllim, tərbiyəçi, valideyin və s. simasında aidiyyatı olan yaşlılarla iş aparırlar. Bu istiqamətdə fəaliyyət göstərən qurumlar əhaliyə praktik-psixoloji fəaliyyət göstərən mərkəzlərdən, psixoloji xidmət üzrə qeyri-hökumət bölmələrindən, ştatlarda yerləşən aşağı müəssisələrdə işləyən ayrı-ayrı praktik psixoloqlardan ibarətdir. Bir sıra xarici ölkələrdə praktik psixoloji xidmət rayon və şəhər icra hakimiyyətlərində, təhsili idarəetmə orqanları nəzdində, habelə müstəqil kommersiya strukturları–kooperativlər, kiçik xüsusi müəssisələrin tabeliyində də yaradılır. Bəzi ölkələrdə ali və orta məktəblər, liseylər, gimnaziya, kollec, məktəbəqədər müəssisələr və digər təhsil ocaqları öz təhsil ehtiyaclarına uyğun olaraq praktik psixoloji xidmət üzrə strukturlarını formalaşdırırlar. Bir sıra ölkələrdə isə praktik psixoloqlar tam sərbəst, heç bir yuxarı orqandan asılı olmayaraq özəl xidmət qurupu kimi də fəaliyyət göstərirlər. Həmin ölkələrdə özəl qruplar istisna olmaqla, digər psixoloji xidmət qrupları müəyyən dövlət hakimiyyəti orqanlarının tabeliyinə daxildir. Dövlət tabeçiliyində olan psixoloji xidmət strukturları öz növbəsində özündən yuxarı struktura tabe olmaqla, onlar qarşısında məsiliyyət daşıyırlar.

Müasir dövrdə dünya psixoloji xidmət sistemində praktik psixoloqun ixtisaslaşma və peşə hazırlığı baxımdan tətbiqi xarakterli, dörd əsas

istiqamət mövcuddur. Bunların sırasında **psixodiaqnostika, psixoloji məsləhətlər, psixoprofilaktika və psixokorreksiya** diqqəti cəlb edir. **Psixodiaqnostika** adlanan **birinci istiqamət** uşağın psixoloji müayinəsində peşəkar metodların tətbiqini nəzərdə tutur. Bu metodlar sırasında **standartlaşdırılmış test metodları və kliniki ekspert metodları** iki əsas qrup olaraq fərqləndirilir. Bunlarla yanaşı, müasir psixodiaqnostika təcrübəsində əsas tədqiqat metodları sırasında **müşahidə, sorğu, eksperiment** kimi metodların da tətbiqi geniş vüsət almişdır.

Psixodiaqnostika üzrə ixtisaslaşmış praktik psixoloqun başlıca vəzifəsi təhsil sistemində uşaqların və yaşlı adamların psixologiyası və davranışını etibarlı diaqnostik müayinə mütodları vasitəsilə ölçüb qiymətləndirməkdən və buna əsaslanan ixtisaslı psixoloji xarakteristikalar və tövsiyələr hazırlamaqdan ibarətdir. Bu istiqamət üzrə peşəkar praktik xidmət göstərən psixoloq təcrübədə yalnız bu və ya digər psixodiaqnostok metodikaların tətbiqi texnikasını bilməklə kifayətlənə bilməz. O, həm də psixodiaqnostika nəzəriyyəsinə dərindən bələd olmalı və bilik sahəsinin tarixi və müasir problemlərini, onun inkişafı mərhələlərini, təkmilləşməsi sahəsində keçdiyi inkişaf yolunu bilməlidir. Psixodiaqnostika üzrə mütəxəssis öz praktik fəaliyyətində elm və təcrübəyə bəlli olan metodların tətbiqi ilə yanaşı, zəruri hallarda yeni metodikalar yaratmağı, onların elmi qiymətləndirilməsi, etibarlılığı sahəsində yaradıcı iş aparmağı bacarmalı, mövcud metodikaların modifikasiyasını işləyib hazırlamaq sahəsində öz peşəkarlığını təsdiq etməlidir. Praktik psixodiaqnostika üzrə mütəxəssisdən psixoloji müayinə vasitəsilə əldə edilən nəticələri elmi cəhətdən təhlil etmək, onların korreksiya imkanlarını müəyyənləşdirmək bacarığı, interpretasiya – nəticələri standart normalarla müqayisə etmək qabiliyyəti tələb olunur.

Praktik psixoloqun fəaliyyətində xüsusi ixtisas hazırlığı tələb edən **ikinci istiqamət psixoloji konsultasiyadır**. Bu istiqamət özündə aşağıdakı xüsusi iş formalarını əks etdirir :

1. Keçirilmiş psixodiaqnostik müayinələrin nəticələrinə əsasən psixoloji-pedaqoji tövsiyələrin işlənib hazırlanması və dəqiq formulə edilməsi; Bu tövsiyələr uşaqlar və yaşlılar üçün müvafiq formada, icrası baxımdan anlaşıqlı və asan olmalıdır.
2. Psixoloji məsləhətlərə ehtiyacı olan şəxslərlə söhbətlərin keçirilməsi. Bu söhbətlər uşaq və ya yaşlının praktik psixoloqdan zəruri tövsiyələri alması ilə başa çatmalıdır.
3. Müəllimlər və valideynlərin ixtisasının artırılması çərçivəsində psixoloji maarifləndirmə sahəsində tədbirlərin həyata keçirilməsi.

Praktik psixoloqun fəaliyyətində **üçüncü istiqamət** xəbərdarlıq xarakterli vəzifələrin yerinə yetirilməsinə yönəldilmiş **psixoprofilaktik** işlərdir. Onların məzmununda uşağın inkişafında arzuedilməz nəticələrə gətirib çıxara biləcək halların qarşısının alınması: məsələn, inkişafda, təlim və tərbiyədə ləngimə, geridəqalma, arzuedilməz vərdişlərin və xarakter əlamətlərinin, axmaq adətlər və meyllərin təzahürü. Profilaktik istiqamətdə iş aparan psixoloq inkişafda anomaliyaya səbəb olan amilləri müəyyənləşdirməyi, onları vaxtında görməyi və aradan qaldırmağı bacarmalıdır. Praktik psoxoloq bu baxımdan müəllimlər, tərbiyəçilər və valideyinlər arasında iş aparır, uşağın inkişafına əngəllər yaradan,geridəqalmaya gətirib çıxaran səbəbləri vaxtında müşahidə etmək, görə bilmək məqsədilə onların xüsusi psixoloji hazırlığı sahəsində iş aparır.

Məktəbəqədər müəssisənin və məktəb psixoloqunun peşəkarlıq səviyyəsi, qarşıda duran problemləri savadlı həll etməsi, əsasən psixoprifilaktik işlərin aparılmasından asılı olaraq qiymətləndirilir. Əgər hər hansı bir yaş dövründə uşağın normal inkişaf şəraiti pozularsa, sonrakı mərhələdə əsas fəaliyyəti və diqqəti, şübhəsiz ki, korreksiya üzərinə yönəltmək və xüsusi inkişafetdirici iş aparmaq lazım gəlir.

Praktik psixoloq psixoprofilaktik işlər vasitəsilə müəllimlərdə, uşaqlarda, valideyinlərdə və ya onları əvəz edən şəxslərdə ümumi psixoloji mədəniyyət

formalşdırır, psixoloji biliklərdən uşaqlarla iş zamanı istifadə olunmasını, hər bir yaş mərhələsində uşağın mükəmməl inkişafı üçün şəraitin yaradılması gedişində yol verilən pozuntular haqqında vaxtında xəbərdarlıq edilməsini nəzərdə tutur.

**Psixoloji korreksiya** adlanan **dördüncü istiqamət** psixoloqun uşağa və yaşlıya mövcud qüsurların və çatışmazlıqların aradan qaldırılması məqsədinə xidmət edən birbaşa təsir göstərməsini nəzərdə tutur. Bu istiqamətdə çalışan praktik psixoloq psixokorreksiyanın psixoterapiya, sosial-psixoloji trenniq, autotrenniq, birbaşa hipnotik təlqin texnikasını, müştəriyə təlqinedici təsir üsullarını peşəkarcasına mənimsəmiş olmalıdır.

Praktik psixoloqun təhsil sistemində fəaliyyətinin mühüm istiqamətlərindən biri **psixoloji maarifləndirmədir.** Psixoloji maarifləndirmə yaşlıların və uşaqların psixoloji biliklərə yiyələnməsini nəzərdə tutur. Psixoloqun maarifləndirmə istiqamətində fəaliyyəti müxtəlif formalarda (mühazirə, söhbət, seminarlar, sərgilər, ədəbiyyatın seçilməsi və s.) ola bilər. Maarifləndirmə işinin əsas mahiyyəti insanın psixi inkişafı şərtləri və qanunauyğunluqları, psixologiya elminin müasir vəziyyəti ilə tanışlıqdan ibarətdir. Bu sahədə iş aparan psixoloq uşqlarda və valideyinlərdə psixoloji biliklərin praktik əhəmiyyəti, formalaşmaqda olan insana psixoloji yardımın faydası haqqında təsəvvürlər formalaşdırır, pedaqoji prosesdə uşaqların yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınmasının zəruriliyini əsaslandırır.

Təcrübi fəaliyyətdə psixoloq bir qayda olaraq psixoloji xidmətin adları qeyd olunan dörd istiqamətin hər biri ilə məşğul olur. Lakin bu istiqamətlərin hər biri konkret olaraq ayrı-ayrılıqda geniş və dərin, kifayət qədər yüksək xüsusi hazırlıq, vaxt, əhəmiyyətli peşəkarlıq təcrübəsi tələb edir. Bu sahədə tanınmış alim İ.V.Dubrovinanın fikrincə, praktik psixoloq əslində göstərilən dörd istiqamətin ən çoxu ikisi üzrə xüsusi ixtisas hazırlığı almaqla konkret ixtisaslaşmaya malik olmalıdır ki, bu da gələcəyin perspektividir.

Belə olarsa, gələcəkdə psixoloji xidmət sistemində dörd müxtəlif ixtisaslı mütəxəssislər–psixodiaqnostlar, məsləhətçilər, psoxoprifilaktiklər və psixokorrektorlar birlikdə iş aparmalı olacaqlar. Praktik psixoloji xidmət sahəsində çalışan psixoloqlarla bu səahədə fəaliyyət göstərən idarəetmə orqanlarının fəaliyyətində qarşılıqlı əlaqələrin yeni formalarının yaranması da gələcəkdə bir sistem şəklində qurulmalıdır. Yerlərdə, uşaq təlim-tərbiyə müəssisələrində iş aparan psixoloqlar öz iş təcrübələrini, əldə etdikləri nəticələri ümumiləşdirir, sistemləşmiş şəkildə tabe olduqları yuxarı idarəetmə orqanlarına təqdim edirlər. Bu orqanlar isə, öz növbəsində yerlərdə iş aparan praktik psixoloqlara zəruri təşkilati və elmi-metodiki köməkliklər göstərirlər.

Praktik psixoloq əsasən mərkəzi və ya yuxarı psixoloji xidmət orqanının təsdiq etdiyi proqramlar arasında öz işini qurmalıdır. Bu proqramlarda adətən praktik psixoloqun aparacağı işlərin növləri, onların məzmunu və həcmi, icrasına ayrılan vaxtın müddəti və s. öz əksini tapmalıdır.

Peşəkar fəaliyyət prosesində psixoloji xidmət sahəsinin işçiləri ilə təhsil sisteminin digər yarımstrukturları arasında müəyyən münasibətlər formalaşmışdır. Bu münasibətlər təhsil sisteminin yüksək icra orqanları tərəfindən təsdiq edilmiş “Təhsil sistemində psixoloji xidmət haqqında Əsasnamə” ilə tənzimlənir.

**Təhsil sistemində psixoloji xidmət** pedaqoji psixologiya elminin inkişaf və formalaşma dövrünü keçirən praktik sahələrdən biridir. Hal-hazırda pedaqoji psixologiya təhsildə psixoloji xidmət fəaliyyətinin tətbiqini konseptual yanaşma baxımından elmi-nəzəri əsaslarını müəyyənləşdirməklə yanaşı, onun səmərəli iş metodları ilə təmin edilməsini, **təhsil psixoloqlarının** hazırlanmasının elmi cəhətdən əsaslandırılmış praktik məzmununu və istiqamətlərini müəyyənləşdirmişdir. Təhsildə psixoloqun yerinin anlaşılmasına müasir dövrdə müxtəlif yanaşmalar olsa da, əslində

onun peşə xarakteristikasının səciyyəvi xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- psixoloq situasiyanın diaqnostudur. O, uşağın inkişaf yolunun müəyyən edilməsində yardımçı, onun fərdi xüsiyyətlərini nəzərə almaqla müvafiq proqramalrın seçilməsində xeyirxah məsləhətçidir;

- psixoloq – konfiliktoloq və psixoterapevtdir;

- psixoloq – uşağın inkişaf situasiyasının, bütövlükdə onun təhsilləndirici mühitinin layihəçisidir;

- psixoloq – müəssisənin təhsilləndirici mühitində əlaqələrin yaradılmasında cavabdeh şəxsdir;

- psixoloq uşaqların psixi sağlamlığının qorunub saxlanılması üçün cavabdeh şəxsdir;

- psixoloq idarəetmə üzrə məsləhətçi, məktəbin təhsil müəssisəsi kimi inkişafı üçün mütəxəssisdir.

### 1.1.4. Müasir təhsil konsepsiyasının aktual məsələləri

Sosial –mədəni fenomen olan təhsil prosesi şagirdlərin elmi biliklər, bacarıq və vərdişlər sisteminə yiyələnməsi, şəxsiyyətə məxsus keyfiyyətləri, dünyagörüşünü mənimsəməsi prosesidir. Təhsil milli sərvət, şəxsiyyətin, millətin, ölkənin inkişafına qoyulmuş əsaslı kapitaldır. Təhsil əvvəki nəsillərin qazandığı sosial əhəmiyyətli təcrübənin daimi olaraq gənc nəslə ötürülməsi üçün təşkil olunan və tənzimlənən ictimai proses və onun nəticəsidir. Təhsilə verilən tələblər bu prosesdə iştirak edən tərəflərin maraqlarını əks etdirir.

Hər bir dövlətin coğrafi, iqtisadi məkanı olduğu kimi, onun **təhsil məkanı** da vardır. Bu məkanda təhsil müəssisələri vasitəsilə gənc nəslin təhsilləndirilməsi, onların əməyə və həyata hazırlanması, müstəqil düşüncəli, humanist və yaradıcı insanın formalaşdıdrılması məqsədləri strateji məqsəd olaraq qarşıya qoyulur.

Müasir şəraitdə cəmiyyətin sosial-iqtisadi və elmi-texniki inkişafı istehsal fəaliyyətinin məzmununun və onun subyektləri arasında qarşılıqlı əlaqələrin sürətlə dəyişməsi ilə  xarakterizə olunur. Bu proses öz növbəsində, insanın müəyyən qədər bilik və bacarıqlar  alması istiqamətinə yönəlmiş təhsil növündən onun bir şəxsiyyət kimi, yaradıcı fəaliyyətin və davranışının subyekti kimi inkişaf etməsinə imkan verən təhsil növünə keçməsini  tələb edir. Yalnız şəxsiyyətə yönəlmiş təhsil insanın dinamik, dəyişən ictimai, iqtisadi və mədəni həyatın tələblərinə cavab verən bir şəxsiyyət kimi inkişaf etməsinə imkan yarada bilər.  Təhsil sisteminin qurulmasında tarixən bəşər cəmiyyətinin inkişafının sosial-mədəni,o cümlədən elmi-texniki meyarlar başlıca konseptual  ustanovkalar kimi  əsas götürülmüşdür.

**Sovet təhsil sisteminin** təşəkkül tapdığı ötən əsrin 20-30-cu illərində insanın cəmiyyətdə yeri və rolu, onun funksiya və öhdəlikləri, sosial orqanizm olan cəmiyyətə qoşulma xarakteri, elmi və təbii-elmi biliklərin  inkişaf səviyyəsi, elmi-texniki inqilabın naliyyətləri kimi amillər fərdi intelektual potensialının, biliklərinin və əqli inkişafının başlıca mənbəyi kimi qiymətləndirilirdi. Ötən əsrin 20-ci illərindən başlayaraq Almaniya və Fransanın təhsil sistemləri əsasında Sovet təhsil sisteminin  modeli yaradılmış və o  70 il ərzində Sovet İttifaqı adlanan geniş inzibati, siyasi və iqtisadi məkanda  marksizm-leninizm ideologiyasının aləti rolunu yerinə yetirməklə yanaşı, öz dövrü üçün xeyli müsbət baza, kadr potensialı və ənənələr yaratmışdır. Vahid Sovet məkanında olduğu 70 il ərzində Azərbaycanda da  bir neçə mərhələdə təhsil islahatları həyata keçirilmişdir.

1930/31-ci dərs ilində bütün respublikada ümumi icbari ibtidai təhsilin, şəhər və qəsəbələrdə isə 7-illik təhsilin həyata keçirilməsinə başlanılmış, 1958-ci ildə ümumi icbari 8-illik, 1972-ci ildə isə ümumi icbari orta təhsilin həyata keçirilməsinə start verilmişdir. Tam orta təhsilə keçid 70-ci illərin sonunda başa çatdırılmışdır. 1984-cü  ildə "Ümumtəhsil və peşə məktəbi islahatı" proqramı qəbul edilmiş,  təhsil sistemində struktur dəyişiklikləri

aparılmaqla 6 yaşdan sistematik məktəb təliminə keçilmiş, bununla da on bir illik icbari orta təhsilə keçid başlanılmışdır. 1984-cü il islahatı Sovet təhsil sisteminin həyata keçirdiyi son islahat kimi tarixə düşmüşdür.

Ənənəvi təhsil konsepsiyasında müəllim cəmiyyətin etibar etdiyi şəxs, peşəkar hazırlanmış mütəxəssis, öz fənninə aid bilikləri şagirdlərə çatdıran ziyalı kimi, şagird isə elmlərinə əsaslarını mənimsəməyə borclu olan icraçı kimi səciyyələndirilirdi. Avtoritar Sovet cəmiyyətində təhsilin əsas məzmunu şagirdlərin elm və istehsalata yönəldilməsinə xidmət edirdi.

Müasir dövrdə müstəqillik əldə etmiş respublikalarda sovet təhsil sisteminin bazasında yeni təhsil modelləri bərqərar olmuşdur. Təhsil sisteminə **kulturoloji yanaşma** dünyanın inkişaf etmiş bir çox ölkələrində strateji xətt kimi qəbul edilmişdir. Təhsil təcrübəsində humanistləşdirmə və humanitarlaşdırma meylləri get-gedə artır, təhsil mədəniyyətyönümlü xarakter kəsb etməyə başlayır. Bu tengensiya təhsildə elmi biliklərin rolu və əhəmiyyətini heç də azaltmır, əksinə təhsilin elmi məzmununu daha da dolğunlaşdırır və zənginləşdirir.

Mədəniyyət insanın həyatının fəlsəfi, hüquqi, elmi, estetik, mənəvi, dini və s. ictimai şüur formalarında əks olunur. Təhsilin mədəniyyətlə uzlaşdırılması məktəbdə şagirdin şəxsiyyət kimi mövqelərini məhkəmləndirməyə, ona şəxsiyyət yönümdən yanaşmağa istiqamətləndirilmişdir. Bu mövqe şagirdlərin maraq, meyl və qabiliyyətlərinin nəzərə alınması yolu ilə onlara öz şəxsi potensiallarını reallaşdırmaq imkanı yaradır. Hal-hazırda dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda təhsilin **şəxsiyyət və nəticə yönümlülüyü** strateji məqsəd olaraq qəbul olunmuşdur ki, bu prosesdə də müəllimin fəal rolu, formalaşdırıcı təsiri öz aktuallığını saxlayır. Müəllimin fəaliyyətinin münasibətlər potensialı (təfəkkür tərzi, əşya və hadisələrə münasibətlər sistemi, emosional mühakimələrinin çalarları, dili və ünsiyyət sistemi və s.) təlim-tərbiyə prosesində təsirli və həlledici əhəmiyyətli amil kimi qiymətləndirilir.

Təhsil sisteminə kulturoloji yanaşma konsepsiyasında müəllimlə şagird arasında tərbiyə məqsədlərinə xidmət edən **dialoji ünsiyyət** imkanları genişlənir. "Müəllim- şagird" dialoqunda iştirakçılar qarşılıqlı olaraq bir-birini tamamlayır. Əgər belə qarşılıqlı anlaşma yoxdursa, onda biz bu prosesi pedaqoji proses yox, sərt hərbi təlim adlandıra bilərik.

Bu gün Azərbaycanda totalitar və avtoritar sistem demokratik cəmiyyətlə əvəz olunmuş, təhsil sistemi inzibati buxovlardan azad olmuşdur. Yeni pedaqoji strategiya və taktika, konsepsual-strateji məqsədlər müəyyənləşdirilmiş, beynəlxalq aləmə inteqrasiya prosesləri güclənmişdir. Təlim-tərbiyə prosesində yeni mütərəqqi **pedaqoji texnologiyalar**, inkişaf və diaqnostika texnologiyaları bərqərar olmuşdur. Təhsil sistemi yeni **innovativ** metod və vasitələrin öyrənilməsi üçün eksperimental meydançaya çevrilmişdir. Təhsil sisteminin demokratik dəyərlər üzərində qurulması alternativ məktəblərin, yeni tipli təlim-tərbiyə müəssisələrin yaranmasına gətirib çıxarmışdır. Hal-hazırda Azərbaycanda 109 min 925 uşağın cəlb olunduğu 1758 məktəbəqədər tərbiyə müəssisəsi, 1 mln. 600 min şagirddin təhsil aldığı 4542 orta ümümtəhsil məktəbi fəaliyyət göstərir. 13 özəl ümumtəhsil məktəbi yaradılmışdır. Respublikamızda 59 orta ixtisas məktəbi vardır ki, onlardan da 4-ü özəl statusa malikdir. Müstəqillik illərində ali təhsil müəssisələrinin sayı təxminən 2 dəfə artaraq hal-hazırda 47-yə çatmışdır. Onlardan 27-si dövlət tabeçiliyindədir. 15 ali məktəb özəl, 5-i isə xüsusi təyinat statusu ilə fəaliyyət göstərir. İndi respublikada 110 texniki peşə liseyi vardır. Bu müəssisələrdə 22 min 532 nəfər tələbə təhsil alır.

Azərbaycan respublikası müstaqillik əldə etdikdən sonra bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də köklü və sürətli islahatlara başlamış, cəmiyyətin yeni cifarişlərinin, ehtiyacları və təlabatlarının ödənilməsi məqsədilə çoxlu sayda yeni tipli təhsil müəssisələri-liseylər, gimnaziyalar, kolleclər, seminariyalar, mərkəzlər, müasir təhsil kompleksləri və s. yaradılmışdır.

Azərbaycanda milli təhsilin son məqsədi öz varlığında yüksək praktik hazırlığı, mədəniyyəti, mütərəqqi dünyagörüşünü birləşdirən, xalqının milli-mənəvi dəyərlərinə dərindən yiyələnən, soykökünə, milli adət-ənənələrinə bağlı vətənpərvər, məsuliyyətli, əməkdaşlığa qabil, dövlət müstəqilliyinə sədaqətli vətənpərvər yurddaşların yetişdirlməsindən ibarətdir.

Cəmiyyətin **sürətlə informasiyalaşması,** demokratikləşməsi, təhsilin rolunun artması Avropa və dünya təhsil məkanına inteqrasiyası Azərbaycanın təhsil sistemində əsaslı islahatların aparılması zərurətini yaratmışdır.

1999-cu ildə Azərbaycanda "Təhsil İslahatı haqqında Dövlət Proqramı" qəbul edilmişdir. XXI əsrin təhsil sisteminin yaradilmasına xidmət edən bu strateji sənəd yeni əsrdə Azərbaycanda təhsili üstün inkişaf etdirilən fəaliyyət sahəsi elan etmiş, perspektiv vəzifələri müəyyən etmişdir. Bu mühüm dövlət sənədində Azərbaycanda təhsil islahatının üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

**Birinci mərhələ** hazırlıq mərhələsi adlanır və bu bir il müddətində-1999-cu ildə Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiyada müəyyən olunmuş təhsilalma hüququnu təmin edən yeni təhsil sisteminin hüquqi-normativ bazasının yaradılmasını nəzərdə tutur.

**İkinci mərhələdə** (2000-2003-cü illər) təhsil sahəsinin sosial-iqtisadi sabitliyini təmin edən təxirəsalınmaz məsələlərin həlli, həmçinin islahatın aparılması üçün kadr, maliyyə, maddi-texniki təminatın, yeni idarəetmə modelinin yaradılmasının təmin edilməsi nəzərdə tutulmuşdur.

**Üçüncü mərhələ** 2004-cü ildən sonrakı uzunmüddətli dövr ərzində aparılacaq köklü islahat prosesini əhatə edir.

İslahat Proqramında konkret olaraq 128 tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Ötən illər ərzində İslahatın həyata keçirilməsinin hüquqi-normativ bazası yaradılmış, 2004-cü ildən etibarən isə köklü islahatlar mərhələsi başlanmışdır. Ötən qısa müddət ərzində təhsilin məzmunuda əsaslı dəyişikliklərin edilməsi sahəsində bir sıra uğurlu addımlar atılmış,

Azərbaycan təhsili tarixində ilk dəfə olaraq ümumi orta təhsilin Dövlət Standartları müəyyənləşdirilmiş, 2000-ci ildən etibarən Bazis tədris planlarının tətbiqinə başlanılmışdır.

Bazis təhsil planlarına uyğun olaraq yeni tədris proqramları hazırlanmış, orjinal dərsliklərin yaradılması sahəsində uğurlu addımlar atılmış, orta ümumtəhsil məktəbləri şagirdlərinin pulsuz dərsliklərlə təmin edilməsi sahəsində Dövlət proqramı uğurla yerinə yetirilmişdir.

Təhsil sahəsində islahat prosesinin məqsədi məktəbəqədər, ümumi təhsil, peşə-ixtisas təhsili, ali təhsildən sonrakı təhsilə uyğun təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq hüquqi-normativ bazanı yaratmaqdan, Azərbaycan Respublikasının Konstitutsiyasında, Təhsil "Qanunu"nda təsbit olunmuş cəmiyyətin demokratikləşməsinə əsaslanan dövlət təhsil siyasətini həyata keçirməkdən ibarətdir. İslahatın bütün mərhələləri şəxsiyyəti diqqət mərkəzində saxlamaqla, onun yüksək səviyyədə təhsil almasını təmin etməyi nəzərdə tutur. Təhsil sistemini qeyd olunan tələblərə uyğun qurmaq üçün islahatın aşağıdakı əsas **prinsipləri** müəyyən edilmişdir:

- təhsilin üstün inkişaf etdirilən strateji sahə olduğunu təsbit etməyə imkan verən mükəmməl bazanın yaradılması;
- təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi, inteqrasiyası, diferensiallaşdırılması, humanitarlaşdırılması, fərdiləşdirilməsi və s. kimi müasir, sivil prinsiplərin reallaşmasına nail olunması;
- islahat prosesinin milli və ümumbəşəri dəyərlərə əsaslanması, təkamülə üstünlük verilməsi, beynəlxalq təcrübənin milli zəmində tətbiqinə nail olunması;
- islahatın humanitar xarakterli olması,şəxsiyyətin hüquq və azadlıqlarının təmin edilməsi;
- təhsil sisteminin mütənasib inkişafının təmin edilməsi, onun əhatə dairəsinin genişləndirilməsi, rəqabət və keyfiyyətliliyin yüksəldilməsi;

- təhsil sisteminin yeni idarəetmə, iqtisadi-maliyyə modelinə keçilməsi və s.

Bütün bu prinsiplərin həyata keçirilməsi nəticə etibarilə müstəqil Azərbaycanın gələcəyini təmin edəcək vətənpərvər Azərbaycan gəncliyinin yetişdirilməsinə xidmət etməlidir.

İlk dəfə 1995/96-cı dərs ilindən respublikamızda ümumtəhsil məktəblərinin I-IV sinif şagirdlərinin dərsliklərlə pulsuz təminatına başlanılmış və 2005-2006-cı tədris ilində bu proses tam başa çatdırılmışdır.

İslahat proqramının tələblərinə uyğun olaraq 2006-cı ildə "Təhsil sisteminin informasiyalaşdırılması və kompyuterləşdirilməsi Proqramı" qəbul edilmişdir və bu proqram hal-hazırda uğurla yerinə yetirilir. Təhsil müəssisələrində lokal kompyuter şəbəkələri qurulur, "İnternet"ə çıxış təmin olunur, elektron kitabxanalar yaradılır.

Respublikada müəllim-şagird əməkdaşlığı müstəvisində qurulan şəxsiyyət və nəticəyönümlü təhsil modelinin qurulması istiqamatində səylər davam etdirilir, tədrisi demokratik əsaslar üzərində qurmaq, onun diferensiallığını təmin etmək, istedad amilinin ön plana çəkilməsi təhsil sistemində psixoloji xidmət sisteminin qurulması istiqamətində əməli tədbirlər davam etdirilir.

İlk dəfə olaraq 1998-1999-cu tədris ilindən başlayaraq respublikamızda orta məktəb məzunlarının attestasiyasının yeni forması-test üsulu ilə buraxılış imtahanlarının keçirilməsinə start verilmişdir. Orta məktəb şagirdlərinin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsinin "9" bal sisteminə əsaslanan yeni meyarlarının tətbiqi üzrə eksperimentlərə başlanılmışdır. Həmin dövrdən ali məktəb tələbələrinin biliyinin qiymətləndirilməsinin çoxballı sisteminin tətbiqi üzrə bəzi ali məktəblərdə eksperimentlərin keçirilməsinə başlamışdır və bu proses davam etdirilir.

Azərbaycan Respublikasının prezidentinin 13 iyun 2000-ci il tarixli **"Təhsil sisteminin təkmilləşdirilməsi haqqinda"** fərmanı ilə ali və orta ixtisas təhsili sistemində struktur və status dəyişiklikləri həyata keçirilmiş, yeni

tipli ali məktəb –Azərbaycan Müəllimlər İnstitutu və onun bölgə filialları, həmçinin Təhsil Problemləri İnstitutu adlı yeni statuslu elmi-tədqiqat mərkəzi yaradılmışdır. Respublikada Ali Təhsil sisteminin **Boloniya prosesinə** inteqrasiyası istiqamətində ciddi addımlar atılmış, 2005-ci ilin may ayından Azərbaycan Boloniya prosesinə qoşulmuş, 2008-ci ildən etibarən həmin sistemə tam şəkildə keçidin təmin olunması nəzərdə tutulmuşdur. Bununla əlaqədar Avropanın norma və standartlarına müvafiq olaraq ali təhsil sahəsində yeni qanunvericilik sənədlərinin hazırlanması və qəbul edilməsi, nəzərdə tutulmuşdur. 2007-ci ildə peşə-ixtisas təhsilinin ayrı-ayrı sahələri və pillələri üzrə Milli Konsepsiya və Strategiya hazırlanmışdır.

İslahat Proqramına uyğun olaraq peşə-ixtisas təhsili pilləsi üçün kadr hazırlığı və təminatı sahəsində yeni təsnifatlar hazırlanmış, rəhbər işçilərin hazırlanması mexanizmi, müəllimlərin attestasiyasının yeni qaydaları, ixtisasartırma və yenidənhazırlanma təhsilinin müasir tələblərə uyğun yeni modeli hazırlanmış və təsdiq olunmuşdur. 2008-ci ildə isə çoxdan gözlənilən yeni **Təhsil "Qanunu"un** qəbul olunması təhsil sahəsində mütərəqqi yeniliklərin həyata keçirilməsinə hüquqi zəmin yaratmışdır.

Son 8 ildə pedaqoji kadrların fasiləsiz təhsilinin yeni modelinə keçidlə bağlı bir sıra dövlət sənədləri-"Pedaqoji kadrların fasiləsiz təhsili modeli", "Diplomdansonrakı təhsil", "Distant təhsil" konsepsiyaları, "İxtisasartırma və yenidənhazırlanma təhsilinin təşkili" və "Dayaq məntəqələri"nin mexanizmləri işlənilib hazırlanmış, onların tətbiqinə başlanılmışdır.

Təhsil İslahatı Proqramının həyata keçirilməsindən ötən 8 il ərzində Azərbaycan Təhsil sisteminin dünya təhsilinin mütərəqqi formalarına inteqrasiyası genişlənmişdir. Azərbaycan bir sıra xarici ölkələrlə şagird, tələbə və magistr mübadiləsi üzrə Beynəlxalq Konvensiyalara, YUNESKO-nun "Təhsil hamı üçün" Proqramına qoşulmuş, 30-dan artıq dövlətlə, habelə Avropa Təhsil fondu ilə sıx əməkdaşlıq əlaqələri yaratmışdır.

2004-cü ildən başlayaraq respublikanın ayrı-ayrı rayon və şəhərlərində istedadlı uşaqlar üçün yeni tipli, təhsil müəssisələrinin yaradılması nəzərdə tutulmuşdur.

Respublikada ilk dəfə olaraq “Milli tərbiyə Proqramı” hazırlanmış, 1996-cı ildə prezidentin sərəncamı ilə Gənc istedadların axtarılıb üzə çıxarılması məqsədilə “Qızıl Kitab” təsis edilmişdir. Respublikamızda istedadlı uşaq, yeniyetmə və gənclərə qayğı dövlət siyasətinin tərkib hissəsinə çevrilmiş, respublika prezidentinin 17 aprel 2006-cı il tarixli sərəncamı ilə Xüsusi istedada malik olan uşaqların inkişafı üzrə 2006-2010-cu illəri əhatə edən Dövlət Proqramı qəbul edilmişdir.

Təhsil sahəsində aparılan çoxşaxəli islahatların əsas məqsədi XXI əsrdə ölkənin sosial, siyasi, iqtisadi və mədəni tələbatlarını təmin etməyə qadir olan hərtərəfli hazırlıqlı, yüksək elmi potensiala malik vətəndaş-şəxsiyyətlərin yetişdirilməsidir. Respublika hökuməti bu sahənin inkişafını təmin etmək məqsədilə ABŞ, İngiltərə,Yaponiya, Çin, Almaniya, Rusiya, Hollandiya kimi inkişaf etmiş ölkələrlə, Dünya Bankı, YUNİSEF, SOROS Fondu kimi təşkilatlarla iş birliyi yaradılmasına nail olmuşdur.

Respublikada təhsil islahatı təkamül prinsipi əsasında həyata keçirilir. Hal-hazırda dövlətimizin və dövlətçiliyimizin maraqlarına cavab verən müsbət xarici təcrübələrin öyrənilməsi, yeni mütərəqqi texnologiyaların tətbiqi dinamik şəkildə davam etdirilir. Son iki ildə, 2007 və 2008-ci illərdə təhsilin maddi texniki bazasının əsaslı şəkildə yenidən qurulması prosesi geniş vüsət almışdır. Bu qısa dövrdə 1200-dən artıq yeni məktəb binası tikilmiş, müasir inventar və avadanlıqlarla təchiz olunmuşdur.

2006-cı ildə “Azərbaycan respublikasında ümumi təhsilin **Milli kurrikulumu**” layihəsi hazırlanmış və geniş müzakirədən sonar qəbul edilmişdir. Bu sənəd ümumi təhsilin konseptual xarakterli çərçivə sənədi olub, ümumi təhsil üzrə məzmun standartlarını və təlim nəticələrini, pedaqoji prosesin təşkili, şagird naliyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə

əsas prinsipləri, fənn proqramlarının strukturunu əhatə edir. **Milli kurrikulum** layihəsində orta təhsilin hər üç pilləsində təhsilin məqsədi, ümumi nəticələri, hər bir pillədə tədris olunan fənlər, onların tədrisi varisliyinin əsaslandırılması, hər bir konkret fənn üzrə təlim nəticələrinin qiymətləndirilməsi nəzərdə tutulmuşdur.

"Milli Kurrikulum ictimai-siyasi, mədəni və sosial həyatın qloballaşdığı və universallaşdığı, informasiya-kommunikasiya texnologiyalarının rolunun artdığı, rəqabətin gücləndiyi müasir dövrdə hər bir şəxsin istedad və qabiliyyətinin müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi olan insanın formalaşdırılmasına, problemlərin həlli və müstəqil qərarlar qəbul etməsi üçün onun zəruri təhsil səviyyəsi və bacarıqlara malik olmasına yönəlmişdir". Respublikamızın ümumi və orta təhsil sistemində 2008-2009-cu tədris ilində Milli Kurrikulumların tətbiqinə başlanılması nəzərdə tutulmuşdur.

Təhsil sistemimizin prioritet istiqamətlərindən biri də fasiləsiz təhsilə keçidin davam etdirilməsidir. Müasir dövrdə fasiləsiz təhsil peşə təhsilinə yiyələnmə, ümumi mədəni səviyyənin, əxlaqi və vətəndaş məsuliyyətinin yüksəldilməsi sistemi kimi başa düşülür. Bununla əlaqədar olaraq fasiləsiz təhsilin qarşısında bir-biri ilə sıx əlaqədə olan üç başlıca vəzifə durur:

- ümumi mədəni səviyyənin yüksəldilməsi;
- kadr potensialının yaradılması;
- kadr potensialının müasirləşdirilməsi.

Təhsil ictimai funksiya kimi cəmiyyətdə baş verən dəyişiklikləri əks etdirir. Təhsil sisteminin inkişaf səviyyəsi cəmiyyətin özünün inkişaf səviyyəsinin izi və ya nəticəsidir. Burada həm də əks əlaqə mövcuddur. Belə ki, təhsil sistemi cəmiyyətin özünə və onun inkişafına təsir göstərə, onun inkişafını ləngidə və ya sürətləndirə bilər. Bu mənada təhsildəki dəyişikliklər cəmiyyətin gələcək inkişafının nəticəsi deyil, həm də onun zəruri şərtidir.

Bu artıq çoxdan bəllidir ki, yüksək peşəkarlığa və təhsilə malik kadrlar olmadan cəmiyyətdə ictimai-iqtisadi və mədəni tərəqqi mümkün deyildir. Ona görə də, cəmiyyətdə olduğu kimi, təhsildə də innovasiyalar cəmiyyətin özünün və ona məxsus təhsil sisteminin yenidən qurulmasının həm nəticəsi, həm də səmərəli vasitəsidir. Müasir qloballaşan dünyada bütün ölkələr üçün təhsil milli məsələdir və onun inkişafında insan amilinin rolu daha ifadəli şəkil almışdır. İndi təhsil hər bir dövlət üçün səmərəli iqtisadi inkişafın və milli-mənəvi tərəqqinin əhəmiyyətli amillərindən biri kimi nəzərdən keçirilir. Təhsil dolayı yolla istehsalın inkişaf səviyyəsini, əmək məhsuldarlığının səmərəliliyini təmin edir, əhalinin fərdi həyat səviyyəsinin yüksəldilməsinə təminat yaradır.

Bu gün dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinin təhsil sferasında öz istiqamətinə və əhəmiyyətinə görə müxtəlif xarakterli çoxsaylı innovasiyalar həyata keçirilir. Kiçik və ya böyük miqyaslı dövlət islahatları, təhsilin məzmununun, onun təşkili formalarının, metod və texnologiyalarının yeniləşdirilməsi və zənginləşdirilməsi istiqamətində mütərəqqi meyllər nəzərə çarpır. Bu dəyişikliklər təhsil sisteminin aşağıdakı əsas sahələrinə yönəlmişdir:

- sistemin maliyyələşdirilməsi və ictimai vəziyyətinin yaxşılaşdırılmasına;
- təhsil sisteminin strukturuna;
-təhsilin məzmununun (tədris planı, proqramları və dərsliklərin) yeniləşdirilməsinə;
- məktəbin daxili fəaliyyətinin təşkilinə;
- “müəllim –şagird” münasibətlərinə;
- təlimin metodlarına;
- təhsil müəssisələrinin avadanlıqlaşdırılması və təhsildə informasiya texnologiyalarından istifadəyə.

Təhsil sistemində həyata keçirilən islahatlarla **pedaqoji innovasiyalar** arasında müəyyən fərqlər vardır. İslahat dövlət hakimiyyəti orqanları tərəfindən həyata keçirildiyi halda, pedaqoji innovasiyalar dövlət hakimiyyəti

orqanları tərəfindən deyil, elm və təhsil sistemi təşkilatlarının işçiləri tərəfindən tətbiq olunur.

Təhsil sistemində baş verən bütün dəyişiklikləri innovasiyalar adlandırmaq olmaz. Məsələn, cəmiyyətdə təhsilin ictimai vəziyyətinin, onun statusunun dəyişdirilməsini, bu sahəyə yönəldilən maliyyə vasitələrinin həcminin artması kimi yeniliklər pedaqoji innovasiya deyil, cəmiyyətdə baş verən sosial-siyasi islahatların nəticəsidir. Yeni təhsil müəssisələrinin tikilməsi, inventar və avadanlıqların müasirləşdirilməsi, kompüterləşmə və s. kimi dəyişikliklər də pedaqoji innovasiya yox, ictimai həyatda baş verən dəyişikliklərin nəticəsidir. Beləliklə, pedaqoji innovasiyalar dedikdə;

- təhsilin məzmununda baş verən dəyişikliklər;
- məktəbin həyatının daxili təşkilindəki yeniliklər;
- "müəllim"-"şagird" münasibətlərində baş verən dəyişikliklər;
- təlim metodlarında yeniləşmə nəzərdə tutulur.

Pedaqoji innovasiyalar təhsil islahatının həyata keçirilməsi üçün zəruri şərtdir. İnnovasiya pedaqoji ictimaiyyətin fəallığının istiqamətini müəyyənləşdirir, onlarda yeni pedaqoji şüurunun və təfəkkürün formalaşmasına meydan açır. İnnovasiyalar cəmiyyətin, o cümlədən təhsil sisteminin demokratikcəsinə yeniləşməsinin mühüm şərtlərindən biridir.

## I fəslə aid suallar və tapşırıqlar

*1. Təhsil sistemində psixoloji xidmətin mövzusu nədən ibarətdir? O, digər psixoloji xidmət sahələrindən hansı xüsusiyyətlərinə görə fərqlənir?*

*2. Təhsil sistemində psixoloji xidmətin tətbiqi zəruriliyi hansı amillərlə şərtlənirr?*

*3. Təhsil sistemində psixoloji xidmətin başlıca məqsədi nədən ibarətdir?*

*4. Psixoloji xidmətin ümumi və xüsusi vəzifələrini sadalayın.*

*5. Təhsildə psixoloji xidmətin təşkili üçün zəruri olan ümumi və konkret prinsiplər*

*hansılardır?*

*6.Təhsildə psixoloji xidmətin aktual, perspektiv və tətbiqi istiqamətləri hansı arqumentlərə əsaslanır?*

*7. Praktik psixoloji xidmətin konkret sahələri hansılardlr?*

*8. Sovet təhsil sisteminin inkişaf tarixinin qısa təhlilini verin.*

*9. Müasir Azərbaycan təhsilində baş verən islahatların və innovasiya proseslərinin əsas məzmununu söyləyin.*

## II fəsil

## Təhsil sistemində psixoloji xidmətin tarixi və müasir problemləri

### 1.2.1. Uzaq xarici ölkələrdə psixoloji xidmətin meydana gəlməsi tarixindən

Dünya təhsil sistemində psixoloji xidmətin meydana gəlməsindən 100 ildən artıq vaxt keçir. ABŞ, Fransa, Çexiya, Macarıstan, Norveç, İspaniya kimi uzaq xarici ölkələrdə təhsil sistemində psixoloji xidmət uzun onilliklər boyudur ki, uğurla həyata keçirilir.

Praqktik uşaq psixologiyasının meydana gəlməsi və inkişafı XIX əsrin sonu – XX əsrin əvvəllərində Amerikan psixoloqu **Stenli Xoll** tərəfindən uşaqlar haqqında elm olan **pedologiyanın** yaradılması ilə sıx bağlıdır. Xoll da C.Kettel kimi Alman psixoloqu, 1879-cu ildə dünyada ilk eksperimental psixologiya laboratoriyasının əsasını qoymuş Vilhelm Vundun tələbəsi olmuş və bir neçə il onun yanında təcrübə keçmişdir. Öz vətəninə qayıtdıqdan sonra Xoll məktəb həyatının praktik problemləri ilə birbaşa bağlı olan uşaq psixologiyası məsələlərinin öyrənilməsinə xüsusi önəm verməyə başlamışdır. Bunun nəticəsi olaraq o, 1883-cü ildə ABŞ-dakı Baltimor universitetində Amerikada ilk eksperimental laboratoriya təşkil edərək uşaq və yeniyetmələrin inkişafı məsələlərini eksperimental yolla öyrənməyə başlamışdır. Stenli Xoll həm də Amerikada yaş psixologiyasına həsr olunmuş ilk jurnalların əsasını qoymuşdur. 1891-ci ildə onun redaktorluğu ilə **“Pedaqoji seminar və genetik psixologiya”**, 1910-cu ildə isə **“Pedaqoji psixologiya”** jurnalları nəşr olunmağa başlamışdır.

Stenli Xoll öz laboratoriyasında yeniyetmələri, gənc oğlan və qızları hazırladığı xüsusi sorğular vasitəsilə tədqiq edir, gənclərin psixikasını müxtəlif cəhətlərdən öyrənirdi. Çox keçmədən onun tərtib etdiyi sorğu anketləri məzmunca genişlənərək müəllim və valideynləri də əhatə etməyə başlamışdı.

Stenli Xoll anketlərə verilmiş cavabları statistik təhlil edərək müxtəlif yaşlı uşaqların psixoloji xüsusiyyətlərinin tam mənzərəsi haqqında elmi materiallar əldə etməyə nail olmuşdur. O, bu materialları həm yeniyetmələrin, həm də yaşlıların problemləri mövqeyindən təhlil edərək 1904-cü ildə "**Gənclik**", 1911-ci ildə isə **"Tərbiyənin problemləri"** adlı əsərlərini yazmışdır. S.Xoll həm də vaxtıilə uşaqlar haqqında kompleks elm hesab edilən pedologiyanın da banisidir. O, pedosentrizm mövqeyindən çıxış edərək qeyd edirdi ki, uşaq-psixoloq, pedaqoq, bioloq, pediatr, antropoloq, sosioloq və bir sıra digər mütəxəssislərin tədqiqatçı maraqlarının mərkəzi obyektidir. Adları qeyd olunan elmlərin hər birindən uşağa aid olan hissələr ayrılaraq pedologiyaya daxil olur. Beləliklə, S.Xollun fikrincə, pedologiya uşağın inkişafının tədqiqi ilə bağlı bütün bilik sahələrini özündə birləşdirir. Onun pedoloji konsepsiyası uzun illər boyu yenidən müzakirə predmeti olmasına baxmayaraq, bu elm tezliklə bütün dünyada məşhurlaşmış və demək olar ki, XX əsrin ortalarına qədər öz mövqeyini qoruyub saxlaya bilmişdir.

Pedologiyanın geniş nüfuz qazanmasının başlıca səbəbi onun pedaqogika və psixologiya elmlərinin həyati, praktik ehtiyaclarına yönəlmiş olması idi. Doğrudan da, real pedaqoji təcrübədə müəllim və tərbiyəçilər uşaqların sağlamlığı, onların psixi keyfiyyətləri, sosial statusu, valideyinlərin təhsili və s. kimi kompleks problemlərlə qarşılaşırlar. Pedologiya bu problemlərə kompleks şəkildə yanaşaraq, onların həllinə cəhd göstərir. Ona görə də müasir dövrdə bir sıra psixoloqlar pedologiyanı **praktik uşaq psixologiyasının** sələfi hesab edirlər.

S. Xoll belə hesab edirdi ki, pedologiyanın məqsədlərindən biri müəllimlər və valideyinlər üçün uşaqların təlimi və tərbiyəsi ilə bağlı tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində pedologiyanın bir elm kimi formalaşmasında həkimlər və bioloqlar da xüsusi rol oynamışlar. Belə ki,

həmin dövrdə bu elmlərin uşaqların öyrənilməsi sahəsində təcrübəsi və xeyli obyektiv metodları olduğu halda, psixologiyada hələlik belə metodlar mövcud deyildi. Lakin çox keçmədən, XX əsrin əvvəllərindən etibarən pedologiya aydın ifadəli psixoloji istiqamət almağa başladı. Pedologiyanın məşhurlaşması yalnız Amerikada deyil, həm də Avropada E.Meyman, D.Selli, V.Ştern, E. Klapared və b. məşhur alimlərin sayəsində kütləvi pedoloji hərəkatın yaranmasına gətirib çıxarmış oldu. D.Sellinin 1894-cü ildə **"Pedaqoji psixologiya"**, 1895-ci ildə isə **"Uşaqlığın psoxologiyasına dair oçerklər"** kitablarının çap olunması psixoloji ideyaların təhsil müəssisələrinə nüfuz etməsinə, tədris proqramlarının qismən dəyişdirilməsinə və pedaqoqların uşaqlarla ünsiyyət tərzində dəyişiliklərə gətirib çıxardı. D.Cellinin davamçısı M.Montual uşaqların inkişafına yönəlmiş çalışmalar sistemini işləyib hazırladı.

Alman psixoloqu E.Meyman Hadenburq universitetində uşaqların psixi inkişafını tədqiq etmək üçün psixologiya laboratoriyası yaratdı. O, pedoloji problemlərə həsr olunmuş **"Pedaqoji psixologiyaya dair jurnal"** adlı ilk xüsusi jurnalın təsisçisi idi. E.Meyman əsas diqqətini uşaq psixologiyası və pedologiyanın tətbiqi problemlərinin öyrənilməsinə yönəltmişdi. O, belə hesab edirdi ki, pedologiyanın ən mühüm vəzifəsi uşaqların təliminin metodoloji əsaslarının işlənib hazırlanmasından ibarət olmalıdır. E.Meyman 1907-ci ildə **"Eksperimental pedaqogikaya dair mühazirələr"** adlı üçcildlik əsərini nəşr etdirdi və bununla da öz növbəsində pedaqoji və praktik psixologiyanın ensiklopediyası kimi dəyərləndirilən orijinal əsərini pedaqoji ictimaiyyətə təqdim etmiş oldu. Bu əsərində o, belə bir mövqedən çıxış edirdi ki, pedologiya yalnız psixi inkişafın yaş xüsusiyyətlərini və mərhələlərini öyrənməməli,həm də fərdi inkişafın variantlarını tədqiq etməli, onların diaqnostokasını keçirməlidir.

E.Meyman yaratdığı laboratoriyanın nəzdində eksperimental məktəb

təşkil etmiş və bu məktəb 20 ildən artıq fəaliyyət göstərmişdir. Bu məktəbdə müxtəlif tədris proqramları sınaqdan keçirilir, ilkin diaqnostika əsasında uşaqların seçilməsinin müxtəlif üsulları tədqiq edilirdi.

Praktik uşaq psixologiyasının inkişafında müstəsna xidmətləri olan alimlərdən biri İsveçrə psixoloqu **E.Klanared** olmuşdur. O, Cenevrədə J.J.Russo adına Pedaqoji İnstitutda **tətbiqi psixologiya assosiasiyasının** əsasını qoymuşdur. Sonralar bu qurum uşaq psixologiyası sahəsində eksperimental tədqiqatların beynəlxalq mərkəzinə çevrilmişdir.

Uşaq psixologiyasının öyrəndiyi problemlərin müxtəlifliyini nəzərə alan Klapared bu elmi tətbiqi və nəzəri olmaqla iki hissəyə ayırmağı təklif edirdi. O, belə hesab edirdi ki, **nəzəri uşaq psixologiyasının** vəzifəsi uşaqların psixi inkişafının mərhələlərini və qanunlarını tədqiq etməkdən ibarət olmalıdır. **Tətbiqi uşaq psixologiyası** isə öz növbəsində psixodiaqnostika və psixotexnikaya ayrılmalıdır. **Psixodiaqnostika** uşaqların psixi inkişafını ölçməklə diaqnostika məqsədinə xidmət etməli, psixotexnika isə müəyyən yaş dövrünə adekvat olan təlim və tərbiyə metodlarının işlənilib hazırlanmasını həyata keçirməlidir. Beləliklə, Klapared psixologiya elminin müstəqil sahəsi kimi praktik uşaq psixologiyasının əsasını qoymuş oldu.

Praktik uşaq psixologiyasının və pedologiyanın inkişafı uşaqların psixi inkişafının yeni, obyektiv metodlarının işlənilməsini tələb edirdi. Bu baxımdan psixi keyfiyyətələrin yeni üsullarla ölçülməsi sahəsində ilk axtarışlar ingilis psixoloq və antropoloqu **Frensis Haltona (1822-1911)** məxsusdur. Eksperimental psixoloji tədqiqatlarla məşğul olan Halton əsas diqqətini bütün fərdlər üçün ümumi olan qanunların müəyyənləşdirilməsinə, müxtəlif adamlarda onların variativliyinin öyrənilməsinə yönəltmişdir. O, bu variativliyi öyrənmək üçün bir sıra xüsusi metodikalar kəşf etdi ki, bunlar da psixologiyanın yeni və daha geniş bir sahəsinin-**deferensial psixologiyanın** mənbəyini yaratmış oldu. Sonralar elmin bu sahəsi

müstəqil nəzəri və praktik əhəmiyyətli bilik sahəsinə çevrildi və psixologiyada yeni riyazı və statistik metodların tətbiqi genişlənməyə başladı.

Əqli qabiliyyətlərin mənşəyi məsələlərini öyrənmək sahəsində xüsusi əmək sərf edən Halton həm də **bioqrafik** və **anket** metodlarının tətbiqinə də xüsusi əhəmiyyət verirdi.

İstedad testlərinin hazırlanması və bu sahədə tədqiqatların aparılmasında da F. Halton çox böyük rol oynamışdır. 1869-cu ildə yazdığı **“Dahiliyin irsiliyi”**, 1874-cü ildə çap olunmuş **“İngiltərənin elm adamları: onların təbiəti və tərbiyəsi”**, 1883-cü ildə çap olunmuş **“İnsan qabiliyyətləri haqqında tədqiqatlar və onların inkişafı”** kimi fundamental tədqiqatlarında F.Halton bir çox novator ideyalar irəli sürmüşdür. Psixologiyada ilk dəfə olaraq o, fərdi fərqlərin ölçülməsi texnikasını yaratmış, statistik metodla onun təhlilini vermişdir.

Qabiliyyətlər probleminin öyrənilməsinə ümumbioloji aspektdən yanaşan Halton belə qənaətə gəlmişdir ki, insanlar arasındakı fərdi fərqləri yalnız və yalnız irsiyyət haqqındakı təlim kateqoriyaları əsasında izah etmək olar. İngiltərənin görkəmli adamlarının həyatına aid zəngin bioqrafik material toplayan, onları öyrənən və statistik təhlil edən Halton qeyd etmişdir ki, qabiliyyət və istedadın verilməsində qohumluq əlaqələri dərəcəsinin və onun xarakterinin böyük rolu vardır. O yazmışdır: “İstedadlı olmaq şansı olan 4 uşaqdan yalnız biri istedadlı ola bilər”.

Bu sahədəki tədqiqatlarından F.Haltonun əldə etdiyi qənaətlərdən biri ondan ibarət idi ki, o, it və at cinslərinin yeni növlərinin yaradılamasının mümkün olduğu kimi, bir neçə nəsil keçdikdən sonra müvafiq nikahlar əsasında insan “sort”unun da yaxşılaşdırılmasının mümkünlüyü fikrini irəli sürmüşdür. Haltonun həyat idealı “supermen”–yüksək istedadlı, güclü şəxsiyyət idi. Uzunmüddətli araşdırmalardan sonra Halton bu qənaətə gəldi ki, elmi fəaliyyətdə qabiliyyətlərin inkişafının həlledici amili **irsiyyətdir**.

Xarici amillər və tərbiyə burada əhəmiyyətsizdir və bəzən isə mənfi təsirə malikdir. Sonrakı tədqiqatlarında anketləşdirmə yolu ilə fərdi fərqləri öyrənmək məqsədilə Halton eksperiment metodunun tətbiqinə başladı. 1884-cü ildə o, Londonda beynəlxalq səpgidə xüsusi eksperimental laboratoriya təşkil etdi. Onun vasitəsilə 9 mindən artıq adamın fiziki (boy, çəki) göstəriciləri ilə yanaşı, psixi keyfiyyətləri (həssaslığın müxtəlif növləri, qıcığa reaksiya müddəti və s.) ölçülmüşdür. Halton müxtəlif əlamətlər üzrə diaqnostikanın çoxsaylı konkret metodlarının və onlar arasındakı korrelyasıyanın (asılılığın) müəllifidir. Bu metodlar sonradan psixologiya elminin zənginləşməsinə böyük töhfə kimi **faktor təhlili metodunun** işlənilib hazırlanmasına zəmin yaratmışdır.

Haltonun nailiyyətləri içərisində **test metodunun** işlənilməsi sahəsində xidmətləri xüsusi yer tutur. Bu metod Haltonun laboratoriyasında mühüm metodikalardan biri olmuş, sonralar psixologiya elminin metodları sırasına əbədi daxil olmuşdur. Onun təklif etdiyi statistik yanaşma metodu çoxlu sayda insanlar üzərində testlər seriyasının tətbiqilə, psixologiyada bir vasitə kimi riyazı metodların tətbiqinə geniş meydan açmış, testlərin işlənilməsi və tətbiqi texnikasının təkmilləşdirilməsinə təkan vermişdir. Halton tərəfindən tətbiq edilən test xarakterli sınaqlar 1890-cı ildə Amerikan psixoloqu **C.Kettenin "Əqli testlər və ölçmələr"** adlı məqaləsinin çap olunmasından sonra psixologiyada geniş tətbiqi imkanlar qazandı. Kettel belə hesab edirdi ki, böyük sayda adamlar üzərində statistik metod vasitəsilə test sınaqlarının keçirilməsi psixologiyanın dəqiq elmə çevrilməsinin mühüm vasitəsidir. Bununla belə o, test metodunu özünə, onun praktik dəyərlərinə xüsusi əhəmiyyət verir, onları yeni praktik psixologiyanın əsası hesab edirdi.

Test metodunun yaradıcıları sırasında ABŞ psixoloqu **D.Kettelin** (1860-1944) xüsusi yeri vardır. V.Vundun Leypsiqdəki laboratoriyasını tərk edərək Londona, sonra isə ABŞ-a qayıdan Kettel 1891-ci ildə Kolumbiya

universitetində psixologiya laboratoriyası yaratmışdır. O, bu laboratoriyada 50-yə qədər test nümunəsi üzrə eksperimentlər keçirmişdi.

Uşaqların intellektini tez, dəqiq və etibarlı şəkildə müəyyən etməyə imkan verən ilk testlərin hazırlanmasında fransız psixoloqu **Alfred Binenin** xüsusi xidmətləri olmuşdur. Uşaqlarda təfəkkürün inkişafı mərhələlərini eksperimental yolla öyrənməyə çalışan Bine onların qarşısına müəyyən anlayışlara aid suallar qoyurdu. (məsələn, stul nədir?, at nədir? və s). 3, 7 yaşlı uşaqların belə suallara cavablarını ümumiləşdirən Bine bu qənaətə gəlmişdir ki, uşaqlar anlayışların mənimsənilməsi və inkişafı baxımından **sayma**, **təsvir** və **interpretasiya** olmaqla üç əsas mərhələdən keçirlər. Binenin bu tədqiqatları uşaqların intellektual inkişafına aid normativlərin, təfəkkürün formalaşması prosesinin diaqnostikasına aid metodların işlənilib hazırlanmasına güclü təsir etmişdir.

XX əsrin əvvəllərində A.Bine Fransanın Maarif Nazirliyi tərəfindən yardımçı məktəblərə qəbul ediləcək uşaqların seçilməsi metodunu işləyib hazırlamaq sifarişini aldı. Bu məqsədlə o, əqli inkişafda geridə qalan uşaqların seçilməsini təmin edən və mürəkkəblik dərəcəsi müxtəlif olan suallar bloku tərtib etdi. Bu metod ilk sınaqdan uğurla çıxdı və Bine normal inkişafla anormal inkişafı fərqləndirməyə xidmət edən testlərlə yanaşı, 3 yaşdan 18 yaşadək bütün uşaqların **intellektual inkişafının ümumi diaqnostikasını** keçirməyə imkan verən testlər yaratmağa da nail oldu. Haqqında söhbət gedən bu testlər intellektual inkişafı müxtəlif cəhətdən (lüğət ehtiyyatının həcmi, say, hafizə, ümumi məlimatlılıq, məkana bələdləşmə, məntiqi təfəkkür və s.) tədqiq etməyə imkan verməklə yanaşı, yaş dövrlərinə görə müxtəlif çətinlik dərəcələrinə bölünürdü. Bine hər bir yaş dövrü üçün beş tapşırıqdan artıq olmaqla test bloku yaratmışdı. O, belə hesab edirdi ki, intellekt anadangəlmə keyfiyyətdir və onun səviyyəsi yaşdan asılı olaraq dəyişmir. Dəyişən yalnız həll edilən problemin məzmunudur. Binenin irəli sürdüyü bu müddəa öz dəyərinə

görə bu gün də aktuallığını saxlayır və yeni testlərin işlənib hazırlanmasında, köhnə testlərin isə modifikasiyasında zəruri şərt kimi qəbul edilir.

Uşağın ağıl yaşının hesablanmasında Binenin şagirdi T. Simonun tərtib etdiyi xüsusi şkaladan istifadə olunurdu. Bir qədər sonralar, Alman psixoloqu **Vilyam Ştern** intellektin daha dəqiq diaqnostikası üçün **I Q - əqli inkişaf əmsalını** təklif etdi. Bu əmsal aşağıdakı düstur əsasında hesablanır:

$$\textbf{İQ} = \frac{\textbf{ağıl yaşı (MA)}}{\textbf{xronoloji yaş (XA)}} \times 100\%$$

Əqli inkişaf şkalasına görə, 70 baldan 130 baladək əmsallar norma hesab edilir. 70 baldan aşağı göstərici əqli inkişafın geriliyini, 130 baldan yuxarı isə istedadın göstəricisi kimi qəbul edilir. A.Bine tərtib etdiyi şkalanı T.Simonla birlikdə 3 dəfə ( 1905, 1908, 1911-ci illərdə)yeniləşdirmiş və modifikasiya etmişdir. Fransada Binenin nüfuzu o qədər yüksək idi ki, onun tərtib etdiyi testlər ölümündən sonra da keçən 50 il ərzində, yəni 1960-cı ilədək toxunulmaz qalmışdır. Qeyd etmək lazımdır ki, bir sıra nöqsanlarına baxmayaraq, müasir testologiya nəzəriyyəsi və təcrübəsində Binenin testləri bu gün də öz aktuallığını saxlayır və uşaqların intellektual inkişaf səviyyəsinin ölçülməsində ən uğurlu və münasib testlərdən biri hesab olunur.

Xarici ölkələrdə psixoloji xidmət sahəsində işin praktik təşkili təcrübəsinin təhlili deməyə əsas verir ki, tarixən hər bir ölkədə bu sahənin spesifik xüsusiyyətləri olmuşdur. Bu da, təsadüfi deyildir. Hər bir ölkədə həmin cəmiyyətin qəbul etdiyi elmi-psixoloji konsepsiyalar vardır. Digər tərəfdən həmin ölkələrin siyası, iqtisadi, mədəni xüsisuyyətlərindən, təhsil ehtiyaclarından, təlim və tərbiyənin məqsədlərindən asılı olaraq, psixoloji xidmətin spesifik modelləri yaradılmışdır. Bu cəhətdən ABŞ-da

fəaliyyət göstərən **“Qaydens” psixoloji xidmət sistemini** misal göstərmək olar.

**“Qaydens”–**ingiliscə “rəhbərlik etmək”, “istiqamətləndirmək” deməkdir. Bu xidmət sahəsi XIX –XX əsrlərdə ABŞ-da kapitalizmin sürətli inkişafı ilə əlaqədar meydana gəlmişdir. Əsasən, konsultativ xarakter daşıyan “Qaydens” xidməti Amerikan məktəblilərində müəyyən şəxsiyyət keyfiyyətlərinin aşılanması məqsədini qarşıya qoymaqla, onların sosiallaşmasına fəal təsir göstərmişdir. ABŞ-ın orta məktəb şagirdlərində akademik uğurların, ideoloji və mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi, məktəb həyatında baş verən konfiliktlərin həll edilməsi, bu və ya digər peşənin seçilməsi məqsədləri bu xidmət növünün prioritet cəhətləri idi. “Qaydens” konsultativ xidmətinin qarşısında duran başlıca vəzifələr aşağıdakılardır:

- şəxsiyyətin ətraf aləmi və özünüdərketməsi üçün ona kömək göstərilməsi, qazanılmış biliklərin, təlim müvəffəqiyyətinin yüksəldilməsinə xidmət etməsi, şəxsiyyətin inkişafı və peşəseçmə;
- uşaqların meyllərinin, xüsusiyyətlərinin, gündəlik həyatda vacib olan keyfiyyətlərinin formalaşdırılması üçün söhbət və məsləhətlərin təşkili formalarının müəyyənləşdirilməsi;
- şagirdlərdə müsbət motivasiyanın yaradılması metodikalarının müəyyənləşdirilməsi;
- müəllim tərəfindən qarşıya qoyulmuş tərbiyə vəzifələrinin yerinə yetirilməsi metodlarının işlənib hazırlanması.

ABŞ-da “Qaydens” məsləhət xidməti heç də məktəb bazasında meydana gəlməmişdir. ABŞ-da gənclərin işə düzəldilməsi ilə ilk dəfə məşğul olan professor **F.Parsons** 1908-ci ildə Boston şəhərində **Peşə Oriyentasiyası Bürosu** açmışdır. Bu müəssisə gəncləri peşəyönümünə istiqamətləndirir və onlara uyğun peşə seçməkdə köməklik göstərirdi. Ona görə də, ABŞ- da F.Parsons “qaydens” xidmətinin ilk təsisçisi kimi tanınır. O, təcrübədə ilk dəfə **“insan-iş yeri” nəzəriyyəsini** tətbiq etmiş,

şəxsiyyətin fərdi keyfiyyətləri ilə peşənin xüsusiyyətləri arasındakı qarşılıqlı əlqəni açmağa təşəbbüs göstərmişdir. F.Parsons ilk dəfə düzgün peşə seçiminin həlledici amillərini müəyyən etməyə çalışaraq aşağıdakı şərtləri qeyd etmişdir:

- insanın öz şəxsi imkanlarını, qabiliyyət və maraqlarını aydın başa düşməsi;
- peşənin üstünlükləri və çətinliklərini, tələblərini, onun perspektivi və uğurla yerinə yetirilməsi şərtlərini bilməsi;
- yuxarıda göstərilən iki amil və onlara əsaslanan müvafiq peşənin seçilməsi arasındakı uyğunluğun obyektiv qiymətləndirməsi.

F.Parsonsun ideyaları ABŞ-da inkişaf etməkdə olan kapitalizmə həm iqtisadi, həm də ideoloji baxımdan böyük fayda gətirirdi. Bu praqmatik ideya əmək məhsuldarlığını yüksəltməyə, əmək ehtiyatlarını düzgün bölüşdürməyə imkan verməklə yanaşı, ideoloji baxımdan istehsal müəssisəsində konfiliktlər zamanı sahibkarlara işçinin peşə yararsızlığını əsaslandırmağa imkan verirdi. Ona görə də, F.Parsonsun metodu çox keçmədən ABŞ-da məşhurlaşdı və bir çox sənaye müəssisələri nəzdində peşəyönümü büroları təsis olundu. 1913-cü ildə isə ABŞ-da müvafiq Milli Assosiasiya yaradıldı.

"Qaydens" psixoloji xidmətinin meydana gəlməsində müstəsna rol oynamış alimlərdən biri **Con Konant** idi. O, psixoloji testləşdirməni hər bir insan fərdinin, hər bir formalaşan şəxsiyyətin gələcək uğur və uğursuzluqlarını müəyyənləşdirən ən etibarlı vasitə hesab edirdi. Bu ideyanı əldə rəhbər tutan Con Konant 1947-ci ildə ABŞ-da **müvəffəqiyyət testlərinin** hazırlanması üzrə Agentliyin təşkilində fəal iştirak etdi. 1945-1960-cı illərdə ABŞ-da **kaunslerlərin** ("qaydens" xidməti üzrə məsləhətçi-mütəxəssislərin) iş sistemində testlər dəsti xüsusi yer tutmağa başladı. Onlar fərdi fərqlərin obyektiv xarakteristikasını (cins, irq, sosial vəziyyət) verməklə yanaşı, "əlamət-faktor" konsepsiyasından çıxış edərək fərdlərin

təsnifat bölgüsünü apardılar.

1959-cu ildə ABŞ-da “şok effekti” yaradan “Milli Təhlükəsizlik naminə təhsilin inkişafı haqqında Qanun”un qəbulundan sonra “Qaydens” xidməti sürətlə genişlənərək bu ölkənin təhsil sisteminin mühüm tərkib hissəsinə çevrildi və onun mövqeləri xeyli möhkəmləndirildi, funksiyaları genişləndirildi. 1968-ci ildə ABŞ-da 71 min nəfər kaunsler çalışırdı. 1980-cı ildə isə, daha 107 min kaunslerə ehyitac vardı.

ABŞ-ın xroniki sosial problemlərlə - işsizlik və yoxsulluq, mənzil problemi, zorakılıq, irqi ayrıseçkilik kimi problemləri ilə üzləşdiyi 70-80-cı illərdə testlər vasitəsilə uşaqlar arasında seçmənin aparılması təcrübəsi daha böyük sosial narazılıqlar doğururdu. Bu dövrdə yaranmış böhranlı vəziyyətdən psixoterapiyanın köməyi ilə xilas olmaq təşəbbüsləri əhalinin müxtəlif təbəqələri üçün “qaydens” ruhlu müəssisələrin, mərkəzlərin, klinikaların sürətlə genişləndirilməsi ilə başa çatmış oldu.

1980-cı ildə sonra ötən onilliklər ərzində ABŞ-ın təhsil sistemindəki “qaydens”–psixoloji-pedaqoji xidmət sistemi köklü dəyişikliklərə uğramışdır.

Müasir dövrdə ABŞ-ın orta təhsil sistemində “qaydens” xidməti üç əsas istiqaməti əhatə edir:

1. İqtisadi – peşəseçimi istiqaməti üzrə;
2. Təlim– şagirdlərin gücü çatan fənlərin seçilməsində onlara kömək göstərilməsi;
3. Sosial – şəxsiyyətin öyrənilməsi və onun inkişafına rəhbərlik.

ABŞ-da bu xidmət sisteminin tərkibinə bir qayda olaraq **“inventar” xidməti,** yəni hər bir şagird, onun fərdi xüsusiyyətləri haqqında informasiyanın toplanması; şagirdlər üçün təlim, peşə və şəxsi-sosial sahələr üzrə **informasiya xidməti**; şagirdlərə fərdi və qrup halında məsləhətlərin keçirilməsini təmin edən **kaunslinq xidməti;** şafirdlərin məktəbi qurtardıqdan sonra onların müxtəlif fəaliyyət növlərinə uyğunluğunu müəyyənləşdirən (müvafiq işin seçilməsi, digər təhsil

müəssisələrinə daxil olma) **təminetmə xidməti;** məktəb məzunların taleyi, onların müvəffəriyyəti, uğursuzluqları, problemləri “qaydensin” onların həyatında rolu haqqında rəyləri öyrənən proqramların nəticələri üzərində **nəzarət xidməti**.

Qeyd etmək lazımdır ki, ABŞ-da “qaydens” xidmətinin əsas təşkilatçısı və icraçısı kaunslerlərdir. Onlar göstərilən bütün bölmələr üzrə şagirdlərlə olduğu kimi, valideynlər, məktəb müdiriyyəti, ictimaiyyət, ayrı-ayrı şəxslər və təşkilatlarla da iş aparırlar. ABŞ-da bu xidməti hər bir məktəbdə “kaunslerlər”lə yanaşı, onlara köməkçi olan “müəllim-kaunslerlər” yerinə yetirirlər. Ştatlarda və vilayətlərdə bu proqramın yerinə yetirilməsinə məsuliyyət daşıyan xüsusi şöbələr fəaliyyət göstərir. Bütün ölkə müqyasında “qaydens” proqramının həyata keçirilməsinə rəhbərlik və nəzarət **Amerika Psixoloq –Kaunslerləri Assosiasiyası** tərəfindən həyata keçirilir. Bu ölkədə 400-dən artıq təhsil müəssisəsi “qaydes” xidməti üzrə mütəxəssis hazırlayır. ABŞ-da bu ixtisas üzrə ali məktəbə daxil olmaq istəyənlərin pedaqogika magistri diplomu, 2-5 il iş stajı və iş yerindən müsbət xasiyyətnaməsi tələb olunur.

Təhsildə spesifik psixoloji xidmət sisteminə malik olan ölkələrdən **biri də İspaniyadır.** Bu ölkədə psixodiaqnostika sahəsində ilk əsər hələ 1575-ci ildə həkim və filosof **Xuan Uarte** (1530-1589) tərəfindən yazılmışdır. **“Xarakterin elmi məqsədlər üçün tədqiqi”** adlanan həmin traktat psixologiya elminə böyük töhfə vermişdir. Onun əsas məqsədi “müdrikliyin” tiplərini müəyyənləşdirməkdən, intellektual funksiyalar əsasında insanlar arasındakı fərqləri aşkara çıxarmaqdan ibarət olmuşdur. Uartenin fikrincə, təlimin yaxşılaşdırılması üçün bu funksiyaların öyrənilməsinin əhəmiyyəti olduqca vacibdir. “Biofiziki” müayinə ilə yanaşı (dəri və tük örtüyü, çəki, bədən temperaturu və s.) subyektin tapşırıqlar seriyasını (oxu, yazı və s.) icra edən zaman idrak sferasına aid olan əməliyyatları da təhlil etmək lazımdır. O, belə hesab edirdi ki, məqsədə-

yönəlişlik, hafizə, təxəyyül, və s. kimi idrak prosesləri hər bir uşağa onun təbii qabiliyyətlərinə müvafiq olan elmləri və ya incəsənəti öyrənməyə imkan verir.

Bu traktat öz zamanında inkivizisiya tərəfindən qadağan edildi və yalnız XVIII əsrdən sonra tərcümə edilərək İspaniyanın hüdudlarından kənarda geniş yayılmağa başlandı.

Xuan Uartedən sonra **Mariano Kubi** (1801-1875) Qallın frenoloji ideyalarına əsaslanaraq insanın sifətindəki qüsurların əqli inkişafla əlaqəsini, **Pedro Mate-i-Fontanet** (1811-1877) isə idealist metod əsasında psixi funksiyaları öyrənməyə təşəbbüs göstərmişlər.

XX əsrin əvvəllərində İspaniyada elmi psixologiya Xiner, Simarro, Turro, Lafora kimi alimlərlə təmsil olunurdu. Həmin dövrdə psixodiaqnostika psixologiyanın tətbiqi sahəsi kimi pedaqogikada və tibbdə inkişaf edirdi. İspan məktəblərində təhsili yaxşılaşdırmaq üçün testlərdən geniş istifadə olunmağa başlanıldı. Belə ki, 1930-cu ildə A.Binenin, 1932-ci ildə Otisin əqli inkişaf testləri, 1936-cı ildə isə Klapared, Bayyard və Ozeretskinin məktəb testləri ispan dilinə tərcümə edildi. Həmin dövrdə psixodiaqnostika üzrə aparılan ən yaxşı işlər sırasında X.Kommasın və R.Laqonun adlarını qeyd etmək olar.

Ötən əsrin 50-ci illərindən başlayaraq İspan psixoloqları Hermaynın rəhbərliyi altında İspaniyanı Ali Elmi -tədqiqat Şurası, Madrid, Barselona, Valensiya Universitetləri **İspan Psixoloqlar Cəmiyyəti** kimi mərkəzlərdə praktik psixoloji tədqiqatları genişləndirməyə başladılar. Onlar xarici testləri uyğunlaşdırmaq və öz testlərini yaratmaq sahəsində uğurlu addımlar atdılar. Bu sırada Yelanı Çekadasın intellekt testlərinin, Pipilosun H.Ayzenkin modeli əsasında yaratdığı şəxsiyyəti qiymətləndirmə testlərinin adlarını çəkmək olar.

1960-cı ildən başlayaraq İspaniyada təlimin prinsiplərinə əsaslanan

yeni psixodiaqnostik metodikalar–eksperimental psixologiya meydana gəldi. Bu sahədə çalışan alimlərdən A.Staats və A.Bandura orqanizmlə ətraf mühit arasındakı əlaqələri araşdırmaqla bu qənaətə gəldilər ki, davranışı şərtləndirən əsas amil **orqanizmlə mühüt arasındakı qarşılıqlı münasibətlərdən** ibarətdir.

### 1.2.2. Rusiyada psixoloji xidmətin tarixi və müasir vəziyyəti

Rusiyada praktik uşaq psixologiyası XX əsrin əvvəllərindən başlayaraq intensiv inkişaf yoluna qədəm qoymuşdur. Onun yaranması və inkişafı qabaqcıl rus psixoloji, pedaqoji və fəlsəfi fikri ilə sıx bağlı olmuşdur. Rusiyada pedaqogika və uşaq psixologiyası elmlərinin qovuşuğunda, qərb ölkələrindəki ideya və cərəyanların təsiri altında yeni istiqamət meydana gəlmişdir. Sematik tədqiqat metodları əsasında ruhi aləmin öyrənilməsi təşəbbüsləri ilk dəfə rus həkim və fizioloqları tərəfindən irəli sürülmüşdür. Onlar uşağın inkişafını obyektiv tədqiqat metodları əsasında öyrənmək sahəsində əhəmiyyətli tədqiqatlara başlamış və bu bu istiqamətdə elmi axtarışlarında fiziologiya, pediatriya və psixiatriya elmlərinə daha geniş istinad etmişlər. İ.M.Seçinov və K.D.Uşinskinin təlimlərindən faydalanan rus pediatrları U.V.Tarxanova, N.P.Qundobina belə hesab edirlər ki, şəxsiyyətin mənəvi tərbiyəsi məsələsi yalnız pedaqogikanın deyil, həm də başqa elmlərin vəzifəsidir. Rusiyada praktik psixologiyanın bir bilik sahəsi kimi inkişafında Q.İ.Rossolimo və V.P.Kaşenko kimi alimlərin fəaliyyəti diqqəti cəlb edir. XX əsrin əvvəllərindən başlayaraq onlar ilk pedoloji laboratoriyaların təşkilinə başlamışlar. Onların iştirakı ilə Moskva Pedaqoji Akademiyasının nəzdində ilk pedoloji laboratoriya yaradılmışdır. Burada aparılan tədqiqatların əsas ideyası çətin, əqli cəhətdən geridə qalan uşaqların öyrənilməsi, xüsusilə onların təliminin mümkünlüyündən ibarət idi.

Uşaqların obyektiv diaqnostikası metodlarının, xüsusilə testlər metodu-

nun işlənib hazırlanmasında Q.İ.Rossolimo xüsusi rol oynamışdır. Onun rəhbərliyi altında Moskva Dövlət Unuversitetinin Əsəb klinikası nəznindəki Uşaq Psixologiyası və Nevrologiyası İnstitutunda uşaqların pedaqoji cəhətdən öyrənilməsi həyata keçirilirdi. Q.İ.Rossolimonun XX əsrin əvvllərində tərtib etdiyi ümumi qabiliyyət testləri 20-30-cu illərdə məktəb praktikasında geniş tətbiq olunaraq məhşurlaşmış və özünün diaqnostik dəyərinə görə xüsusi şöhrət qazanmışdı. Bu testlər testologiya tarixində onun adı ilə **“Rossolimo profili”** adlandırılır. O, müəyyən etmişdir ki, hər bir adamın fərdi xüsusiyyətlərindən asılı olaraq onun üçün xarakterik olan müəyyən profillər, psixi kənara çıxmalar mövcuddur. Belə ki, şizofreniya və ya isteriya xəstəliklərinin obyektiv xarakteristikasından asılı olaraq özünəməxsus profilləri mövcuddur. Beləliklə, Rossolimonun testi cizli və ya aşkar simptomları olan xəstəlikləri dəqiq müəyyənləşdirmək, eləcə də, uşaqların diaqnostikasını asanlaşdırmaq, onların korreksiya edilməsi metodlarını axtarıb tapmaq imkanı vermiş oldu.

XX əsrin əvvəllərində Rusiyada pedologiyanın formalaşmasının əsl təşəbbüskarları A.P.Neçayev, N.P.Rumyantsev və V.M.Bexterev olmuşdur. Neçayev və Rumyantev pedologiyanın kompleks xarakter daşıyan üstünlüklərindən bəhs edərək qeyd edirdilər ki, onun başlıca məqsədi uşaqların psixoloji müayinəsindən ibarətdir. Pedologiyanın predmetini müəyyən edərkən Rumyantsev yazırdı ki, o, uşaqların fiziki və ruhi aləmini öyrənir, bununla da, insanı tərbiyənin predmeti kimi bütün münasibətlərdə öyranmək vəzifəsini yerinə yetirmiş olur.

Pedologiyanın vəzifəsi uşaqların həyatı və inkişafına aid olan hər bir məlumatı toplamaq, sistemləşdirmək, bu inkişafın zonasını müəyyənləşdirməkdən, onun qanunlarını tapmaqdan və tətbiqini araşdırmaqdan ibarətdir. Bexterev bu fikrə tərəfdar çıxaraq qeyd edirdi ki, uşaq psixologiyası və pedologiyanın əsas vəzifəsi uşağın ruhi xüsusiyyətlərinin, onların tərbiyəsi məsələlərinin tədqiq edilməsindən ibarətdir.

1904-cü ildə Peterpurqda A.P.Neçayevin rəhbərliyi altında Rusiyada ilk pedoloji kurslar açıldı. Bu kursların məqsədi müdavimləri uşaq və gənclərin fizoloji və psixoloji xüsusiyyətləri haqqında zəruri biliklərlə silahlandırmaqdan və pedaqoqların nəzəri potensiallarını yüksəltməkdən ibarət idi. Kursların qarşısında bir sıra praktik maqsədlər də qoyulmuşdu:

- uşaqların psixofizioloji təbiətini öyrənmək məqsədilə tədqiqatların aparılması;
- şagirdlərin fərdi xüsusiyyətlərinin tədqiqi metodlarının əsaslandırılması;
- gələcəkdə məktəb islahatının aparılması üçün materialların toplanması.

Həmin illərdə pedaqoji biliklərin daha geniş yayılması üçün Neçayev və Rumyantsev pedaqoji psixologiya və pedaqogikaya aid bir sıra kitablar çap etdirdilər. Bu dövrdə Rusiyada uşaq psixologiyasına aid bir sıra jurnallar- **"Tərbiyə xəbərləri", "Psixologiya, Kriminal antropologiya və pedaqogiya xəbərləri", "Pedaqoji xəbərlər"** çap olunurdu.

Rusiyada pedologiyanın inkişafının yenı mərhələsi B.M.Bextrevin adı ilə bağlıdır. O, Rusiyada ilk dəfə olaraq elmi pedologiyanın əsaslarını yaratmış və təlim və tərbiyə məsələlərinin emprik yolla öyrənilməsində pedoloji elmi-tədqiqatların əsasını işləyib hazırlamış, elmi-laborator və elmi-klinik olmaqla pedoloji müəssisələrin bütöv bir şəbəkəsini yaratmışdır. 1907-ci ildə isə B.M.Bexterev Peterburq Psixonevroloji İnstitutunda pedoloji şöbə yaratdı və bu şöbə uzun illər boyu pedoloji tədqiqatların aparıcı mərkəzi olmuşdur. Pedologiyaya marağın böyük olmasına baxmayaraq, o dövrdə elmin bu sahəsində mütəxəssislər olduqca az idi. Praktik uşaq psixologiyası ötən əsrin əvvəllərində öz inkişafının formalaşma mərhələsində idi. Bu mərhələdə o, xam materialların toplanması mərhələsindən bu materialları əldə etmək metodlarının işlənib hazırlanması mərhələsinə qədəm qoydu. Yeni mərhələdə **uşağın psixi inkişafının diaqnostikasına sistemli yanaşma** ən zəruri tələb idi. Bu dövrdə uşaqların və uşaq qruplarının praktik məşğələlər üçün fərdi xüsusiyyətlərinin öyrənilməsinə yönəlmiş metodların yaranması və tətbiqi

genişlənməyə başladı. Bu məqsədlər üçün M.M.Rubinşteyn, A.P.Neçayev, N.P.Rumyantsev daha sonralar isə P.P.Blonski, M.Y.Basov, A.S.Zalujnı, V.S.Vıqodski tərəfindən işlənilmiş testlərdən, ankertlərdən bioqrafik, statistik, antropometrik metodlardan istifadə olunurdu. Uşaqların psixikasını esperimental yolla öyrənmək üçün ötən əsrin əvvəllərində A.F.Lazurski A.P.Neçayevlə birgə Peterburqda ilk psixologiya laboratoriyalarından birini yaratdılar. Sonralar o uzun illər boyu V.M.Bexterev adına psixonevroloji institutu nəzdindəki psixologiya laboratoriyasına rəhbərlik etmişdir. Laboratoriya ekssperimenti metodunun tətbiqi ilə aparılan tədqiqatlardakı qüsurlar Lazurskini psixoloji tədqiqatların digər yollarını axtarmağa təhrik edirdi. Beləliklə, o, psixi proses və funksiyaların öyrənilməsinin alternativ metodu kimi **təbii eksperiment metodunu** təklif etdi. 1911-ci ildə onun pedaqoji psixologiya və pedologiya elmləri üçün böyük əhəmiyyətə malik olan **"Təbii eksperiment haqqında"** adlı əsəri çap olundu. Lazurski sübut etdi ki, laboratoriya eksperimenti ilə müqayisədə təbii eksperiment uşaq psixikası haqqında daha bitkin və obyektiv məlumatları əldə etməyə imkan verir. Onun təbii eksperiment haqqında ideyaları, təcrübi psixologiya elminin yaradılmasının zəruriliyi haqqında fikirləri bir qədər sonra onun yetirməsi M.Y.Basov tərəfindən inkişaf etdirildi.

Lazurskinin laboratoriyasında fərdi xüsusiyyətlərinin öyrənilməsinə xüsusi diqqət yetirilirdi. Hələ 1897-ci ildə V.M.Bexterevin redaktorluğu ilə çap olunan **"Psixiatriya icmalı"** adlı jurnalda Lazurskinin "Fərdi psixologiyanın müasir vəziyyəti" adlı məqaləsi çap olunmuşdu.

O, "**Xarakterlər haqqında elm oçerkləri"** (1909) adlı əsərində elmi xarakterologiyanın orijinal konsepsiyasını yaratdı. Lazurski qeyd edirdi ki, insanların fərdi xüsusiyyətləri onların sinir sisteminin fəaliyyəti ilə bağlıdır. Ona görə də, müxtəlif psixi proseslərin fəaliyyəti haqqında emprik məlumatlar təcrid olunmuş şəkildə deyil, sistem halında öyrənilməlidir. Eksperimental tədqiqatlar insanın bütöv psixoloji portretini yaratmalıdır. Meyllər, qabiliyyətlər,

temparamentlər və insanın digər fərdi xüsusiyyətlərini xarakterlərin tam təbii təsnifatı əsasında qurmaq mümkündür. Lazurskinin fikrincə, bütün bunlar yeni elmin əsasını təşkil etməlidir. 1912-ci ildə onun **“Ümumi və eksperimental psixologiya”**, ölümündən sonra isə 1922-ci ildə **“Şəxsiyyətlərin təsnifatı”** adlı əsərləri çap olundu.

Lazurskinin mövqeyi Qərb psixoloqları V.Ştern, A.Bine və F.Haltonun mövqeyindən fərqlənirdi. O, tətbiqi tədqiqatları zəruri hesab etsə də, fərdi fərqlərin öyrənilməsinin elmi cəhətdən əsaslandırılmış nəzəriyyəsinin də yaradılmasının vacibliyini irəli sürürdü. Fərdi psixologiyanın nəzəri bir elm kimi təqdim olunması onun fikrincə, bu elmin heç də təcrübi əhəmiyyətini azaltmır. Həmin dövrdə Moskva Dövlət Universitetinin fəlsəfə kafedrasının müdiri Q.İ.Çelnanov Lazurskinin ideyalarına tərəfdar çıxaraq qeyd edirdi ki, praktik psixologiya kursu üzrə proqramlara nəzəri məsələlərə aid bölmənin daxil edilməsi zəruridir. Belə ki, ümumi qanunauyğunluqları və metodoloji prinsipləri bilmədən uşaqların psixikasını savadlı şəkildə tədqiq etmək qeyri-mümkündür. Sonralar həyat Çelnanovun fikirlərinin doğruluğunu təsdiq etdi. Yüksək tədqiqatların aparılmasında, xüsusilə, diaqnostika üzrə işin təşkilində qüsurların olduğu təsdiq olundu.

Qeyd etmək zəruridir ki, uşaqların psixi inkişafının öyrənilməsi bir çox alimləri bu prosesdə **ailənin və ailədaxili iqlimin əhəmiyyəti** haqqıda fikirə gətirdi. Ona görə də, bir sıra alimlər ailə tərbiyəsinin əsas vəzifələrini təhlil etməklə kifayətlənmədən valideynlərin sistematik olaraq maarifləndirilməsinin zəruriliyini ön plana çəkirdilər. Bunun üçün valideyn dərnəkləri təşkil olunur, ailə tərbiyəsinə aid kitabların nəşrinə üstünlük verilirdi. Bu dövrdə P.F.Kapterev ailədə tərbiyə və təlim problemlərinə aid bir sıra kitabçalar çap etdirirdi.

XX əsrin əvvəllərində rus pedaqoq, psixoloq və həkimləri əlbir şəkildə səmərəli iş apardılar. Həkim-pediatrlardan N.P.Qundobin və E.A.Pokrovski **məktəb xəstəliklərinin profilaktikası**, psixoloqlardan P.F.Kapterev,

B.P.Lenski, M.M.Rubinşteyn və.b. tədqiqatçılar isə məktəb yorğunluğu, oxu və yazının formalaşması dinamikası, dərsdə ixtiyari davranış və intellektin inkişafı problemlərini öyrənirdilər.

Uşaqların psixi inkişafı problemlərinin tədqiqində rus psixiatır və pedaqoqu İ.A.Sikorskinin müstəsna rolu olmuşdur. O, uşaqların psixi inkişafındakı qusurların və ləngimələrin yaranmasında affektlərin rolunu araşdırmaqla yanaşı, onların korreksiya edilməsi üçün tövsiyələr də işləyib hazırlayırdı. Onun məktəb həyatı üçün praktik əhəmiyyət kəsb edən tədqiqatlar, içərisində əqli yorğunluğun səbəblərinin öyrənilməsinə aid eksperimental tədqiqatları müstəsna əhəmiyyətə malik olmuşdur.

İ.A.Sikorski müəllim və şagirdlərin dərsdə yorğunluğunun aradan qaldırılmasını təmin edən dərs proqramları təklif etmiş, ilk dəfə olaraq Kiyevdəki Frebel adına mərkəzdə **eksperimental məktəb və psixoloji məsləhətxana** təşkil etmişdi.

XX əsrin əvvəllərində rus pedoloqları uşaq psixologiyası və təhsil problemləri ilə bağlı intensiv tədqiqatlar aparırdılar. 1906-1916-cı illərdə Rusiyada pedaqoji və eksperimental psixologiyaya aid beş qurultay keçirilmişdi. Ötən əsrin əvvəllərində Rusiyada uşaq və pedaqoji psixologiya problemlərinə həsr olunmuş sistematik kitab nəşrinə başlanılmışdı. Bu dövrdə M.M.Rubnşteynin redaktorluğu ilə **"Böyük pedaqoqlar"**, N.D.Vinoqradov və A.A.Qrombaxın redaktorluğu ilə **"Uşaqların ruhi həyatı"** və s. kimi dəyərli əsərlər nəşr olunmuş, **"Psixoloji kitabxana"**, **"Praktik məktəb ensklopediyası"** seriyasından bir sıra kitablar nəşr olunmuş, çoxlu sayda dərnəklər və açıq universitetlər yaradılmışdı.

Bütün bunların nəticəsində praktik psixologiya elminin aparıcı sahələrindən birinə çevrilmiş **psixoloji diaqnostikanın zəruriliyi ideyası və psixoloqun təhsil sistemində iştirakının zəruriliyi** ədəbi olaraq məktəb həyatına daxil olmuşdu.

Rusiyada 1917-ci ildə baş vermiş oktyabr çevrilişindən sonra bir çox filosof və alimlər ölkədən sürgün edilsə də, uşaq psixologiyası problemləri ilə məşğul olan tədqiqatçılar öz fəaliyyətlərini davam etdirirdilər. Bununla belə, sovet hakimiyyətinin artıq ilk illərində müasir, marksist pedologiyanın yaradılması istiqamətində səylər genişlənirdi. A.B.Zalkind, P.P.Blonski, K.N.Kornilov, M.Y.Basov, L.S.Vıqodski və başqa psixoloqlar qeyd olunan sahədə fəal iş aparırdılar.

XX əsrin 20-ci illəri yeni praktik uşaq psixologiyasının yaranması, onun metodoloji əsaslarının və inkişaf yollarının fəal axtarışı ilə diqqəti cəlb edir. Bu dövr **sovet psixologiya elminin** prinsip və metodlarının, istiqamətlərinin axtarışı ilə səciyyələnir. Ona görə də, 1917-ci ildən sonrakı ilk 6-7 il sovet pedologiyasının inkişafında çətin bir dövr kimi nəzərdən keçirilə bilər. Bu dövr çoxsaylı elmi konfrans və qurultaylar, psixologiyanın nəzəri problemlərinin həlli yollarının axtarışına yönəlmiş geniş diskusiyalar dövrü kimi tarixdə qalmışdır.

Praktik psixologiyanın bu dövrdə qarşısında duran əsas vəzifə **yeni cəmiyyətin yeni vətəndaşının tərbiyə edilməsindən** ibarət idi. Bu dövrdə daha səmərəli təlim metodlarına əsaslanan yeni sovet məktəbinin əsası qoyuldu, yeni insanın tərbiyəsi işində psixologiya elminin rolu və əhəmiyyəti yüksəlməyə başladı. Pedoloq və praktik psixoloqların qarşısında yeni və yüksək tələb qoyulurdu: pedoloq və psixoloqların fəaliyyət istiqamətləri müəyyənləşdirilir, uşaq psixikasının öyrənilməsi üçün yeni və çoxsaylı, maraqlı metodlar işlənib hazırlanır, məktəbəqədər müəssisələrdə və məktəbdə praktik psixoloqların və pedoloqların fəaliyyət istiqamətləri, hüquq və vəzifələri dəqiqləşdirilir.

Praktik psixologiya qarşısında duran vəzifələr sırasına uşaq kollektivlərinin və “çətin”, xüsusilə baxımsız uşaqların psixoloji xüsusiyyətlərinin öyrənilməsi, onların təlimi və davranışındakı kənaraçıxma hallarının korreksiyası və s. kimi yeni vəzifələr də daxil edildi. Bu vəzifələrin yerinə

yetirilməsi tələbləri yeni konsepsiyaların və metodikaların işlənib hazırlanmasını zərurətə çevirmişdi. Beləliklə, elmi-tədqiqat institutları nəzəri, pedaqoji və klinik müəssisələr birləşdirilərək nəhəng elmi mərkəzlər şəklində fəaliyyətə başladı. V.M.Bexterevin rəhbərliyi ilə 1918-ci ildə əsası qoyulmuş Psixonevroloji institut Akademiyaya çevrildi, onun nəzində isə A.S.Qriboyedov adına **Uşaq Müayinə İnstitutu** yaradıldı və onun nəzində əqli cəhətdən geridəqalan, əsəb xəstəliyi olan 100 nəfər 4-18 yaşlı uşaqlar üçün stasionar şöbə təşkil olundu. Bu institutda psixi qüsurları olan uşaqların diaqnostikası ilə yanaşı, əqli cəhətdən normal uşaqların da öyrənilməsi üçün yeni metodlar işlənilir, məşhur testlərin modifikasiyaları yaradılırdı. Həmin dövrdə uşaq müayinə inctitutu bir neçə ali məktəb üçün eksperimental baza rolunu oynayırdı. Burada təcrübə keçən tibb və pedaqoji institutların tələbələri yeni metodikalarla işləmək qaydalarını öyrənir, müasir psixodioqnostikanın metodları ilə tanış olur, "çətin" uşaqlarla ünsiyyət yaratmağın üsullrına yiyələnirdilər. 1923-cü ildə Uşaq Müayinə İnstitutunda müayinə kabineti və pedoloji müalicəxana təşkil olundu.

Ötən əsrin 20-ci illərində Rusiyada fəaliyyət göstərən ikinci iri psixoloji mərkəz Peterburqda A.İ.Gertsen adına Pedaqoji İnstitut idi. Bu institutda psixoloji tədqiqatlara, o cümlədən yeni diaqnostik metodikaların hazırlanmasına A.P.Boltunov rəhbərlik edirdi. Bu ali məktəbin tələbələri N.A.Nekrasov və K.D.Uşinski adına Pedaqoji Texnikumlarda təcrübə keçir, yalnız tədris müəssisələrində deyil, müalicəxanalarda, uşaq müəssisələrində də pedaqoqlarla birgə "çətin" uşaqların valideynləri ilə maarifləndirici və məsləhət işləri aparırdılar. 1919-cu ildə E.V.Quryanovun rəhbərliyi altında Moskva xalq təhsili şöbəsinin Mərkəzi Pedaqoji laboratoriyası yaradıldı. Bu laboratoriyanın ən mühüm vəzifələrindən biri məktəbəqədər və məktəb yaşlı uşaqların diaqnostikasının yeni metodlarını işləyib hazırlamaqdan, mövcud testləri standartlaşdırmaq və modifikasiya etməkdən ibarət idi. Burada

pedaqoqların sadə diaqnostik metodikalarla tanış edilməsinə, onlar arasında psixoloji biliklərin təbliğinə xüsusi diqqət yetirilirdi.

Yeni proqramlara və yeni iş metodlarına artan tələbat nəticəsində 1922-ci ildə RSFSR Xalq Maarif Komissarlığında Məktəb İşinin Metodları İnstitutu yaradıldı. Bu institutun aparıcı şöbələrindən biri tədqiqatçılıq və yeni diaqnostik metodikaların işlənilməsi ilə məşğul olan pedoloji şöbə idi.

1920-ci ildən başlayaraq yalnız Rusiyanın mərkəzi şəhərlərində deyil, ucqarlarında da Quberniya uşaq səhiyyə ambulatoriyaları, Psixotexniki və Pedoloji kabinetlərin təşkili sahəsində xeyli işlər görülmüşdü. Bu müəssisələr M.Y.Basovun rəhbərliyi altında əlbir iş aparırdılar. M.Y.Basovun bu dövrdə bir sıra əsərləri çap olundu. Onların sırasında **“Uşaqlar üzərində psixoloji müşahidələrin metodikası”** (1929), **“Pedaqoq və uşaqlar üzərində tədqiqat işi”** (1930), **“Pedologiyanın ümumi əsasları”** (1931) qeyd etmək olar.

Rusiyanın bütün ərazilərində, hətta Sibirin Xabarovsk, Krasnoyarsk, İrkutsk və s. kimi şəhərlərindən tutmuş, ucqar ərazilərində, hətta Orta Asiyada da praktik uşaq psixologiyasına maraq get-gedə artır, yeni laboratoriya və şöbələr yaradıldı. Belə laboratoriyalardan məhz biri də 1926-cı ildə Bakıda yaradılmışdır.

1928-ci ilin sonu, 1929-cu ilin əvvəllərində Rusiyada I Pedoloji qurultay keçirildi. Qurultayda uşaq psixologiyasının nəzəri və praktik məsələlərinə aid vahid platforma hazırlandı. 1930-cu ildən başlayaraq keçmiş SSRİ-də cəmiyyətdə və məktəb həyatında baş verən dəyişikliklərlə əlaqədar olaraq uşaq psixologiyasına və praktik psixologiyaya qarşı hücumlar artmağa başladı. Kadrlara münasibət məsələsi Sovet hökumətinin yeni siyasəti kimi ortaya çıxdığından praktik psixoloqların hazırlığı ilə pedaqoji institutlar deyil, tibb institutları məşğul olmalı idi.

1936-cı ildə isə ÜİK(b)P MK-nın “Xalq Maarif Komissarlığı sistemində pedoloji təhriflər” haqqında qərarı ilə pedologiya bir elm kimi ləğv edildi.

Bunun nəticəsində görkəmli psixoloq alimlərin gərgin əməyi ilə uzun illər boyu yaradılmış psixologiya elminə, o cümlədən praktik psixologiya elminə ciddi zərbə dəydi.

Praktik psixologiyanın inkişafı bütün pedaqoji sistemin humanistləşdirilməsini şərtləndirmiş və dünyanın bir sıra inkişaf etmiş ölkələrində praktik psixoloji xidmətin müxtəlif sahələrinin meydana gəlməsinə zəmin yaratmışdır. Böyük Britaniya, Fransa, ABŞ, Kanada, İspaniya və Yaponiya kimi ölkələrdə və təhsil sistemində psixoloji xidmətin meydana gəlməsinin uzun tarixi vardır.

Keçmiş SSRİ-də isə yalnız ötən əsrin 60-cı illərinin sonlarından başlayaraq psixoloqların məktəbin həyatında praktik iştirakının formalarının fəal axtarışına başlanılmışdır. Bu dövrdə pedaqogika və psixologiya elmlərinə də bunun üçün zəruri nəzəri və praktik şərait yaranmışdı. B.Q.Ananyev, B.B.Davıdov, A.B.Zaporojets, A.N.Leontyev, B.C. Merlin, D.B.Elkonin və b. rus psixoloqlarının psixi inkişafın ümumi qanunauyğunluqlarının öyrənilməsi və aşkara çıxarılması sahəsində apardıqları tədqiqatlar şəxsiyyətin inkişafı prosesinə pedaqoji və psixoloji təhlil baxımından sistemli yanaşmanın zəruriliyini ön plana çəkdi. Bu yanaşmada aşağıdakı cəhətlər diqqəti cəlb edirdi:

- şəxsi və psixi inkişaf səviyyəsinin müəyyən edilməsi üçün diaqnostik vasitələrin işlənilib hazırlanması;
- tərbiyəyə inkişafın idarə olunması prosesi kimi yanaşılması, fərdi və kollektivdə inkişafın qarşılıqlı əlaqəsinin anlaşılması;
- pedaqogika səviyyəsində elmi biliklərin inteqrasiyasının dərinləşdirilməsi;
- gələcək müəllimlərin psixoloji hazırlığının yaxşılaşdırılması və s.

Keçmiş SSRİ-də məktəb psixoloji xidmətinin təşkili sahəsində ilk işlər ötən əsrin 80-cı illərinin əvvəllərində Estoniyada **X.Y.Liymets** və **Y.L. Sıerdin** rəhbərliyi altında həyata keçirilmişdir. 1980-cı ildə L.Y.Sıerdin **“Məktəbdə psixoloji xidmət şəraitində testlərin tətbiqinə verilən**

**praktik tələblər haqqında,** 1983-cü ildə isə X.Y.Liymetsin **“Sovet pedaqoji sistemində məktəb psixoloji xidməti”** adlı əsərlərinin çap olunması bu sahədə görüləcək işlərə əhəmiyyətli təkan vermiş oldu. Elə həmin il “Məktəbdə psixoloji xidmət” adlı Ümumittifaq konfransı keçirildi. Bu cür işlər ölkənin digər regionlarında da başlasa da, onun təşkilati formalarının, məqsəd, vəzifə, metod və fəaliyyət formalarının müəyyənləşdirilməsində ziddiyyətlər mövcud idi. 1982-1987-ci illər ərzində Moskva məktəblərində psixoloq vəzifəsinin təsis edilməsi və məktəb psixoloji xidmətinin inkişafı üzrə 5 illik eksperiment tətbiq olundu. Moskva məktəblərində qoyulan bu eksperimentin məqsədi psixoloqun məktəbdə işi ilə bağlı nəzəri və təşkilati məsələlərin işlənib hazırlanmasından, məktəb psixoloji xidmət sisteminin yaradılması və onun sonradan xalq təhsili sisteminin bütün sahələrində həyata keçirilməsini təmin etməkdən ibarət idi. Həmin eksperimentin keçirilməsində çoxsaylı yaradıcı kollektivlər, məktəblərdə və rayon təhsil şöbələrində çalışan psixoloqlar qrupu iştirak edirdi. Eksperimentlərə rəhbərlik SSRİ PEA-nın Elmi Tədqiqat Ümumi və pedaqoji psixologiya İnstitutunun psixoloji xidmət laboratoriyasının əməkdaşlarına həvalə edilmişdi. Problemin nəzəri cəhətdən öyrənilməsi, elmi-metodik məsələlərin eksperimental tədqiqi və məktəb psixoloqlarının iş təcrübəsinin ümumiləş-dirilməsi o dövrdə SSRİ-də məktəb psixoloji xidmət konsepsiyasının yaradılmasına təminat yaratmış oldu.

Ötən əsrin 80-cı illərinin ortalarından başlayaraq Rusiyada gənc və inensiv inkişaf etməkdə olan bu sahəyə aid bir sıra əsərlər çap olundu. Onların sırasında **İ.V. Dubrovinanın** redaktorluğu altında çap olunmuş **“Məktəbdə psixoloji xidmət”** (M., 1984.), Y.K.Babanski, A.A. Bodalev və İ.V. Dubrovinanın redaktorluğu ilə buraxılmış **“Məktəb psixoloji xidmətinin elmi-praktik problemləri”** (M.,1987) kimi monoqrafiyaların, İ.V.Dubrovinanın **“Məktəbdə psixoloji xidmət”** (“Советская педагогика,” 1986, №1),

**“Məktəb psixoloji xidmətinin məqsəd və vəzifələri”** («Вопросы психологии», 1988, №5), L.A.Rodzixovskayanın “Psixologiya sahəsində praktik fəaliyyət haqqında” («Вопросы психологии», 1987, №3) və s. adlarını qeyd etmək olar.

Təhsil sistemində nəzəri və eksperimental tədqiqatlarını ümumiləşdirən rus psixoloqu İ.V.Dubrovina 1988-ci ildə **“Məktəb psixoloji xidmətinin inkişafının nəzəri və tətbiqi aspektləri”** mövzusunda doktorluq dissertasiyasını müdafiə etdi. Bu dövrdə rus psixoloqları məktəbdə psixoloji xidmət sisteminin təşkilinin ayrı-ayrı sahələrinə - psixodiaqnostika, psixokorreksiya, psixoloji məsləhətlərin təşkilinə aid bir sıra əsərlər çap etdirmişlər.

1987-ci ildə Moskva məktəblərində başa çatmış eksperimentlərin nəticələrinin təhlili, qiymətləndirilməsi və ümumiləşdirilməsinin yekunu olaraq o vaxtlar SSRİ-nin təhsil sistemində bu xidmət sisteminin tətbiqi zəruri hesab edildi və 1989-cu ildə **“Xalq Təhsili sistemində Psixoloji xidmət haqqında Əsasnamə”** hazırlanaraq bütün respublikaların təhsil nazirliklərinə göndərildi.

XXI əsrin əvvəllərindən başlayaraq Rusiyanın təhsil sistemində psixoloji xidmətin tətbiqi reallaşmışdır. Bu sahədə rus psixoloqlarından V.A. Rodionov, O.V.Kardaşina, M.V.Zinovyeva, A.L.Venqer, R.S.Nemov, E.İ.Roqov, O.A.Davıdenko, L.M.Fridman, A.V.Potapova, K.C.Nartova – Boçaver və b. fəaliyyətini xüsusi qeyd etmək olar.

### 1.2.3. Azərbaycanda yaş və pedaqoji psixologiya sahəsində aparılmış tədqiqatlar və onların məktəb təcrübəsi üçün əhəmiyyəti

Azərbaycanda psixologiya elminin inkişafı ötən əsrin 20-ci illərindən başlayaraq respublikada ilk ali təhsil müəssisələrinin açılması ilə sıx bağlıdır. 1919-cu ildə respublikada ilk ali təhsil müəssisəsi olan Bakı

Dövlət Universiteti, 1921-ci ildə isə ilk Pedaqoji İnstitut fəaliyyətə başlamışdır. Həmin ali məktəblərdə pedaqogika və psixologiya kafedraları və ilk psixologiya laboratoriyaları yaradıımışdır. Respublikada ilk psixologiya laboratoriyası görkəmli psixoloq F.İbrahimbəyovun rəhbərliyi ilə 1926-cı ildə Bakı Dövlət Universitetində təşkil olunmuş və burada xronoskop, taxistoskop, vizual adaptometr, audometr, erqoqraf və s. kimi psoxoloji cihazlar quraşdırılmışdır. Bu laboratoriya tələbələrin psixologiya fənni üzrə praktik məşğələlərini yüksək səviyyədə təşkil etməyə, ilk eksperimental tədqiqatlar aparmağa zəmin yaratmışdır. Belə laboratoriyalardan biri isə 1931-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, daha sonra isə Bakı Xalq Maarif Şöbəsi nəzdində açılmış, bununla da, respublikada psixologiya elmi sürətli inkişaf yoluna qədəm qoymuşdur.

1941-1945-ci illərin Böyük Vətən Müharibəsindən sonra, 1947-1948-ci dərs ilindən etibarən orta məktəblərin tədris planlarına Psixologiya fənninin daxil edilməsi bu fənni tədris edəcək ixtisaslı mütəxəssislərə böyük tələbat doğurmuşdur. Bu tələbatı təmin etmək üçün kadr hazırlığı məqsədi ilə elə həmin tədris ilindən etibarən Azərbaycan Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültələri nəzdində **məntiq - psixologiya şöbələri** yaradılmış və respublikada ilk dəfə olaraq ixtisaslı
psixoloq kadrların hazırlığına başlanılmışdır.

1957-ci ildə SSRİ Psixoloqları Cəmiyyətinin Azərbaycan şöbəsi təsis olunmuş,1958-ci ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda (İndiki Təhsil Problemləri İnstitutu) psixologiya laboratoriyası, bir qədər sonra isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda məktəbəqədər pedaqogika və psixologiya şöbəsi təşkil olunmuşdur. 1974-cü ildə ADPİ-də iki müstəqil kafedra-**ümumi psixologiya, yaş və pedaqoji psixologiya** kafedraları təşkil olunmuşdur. Sonralar respublikada pedaqoji təmayüllü

ali məktəblərin şəbəkəsi genişləndikcə həmin ali məktəblərdə də müvafiq olaraq psixologiya və pedaqogika kafedraları yaradılmışdır.

Respublikamızda psixologiyanın bir elm kimi inkişafı ötən əsrin 20-30-cu illərindən başlanmışdır və o dövrdə milli psixoloq kadrlar yox idi. Ona görə də, yeni açılmış ali məktəblərdə psixologiyanı rus alimləri, azərbaycanlı filosof, pedaqoq və nevropotoloqlar tədris edirdi. Onların sırasında A.O.Makovelski, Ə.K.Zəküzadə, F.Ə.İbrahimbəyov, H.B.Şaxtaxtinski, S.N.Hacıyev, V.İ.Mustafayev və başqalarının xidmətləri xüsusilə qeyd olunmalıdır. Həmin alimlərin yaxından köməyi və rəhbərliyi altında ilk milli psixoloq-alimlər hazırlanmışdır.

Kommunist-sovet hakimiyyətinin bütün dövrlərində məktəb, bütövlükdə təhsil sistemi hərtərəfli inkişaf etmiş, “sovet adamı”nın təlimi və tərbiyəsi məqsədlərinə xidmət edən ideoloji müəssisə rolunu oynayırdı. Ona görə də, bilik uğrunda mübarizə, təlim və tərbiyənin təxirəsalınmaz məsələlərinin həlli əhəmiyyətli dərəcədə pedaqoji kadr hazırlığının səviyyəsindən asılı idi. Ali və orta ixtisas müəssisələrində gələcək müəllim və tərbiyəçilərin peşə-ixtisas hazırlığı sistemində pedaqogika fənni ilə yanaşı, ümumi, yaş və pedaqoji psixologiyanın tədrisinə xeyli saat ayrılsa da, ötən əsrin 20-30-cu illərində məktəbdə psixologiya elminə yardımçı bir vasitə kimi baxıldığından məktəbin vacib və təxirəsalınmaz problemlərinin həllində özünün tətbiqi imkanlarını reallaşdıra bilmirdi. Təhsil sistemi həmin dövrdə psixoloji tədqiqatlar üçün də yeganə və əsas tətbiq sahəsi idi. Psixoloji tədqiqatlar müəllimə və məktəbə kömək məqsədlərinə istiqamətləndiyindən yaş və pedaqoji psixologiya elmləri sahəsində inkişaf daha sürətlə gedirdi. Professor Ə.Ə.Əlizadənin qeyd etdiyi kimi, bu dövrdə psixologiyanın əhəmiyyəti xalq təsərrüfatının heç bir sahəsində xalq maarifində olduğu kimi aydın təsəvvür edilmirdi. Başqa sözlə, respublikada yaş və pedaqoji psixologiyanın inkişaf vüsəti, necə deyərlər, bilavasitə praktikanın tələbatını ifadə edirdi.

1920-ci illərdə respublikada psixologiyaya aid bir neçə dərslik (Mühiddin. "Psixologiya", (Bakı, 1923;) A.Əfəndiyev."Fənni-tərbiyə", (Bakı, 1925;) A.O.Makovelski. "Pedoloji". (Bakı, 1929) nəşr olunsa da, onların əksəriyyəti həm elmi-metodoloji, həm də dil və terminoloji cəhətdən mükəmməl deyildi. 1946-cı ildə rus psixoloqu B.M.Teplovun orta məktəblər üçün yazdığı "Psixologiya" dərsliyi Azərbaycan dilinə tərcümə edildi. 1950, 1952, 1954-cü illərdə bu dərsliyin təkmilləşdirilmiş yeni tərcümə variantları hazırlandı ki, bu da Azərbaycan dilində olan psixoloji ədəbiyyata olan ehtiyacın təmin edilməsində və terminlərin inkişafı baxımından mühüm hadisə kimi qiymətləndirilir. Elə həmin il Azərbaycanın görkəmli psixoloqlarından biri S.H.Hacıyevin "Materialist psixologiyanın əsasları" adlı çox dəyərli əsəri çap olundu. 1948-ci ildən etibarən psixologiyanın orta məktəblərdə tədrisinə başlanıldı. 1957-ci ildə Azərbaycan psixoloqları ilk dəfə olaraq **"Pedaqogika və psixologiya terminləri"** adlı lüğət hazırlayaraq çap etdirdilər.

Qeyd etmək lazımdır ki, respublikamızda məktəbəqədər yaşlı uşaqların psixoloji xüsusiyyətlərinə aid ilk eksperimental əsər 1949-cu ildə ilk azərbaycanlı psixoloq qadın **M.N.Müstafayeva** tərəfindən yazılmışdır. **"Böyük bağça yaşlı azərbaycanlı uşaqlarda söz ehtiyatının inkişafı"** adlanan həmin əsər müəllifin dissertasiya tədqiqatının yekunu idi. Ötən əsrin 60-cı illərindən etibarən respublikamızda xeyli sayda milli psixoloq kadrlar çalışırdı. Onların sırasında F.Ə.İbrahimbəyovun, Ə.K.Zəküyevin, S.N.Hacıyevin, M.R.Abbasovun, M.C.Məhərrəmovun, Ş.S.Ağayevin, Ə.S.Bayramovun, M.S.Nəcəfovun, M.Ə.Həmzəyevin, Z.M.Mehdizadənin, Ə.Ə.Əlizadənin, Ə.Ə.Qədirovun və b. adlarını xüsusilə qeyd etmək lazımdır. 1960-1980-cı illərdə yaş və pedaqoji psixologiya sahəsində aparılan tədqiqatların əsas ağırlıq mərkəzi məhz onların çiyinlərində olmuşdur. Bütün bunların nəticəsidir ki, həmin illərdə Azərbaycanda bir sıra orijinal dərsliklər və dərs vəsaitləri, monoqrafiya

və kitablar yazılıb çap edilmişdir. Onların sırasında Ş.S.Ağayevin “Uşaq psixologiyası məsələləri” (B.,1966), “Əmək, tərbiyə və inkişaf” (B.,1967), M.Ə.Həmzəyevin “Ailədə uşaqların oyunlarına rəhbərlik” (B.,1965), Ə.Ə.Əlizadənin “Uşaqlarda diqqətin tərbiyə edilməsi” (B.,1962), “Uşaqlarda kollektivlik hissinin tərbiyə edilməsi” (B.,1963), “Yoldaşlıq və dostluq tərbiyəsi” (B., 1964), “Uşaqlarda yaradıcı fəaliyyətin psixologiyası” (B.,1968), “Ailədə uşaqların cinsi tərbiyəsi” (B.,1968), A.K.Abdullayevin “Uşaqlarda hafizənin inkişafı və təşəkkülü” (B.,1966), “Uşaqlarda temperament və hisslərin inkişafı” (B.,1966), Ə.Ə.Qədirovun “Uşaqlarda idrak proseslərinin inkişafı” (B.,1961), “Mədəni davranış və onun tərbiyəsi” (B.,1970), “Kiçik yaşlı məktəblilərdə mücərrədləşdirmənin inkişafı” (B.,1973), Ə.S.Bayramovun “Şagirdlərdə təfəkkürün inkişafı” (B.,1962), “Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsisiyyətləri” (B.,1967), “Uşaqlada əxlaqi hisslərin tərbiyəsi” (B., 1963), “Gənclik və özünütərbiyə haqqında söhbət” (B.,1967), A.U.Məmmədovun “Məktəblilərdə hafizənin xüsusiyyətləri” (B.,1974), Z.M.Mehdizadənin “Uşaqlarda təfəkkür və nitqin inkişafı” (B.,1966), “Faizlərin mənimsənilməsi psixologiyası” (B., 1961) kitabalrını və s. göstərmək olar.

Həmin illərdə psixoloq alimlərimiz tərəfindən bir sıra dərsliklər və dərs vəsaitləri hazırlanaraq çap olunmuşdur. Bunlara “Psoxologiya” (A.K.Abdullayev, Ş. S.Ağayev, Ə.K.Zəküyev, M.N.Mustafayeva) I hissə B., 1960, II hissə 1961., “Psixologiya (Ə.K. Zəküyev, F.Ə. İbrahimbəyov, M.C.Məhərrəmov, Ş.S.Ağayev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə) B.,1964., “Təlim psixologiyasının bəzi məsələləri” (M. Ə.Həmzəyev, Ş.M. Babayev) B., 1965, “Yaş və pedaqoji psixologiya məsələləri” (Ş.S.Ağayev, Ə.Ə.Əlizadə, Z.M.Mehdizadə, M.Ə.Həmzəyev) B., 1974, “Yaş və pedaqoji psixologiya” (Ş.S.Ağayev, Z.M.Mehdizadə, İ.A.Fərəcov) I hissə, B., 1977., (E.M.Quliyev, Q.E.Əzimov, Ə.Ə.Əlizadə) (II hissə, B.,1978., (Ə.K.Abdullayev, A.Y.Məmmə-dov, Ə.S.Bayramov, M.Ə.Həmzəyev) III hissə, B., 1981, “Ümimi psixologiya” (rus dilindən tərcümə) B.,1982, “Uşaq psixologiyası” (Z.M.Mehdizadə I hissə,

1982, II hissə 1984, III hissə 1988), "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi" (Ə.Ə.Əlizadə. B.,1986), "Yaş psixologiyası" (Ə.Ə.Qədirov, İ.N.Məmmədov. B., 1986), "Psixologiya" (Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. B., 1989) kimi dəyərli əsərləri nümunə göstərmək olar.

Ötən əsrin 90-cı illərindən başlayaraq respublikamızda müstəqilliyin bərpa edilməsindən sonra da alim pedaqoqların yaş və pedaqoji psixologiya sahəsində tədqiqatları daha geniş vüsət almış, sözün həqiqi mənasında milli ruhli psixologiya dərslikləri, dərs vəsaitləri və monoqrafiya-ların çap olunması sahəsində təqdirəlayiq işlər görülmüşdür.Ə.Q.Baxşəliyevin "Azərbaycanda psixoloji fikrin inkişafı" B.,1991, Ə.Ə.Qədirovun "Uşaqlarda idrak proseslərinin inkişafı" B.,1991, M.Ə.Həmzəyevin "Pedaqoji psixologiya" B.,1991, "Yaş və pedaqoji psixologiyanın əsasları" B., 2000, 2003, E.M.Quliyevin "Kiçik məktəblilərdə idrak proseslərinin inkişaf xüsisiyyətləri" B.,1995, "Kiçik məktəblinin psixologiyası",B.,2003, Ə.Ə.Əlizadə, Q.E.Əzimov, E.M.Quliyevin "Məktəblinin psixologiyası" ,B.,1990, Ə.Ə.Əlizadənin "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri", B.,1998, 2004, "Yeni pedaqoji təfəkkür", B.,2001, R.İ.Əliyevin "Şagird şəxsiyyətinin formalaş-masında milli xüsusiyyətlərin nəzərə alınması", B.,1995, "Psixologiya", B., 2002, "Tərbiyənin psixologiyası".B.,2003, "Məktəbdə psixoloji xidmətin aktual məsələləri". B., "Nurlan", 2004, Ə.Ə.Qədirovun "Yaş psixologiyası", B., 2002, A.U. Məmmədovun "Təlimin psixoloji əsasları" B., 1993, N.Z.Çələbiyevin "Uşaq psixologiyası" B, 2005, Ə.Ə.Əlizadənin "İstedadlı uşaqlar: Psixopedaqoji məsələlər. B., ADPU, 2005, Q.E.Əzimlinin "Yaş və pedaqoji psixologiyanın müasir problemləri". B., ADPU, 2006, A.O. Mehrabov və E.V. Bəylərovun "Testologiya və müasir təhsil"., B., "Adiloğlu", 2003, İ.Ə.Məmmədovun "Məktəbdə psixoloji xidmət. Psixoloji praktikanın elmi-metodik problemləri və yaradılması təcrübəsi. B., 2002, N.H.Əliyevanın "İdrak prosesləri və onların diaqnostikası" B., ADPU, 2008 və s. kimi dəyərli əsərlərin adlarını qeyd etmək olar. Həmin əsərlər həm ali və orta ixtisas

məktəblərində tələbələrin pedaqoji peçə hazırlığında, həm də onların psixoloji biliklərə yiyələnməsində faydalı bilgi mənbəyi olmuş və olmaqdadır.

### 1.2.4. Azərbaycanın təhsil sistemində psixoloji xidmətin təşkilində ilk təşəbbüslər və müasir vəziyyət

Ötən əsrin 80-cı illərinin sonunda təhsil sistemində psixoloji xidmətin təşkili dövrü başlandı. Praktik psixoloqların hazırlığı məsələsi qətiyyətlə qoyuldu. Kurslarda hazırlıq işi müxtəlif istiqamətdə aparılırdı. Bu nöqteyi nəzərdən aşağıdakı məsələlər xüsusi məna kəsb edirdi:

a) kursun tədris planının işlənməsi;

b) Bakı şəhərinin qabaqcıl müəllimləri arasında dinləyicilərin seçilməsi;

c) məruzə və seminarların aparılması üçün təcrübəli psixoloqların seçilməsi.

Kursun tədris planının hazırlığı praktik psixoloqun peşə fəaliyyəti xüsusiyyətləri aydın göstərilmiş “Əsasnamə”nin tələblərinə istiqamətləndirilmişdir. Praktik psixoloqların hazırlığına aid proqramın məzmunu 1984-cü ildə çap olunmuş “Əsasnamə” layihəsində açıqlanmışdır. “Əsasnamə”nin layihəsində bu kadrların iki il ərzində hazırlığı nəzərdə tutulmuşdu, lakin Bakı məktəblərinin ixtisaslı praktik psixoloqlarla təminedilmə tələbatı isə qısa müddət tələb edirdi. Vaxt tələsdirirdi. Kadrlar qıtlığı şəraitində ən optimal çıxış yolu altıaylıq təkmilləşmə kursları yaratmaq idi. Altıaylıq kursların tədris planına “Əsasnamə”də nəzərdə tutulmuş fənlər daxil edilmişdir – ümumi psixologiya, yaş psixologiyası, pedaqoji psixologiya, sosial psixologiya, psixodiaqnostika və psixokorreksiyanın əsasları və s. Dinləyiciləri kursa seçmək üçün Bakı məktəblərində hərtərəfli iş aparılmış, müsahibə yolu ilə 27 pedaqoq seçilmişdi. Bu kurslarda mühazirə və seminarları L.N.İsmayılova aparırdı. Dərslərin aparılmasına dosentlər İ.Ə.Seyidov, R.F.İbrahimbəyova, Z.A.Veysova və digərləri, eksperimentçi – müəllimlər A.İ.Vəliyeva, Z.M.Mustafayeva v. başqaları cəlb edilmişdi.

Sınaq məktəblərinin bazasında məktəb psixoloqlarının praktik hazırlığı kursları açıldı ki, bu da dinləyicilərin psixoloji təcrübəsinin artırılmasında mühüm rol oynadı. Həmin dövrdə respublikada 4200 orta təhsil müəssisəsi vardı. 1989-90-cı tədris ilində bu kursların dinləyiciləri praktik psixoloq kimi məktəblərdə fəaliyyətə başladılar. Bu, Azərbaycan psixologiya elminin və ölkənin təhsil sisteminin salnaməsində ən əlamətdar hadisələrdən biri idi.

"İlk psixoloqlar" - milli məktəb təhsili tarixində praktik psixologiyanın "prometey alovunu" gətirdilər. Praktik psixoloqların hazırlanması zərurəti artıq bütün aşkarlığı ilə hiss olunurdu. Respublikanın Təhsil Nazirliyi bunu nəzərə alaraq, Bakı Dövlət Universitetində, Bakı şəhər Pedaqoji Kadrların İxtisasartırma İnstitutunda (BPKİİ) doqquzaylıq kurslar təşkil etdi. 1994-1995-ci və 1995-1996-cı illərdə bu kursların təşkili Azərbaycan mərkəzi PKİİ-da mərkəzləşdirildi. Pedaqoji Kadrların İxtisasartırma İnstitutunda bu sahədə əsaslı və məhsuldar elmi-metodik iş aparıldı. Ümumnəzəriyyə və xüsusi fənlərdən (ümumi psixologiya və praktikumu, yaş, pedaqoji, sosial və tibbi psixologiya, psixologiyanın tarixi, psixofiziologiya, psixoprofilaktika, psixodiaqnostika, psixokorreksiya, psixoloji konsultasiya), həmçinin praktika, xüsusi kurs və xüsusi seminar üzrə tədris məşğələlərinin ümumi sayı 1200 saatdan ibarət olan geniş tədris olanı işləndi və müvəffəqiyyətlə həyata keçirildi.

Hazırda birillik kurslarda praktik psixoloqların hazırlığı və bu təcrübənin sonra genişləndirilməsi üçün əlverişli şərait yaradılmışdır. Bununla belə, hal-hazırda respublikanın 6 ali təhsil müəssisəsində - Baki Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan və Naxçıvan Müəllimlər İnstitutunda, Gəncə Dövlət Universiteti və Bakı Qızlar Universitetində psixlogiya və ya pedaqogika-psixologiya ixtisasları üzrə bakalavr pilləsində kadr hazırlığı həyata keçirilir. Bu təhsil müəssisələrinin qeyd olunan ixtisaslarına hər il orta hesabla 200 nəfər tələbə qəbul edilir.

1999-cu ildə BDU-da psixologiya fakültəsi açıldı və artıq beşinci ildir ki, uğurla işləyir. Prakrik psixologiya üzrə ixtisaslaşmış bəzi məzunlar Bakı məktəblərində işləyirlər. Bu sahədə yüksəkixtisaslı mütəxəssislər Azərbaycan Dövlət Pedaqoji Universitetində də hazırlanır.

Hazırda Bakı məktəblərində 300 nəfərdən artıq praktik psixoloq məhsuldar fəaliyyət göstərir. Respublika məktəblərində zamanın tələbləri səviyyəsində psixoloji xidmətin təşkili üçün onların təcrübəsinin öyrənilməsi və təhlili xüsusi əhəmiyyət kəsb edir.

2000-ci ildə yaradılmış Azərbaycan Müəllimlər İnstitutunda da 2003-cü ildə pedaqogika-psixologiya fakültəsi fəaliyyətə başlamışdır.

Azərbaycanda təhsil sistemində psixoloji xidmətin təşkili haqqında ilk elmi məlumata **M.Ə.Həmzəyevin** 1991-ci ildə "Maarif" nəşriyyatı tərəfindən çap olunmuş **"Pedaqoji psixologiya**" adlı əsərində rast gəlmək mümükündür. Həmin dəyərli dərs vəsaitinin sonuncu, yəni V fəsli **"Məktəbdə psixoloji xidmətin əsasları"** adlanır. Respublikamızda Xalq Təhsili Sistemində "Psixoloji xidmət haqqında Əsasnamə" 1990-cı ildə rus dilindən tərcümə olunaraq çap edildikdən bir il sonra nəşr olunmuş bu dərs vəsaitində praktik psixoloji xidmətin məqsəd və vəzifələri, funksiyaları, əsas istiqamətləri və bəzi psixodiaqnostik metodlar və onlardan istifadə yolları haqqında ilk və zəruri elmi-metodiki xarakterli məlumatlar yığcam şəkildə öz əksini tapmışdır.

Kitabın müəllifi M.Ə.Həmzəyev ilk dəfə olaraq bu əsərdə "psixoloji xidmət" anlayışının mahiyyətinə aydınlıq gətirmiş, məktəbdə psixoloji xidmətin zəruriliyini əsaslandıraraq yazmışdır ki, "müasir məktəbin qarşısında duran vəzifələri yerinə yetirə bilməsi üçün psixoloji köməyə ehtiyacı böyükdür. Biz tez-tez şagirdlərin təlimə münasibətinin zəifləməsi, tərbiyəlilik səviyyəsininin aşağı düşməsi, müəllim-şagird münasibətlərində, eləcə də, müəllim-müəllim, müəllim-valideyn münasibətlərində çətinliklərin olması barədə mülahizələrin şahidi oluruq. Şagirdlərin intellektual səviyyələrinin müxtəlifliyi, çətin tərbiyə olunan uşaqların xüsusiyyətləri müəllimdən onları hərtərəfli öyrənməyi və

düzgün yanaşmağı tələb edir... Uşaq psixologiyası və pedaqoji psixologiyanın nailiyyətlərinin məktəb təcrübəsinə tətbiqinin ən perspektiv yollarından biri xalq təhsili sisteminin bütün sahələrində psixoloji xidmətin təşkilindən ibarətdir. Bu cür xidməti həyata keçirmədən gənc nəslin təlim və tərbiyəsində istədiyimiz müvəffəqiyyətə nail ola bilmərik". Kitabda daha sonra müəllif məktəbdə psixoloji xidmətin əsas istiqamətləri haqqında yığcam məlumat verir, uşaqların məktəbə psixoloji hazırlığının diaqnostikası, "çətin" tərbiyə olunan şagirdlərlə və ailələrlə aparılan psixoloji işin xüsusiyyətlərini təhlil edir və bəzi psixodiaqnostik metodlar və onlardan istifadə yollarına aydınlıq gətirir. Müəllif əsərin sonunda bəzi intellekt testləri, temperamentin öyrənilməsi, iddia səviyyəsi və onun diaqnostikası məsələlərinə toxunmuş, müxtəlif testlərə daxil olan subtestlərdən nümunələr vermişdir.

Azərbaycanda bu sahədə çap olunmuş əsərlərdən biri də **İ.Ə.Məmmədovun** 1996-cı ildə "Gənclik" nəşriyyatı tərəfindən çap edilmiş **"Azərbaycan məktəblərində psixoloji xidmətin təşkili təcrübəsi və problemləri "** adlı kitabıdır. Bu kitab Azərbaycanda praktik psixoloji xidmətin təşkilinin aktual elmi-metodiki problemlərinə həsr olunmuşdur. Əsərdə ilk dəfə olaraq respublikamızda psixoloji xidmətin təşkilində ilk təşəbbüslər Bakı məktəblərində aparılan eksperimentlərin nümunəsində işıqlandırılmışdır.

Əsərin I fəsli "Azərbaycan məktəblərində psixoloji ideyaların tətbiqi və psixoloji xidmətin formalaşması" adlanır. Bu əsərdə müəllif Azərbaycanda yaş və pedaqoji psixologiya üzrə tədqiqatların məktəb təcrübəsinə tətbiqi imkanlarını nəzərdən keçirmiş, fasiləsiz məktəb psixoloji təhsili və respublikada məktəb psixoloqlarının hazırlanması sahəsindəki problemləri araşdırmışdır.

**"Tədris müəssisələrində psixoloji xidmətin elmi metodik məsələləri"** adlanan ikinci fəsildə müəllif psixoloji xidmət təcrübəsinin ilk mərhələsində qarşıda duran vəzifələri, meydana çıxan çətinlikləri təhlil etmiş, məktəbəqədər müəssisələrdə və məktəblərdə psixoloji xidmətin təşkilinin ilk

mərhələsində əldə edilən uğurlara və çatışmazlıqlara toxunmuş, psixoloji xidmətin elmi–metodik təminatı ilə bağlı problemləri təhlil etmişdir.

Əlavələr adlanan bölmədə I-X siniflər üçün "Psixoloji biliklərin əsasları" üzrə kursun nümunəvi proqram mövzuları verilmişdir.

Müəllif XX əsrin sonu, XXI əsrin əvvəllərində respublikanın təhsil müəssisələrində psixoloji xidmətin təşkili sahəsində meydana çıxan başlıca çətinlikləri **ixtisaslı praktik psixoloqların çatışmazlığı** ilə əlaqələndirmişdir. Öz fikrini rəqəmlərlə əsaslandıran psixoloq İ.Ə.Məmmədov qeyd edirdi ki, 1991-ci ildə ABŞ-da 150 min, keçmiş SSRİ-də 5 min, Respublikada isə cəmi 85 nəfər psixoloq vardı. Bunların da 98%-i ali məktəblərdə cəmlənmişdir.

1991-ci ildə Bakıda "**Psixologiya elmi və məktəb praktikası"** mövzusunda respublika elmi-praktik konfransı keçirilmiş mövcud nöqsanlar və çatışmazlıqlar ətraflı təhlil olunmuşdur.

Müəllif Estoniya və Rusiyada praktik psixoloji xidmətin təşkili təcrübəsinə toxunmaqla onların əldə etdikləri təcrübədən faydalanmağın zəruriliyi fikrini irəli sürmüşdür. Kitabda Azərbaycanda praktik psixoloji xidmətin təşkili sahəsində Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunun kabinet müdiri L.H.İsmayılovanın apardığı ilk eksperimentlər geniş təhlil olunmuş, nəticələr yüksək qiymətləndirilmişdir.

Məktəbəqədər uşaq müəssisələrində psixoloji xidmətin təşkili təcrübəsi adlanan bölmədə müəllif bu sahədə işin lazımı səviyyədə olmadığını qeyd etmiş, ixtisaslı kadrların çatışmazlığını əsas nöqsan kimi göstərmişdir. 6 yaşlı uşaqların məktəbə psixoloji hazırlığı məsələlərinə toxunan müəllif psixoloji hazırlığının dizqnostikasının təşkili təcrübəsinə istinad etmiş, Bakıdakı ayrı-ayrı məktəblərin bu sahədəki iş təcrübəsini təhlil etmişdir.

Respublikamızda Təhsil Sistemində psixoloji xidmətin təşkili ilə bağlı istiqamətverici, elmi-metodiki məzmunlu vəsaitlərin hazırlanması sahəsində ilk təşəbbüslərdən biri **R.H. Məmmədzadə** tərəfindən göstərilmişdir. Onun **"Təhsil müəssisələrində psixoloji xidmət"** adlı

(B., 1996) metodik vəsaitinin çap olunması o vaxtlar ilk təcrübə kimi diqqəti cəlb etmiş, sonralar daha məzmunlu elmi-metodik vəsaitlərin hazırlanmasına xeyli təkan vermişdir. 5 çap vərəqi həcmində olan bu vəsait girişdən və 3 bölmədən ibarətdir. Vəsaitin çap olunması o dövrdə məktəblərdə çalışan ilk praktik psixoloqların öz işlərini qurmaqda qarşılaşdığı çətinliklərin aradan qaldırılması zərurətindən doğmuşdu. Bu zərurəti əsaslandıran müəllif vəsaitin giriş hissəsində yazmışdır: “Hazırda respublikamızın bir sıra məktəblərində 200-dən çox praktik psixoloq işə başlamışdır. Onlar Azərbaycan ETPEİ, pedaqoji universitet və institutların elmi-pedaqoji kadrlarının köməyi ilə psixoloji xidmət işinin təşkilində müsbət nəticələr əldə edirlər. Yaranmış vəziyyət yaxın gələcəkdə psixoloji xidmət işinin məktəblərimizdə, hətta uşaq bağçalarımızda belə sistemli təşkilinə ümid etməyə əsas verir. Ancaq keçirilmiş müşavirələr, konfranslar, fərdi görüşlər göstərir ki, məktəb psixoloqları elmi-pedaqoji ədəbiyyatın çatışmazlığı, xüsusi metodik ədəbiyyatın olmaması ucbatından ciddi çətinliklərlə qarşılaşırlar”.

Vəsaitin I bölməsi “Təlim-tərbiyə prosesinin bəzi pedaqoji və psixoloji problemləri” adlanır. Bu bölmədə müəllif müstəqillik əldə edilənədək olan dövrdə təlim-tərbiyə sahəsindəki nöqsanları, onları doğuran səbəbləri təhlil etmiş, tərbiyə sahəsindəki boşluqların səbəblərinin bir çoxunun onun aktual problemlərinin elmi cəhətdən tam işlənmiş konsepsiyalarının olmamasında görmüşdür. O, müasir şəraitdə tərbiyəvi mikrosistemin, bu sistemə daxil olan fəaliyyət növləri və məhsuldar işləyən komplekslərin fəaliyyətlərinin gücləndirilməsi zərurətini xüsusi vurğulanmışdır. Müəllif əsərin II bölməsini “Psixoloji xidmətin strukturu, fəaliyyətinin məzmunu” adlandırmışdır. O, haqlı olaraq qeyd edir ki, hər şeydən əvvəl dünya təcrübəsi əsasında respublikamızda uşaq təlim-tərbiyə müəssisələrinin psixoloji xidmət strukturunun işləyən modeli hazırlanıb tətbiq edilməlidir”. Bu bölmədə həm uşaq bağçasında, həm

də məktəbdə həyata keçiriləcək psixoloji xidmət işinin məzmunu, psixodiaqnostika və psixoloji məsləhətlər üzrə işin təşkili məsələlərinə aydınlıq gətirilmiş, məktəb psixoloqunun iş planının nümunəsi verilmişdir. Prof. R.Məmmədzadənin bu vəsaitində III bölmə “Məktəb psixoloqları hazırlanmasının psixodiaqnostik prinsipləri” adlanır. Müəllif bu bölmədə psixologiya elmi ilə pedaqoji təcrübə arasındakı əlaqənin zəif olması fikrini irəli sürməklə, məktəblərdə çalışan praktik psixoloqların psixodiaqnostika və psixokorreksiya sahəsində hazırlıq səviyyələrinin aşağı olmasını qeyd etmiş, tətbiqi istiqamətdə işlərin zəif qurulduğunu göstərmişdir. Psixoloq kadrların hazırlığı məsələlərinə xüsusi önəm verən müəllif bu sahədə texnoloji amillərin yeniləşdirilməsi zərurətini xüsusi olaraq qeyd etmişdir. Tanınmış psixoloq alim Ə.Ə.Əlizadənin **“Müasir Azərbaycan məktəbinin psixoloji problemləri”.** (Bakı, “Pedaqogika”, 2004, 27 ç.v.) adlı monoqrafiyasının VII hissənin III bəndi “Psixoloji xidmətin üfüqləri” adlanır.

Görkəmli professor Ə.Ə.Əlizadə bu fundamental əsərində dünyada psixoloji xidmətin meydana gəlməsi tarixinə, respublikada bu sahədə görülən işlərə aydınlıq gətirmiş, 1990-1991-ci illərdən başlayaraq respublikada bu sahədə görülən işlərdən psixoloji xidmətin aktual elmi, tətbiqi və praktik məsələlərindən ətraflı bəhs etmiş milli testlərin və xüsusi proqramların hazırlanmasının zəruriliyi fikrini ön plana çəkmişdir.

Professor Ə.Ə.Əlizadə yazır: Respublikamızda psixoloji xidmətin gələcəkdə daha da genişlənməsi...vüsətlə inkişaf etməsi bəlkə də bütövlükdə psixologiya elminin özünün taleyi məhz bu ilk təcrübənin nə qədər uğurlu olmasından asılı olacaqdır”. Haqlı olaraq “Psixoprofilaktika sahəsində məktəblərimizdə səmərəli iş aparılmır” deyən professor test nəzəriyyəsinin tarixinə, testologiyaya istinad edərək qeyd edir ki, testlər son zamanlar ictimai təcrübənin müxtəlif sahələrinə geniş nüfuz etməyə başlayıb. Bu şəraitdə respublikamızın gənc psixoloqları testologiya təcrübəsini həvəslə öyrənir,

hətta onların bir çoxundan bu və ya digər dərəcədə öz tədqiqatlarında istifadə edirlər.

“Məktəb psixoloqlarının böyük əksəriyyəti isə testologiya nəzəriyyəsi ilə nəinki dərindən tanış deyildir, həm də bu sahədə onların kifayət qədər təcrübəsi yoxdur. Azərbaycanın psixoloq alimlərindən prof M.Ə.Həmzəyevin 2003- cü ildə “Adiloğlu” nəşriyyatı tərəfindən çap olunmuş **“Yaş və pedaqoji psixologiyanın əsasları”** adlı dərs vəsaitinin ( 17, 62 ç.v.) II fəslinin V yarımfəsli “Məktəbə psixoloji xidmətin əsasları” adlanır.

Həmin kitabında qeyd olunan fəslində məktəbdə psixoloji xidmətin məqsədi və vəzifələri, onun aktual və perspektiv istiqamətləri haqqında məlumat verilmiş, psixoloji xidmətin təşkili prinsipləri, həyata keçirilməsi mərhələlərindən geniş bəhs olunmuşdur.

Müəllif məktəbdə psixolojim xidmətin təşkilində əsas tələb kimi aşağıdakı prinsiplərin adını qeyd etmişdir:

1. Sistemli məqsədəuyğunluq prinsipi;
2. Tamlıq prinsipi;
3. Peşə-pedaqoji fəallıq prinsipi;
4. Kifayət qədər məhdudluq prinsipi;
5. Qarşılıqlı əlaqə prinsipi;
6. İnkişaf prinsipi.

Vəsaitdə məktəbdə psixoloji xidmətin funksiyaları və əsas istiqamətlərinə xeyli yer verilmiş 5 əsas istiqamətin adı qeyd olunmuşdur. (psixoprofilaktik, konsultativ, diaqnostik, korreksiya və yardımçı işlər).

Müəllif ayrı-ayrı iş sahələrinin məqsədi, məzmunu və vəzifələrindən yığcam şəkildə bəhs etmiş, qeyd olunan iş sahələri üzrə praktik psixoloqun vəzifələrini konkret şəkildə göstərmişdir.

Əsərdə uşaqların məktəbə hazırlığının diaqnostikasının keçirilməsi məsələlərindən, bu məqsədlə psixoloqun istifadə etməli olduğu metod və

metodikalara geniş yer verilmişdir. Kitabda çətin tərbiyə olunan uşaqlar və ailələrlə aparılacaq işlərə də müəyyən yer ayrılmışdır.

Psixoloq M.Ə.Həmzəyev həmin kitabda bəzi psixodiaqnostik metodları və onlardan istifadə yolları məsələlərinə diqqət yetirmiş, 7-10 yaşlı uşaqlarda əqli inkişaf səviyəsini müəyyənləşdirmək məqsədilə tətbiq olunan testlərdən həmçinin, diqqət, hafizə, təfəkkürün inkişaf səviyyəsini öyrənmək üçün tətbiq olunan testlərdən, temperament və iddia səviyyəsinin diaqnostikasının keçirilməsinə aid metodikalardan nümunələr vermişdir.

Psixoloji xidmət işinin təşkilinə aid çap olunmuş vəsaitlərdən biri Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunun Psixologiya kabinetinin müdiri **Ə.X.Zeynalabdinovanın** 2003-cü ildə çap olunmuş **"Məktəbdə psixoloji xidmətin praktik məsələləri"** adlanır. Kitabda Nəsimi rayonu 14 saylı orta məktəbin psixoloqu Nəzimə Zeynalovanın 2001-2002-ci dərs ili üçün iş planının, Yasamal rayonu 18 № -li məktəbin psixoloqu A.Ağayeva, 161 saylı məktəb psixoloqu G.Hüseynova, Səbayil rayonu 189 saylı məktəbin psixoloqu R.Allahverdiyeva, Suraxanı rayonu 114 saylı məktəbin psixoloqu R.Hüseynava, Nizami rayonu 70 saylı məktəbin psixoloqu Ş.Vəliyeva, Nizami rayonu 214 saylı məktəbin psixoloqu G.Namazova, Əzizbəyov rayonu 117 saylı məktəbin psixoloqu L.Məmmədova və başqalarının iş təcrübəsindən nümumələr öz əksini tapmışdır.

Vəsaitdə idraki və inkişafetdirici intellektual oyunlar, məntiqi tapşırıqlara aid nümunələr və testlər, sorğular, əqli fəaliyyətin inkişafı, emosional sferanın öyrənilməsi, şəxsiyyətin tədqiqi metodları, fərdi fərqlərin öyrənilməsi, peşə seçimi məsələləri, peşə hazırlığı sorğusuna aid test-sorğu, psixoloqun müəllimlərlə iş texnologiyası, valideynlərlə iş, psixokorreksiyaya aid müəyən materiallar da vetilmişdir.

Psixologiya elmləri doktoru **İ.Ə.Məmmədovun** 2003-cü ildə "Pedaqogika" nəşriyatı tərəfindən **"Məktəb psixoloqunun məlumat kitabı"** (16,5 ç.v.) vəsaiti buraxılmışdır. Bu kitab Azərbaycan Respublikasının

Dövlət Rəmzləri haqqında qısa məlumatlarla açılır. Kitabın giriş hissəsində dövlət gerbi haqqında məlumat, himnin mətni verilmişdir. Sorğu-məlumat xarakteri bu kitabda respublikanın orta ümumtəhsil məktəblərində psixoloji xidmətin təşkili sahəsində təsəbbüslər, "Azərbaycan Praktik Psixoloqlar Assosiasiyası"nın yaradılması, (1998-16 iyun) onun strukturu, iş formaları, əməkdaşlıq etdiyi təşkilatlar və Assosiasiya xətti ilə həyata keçirilən tədbirlər, xarici ölkələrlə əməkdaşlığı haqqında qısa məlumatlar verilmişdir. Müəllif İ.Ə.Məmmədov kitabda **Azərbaycan Praktik Psixoloqlar Assiossiyasının** təsis etdiyi **"Məktəb psixoloqu"** qəzeti, (2001-ci il) onun yaranması tarixi haqqında oxucuları məlimatlandırır, psixoloqun peşə fəaliyyətinə qoyulan tələblər, məktəb psixoloqunun işinin təşkili xüsusiyyətləri, onun iş sənədləri haqqında yığcam məlumat vermişdir. Müəllifin məktəb psixoloqunun bir günlük və illik iş planına aid nümunəni verməsi fikrimizcə, praktik psixoloqun işinin təşkilində istiqamətverici əhəmiyyətə malikdir və təqdir olunmağa layiqdir.

Məktəb praktik psixoloqu üçün etibarlı bələdçi olan bu kitab özünün praktik dəyərinə görə məzmunlu və əhəmiyyətli bir vəsait hesab olunmalıdır.

Müəllif bu vəsaitdə dərsin psixoloji təhlilinə aid sxem, dərs cədvəlinin psixoloji təhlilini, onun tərtibinə verilən əsas psixoloji -pedaqoji tələblərdən bəhs etmiş, şagirdin tibbi-psixoloji xəritəsinə və onun psixoloji xarakteristikasına aid sxem nümunələri vermişdir.

Kitaba məktəbdə psixoloji xidmətin təşkili məsələləri, məktəb psixoloqunun müəllim, şagird və valideynlərlə qarşılıqlı iş təcrübəsindən, eləcə də, müxtəlif test və metodikalardan nümunələr daxil edilmişdir. Kitabda Bakı məktəblərində çalışan qabaqcıl psixoloqların fəaliyyətinə aid nümunə və materiallara da rast gəlinir. Kitabın sonunda dünyada tanınmış 40 nəfər psixoloq haqqında yığcam məlumat və 200 psixoloji terminin izahı da öz əksini tapmışdır.

Vəsaitdə psixodioqnostika, psixokorreksiya və psixoloji yardım (konsultasiya) haqqında qısa məlumat, bu istiqamətdə görüləcək işlərə aid müxtəlif test, anket və sorğu nümunələri də diqqəti cəlb edir.

Respublikamızın təhsil sistemində psixoloji xidmətin təşkilində zəruri elmi və metodik vasitələrin hazırlanması sahəsində ilk təşəbbüslərdən biri L.S.Əmrahlıya məxsusdur. Onun 2003-cü ildə "Nərgiz" nəşriyyatı tərəfindən çap olunmuş **"Məktəbə hazırlığın psixodiaqnostikası"** (11,7 ç.v.) və adlı kitabı təhsil sistemində çalışan psixoloqların işinin təşkilində faydalı rol oynayır.

L.Ş.Əmrahlının bu kitabında uşaqların məktəb təliminə hazırlığının elmi-nəzəri məsələləri, bu məqsədlə tətbiq edilən etibarlı diaqnostik müayinə metodları öz əksini tapmışdır. Müəllif IV fəsildən ibarət olan həmin əsərində məktəb təliminə hazırlıq mərhələsində uşağın psixi inkişafının ümumi məsələlərinə toxunmuş, çoxsaylı psixodiaqnostik metodlar, onlardan istifadə qaydalarına və psixodiaqnostikanın keçirilməsinə verilən tələbləri əks etdirmişdir. Əsərin sonuncu fəslində uşaqların məktəbə psixoloji hazırlığı üzrə nümunələr verilmiş, müxtəlif testlər və metodikalarla işin təşkili qaydaları şərh olunmuşdur.

Həmin müəllifin "Psixoloji xidmətin əsasları" (I kitab, B., 2006, 17,5 ç.v.) adlı əsəri 3 əsas fəsildən və onlara daxil edilmiş 37 yarımfəsildən ibarətdir. Əsərin ön sözünün müəllifi professor Ə.Ə.Əlizadə kitab haqqında yazmışdır: "L.Ş.Əmrahlının "Psixoloji xidmət" kitabı... tədris vəsaiti üslubunda yazılıb və psixoloji xidmətin əsaslarının açıqlanmasına həsr olunub".

Müəyyən psixoloji məzmunlu illüstrativ materiallarla müşayət olunan kitabda müəllif sistemli yanaşma prinsipini əsas tutmuş, I fəsildə psixoloji xidmətin nəzəri məsələlərini, II fəsildə psixoloji xidmət işinin 6 əsas istiqaməti üzrə işin sistemini, sonuncu, III fəsildə isə uşaqlarla psixoloji xidmətin təşkili məsələlərini müəyyən səviyyədə, elmi-nəzəri, praktik və tətbiqi cəhətdən şərh

etmişdir. Əsər məktəbəqədər yaşlı uşaqlarla psixoloji xidmət işinin təşkilinə həsr olunmuşdur.

“Kiçik yaşlı məktəblilərlə psixoloji xidmətin təşkili” adlanan sonuncu bölmədə müəllif müxtəlif diaqnostik və korreksion metodikalar haqqında məlumat vermişdir. Bir sıra qüsurlara baxmayaraq qeyd olunan bu kitab milli təhsil sistemimizdə formalaşma mərhələsində olan psixoloji xidmət işinin təşkili sahəsində faydalı təşəbbüslərdən biri kimi qiymətləndirilə bilər.

### II fəslə aid suallar və tapşırıqlar

1. *Uzaq xarici ölkələrdə psixoloji xidmətin meydana gəlməsində psixoloq alimlərin fəaliyyətini təhlil edin.*
2. *Pedologiya və praktik uşaq psixologiyası elmlərinin predmeti və vəzifələri hansılar idi?*
3. *Test nəzəriyyəsi və təcrübəsinin yaradılmasında xüsusi rolu olan psixoloqlar kimlərdir? Onların bu sahədəki fəaliyyətinin qısa səciyyəsini verin.*
4. *ABŞ-da yaranmış “Qaydens” psixoloji xidmət modelinin mahiyyətini izah edin. Onun qarşısında duran əsas məqsəd və vəzifələr hansılardır?*
5. *Rusiyada praktik uşaq psixologiyasının meydana gəlməsi şəraitini şərh edin. Bu ölkədə pedoloji tədqiqatların ilk təşəbbüskarları kimlər idi?*
6. *Keçmiş SSRİ-də təhsil sistemində psixoloji xidmət işinin təşkilinə ilk cəhdlər hansı dövrə təsadüf edir? Bu sahədə tədqiqatların mahiyyətini izah edin.*
7. *Müasir dövrdə Rusiyada təhsil sahəsində psixoloji xidmətlə bağlı tədqiqatların vəziyyətini qısa şəkildə şərh edin.*
8. *Azərbaycanda yaş və pedaqoji psixologiyasahəsində ilk tədqiqatlar hansı dövrə təsadüf edir?*
9. *Respublikamızda psixologiyanın bir elm sahəsi kimi inkişafında xidmətləri olan alimlər kimlərdir? Onların hansı əsərlərini tanıyırsınız?*

*10. Azərbaycanda təhsil sistemində psixoloji xidmət işinin təşkilinə ilk təşəbbüslər hansı dövrə təsadüf edir? "Təhsil sistemində psixoloji xidmət" haqqında Əsasnamə nə vaxt təsdiq edilmişdir?*
*11. Azərbaycanda psixoloji xidmətin təşkili ilə bağlı hansı əsərlər çap olunmuşdur?*
*12. Bu sahədə Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunun və Bakı məktəbləri müəllimlərinin fəaliyyəti nədən ibarət olmuşdur?*
*13. Məktəb psixoloqların hazırlanması sahəsində atılan ilk addımları və müasir psixoloq kadrların hazırlanması vəziyyətini şərh edin.*

III fəsil.

# Təhsil sistemində praktik psixoloqun fəaliyyəti

## 1.3.1. Azərbaycan Respublikasının təhsil sistemində psixoloji xidmət haqqında "Əsasnamə" və onun quruluş prinsipləri

Azərbaycan Respublikasının təhsil sistemində psixoloji xidmətin təşkilinə təxminən 20 il bundan əvvəl başlanmışdır. 1988-ci ildə SSRİ PEA-nın Elmi-Tədqiqat Ümumi və Pedaqoji Psixologiya İnstitutu tərəfindən hazırlanmış və İ.V.Dubrovinanın redaktorluğu ilə 1989-cu ildə nəşr edilmiş **"Xalq Təhsili Sistemində Psixoloji Xidmət haqqında Əsasnamə"** 1990-cı ildə Azərbaycan dilinə tərcümə edilərək Respublikanın təhsil müəssisələrinə çatdırılmışdır. Həmin "Əsasnamə" ikinci dəfə 1999-cu ildə təkrarən nəşr olunmuşdur. "Əsasnamə" 6 bölmədən ibarətdir. "Ümumi müddəalar" adlanan I bölmədə qeyd olunmuşdur ki, **məktəb psixoloji xidməti təhsil sisteminin zəruri tərkib hissəsidir**. Psixoloji xidmət məktəbin təlim-tərbiyə işlərinin səmərəliliyinin yüksəldilməsinə və sosial cəhətdən fəal şəxsiyyətin formalaşmasına imkan yaradır. Əsasnamədə psixoloji xidmətin təhsil sisteminə daxil olan müxtəlif müəssisələrdə - uşaq bağçası, orta ümumtəhsil məktəbi, texniki peşə məktəbi, texnikum, uşaq evləri və internat tipli məktəblərdə təşkili nəzərdə tutulur. Təhsil sistemində psixoloji xidmət işi üç əsas vəsilədən ibarət olan bütöv bir sistemi əks etdirir:

-təlim-tərbiyə müəssisəsində işləyən praktik uşaq psixoloqu;

- rayon, şəhər təhsil şöbəsi və idarələrinin psixoloji kabineti;
- respublika üzrə təhsilin psixoloji xidmət mərkəzi.

Praktik uşaq psixoloqu öz fəaliyyətini təlim-tərbiyə müassisəsinin kollektivi və valideynlərlə sıx əlaqədə həyata keçirir. Müəssisədə işləyən psixoloq müəllim və tərbiyəçilərlə sıx qaşılıqlı əlaqədə, əməkdaşlıq şəraitində işləməli, onların fəaliyyəti bir-birini tamamlamalıdır. Psixoloji xidmət işi öz mahiyyətinə görə **tibbi və defektoloji xidmət** növləri ilə

sıx bağlıdır. Psixoloq öz fəaliyyətini **uşağa hamilik və qəyyumluq orqanlarının, ictimai təşkilatların** rəyi və mənafeyi ilə uzlaşdırmağı bacarmalı, həmin müəssisələrlə qarşılıqlı münasibətlərini **bərabərlik** və **mövqelərin bir-birini qarşılıqlı surətdə tamamlaması** əsasında qurmalıdır.

"Əsasnamə"nin "Təhsil sahəsində xidmət işinin məzmunu" adlanan II bölməsində praktik psixoloji xidmət işinin ayrı-ayrı istiqamətlər (psixoprofilaktika, psixodaqnostika, inkişafetdirici və korreksiya işi, kosultativ iş) üzrə məqsədi, mahiyyəti və qarşıda duran vəzifələr əks olunmuşdur. Psixoloji xidmət işinin məqsədlərinə uyğun olaraq üç əsas cəhət ön plana çəkilmişdir:

- hər bir yaş mərhələsində uşaqların hərtərəfli şəxsi və intellektual cəhətdən təmin etməyin zəruriliyi, onlarda özünütərbiyə və özünüinkişaf qabiliyyətlərinin formalaşdırılması;
- hər bir uşağa fərdi yanaşmanın təmin edilməsinin zərulilivi və buna uyğun olaraq, uşaqların psixoloji-pedaqoji cəhətdən öyrənilməsinin əhəmiyyəti;
- uşaqların intellektual və şəxsi inkişafı sahəsində normadan kənara çıxma hallarının profilaktikası və aradan qaldırılması sahəsində əməli işlərin həyata keçirilməsi:

Təhsil sistemində praktik psixoloji xidmətin həyata keçirilməsi "Əsasnamədə" 4 əsas istiqaməti əhatə edir.

I. Psixoprofilaktik iş;
II. Psixodiaqnostik iş;
III. İnkişafetdirici və psixokorreksiya işi;
IV. Konsultativ iş.

"Əsasnamə"də praktik psixoloqun fəaliyyətini əks etdirən həmin konkret istiqamətlər üzrə həm uşaqlarla, həm də müəllim, tərbiyəçi və valideynlərlə aparılacaq işlərin məzmunu konkret şəkildə qeyd olunmuşdur.

“Əsasnamə”də **psixoprifilaktik işlər** psixoloji xidmət sisteminin ən başlıca istiqamətlərindən biri kimi qiymətləndirilir. Qeyd olunur ki, bu istiqamətin vəzifələri pedaqoqlarda və uşaqlarda psixoloji biliklərə tələbat, onlarda özünüinkişaf naminə həmin biliklərdən istifadə etmək arzusu formalaşdırmaq, hər bir yaş mərhələsində uşağın hərtərəfli psixi inkişafı üçün şərait yaratmaq, şəxsiyyətin və intellektin təşəkkülü prosesində baş verə biləcək pozğunluqların vaxtında qarşısını almaq zərurəti ilə müəyyən olunur. Psixoprofilaktik işlər yalnız uşaq, yeniyetmə və gənclərlə deyil, həm də onların şəxsiyyətinin formalaşmasında təsiri olan müəllim və tərbiyəçilərlə, valideynlərlə və digər yaşlılarla aprılır.

Təhsil müəssisələrində fəaliyyət göstərən praktik psixoloqun psixoprifilaktika istiqamətində həyata keçirməli olduğu tədbirlər 9 əsas qrupda cəmləşdirilmişdir.

**Psixoprifilaktik istiqamətin vəzifələri** sırasında psixoloji biliklərə tələbat, uşağın hərtərəfli psixi inkişafı üçün şəraitin yaradılması, şəxsiyyətin və intellektin təşəkkülü prosesində baş verə biləcək pozğunluqların və normadan kənara çıxma hallarının vaxtında qarşısının alınması vacib tələb kimi irəli sürülmüşdür. “Əsasnamə”də praktik psixoloqun aparacağı psixoprifilaktika xarakterli işlər uşaqların həyatının ilk dövründən başlamaqla, məktəbəqədər tərbiyə müəssisələrində praktik uşaq psixoloqunun işinin məzmununu əks etdirir. Burada uşaqların bağçaya adaptasiyası, bir yaş qrupundan digərinə keçidlə bağlı yaranan çətinliklərin aradan qaldırılması 6 yaşlı uşaqların məktəbdə təlimə cəlb edilməsi ilə bağlı meydana çıxan problemlərin həlli kimi məsələlər məktəbəqədər müəssisələrdə psixoprifilaktik işin əsas məzmunu kimi əks olunmuşdur.

Məktəb təliminin ayrı-ayrı pillələrində (ibtidai təhsil, əsas təhsil, orta təhsil) uşaq, yeniyetmə və gənclərin təlimi, tərbiyəsi və inkişafı ilə bağlı olaraq psixoloqun qarşısında duran psixoprifilaktik işlər aşağıdakı şəkildə müəyyənləşdirilmişdir:

- uşaqları məktəb təliminə yaxşı uyğunlaşdırmaq, məktəb təlimi prosesində onların hərtərəfli və ahəngdar inkişafını təmin etmək məqsədilə müəllimlərlə birgə fərdi iş proqramlarının hazırlanması və həyata keçirilməsi;

- təhsilin ibtidai pilləsindən əsas pilləyə, əsas pillədən isə orta pilləyə keçidlə bağlı meydana çıxan çətinliklərin öyrənilməsi, yeni pilləyə adaptasiya ilə əlaqədar müəllim, tərbiyəçi və valideyinlərlə birlikdə fərdi iş proqramlarının müəyyənləşdirilməsi;

- uşaqların həyat şəraiti, tərbiyəsi və təlimi ilə əlaqədar onlarda yarana biləcək psixoloji gərginlik hallarının və nevrotik pozğunluqların qarşısının alınması;

- uşaq və yeniyetmələrin davranış və inkişafını psixoloji cəhətdən təhlil etməklə, onların fərdi xüsusiyyətlərinin, meyl və qabiliyyətlərinin tam şəkildə öyrənilməsi məqsədilə pedaqoji konsiliumların keçirilməsi;

- uşaq təlim-tərbiyə müəssisələrində əlverişli psixoloji iqlimin yaradılması;

- pedaqoqların peşə fəaliyyəti üçün zəruri olan kommunikativ vərdişlərin inkişaf etdirlməsi üçün şəraitin yaradılması, pedaqoji kollektivdə psixoloji gərginlik hallarının aradan qaldırılması üçün tədbirlərin görülməsi.

Praktik psixoloqun fəaliyyətinin ən mühüm, həm də mürəkkəb sahələrindən biri **psixodiaqnostik iş** adlanır.“Əsasnamə”də psixodiaqnostika üzrə aparılan işlərin sistemi verilmiş, bu istiqamətdə aparılacaq işlərin qarşısında konkret olaraq aşağıdakı vəzifələr qoyulmuşdur:

- **zəruri hallarda** uşağın psixi inkişafının gedişini, inkişafın yaş normativlərinə müvafiqliyini diaqnostik müayinə metodları vasitəsilə müəyyən etmək;

- tərbiyə işi prosesində fərdi yanaşmanı təmin etmək, şagirdlərin peşə və şəxsiyyət yönümündə özünütəyinetmə imkanlarının inkişafına kömək göstərmək, onların maraq, meyl və qabiliyyətlərinin inkişaf səviyyəsini aşkara çıxarmaq;

- uşaqların yaşlılar və yaşıdları ilə ünsiyyətinin diaqnostikasını aparmaq, ünsiyyət pozulmalarının psixoloji səbəblərini müəyyənləşdirmək;

- müvafiq profilli mütəxəssislərlə birlikdə tibbi və defektoloji təbiətə malik pozğunluqların müəyyənləşdirilməsi;

- sosial davranış xarakterli pozğunluqların forma və səbəblərinin müəyyənləşdirilməsi, psixi inkişafda özünü göstərən müxtəlif kənaraçıxma hallarının diferensial diaqnostikasının həyata keçirilməsi.

**“Əsasnamə”nin İnkişafetdirici və korreksiya işi** adlanan bölməsində praktik psixoloqun bu istiqamət üzrə aparacağı işlərin, həyata keçirəcəyi tədbirlərin qısa məzmunu qeyd olunmuşdur. Burada göstərilmişdir ki, bu istiqamət uşağın şəxsiyyətinin fərdi xüsisiyyətlərinin formalaşmasında psixoloq fəal təsir mövqeyinə malik olmalıdır. Uşağın inkişafının onun üçün müvafiq olan yaş normasına çatdırılması məqsədilə inkişafetdirici-korreksiya işlərinin müstəsna təsiri vardır. Psixi inkişafda geriləmə, ləngimə və kənaraçıxma kimi patoloji halların aradan qaldırılması üçün tərtib edilən proqramlar psixodiaqnostikanın keçirilməsi nəticəsində əldə edilmiş qənaətlərə əsaslanmalıdır. “Əsasnamə”də psixokorreksiya işinin məzmununda aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- hər bir yaş mərhələsində uşağın inkişaf perspektivini nəzərə almaqla, ayrı-ayrı psixi funksiya və xassələrin, bütövlükdə şəxsiyyətin inkişafına yönəldilmiş proqramlar işləyib həyata keçirmək;

- uşağın psixi inkişafındakı pozğunluqların aradan qaldırılması məqsədilə korreksiyaedici proqramların işlənilməsi və həyata keçirilməsi;

- uşaqlarla fərdi və qrup halında tərbiyə üzrə inkişafetdirici- korreksiya işlərinin aparılması.

Məktəb praktik psixoloqunun peşə fəaliyyətində **konsultativ iş** üzrə istiqamətin özünəməxsus məzmunu vardır. Peşəkar fəaliyyəti yerinə yetirən psioxoloq bu istiqamətdə “Əsasnamə”də qeyd olunan aşağıdakı konkret vəzifələrin icrasına nail olmalıdır:

- uşaqların təlimi və tərbiyəsi, əməkdaşlıq pedaqogikası problemləri ilə əlaqədar problemlərin həllində müəssisənin rəhbərliyinə, müəllimlərə, tərbiyəçilərə, valideynlərə və ustalara məsləhətlərin verilməsi;

- təlim, inkişaf, peşə və həyati özünütəyinetmə, qarşılıqlı münasibətlər, özünütərbiyə və s. problemlər üzrə uşaqlara fərdi və qrup şəklində məsləhətlərin verilməsi;

- müxtəlif iş formalarından istifadə etməklə pedaqoqların, tərbiyəçilərin, valideynlərin və ictimaiyyət nümayəndələrinin psixoloji mədəniyyətinin yüksəldilməsinə kömək etmək;

- xalq məhkəmələrinin işi, himayə və qəyyumluq orqanlarının fəaliyyətində, xüsusilə uşağın gələcək taleyi, psixi vəziyyəti, psixi imkanlarının xüsusiyyətləri haqqında məsələ həll olunarkən (xüsusi tədris-tərbiyə müəssisəsinə göndərilmə, valideynlik hüququndan məhrumetmə, övladlığa götürmə və s. ) ekspert-məsləhətçi rolunda çıxış etmək;

- uşaqların təlim-tərbiyə müəssisələrində, müxtəlif uşaq-gənclər birlikləri və təşkilatlarında tərbiyə şəraitinin psixoloji təhlilini vermək, işlərin asanlaşdırılması, özünüidarənin təşkili məsələləri ilə əlaqədar məsləhətlər vermək.

"Təhsil sistemində psixoloji xidmət haqqında "Əsasnamə"nin III bölməsi "**Psixoloji xidmət işçisinin məsuliyyəti**" adlanır. Bu bölmədə praktik psixoloqun peşə fəaliyyətinin xarakteristikası və onun ixtisas tələbləri ilə sıx bağlı iki əsas şəxsi peçə məsuliyyəti qeyd olunmuşdur:

- psixoloq qoyduğu diaqnozun düzgünlüyü, istifadə olunan diaqnostik və korreksiya metodlarının adekvatlığı, verilən rəy və tövsiyələrin əsaslı olmasına görə şəxsi peşə məsuliyyəti daşıyır;
- psixoloq müayinə protokollarının, xidmət sənədlərinin qorunub saxlanmasına, onların müəyyən edilmiş qaydada tərtib olunmasına görə cavabdehdir.

"Əsasnamə"nin "**Psixoloji xidmət işçisinin hüquq və vəzifələri**" adlanan IV bölməsində təhsil sistemində fəaliyyət göstərən praktik

psixoloji xidmət işçisi olan psixoloqun hüquq və vəzifələri ayrı-ayrılıqda hər biri 10 bənddə, konkret əks olunmuşdur. Bu məsələlər barədə kitabın **1.3.3 bölməsində** ətraflı məlumat verildiyindən "Əsasnamə"nin qeyd olunan bölməsinin geniş təhlilinə ehtiyac görmürük.

"Əsasnamə"nin VI bölməsində "Psixoloji xidmət fəaliyyətinin təşkilati məsələləri" 5 əsas müddəada cəmləşdirilmişdir. Burada praktik psixoloqun fəaliyyət sonası, işinin təşkilati cəhətləri, iş reqlamenti, əmək fəaliyyətinin hüquqi və təşkilatı kimi məsələləri əks olunmuşdur.

"Əsasnamə"nin "Əlavələr" adlanan bölməsində təhsildə praktik psixoloji xidmət işçisinin vəzifə təlimatı (vəzifə borcu, peşə və ixtisas tələbləri) verilmiş, **psixoloji xəritənin_** tərtibinə aid qaydalar və təlimati göstərişlər əks olunmuşdur.

Qeyd etmək lazımdır ki, "Təhsil sistemində psixoloji xidmət haqqında "Əsasnamə" praktik uşaq psioxoloqunun xidməti peşə fəaliyyətinə aid ən mühüm normativ sənəd hesab olunur. Təhsil sistemində çalışan parktik psixoloq öz işini səmərəli qurmaq üçün ilk növbədə haqqında söhbət gedən bu mühüm sənədi dərindən bilməli və onun tələblərini peşəkar fəaliyyətində rəhbər tutmalıdır.

## 1.3.2. Praktik psixoloqa verilən ixtisas tələbləri və onun peşə xarakteristikası

Təhsil sistemində praktik psixoloq vəzifəsinə iddiaçı olan hər bir şəxsə müəyyən ixtisas tələbləri verilir. Hər şeydən əvvəl bu vəzifədə çalışan şəxs **xüsusi ali psixoloji təhsilə** və ya **ali təhsillə birgə xüsusi ixtisas təhsilinə** malik olmalıdır.Belə diplom universitetlərin "Psixologiya" fakultələrinin və digər ali məktəblərin "Təhsil sistemində praktik psixoloq" ixtisası almış məzunlara və ali məktəblərdə təlim keçmiş yenidənhazırlanma fakultələrinin məzunlarına verilir.

**Praktik psixoloq-** praktik psixoloji məsələlərin həlli ilə məşğul olan, psixologiya üzrə ali təhsilə malik olan mütəxəssisdir. O, heç də psixologiyanın bir fənn kimi tədrisi və ya fundamental psixoloji tədqiqatla məşğul olmur. Onun əsas vəzifəsi testləşdirmə, psixoloji məsləhətlərin verilməsi, inkişafetdirici-korreksiya işlərinin aparılması, psixoprofilaktika və psixoloji maarifləndirmə sahəsində peşəkar fəaliyyəti həyata keçirməkdən ibarətdir.

Praktik psixoloqun psixologiyanı yüksək nəzəri səviyyədə bilməsi ilə yanaşı, peşəkar fəaliyyət üçün zəruri olan psixodiaqnostika, psixoterapiya, psixokorreksiya, patopsixologiya, defektologiya, psixoloji məsləhətlər və bir sıra digər bilik sahələrinə də bələd olması zəruridir. Praktik psixoloqun uşaqlarla işləmək sahəsində zəruru təcrübəyə malik olması da vacib şərtlərdən biridir. Onun fəaliyyətinə qeyd olunan ümumi tələblərlə yanaşı, bir sıra xüsusi tələblər də verilir. Bu tələblər sırasında praktik psixoloqun ayrı-ayrı istiqamətlər – məsələn, psixodiaqnostika, psixokorreksiya, "çətin" uşaqlarla iş, inkişafda geridəqalan və s. uşaqlarla aparacağı işlərlə bağlı tələblər mühüm yer tutur. **Psixodiaqnostika** üzrə aparılacaq işlərin sistemini bilməklə, praktik psixoloq bu istiqamətə aid olan metodlardan səmərəli istifadə edir, onun nəticələrini qiymətləndirir və uşağa əməli köməklik göstərmiş olur. Psixoloji metodikaları, qaydaları, onların layihələndirilməsi, nəticələrin yoxlanılması və qiymətləndirilməsi üzrə işin uğurlu olması üçün praktik psixoloq riyazi ststistika, proqramlaşdırma, kompyuterdə işləmək kimi zəruri biliklərə və onlardan istifadə etmək bacariqlarına da malik olmalıdır. O, psixoloji **məsləhətlər** sahəsində ixtisas hazırlığını ünsiyyət psixoterapiyasının texnologiyasını tətbiq etməklə, söhbət, müsahibə aparmaq qabiliyyəti ilə nümayiş etdirə bilər. Praktik psixoloq insanları inandırmaq, onları təlqin etmək, diqqətləri özünə cəlb etmək bacarıqlarına da malik olmalıdır.

Bunun üçün praktik-psixoloq insanları yaxşı qavramaq və başa düşmək, özünə inam yaratmaq bacarığına malik olmalı, onlara psixoloji

təsirdə inamlı olmalıdır. Praktik-psixoloqun şəxsiyyətlərarası ünsiyyət sahəsində biliklərə, bacarıq və vərdişlərə dərindən bələd olması vacib şərtlərdən biridir.

**Psixokorreksiya** istənilən müştəriyə praktik təsir göstərmək bacarığına əsaslanan xüsusi və mürəkkəb tətbiqi iş sahəsidir. Ona görə də, bu istiqamətdə səmərəli iş aparmaq üçün praktik psixoloq müxtəlif formada sosial-psixoloji treninqlərin təşkili və keçirilməsi mexanikasına, **psixoanalız priyomlarına** və digər **psixoterapevtik texnikalara** bələd olmalıdır. Psixokorreksiya psixoloji xidmət sistemində daha çətin və mürəkkəb bir istiqamətdir. Praktik psixoloqun çətin uşaqlarla iş sistemi xüsusilə böyük diqqət və hazırlıq tələb edir. Uşaq evlərində, bağçalarda, valideyn himayəsindən məhrum edilmiş uşaqlar üçün internat tipli müəssisələrdə, xüsusi internat məktəblərdə çalışan praktik psixoloqların fəaliyyətinə xüsusi tələblər verilir. Belə müəssisələdə çalışan tərbiyəçilər və psixoloqlar uşaqlar üçün **itirilmiş valideynləri əvəz etməli,** onlara xüsusi diqqət və qayğı göstərməlidirlər. Bu müəssisələrdə tərbiyə onuna uşaqlar qayğıya, nəvazişə, mərhəmətə, ətrafdakı yaşlı adamlara münasibətdə emosional əlaqələrə, xeyirxah münasibətlərə adi uşaqlardan daha çox tələbat və ehtiyac duyurlar. İnternat tipli müəssisələrdə olan uşaqların intellektual, emosional, mənəvi və şəxsiyyətlərarası münasibətlər baxımından öz yaşıdlarından xeyli geri qalması faktı elmi cəhətdən çoxdan sübut olunmuşdur.

Təhsil sistemində fəaliyyət göstərən praktik psixoloq uşağın maraq və mənafelərinin müdafiəsində əsas simadır. Bu, onu pedaqoqlardan fərqləndirən başlıca cəhətlərdən biridir. Praktik psixoloq haqqında "Əsasnamə"də onun hüquq və vəzifələri bir-biri ilə sıx şəkildə əlaqələndirilmiş, bir mütəxəssis kimi qarşısında yüksək peşə məsuliyyəti qoyulmuşdur. Praktik psixoloq təlim və tərbiyə ilə məşğul olan hər hansı şəxs tərəfindən uşağın hüquqları pozulduqda uşağın maraqlarını fəal

surətdə müdafiə etməli, öz səlahiyyətləri çərçivəsində müstəqil və peşəkar qərarlar verməli, uşağın inkişafına uyğun gəlıməyən, ona zərər vuran təlim və tərbiyə metodlarının tətbiq olunmasının qarşısını almalıdır. Uşağın mənafelərinin müdafiəçisi olan psixoloq səlahiyyətli inzibati idarəetmə orqanları tərəfindən onun taleyi ilə bağlı qərarların qəbulinda öz mövqeyini bildirməli, mütərəqqi qərarların qəbuluna çalışmalıdır. Təhsil müəssisəsində çalışan praktik uşaq psixoloqu tibbi-psixoloji, defektoloji və məhkəmə - psixoloji ekspertizaların keçirilməsində şəxsən iştirak etməklə, öz mövqeyini ortaya qoymağı bacarmalıdır. Məktəb psixoloqunun hüquqları sosial, mənəvi və hüquqi baxımdan müdafiə olunmalıdır. Onların hüquqlarının sosial müdafiəsi təhsil sisteminə aid olan təşkilatlar tərəfindən təmin olunur. Belə təşkilatlar sırasında **Praktik Psixoloqlar Assossiasiyasının, Təhsil Cəmiyyətinin, Uşaq və Təhsil fondlarının,** uşaqların təlim və tərbiyəsi mərkəzlərinin, **kütləvi informasiya vasitələrinin** adlarını qeyd etmək olar.

Təhsil sistemində çalışan praktik psixoloqun mənəvi müdafiəsi ictimai rəyin dəstəyinə əsaslanır. Praktik psixoloq öz səlahiyyətinə aid olan vəzifələri müstəqil şəkildə, digərlərini isə təhsil və tərbiyə ilə məşğul olan başqa mütəxəssislərlə qarşılıqlı əlaqədə və onlarla birlikdə yerinə yetirir. **Müstəqil icra olunan vəzifələr** sırasında pedaqoji-psixoloji xarakterli tədqiqat-axtarıcılıq təşəbbüsləri ilə bağlı metodların seçilməsi, müayinələrin keçirilməsi, onun nəticələrinin intepretasiyası və onlardan irəli gələn tövsiyələrin hazırlanması aid edilə bilər. Praktik psixoloqun **birgə yerinə yetirdiyi vəzifələr** sırasında müəllimlərə, valideyinlərə və ya onları əvəz edən şəxslərə ümumi psixoloji mədəniyyətin, müasir dövrdə uşaqların düzgün təlim və tərbiyəsi üçün zəruri minimum biliklərin verilməsi, uşaqların sürətli intellektual və şəxsi inkişafı üçün bu bilikərdən istifadə etməyə hazırlıq aid edilə bilər. Praktik psixoloq bir mütəxəssis kimi öz peşə mövqeyini qorumağı bacarmalı, həkim, pedaqoq

və sosioloqlarla birlikdə hər bir uşağın **normal inkişaf mühitinin yaradılmasını** təmin etməlidir. Bu mütəxəssislərin əlbir fəaliyyəti uşaqlarda xüsusi qabiliyyətlərin vaxtında aşkara çıxarılması, onların təlimi və tərbiyəsinə yönəlmiş fərdiləşdirilmiş tövsiyələrin işlənib hazırlanmasını təmin etməlidir. Praktik psixoloq üstün qabiliyyətli və istedadlı uşaqların inkişafına yönəlmiş xüsusi inkişafetdirici proqram layihələrinin hazrlanması və ekspertizasının keçirilməsində fəal iştirak etməlidir. Təlim və tərbiyə müəssisələrinin rəhbərləri ilə sıx əməkdaşlıq şəraitində psixoloq pedaqoji kollektivin optimal idarə olunması, təhsil müəssisəsində mənəvi-psixoloji iqlimin daha da yaxşılaşdırılması tələbindən irəli gələn vəzifələri yerinə yetirməlidir. Müəllim və tərbiyəçilərlə birlikdə psixoloq məktəbəqədər müəssisələrdə qrupların, məktəbdə isə siniflərin komplektləşdirilməsində iştirak edir, uşaqların həyatının bütün dövrlərində sistematik olaraq tibbi-pedaqoji və sosial-pedaqoji müayinələri təşkil edir, onların nəticələrinin təhlilində iştirak edir, müəyyən edilmiş qanunvericilik qaydasında psixi inkişafda pozğunluğu, davranışda normadan kənaraçıxma hallarının ekpertizasını keçirir. Məktəb müdiriyyəti ilə əməkdaşlıq şəraitində praktik psixoloq davranış qüsurları olan ayrı-ayrı uşaqlarla fərdi və qrup şəklində korreksiyaedici treninqlər təşkil edir, onların intellektual və mənəvi inkişafının sürətləndirilməsi məqsədi ilə xüsusi inkişafetdirici iş aparır.

Praktik psixoloqun fəaliyyəti zamanı meydana çıxan mübahisəli məsələlər xarakterindən asılı olaraq müstəqil peşəkar psixoloqlardan ibarət səlahiyyətli qurumlar və ya müxtəlif ixtisaslı mütəxəssislərdən təşkil olunmuş komissiyalar vasitəsilə həll olunur.

Təhsil sistemində psixoloq aşağıdakı **funksiyaları** yerinə yetirir:

- psixoloq - uşağa inkişaf yolu seçməkdə, onun fərdi xüsusiyyətlərinə əsaslanan təlim proqramlarının hazırlanmasında köməkçi, situasiyanın diaqnostudur;

- psixoloq – konfiliktoloq və psixoterapevtdir;
- psixoloq–uşağın inkişaf situasiyasının, bütövlükdə təhsilləndirici mühitinin layihəçisidir;
- psixoloq–müəssisənin təhsilləndirici mühitində ünsiyyətin qurulmasına cavabdeh şəxsdir;
- psixoloq – uşaqların psixi sağlamlığının qorunub saxlanmasına cavabdehdir;
- psixoloq-məktəbin təhsil müəssisəsi kimi inkişafı və idarəedilməsində məsləhətçidir;

Təhsildə psixoloqun funksiyası təhsilin özünün və onun bütün subyektlərinin funksiyasıdır. Bu subyektlər sırasına uşaqlar və uşaq kollektivləri, pedaqoq və tərbiyəçilər, valideynlər, təhsil müəssisəsinin rəhbərləri daxildir.

### 1.3.3. Praktik psixoloqun əxlaq kodeksi və hüquqları

**Praktik psixoloqun Andı**

***Mən - bu gün peşə yolu seçdiyim praktik psixologiya sahəsində ilk dəfə fəaliyyətə başlayır və***

**AND İÇİRƏM:**

***And içirəm ki, Azərbaycan psixoloqunun adını və şərəfini daim uca tutacaq, bu ada xələl gətirəcək heç bir səhvə yol verməyəcəyəm!***

***Davranış və fəaliyyətimi, bilik və bacarığımı, eləcə də ümidlərini mənə etibar etmiş insanlar qarşısında məsuliyyətimi unutmayacağam!***

***Təbiətin və insanların mənə bəxş etdiyi şəxsi qabiliyyətlərimi, elmi və praktik potensialımı məndən kömək gözləyənlərin psixoloji sağlamlığının bərpasına və qorunmasına sərf edəcəyəm!***

***İnsanlara fəaliyyətinin sirlərinə bələd olmaqda, istedad və qabiliyyətlərini inkişaf etdirməkdə, şəxsiyyətinin bütövlüyünü qoruyub***

***saxlamaqda, psixoloji müdafiəsini təmin etməkdə etibarlı dost və yardımçı olacağam!***

***Mənə müraciət edənlər haqqında bildiklərimi peşə sirri kimi qoruyacağam!***

***İnsanlara gərəkli olduğumu dərk edərək daim ixtisasımı, praktik hazırlığımı artıracaq, peşə fəaliyyətimi genişləndirəcək, şərəfli və məsuliyyətli psixoloq adına xələl gətirəcək heç bir hərəkətə yol verməyəcəyəm!***

***Andıma daim sadiq qalacağıma, heç vaxt, heç bir şəraitdə onu pozmayacağıma söz verirəm!***

Əxlaq və ya mənəviyyat (latınca “moralis-mənəvi, əxlaqi) ictimai şüurun xüsusi formalarından biridir. O, ictimai və şəxsi həyatda, cəmiyyətdə, bu və ya digər sosial qrupda insanın sosial vəzifələrini yerinə yetirməsi ilə bağlı tənzimedici norma və prinsiplərin məcmuyudur.

Əxlaq öz tərkibində tarixən əxlaqi ideyalar formasında birləşmiş baxışları və təsəvvürü əks etdirir. Onun tərkibinə həmçinin tarixi inkişaf mərhələsində insanların davranış normaları, müvafik dövr üçün səciyyəvi olan əxlaqi qiymətləndirmə sistemi daxildir. İnsanların sosial davranışı tarixən əxlaqda xeyir və şər, ədalət və ədalətsizlik və s. kimi başlıca kateqoriyalarla müəyyən edilmişdir.

Əxlaq ictimai şüurun ən qədim formalarından biri hesab edilir. İnsanların instinktiv davranış formalarından şüurlu, məqsədyönlü və kollektiv davranış tərzinə keçidləri tarixi inkişaf prosesində meydana gəlmişdir.

Beləliklə, kollektiv əmək və mövcudluq, yaşamaq uğrunda mübarizə ta qədim dövrdən başlayaraq həmrəylik, birgə fəaliyyət kimi əxlaqın ilkin prinsiplərini meydana gətirmiş və möhkəmləndirmişdir. Qəbilənin əxlaq normalarını pozan hər bir şəxs ciddi şəkildə cəzalandırılırdı: öz qəbilə üzvünü öldürən, öz qəbiləsinin sirrini satan qəbilə üzvünü sərt ölüm cəzası gözləyirdi. Sonuncu halda onun dilini kəsərdilər.

Göründüyü kimi, alicənab əxlaqi hisslər və normaların yaranması yolunda çoxlu qanlar tökülmüş, göz yaşları axıdılmışdır. Sonralar əxlaq normaları və tələblər qəbilə ənənələri, qəbilə ağsaqqallarının rəhbərliyi ilə qorunub saxlanılmış və möhkəmlənmişdir. Beləliklə, əxlaq tələblər sistemi kimi fərdin iradəsinin şüurlu surətdə kollektivin maraqlarına tabe edilməsi baxımından insanların xalis praktik münasibətləri zəminində meydana gəlmişdir. Qədim dövrə aid yazılı mənbələrdən birində deyilirdi: "Qulu boş qoyma. Bu zaman sakitlik taparsan. Əlini onun üstündən götürsən, azadlıq axtaracaq".

Əxlaq normaları cəmiyyət həyatındakı ictimai münasibətlərin, daha dəqiq desək, iqtisadi münasibətlərin inikasıdır. Əxlaq yalnız iqtisadi münasibətləri əks etdirmir, həm də onların təkmilləşməsinə fəal surətdə təsir göstərir.

Beləliklə, qeyd etmək lazımdır ki, bəşər cəmiyyətinin bütün inkişaf mərhələlərində insanların birgəyaşayışını,gündəlik qarşılıqlı münasibətlərini əks etdirən ümuminsani norma və qaydalar qorunub saxlanılmış və əxlaqın elementlərini yaratmışdır. Bütün tarixi dövrlərdə qatillik, oğurluq, amansızlıq və zalımlıq, qorxaqlıq, yalançılıq kimi mənfi əxlaqi xüsusiyyətlər məhkum edilmişlər. Doğruçuluq, mərdlik, ciddilik, düz danışmaq və s. kimi keyfiyyətlər isə təqdir edilərək bəşəri əxlaqın əsaslarını yaratmışdır. Əxlaq etika elminin tədqiqat obyekti və predmetidir.

Etika əxlaqın yaranması, inkişafı, qanunauyğunluqlarını, onun cəmiyyətə mənəvi dəyərlər və ənənələr sistemində rolunu və spesifik xüsusiyyətlərini öyrənən elmdir. O, şəxsiyyətin mənəvi azadlıqlarını, məsuliyyətlərini, mənəvi dəyərlərini və davranışı kimi əsas kateqoriyaları əks etdirir. Etika fəlsəfi dünyagörüşünün yaranması ilə paralel olaraq meydana gəlmişdir.

Ayrı-ayrı peşə fəaliyyəti sahələri insanların fəaliyyəti ilə bağlı olduğu kimi, pedaqoji fəaliyyət sahəsi də birbaşa olaraq gənc nəslin təlim və tərbiyəsi

ilə bağlıdır.

Pedaqoji peşənin öz spesifik peşə əxlaqı mövcuddur. Müəllim peşəsi ən qədim və sərfəli bir peşədir. Onun başqalarına örnək, nümunə olan xüsusiyyətləri, pedaqoji münasibətlər ümumi əxlaq sistemində öncül yer tutur.

Pedaqoji əxlaqda müəllimin əxlaqi siması, davranışı, şagirdlər və valideynlərlə, ictimaiyyətlə, real kollektivin hər bir üzvü və məktəb rəhbərləri ilə qarşılıqlı münasibətləri əks olunur.

**Peşə etikası** geniş və əhatəli anlayışdır. Buraya pedaqoji etika (müəllim etikası), tibbi etika (həkim etikası), məhkəmə etikası, alim etikası, mühəndis etikası, polis etikası, aktyor etikası və s. daxildir. Bu anlayış əxlaqın prinsip və normalarının müxtəlif peşə sahələrinin xüsusiyyətlərinə uyğun olaraq düzgün, konkret tətbiqini nəzərdə tutur.

Təhsil sistemində fəaliyyət göstərən **praktik psixoloq** pedaqoji kollektivin üzvü olmaqla yanaşı, uşaqların təlim-tərbiyəsində mərkəzi simalardan biridir. O, xoş məramlı missiyanı yerinə yetirir, uşaq, yeniyetmə və gənclərin şəxsiyyət kimi inkişafı və formalaşması vəzifələrinin yerinə yetirilməsində peşəkar xidmət göstərir. Artıq psixoloq bir peşə fəaliyyəti sahəsinə çevrilmişdir. Məktəbdə və digər təlim-tərbiyə müəssisələrində müəllim və tərbiyəçilərlə çiyin-çiyinə çalışan psixoloq öz peşə borcunu, "Əsasnamə"də nəzərdə tutulmuş peşəkar fəaliyyətini yerinə yetirir. Onun fəaliyyəti hüquqi-normativ əsaslarla reqlamentləşdirilmiş məzmun daşıyır. Bir çox peşələrdə olduğu kimi, praktik psixoloqun da artıq **spesifik peşə etikası** və buna əsaslanan əxlaqi prinsiplər məcmuyu əxlaq kodeksi yaranmışdır. Psixoloq peşəsində çalışan mütəxəssin özünəməxsus etikası, müəyyən əxlaqi-etik tələbləri və xüsusiyyətləri vardır. Bunların sırasında peşə borcuna sədaqət, peşə sirrini qorumaq, uşaqların mənafeyini qorumaq, ədalət və qərəzsizlik, vicdan və səmimiyyət, yüksək humanizm və s. adlarını qeyd etmək olar.

Psixoloji xidmət işində və onun strukturuna daxil olan praktik psixoloqun

fəaliyyətinin idarə olunmasında əxlaq kodeksinin tənzimləyici rolu çox mühümdür. Bu və ya digər sosial situasiyarla qarşılaşarkən praktik psixoloq hüquq normaları təsəvvürü yaradan tənzimləyici qaydalara əməl etməlidir. Praktik psixoloq tez-tez qarşılaşdığı vəziyyətlərdə öz şəxsi hissləri və intuasiyası əsasında qərar qəbul edir. Belə hallar isə hüquq təcrübəsində yolverilməzdir. **Hisslər və şəxsi intuisiya** praktik psixoloqa vaxtında və dəqiq qərarlar qəbul etməkdə və ya potensial olaraq yanlış qərarın kor-koranə qəbul edilməsini ləngitməkdə, onu təxirə salmaqda kömək edir.

Praktik psixoloqun əxlaq kodeksi bir sıra mənbələr əsasında işlənib hazırlanmışdır. Bu mənbələr sırasına fəlsəfə, din, mədəniyyət, adət-ənənlər ideologiya və siyasət kimi insan fəaliyyəti sahəsinə daxil olan atributlar, ictimai şüur formaları daxildir. Əxlaqın bu sahələri bu və ya digər peşə kodeksinin yaranması və mövcudluğunun baza prinsiplərini müəyyənləşdirir. Məsələn, fəlsəfənin çox qədim sahələrindən biri "etika" adlanır. Bu bilik sahəsi əxlaqın elmi cəhətdən əsaslandırılmış təhlilini verir, bəşər mədəniyyəti və sivilizasiyanın inkişafı gedişində ictimai şüurun bu formasının meydana gəlməsi prosesini işıqlandırır. Qədim əsrlərdən bəri dini görüşlər özündə müəyyən mənəvi prinsipləri əks etdirməklə, dindarlar üçün əxlaq qanunu qüvvəsində olmuşdur. Mədəniyyət özündə cəmiyyətdə, ölkədə, təhsil sistemində, insanların şəxsi və işgüzar əlaqələrində ifadə olunan insan münasibətləri normalarını birləşdirir. Hər bir xalqın əxlaq normalarında bəşəri dəyərlərlə yanaşı, spesifik milli kalorit də mövcuddur. Bu, hər bir xalqın tarixi keçmişi, qan yaddaşı, milli adət və ənənələri əsasında yaranır. Milli ideologiya və siyasət də öz növbəsində xalqın bütövlüyünü, vahidliyini təmin edilməsinə xidmət etməklə birgə, həm də əxlaqi təsəvvür və normaların əsas mənbələrindən biridir. Onların təsiri altında xalqın milli mentaliteti, əxlaqi, milli və milli mənlik şüuru formalaşır. İdeologiya və siyasət eyni zamanda dövlətin, xalqın, millətin, sosial zümrələrin, siyasi partiyaların və əhalinin digər sosial qruplarının əxlaqi şüurunun təşəkkülündə əsas baza və mənbə funksiyasını

yerinə yetirir. Ayrı-ayrı peşə adamlarının peşə əxlaqının əsasını təşkil edən əxlaq kodeksinin konkret məzmunu həm qeyd olunan amillərlə, həm də haqqında söhbət gedən peşənin spesifik xüsusiyyətlərindən asılıdır. Müasir dövrdə təhsil sistemində psixoloji xidmətin artıq çoxdan fəaliyyət göstərdiyi ABŞ, Almaniya, İspaniya, Kanada, Yaponiya və s. kimi inkişaf etmiş ölkələrdə praktik psixoloqların spesifik əxlaq kodeksləri mövcuddur. Rusiyanın təhsil sistemində psixoloji xidmət ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq formalaşdığından, bu ölkədə praktik psixoloqun əxlaq kodeksi xeyli gec qəbul edilmişdir.

Peşəkar praktik psixoloqun əxlaq kodeksinə daxil olan əxlaq normalarını onun fəaliyyət sahələrinə görə bir neçə qrupa ayırmaq olar. Bu mövqelər uşaqların maraqları ilə bağlı məsələlərin müzakirəsi, onların maraq və mənafelərinin pozulması, müəyyən metodikalar əsasında uşaqlarla diaqnostik, psixoprofilaktik, inkişafetdirici və korreksiya işlərinin təşkili və keçirilməsində, valideynlərlə, müəllimlərlə iş və s. kimi sahələrində konkret olaraq özünü göstərir.

Rusiya Federasiyasının təhsil sistemində fəaliyyət göstərən praktik psixoloqun nümunəvi əxlaq kodeksinə nəzər yetirək:

1. Təhsil sistemində psixoloqun peşə fəaliyyəti uşaqlar qarşısında xüsusi məsuliyyətlə səciyyələnir.
2. Uşağın şəxsi maraqları təlim-tərbiyə müəssisəsinin, başqa adamların, yaşlıların və başqa uşaqların maraqları ilə ziddiyyət təşkil etdikdə, psixoloq öz vəzifəsini maksimum ədalətlə və qərərsiz yerinə yetirməlidir.
3. Psixoloqun işi peşə sərbəstliyi və muxtariyyət prinsipi əsasında qurulur.Onun peşəkar psixoloji xarakterli qərarları qətidir və təlim-tərbiyə müəssisəsinin, yuxarı idarəetmə orqanlarının rəhbərləri tərəfindən dəyişdirilə bilməz.

4. Psixoloqun qərarlarını yalnız yüksək ixtisaslı psixoloqlardan və səlahiyyətli hakimiyyət nümayəndələrindən təşkil olunmuş xüsusi komissiya dəyişdirmək hüququna malikdir.
5. Uşaqlarla iş zamanı psixoloq vicdan və səmimiyyət prinsipini rəhbər tutur.
6. Uşaqlara kömək etmək üçün psixoloq öz hüquqları daxilində etibara malik olmalıdır. O,öz növbəsində psixoloq kimi ona verilmiş hüquqlardan düzgün istifadə etməkdə şəxsi məsuliyyət daşıyır.
7. Təhsil sistemində psixoloqun işi hər bir uşağın azad, şəxsi və intelektual inkişafı kimi müstəsna əhəmiyyətli humanist məqsədlərə xidmət edir.
8. Psixoloq öz işini uşağın ləyaqətinə hörmət və toxunulmazlıq əsasında qurur, onun Beynəlxalq İnsan hüquqları haqqında Bəyənnamə, Uşaq hüquqları haqqında Konvensiya ilə müəyyən edilmiş əsas insan hüquqlarına hörmət edir və onları fəal şəkildə müdafiə edir.
9. Psixoloq cəmiyyət, bütün adamlar qarşısında uşağın mənafeyinin əsas müdafiəçilərindən biri kimi çıxış edir.
10. Psixoloq psixodioqnostik və psixokorrepsiya metodlarının seçilməsində, həmçinin öz rəy və təvsiyələrində diqqətli və ehtiyatlı olmalıdır.
11. Psixoloq uşağın inkişafını, onun insan azadlığını fiziki və psixoloji toxunulmazlığını hər hansı formada məhdudlaşdıran tədbirlərdə iştirak etməməlidir. Uşağa birbaşa və ya dolayı zərər yetirən hər hansı işlərdə iştirak etmək praktik psixoloq tərəfindən peşə etikasının daha kobud şəkildə pozulması hesab edilir. Bu cür pozuntuya yol verdiyinə görə xəbərdarlıq alan şəxslər birdəfəlik olaraq uşaqlarla işləmək hüququnu itirmiş hesab edilir. Ağırlaşdırıcı hallarda onun peşə-ixtisas təhsilinə aid sənədi məhkəmənin qərarı ilə ləğv edilir.
12. Psixoloq tabe olduğu rəhbərliyə və özünün daxil olduğu peşə birliyinə uşağın hüquqlarının digər şəxslər tərəfindən pozulması və uşaqla qeyri

humanist rəftar halları haqqında məlumat verməyə borcludur.

13. Psixoloq uşaqların hüquqlarının pozulmasına gətirib çıxaran istənilən siyasi, ideoloji, sosial, iqtisadi və s. kimi halların qarşısının alınmasına səy göstərməlidir.
14. Psixoloq yalnız zəruri təhsil və peşə hazırlığının yüksəldilməsi ilə əlaqədar xidmətlər göstərməyə borcludur.
15. Aprobasiyadan keçməmiş və ya tam şəkildə bütün elmi standartlara cavab verməyən psixodiaqnostik və ya psixoterapevtik (korreksiya-edici) metodikaların məcburi tətbiqi zamanı psixoloq maraqlı şəxsləri xəbərdar etməli və öz rəy və təvsiyələrində xüsusilə ehtiyatlı olmalıdır.
16. Psixoloqun səriştəsi və səlahiyyəti olmayan şəxslərə istifadə üçün psixodioqnostik, psixoterapevtik və ya korreksiyaedici metodikaları vermək hüququ yoxdur.
17. Psixoloq peşə hazırlığı olmayan şəxslər tərəfindən psixodioqnostika və psixoloji təsir metodlarının isitfadə edilməsinin qarşısına almalı, bilmədən belə adamların xidmətindən istifadə edən şəxslərə xəbərdarlıq etməlidir.
18. Yeniyetmə və böyük məktəbyaşlı uşaqlarla psixoloqun fərdi məsləhətləri müəllimlər, valideynlər və ya onları əvəz edən şəxslərin iştirakı ilə keçirilməlidir.
19. Psixoloq yeniyetmə və böyük məktəb yaşlı uşaqların onların istəyi ilə başqa adamların iştirakı ilə qanunla müəyyən edilmiş xüsusi hallar (tibbi-psixoloji və ya məhkəmə psixoloji ekspertizanın keçirilməsi) istisna olunmaqla müayinə edilməsinə maneçilik törətməməlidir.
20. Yeniyetmə və gənclik yaşında olan uşaqların fərdi psixoloji müayinəsinin nəticələri haqqında məlumatı psixoloq yalnız uşağın özünün razılığı ilə 3-cü şəxsə verə bilər.
21. Müəllimlərə, valideynlərə, onları əvəz edən şəxslərə təlim-tərbiyə müəssisəsinin rəhbərliyi psixoloji müayinənin nəticələri haqqında yalnız

o halda məlumat verə bilər ki, onlardan uşaqların zərərinə istifadə olunmasın.

22. Kütləvi informasiya vasitələri müayinənin nəticələri haqqında məlumatları almaq və yaymaq üçün istifadə edərkən psixoloqlar kütləvi informasiya vasitələrini onun mümkün mənfi nəticələri haqqında xəbərdar etməli, səlahiyyəti olmayan şəxslərdən psixoloji yardım almağın gərəksizliyini bildirməli və zəruri peşəkar psixoloji köməyin kimdən və haradan olmağın mümkünlüyü barədə məlumat verməlidir.
23. Psixoloq onun rolu və vəzifələrinə aid olmayan, uşaqlara zərər yetirə biləcək fəaliyyət və işlərdən uzaq olmalı, bunlardan özünə cəlbetmə vasitəsi kimi istifadə etməməlidir.
24. Psixoloq müştərilərə yerinə yetirə bilməyəcəyi işlər barədə vədlər verməməlidir.
25. Əgər uşağın müayinəsi və ya psixoloji müdaxilə başqa adamın, təhsil orqanının nümayəndəsi, həkim, hakim və s. tələbi ilə aparılırsa, psixoloq uşağın valideynlərinə və ya onları əvəz edən şəxslərə bu barədə xəbər verməyə borcludur.
26. Psixoloq müayinə etdiyi uşaqlar haqqında məlumatların gizli saxlanılması üçün şəxsi məhsuliyyət daşıyır.
27. Təlim-tərbiyə müəssisəsinə işə qəbul olunan psixoloq öz peşə səlahiyyətləri çərçivəsində iş aparacağını, sərbəst fəaliyyət göstərəcəyini vəd etməli, müəssisənin müdriyyətini və maraqlanan digər şəxsləri bu əxlaq kodeksi ilə tanış etməlidir. Psixoloq peşəkar fəaliyyətdə onunla əlaqədar olan şəxslərə diqqətlə yanaşmalı, peşə etikasını gözləməyin, sirri saxlamağın zəruriliyini əsaslandırmalıdır. Bunun üçün psixoloq xəbrdarlıq etməlidir ki, onun işinə peşəkar müdaxilə müvafik səlahiyyətlərə malik yuxarı psixoloji xidmət orqanı tərəfindən edilə bilər. Psixoloq kənar şəxslərin qeyri-etik tələblərinin mümkünsüzlüyünü onlara bildirməlidir.

28. Peşəkar praktik psixoloq tərəfindən əxlaq kodeksinin pozulması ilə bağlı məsələlərə Praktik Psixoloqlar Assosiasiyalarının ədalət məhkəmələrində, zəruri hallarda isə təhsil sistemində psixoloji xidmətin daxil olduğu daha yuxarı təşkilat tərəfindən baxılır. Praktik psixoloqun imici və işgüzar nüfuzu onun şəxsi keyfiyyətlərindən, peşəkarlıq səviyyəsindən  prinsipial mövqeyindən asılıdır. Psixoloq yüksək intizamı, ədalətli və obyektiv mövqeyi ilə fərqlənməli, qərəzkarlıq və saxtakarlıqdan uzaq olmalı, peşə borcuna, psixoloqun andına sədaqəti, peşə əxlaqı prinsiplərinə hörmətlə yanaşması ilə hamının rəğbətini qazanmağı bacarmalıdır.

**Psixoloq aşağıdakı hüquqlara malikdir:**

1. Müstəqil surətdə uşaqlarla və yaşlılarla aparılan işlərin konkret vəzifələrini müəyyən etmək, bu işlərin forma və metodlarını seçmək, müxtəlif iş növlərinin hansı ardıcıllıqla yerinə yetirilməsi mzsələsini həlll etmək, müəyyən dövr üçün işin başlıca istiqamətlərini ayırd etmək.
2. Peşə vəzifəsini səmərəli yerinə yetirmək üçün vacib olan şəraitin yaradılmasını müdiriyyətdən və yüxarı təşkilatlarından tələb etmək.
3. Müdiriyyətin göstərişləri peşə fəaliyyətinin etik prinsiplərinə və onun işinin hazırkı "Əsasnamə" ilə müəyyənləşdirilən vəzifələrinə zidd olduğu hallarda, onların yerinə yetirilməsindən imtina etmək.
4. Sənədlərlə tanış olmaq.
5. Tibbi və defektoloji müəssisələrə sorğu ilə mühaciət etmək.
6. Uşağın gələcək taleyini həll edən psixoloji-pedaqoji və digər komissiyaların işində məşvərətçi səs hüququ ilə iştirak etmək. Komissiyanın qərarı (ikinci ilə saxlamaq və s.) ilə razılaşmadıqda psixoloq özünün xüsusi rəyini müvafiq instansiyalara çatdırmaq hüququna malikdir.

7. Psixodioqnostika, psixokorreksiya və başqa iş növləri sahəsində yeni metodların işlənməsində, onların səmərəliliyinin qiymətləndirilməsində iştirak etmək.
8. Tədqiqat məqsədləri ilə məktəbdə qrup halında və fərdi şəkildə psixoloji müayinələr və eksperimentlər aparmaq.
9. Elmi və elmi-kütləvi jurnallarda, qəzetlərdə və s. özünün iş təcrübəsini ümumiləşdirən məqalələrlə çıxış etmək.
10. Mühazirə, müsahibə və çıxışlar yolu ilə psixoloji - pedaqoji biliklərin təbliği sahəsində iş aparmaq.

### 1.3.4. Praktik psixoloqun fəaliyyətinin hüquqi-normativ bazası

Təhsil sistemində psixoloji xidmətin aktual və perspektiv istiqamətləri dinamik informasiya təminatı tələb edir. Praktik psixoloqların zəruri elmi-metodik ədəbiyyatlarla, təlimatlarla, psixodiaqnostik, inkişafetdirici-korreksiya metodları, metodikaları və proqramları ilə təmin edilməsinə nail olmadan bu sahədə uğurların əldə ediləcəyinə ümüd bəsləmək doğru olmazdı. Praktik psixoloqun funksional vəzifələrini yerinə yetirməsi əhəmiyyətli dərəcədə onun ixtisas-peşə hazırlığı ilə yanaşı, elmi-metodik təminatı ilə də şərtlənir.

Təhsil müəssisəsində çalışan praktik psixoloqun peşəkar fəaliyyətinin zəruri komponentlərindən biri müxtəlif növ sənədlərin tərtib edilməsidir. Həmin sənədlər ayrı-ayrı sahələr üzrə onun fəaliyyətinin məzmununu və səmərəliliyinin nəticələrini əks etdirir.

Praktik psixoloqun təhsil müəssisəsində fəaliyyəti üç əsas tipə aid sənədlərdə əks olunur:

1. **Normativ sənədlər;**
2. **Xüsusi sənədlər;**
3. **Təşkilati - metodik sənədlər**.

**Normativ sənədlər** dedikdə praktik psoxoloqun təhsil müəssisəsində peşə fəaliyyətinin normativləri və standartlarını əks etdirən sənədlərin məcmuyu nəzərdə tutulur. Bu sənədlər sırasına aşağıdakılar daxildir:

- Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu;
- BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası;
- Təhsil sistemində psixoloji xidmət haqqında "Əsasnamə";
- Praktik psixoloq haqqında "Əsasnamə";
- Praktik psixoloqun ixtisas xarakteristikası (vəzifə haqqında təlimat və mütəxəssisin standartı);
- Uyğun Əsasnamə üzrə psixoloqun attestasiyası haqqında "Əsasnamə";
- Başqa müəssisədə görüləcək işlərlə bağlı müəssisə rəhbərliyi tərəfindən razılaşdırılmış müqavilə.

Təhsil müəssisəsində çalışan praktik psixoloqun fəaliyyətinin tənzimlənməsində **xüsusi sənədləşdirmə** adı ilə fərqləndirilən sənədləşdirmə işinin özünəməxsus xüsusiyyətləri vardır. Bu növ sənədləşdirmə praktik psixoloqun fəaliyyətinin zəruri tərkib hissəsi olub, onun işinin keyfiyyətini məzmun və prosedur baxımından qiymətləndirməyə imkan verir. Xüsusi sənədləşdirmənin tərkibinə aşağıdakılar daxildir:

-psixoloji rəylər;
- korreksiya xəritələri;
- diaqnostik müayinə protokolları;
- korreksiyaedici təmrinlərin məzmununna aid mətnlər;
- psixi inkişaf xəritəsi (tarixi);
- psixoloji xasiyyətnamələr;
- psixoloji rəylərdən çıxarışlar;

Qeyd olunan sənədlərdən rəylər, korreksiya xəritələri və müayinə protokolları **məxfi sənəd**, digərləri isə **aşıq, sərbəst sənəd** hesab edilir ki, maraqlanan şəxslərə psoxoloq onlar əsasında müəyyən məlumatlar verə bilər.

Praktik psixoloqun xüsusi sənədləri içərisində diaqnostik müayinənin nəticələri haqqında **psixoloji rəyindən çıxarış** mühüm sənədlərdən biri hesab olunur. Bu sənəd təhsil müəssisəsinə digər müəssisələr tərəfindən göndərilən sorğulara cavab olaraq, müəssisə rəhbərinin göndərişinə əsasən məktəb psixoloqu tərəfindən verilir. Çıxarışın əsas mətnində uşağın müayinəsinə aid əsas rəy və nəticələr, onun fərqləndirici xüsusiyyətləri və uşağın inkişafı problemləri, həmçinin ümumi və xüsusi tövsiyələr qeyd olunur. Çıxarışın sonunda psixoloji müayinəni keçirmiş psixoloqun və müəssisə rəhbərinin imzası olmalı və imzalar möhürlə təsdiq edilməlidir.

**Psixoloji xarakteristika** praktik psixoloqun fəaliyyətinə aid sənədlərdən biri olub, ayrı-ayrı uşaqların psixi inkişafının mövcud səviyyəsini əks etdirən, bu və ya digər yaş qrupuna aid edilən uşaq və yeniyetmələrin psixoloji portretidir. Psixoloji xarakteristikanın tərtibi üçün standart forma olmasa da, müxtəlif təxmini sxem nümunələri mövcuddur. Burada psixoloq uşağın intellektual, emosional-iradi aləminin, fərdi-psixoloji xüsusiyyətlərinin fərdiyyət baxımından obyektiv təhlilini verir, psixofizioloji, morfofunksional xüsusiyyətlərini, kommunikativ qabiliyyətlərini, bütövlükdə isə ümumi və xüsusi qabiliyyətləri haqqında ümumi qeydlər edir.

**Psixoloji rəy** praktik psixoloqun əsas iş sənədlərindən biridir. Müasir dövrdə praktik psixoloqların peşə texnologiyası və elmi-nəzəri hazırlıq səviyyəsindən asılı olaraq psixoloji rəylərin tərtibində həm forma, həm də məzmun baxımından müxtəliflik müşahidə olunur. Bu, bir tərəfdən psixoloqların psixi inkişaf, onun mexanizmləri haqqında təsəvvürlərinin səviyyəsi ilə, digər tərəfdən isə psixodiaqnostok müayinə metod və metodikalarına yiyələnmə səviyyəsi ilə bağlıdır. Psixoloji rəy yığcam, məzmunca dolğun olmaqla uşağın fərdiyyətinə aid qısa nəticələrdən, ümumi və xüsusi tövsiyələrdən ibarət olmalıdır.

Müasir təhsil sistemində praktik psixoloji xidmət təcrübəsində psixoloji

rəylərin tərtibinin iki əsas variantına təsadüf olunur.

**I variant.** Psixi inkişafın hissələrə bölünmüş parametrlər üzrə xarakteristikası əsasında hazırlanan rəylər. Belə psixoloji rəylərdə hər şeydən əvvəl motorikanın inkişaf göstəriciləri, yazı vərdişlərinin nümunəyə uyğunluğu, öyrənməyə qabillik, motivasiya-tələbat və intellektual sferanın yetkinliyi kimi göstəricilər əsas yer tutur. I varianta aid psixoloji rəylər əsasən xüsusi psixoloji müayinələrin nəticəsində, məsələn "məktəb yetkinliyi"nin diaqnostikasının yekunu olaraq tərtib edilir.

**II variant.** Bu varianta aid rəylər uşağın psixofizioloji inkişafının tərbiyə və təlim göstəriciləri də daxil olmaqla kompleks parametrlər əsasında tərtib edilir. Burada uşağın əzbər bildiyi şerlərin sayı, boyun, çəkinin, döş qəfəsinin göstəriciləri, mədəni davranış vərdişləri və s. haqqında məlumatlar əks olunur.

Göstərilən hər iki rəy formasında kompleks müayinənin göstəriciləri kifayət qədər əks olunmadığına görə, onları tam məqbul hesab etmək doğru olmaz. Ona görə də, psixoloji rəylərdə uşağın yaş dövrünün xüsusiyyətləri əsas götürülməklə aşağıdakı parametrlər ön plana çəkilməlidir:

1. Ümumi fiziki inkişaf;
2. İdrak sferasının inkişafı;
3. Şəxsi-emosional sferanın inkişafı;
4. Kommunikativ inkişaf;
5. Uşaq fəaliyyətinin səciyyəsi;
6. Məktəbə hazırlıq;
7. İnkişafın xüsusiyyətləri;
8. İnkişaf problemləri;
9. Tövsiyələr.

Uşaqların yaş dövründən asılı olaraq qeyd olunan göstəricilərdə müəyyən parametrlər dəyişdirilə bilər.

**Korreksiyaedici xəritə** korreksiyaedici proqram üzrə aparılacaq işlərin strategiya və taktikasını əks etdirən sənəddir. Bu sənəddə uşaq haqqında ilkin məlumatlar, ilkin problematika (uşaqda psixi inkişafın pozulmasının xüsusiyyətləri, koprreksiyaedici təsirin vasitələri, aparılacaq işin müddəti və mərhələləri, müəllim və valideyn üçün tövsiyələr, hər bir korreksiyaedici məşğələdən sonra uşaqda müşahidə olunan dəyişikliklərin dinamikası haqqında məlumat, ümumi tövsiyələrlə birgə yekun xarakteristika) öz əksini tapmalıdır.

**Diaqnostik müayinə protokolları** adlı xüsusi sənəd cədvəl və ya sərbəst yazılmış şəkildə tərtib olunur. Bu sənəddə uşağın davranış reaksiyası və onun təzahürləri, emosional vəziyyətlərin dinamikası, diaqnostik müayinəyə uşağın reaksiyası, rol-cins davranışı, yol verilən səhvlər və yekun nəticələr qeyd olunur.

Praktik psixoloqun xüsusi iş sənədləri içərisində psixi **inkişaf xəritəsi** adlanan sənədin mühüm informativ əhəmiyyəti vardır. Buraya uşaq haqqında anket göstəriciləri, valideynləri və ailənin digər üzvləri haqqında məlumat, uşağın yaşadığı ailənin sosial-məişət şəraiti, ailədə baş vermiş insan itgisi haqqında məlumatlar, uşağın həyatında yaşlıların rolu və təsiri, ailədaxili qarşılıqlı münasibətlərin tərzi, uşağın keçirdiyi xəstəliklər, xəsarət və əməliyyatlar və s. kimi amillər psixoloji, sosial və psixi inkişafın yaş normasına uyğunluğu baxımından təhlil edilir. Bəzən təhsil müəssisələrində psixoloq bu sənədi məktəb həkimi ilə birlikdə tərtib edir.

**Təşkilati-metodik sənədlər** praktik psixoloqun iş sistemində özünəməxsus yer tutur. Bu qrupa aid edilən sənədlər praktik psixoloqun peşə fəaliyyətinin təşkilini, planlaşdırılması və metodik təminatını nəzərdə tutur. Psixoloji fəaliyyətin uşaqların təlimi və tərbiyəsi prosesi ilə birləşdirilməsi bu sahədə çalışan mütəxəssis-psixoloqu xüsusi sənədlər bloku yaratmağa yönəldir.

**Təşkilati-metodik sənədlər blokuna** aşağıdakılar daxildir:

- Praktik psixoloqun təhsil müəssisəsində iş vaxtının **xronometraji;**
- Praktik psixoloqun iş qrafiki;
- Praktik psixoloqun ilik iş planı (peşə fəaliyyətinin strategiyası);
- Praktik psixoloqun diferensial aylıq iş planı (peşə fəaliyyətinin proqramı);
- Psixoloji sorğu blankları və jurnal;
- Praktik psixoloqun illik yekun hesabatı.

**Xronometraj -** psixoloqun müəyyən fəaliyyət sahələri üzrə işinin vaxt norması reqlamentinin məcmuyudur. Təhsil sahəsində çalışan praktik psixoloqun aylıq iş vaxtı norması orta hesabla 144 saat müəyyən edilmişdir ki, bu da müvafiq olaraq həftədə orata hesabla 36 saat deməkdir. Onlardan həftədə 12 saat metodiki məqsədlərə (xüsusi ədəbiyyatın öyrənilməsi, yeni psixoloji texnologiyaların mənimsənilməsi, regional tədbirlərdə, məsələn, konfranslarda, seminarlarda, kollegial məsləhətləşmələrdə iştirak etmək, sənədləri tərtib etmək və s.) xidmət etməlidir.

**İş qrafiki** - iş vaxtının xronometraj əsasında müxtəlif iş sahələri üzrə gündəlik bölgüsüdür. Psixoloq həftənin 5 günü üçün öz işini qrafik şəklində planlaşdırır. Qrafikdə fərdi və qrup şəklində fəaliyyətin, müxtəlif istiqamətlər üzrə işin məzmunu və metodik vaxtın müddətləri qeyd olunur.

**İllik iş planı** - (peşə fəaliyyətinin strategiyası) təhsil müəssisəsində psixoloqun bir illik işinin məqsəd və vəzifələrini əks etdirən ən mühüm sənədlərdən biridir.

Praktik psixoloqun strategiyası adlandırılan bu sənəd uşaqların təhsili və tərbiyəsi üzrə dövlət proqramları ilə müəyyən edilmiş təhsilin məzmununa, təhsil standartlarına uyğun olaraq tərtib olunur. Praktik psixoloq illik iş planını tərtib edərkən öz peşə fəaliyyətinin konsepsiyasının, Təhsil Sistemində psixoloji xidmət haqqında “Əsasnamə”nin tələblərini

nəzərə almalıdır. İllik iş planında praktik psixoloqun məqsədi, vəzifələri, işin istiqamətləri, məzmunu və formaları, onların icra müddətləri qrafik şəklində və ya sərbəst şərhetmə formasında qeyd olunur.

**Diferensial aylıq iş planı** – praktik psixoloqun təhsil müəssisəsində ayrı-ayrı fəaliyyət sahəsində işinin konkret məzmununu əks etdirir. Diferensial planda fəaliyyətin növü, onun məqsəd və vəzifələri, işin forması, kontingentin miqdarı və yaş qrupu, fəaliyyət üçün vasitələr, zəruri material və avadanlıqların miqdarı əks olunur.

**Psixoloji sorğu jurnalı** - bu və ya digər şəxsə münasibətdə psixoloji müdaxilənin zəruriliyini qeydə almaq məqsədinə xidmət edən sənəddir. İş planı ilə birlikdə sorğu jurnalı psixoloji tədbirlərin məzmununu və həcmini müəyyən edir. Psixoloji sorğular uşaq və yeniyetmələrlə ünsiyyətdə olan valideynlərdən, ayrı-ayrı müəllimlərdən, hüquqşünaslardan və təhsil müəssisəsinin rəhbərliyindən daxil ola bilər. Zəruri hallarda sorğunun gizli olmasını təmin etmək üçün jurnala kodlaşdırılmış blanklar əlavə oluna bilər.

**Yekun hesabat** - praktik psixoloqun illik iş planında nəzərdə tutduğu və icra etdiyi tədbirlərin nəticələrinin məcmuyudur. Hesabat planlaşdırılmış psixoloji tədbirlərin ayrı-ayrı istiqamətlər üzrə icrasının nə dərəcədə təmin olunmasına aydınlıq gətirir. İcra olunmamış bu və ya digər tədbir haqqında onun yerinə yetirilməməsi səbəbi göstərilir. Xüsusi qeyd etmək lazımdır ki, məxfi xarakter daşıyan məlimatlar peşə sirri kimi gizli saxlanılır və hesabata daxil edilmir.

### 1.3.5. Praktik psixoloqun fəaliyyətinin etik prinsipləri

Psixoloq hər bir insanın varlığına və ləyaqətinə, öyrənmə obyekti kimi şəxsiyyətinə hörmət bəsləyir. Tədqiqatçılıq baxımından sərbəst olan psixoloq peşəkar fəaliyyətində öz üzərinə böyük məsuliyyət götürmüş olur. Praktik psixoloqun fəaliyyətinə verilən əsas tələblər ilk dəfə olaraq

1963-cü ildə Amerika Psixoloqlar Assosiasiyası tərəfindən 19 prinsip şəklində müəyyənləşdirilmiş, 1965 və 1972-ci ildə həmin prinsiplərə müəyyən dəyişikliklər edilmişdir.

Psixoloqun fəaliyyətində aşağıdakı **etik prinsiplər** əsas götürülməlidir:

1. **Məsuliyyət prinsipi.** İnsanın insan tərəfindən qarşılıqlı anlaşılması öhdəliyini öz üzərinə götürən psixoloq öz işində obyektivliyə, düzgünlüyə böyük əhəmiyyət verməlidir.
2. **Səriştəlilik prinsipi.** Yüksək peşə səriştəliliyi psixoloqun vəzifəsi, cəmiyyətin maraqları baxımından onun qarşısında duran öhdəlikdir.
3. **Əxlaqi və hüquqi standartlar prinsipi.** Psixoloq öz fəaliyyətində cəmiyyətdə bərqərar olmuş sosial normalara və əxlaqi tələblərə hörmətlə yanaşmalı, əxlaqi və hüquqi standartların pozulması hallarına yol verməməlidir.
4. **Yanlış təsəvvürlər prinsipi.** Psixoloq təhsil aldığı və ya daxil olduğu ali məktəb və ya təşkilat və cəmiyyət adından çıxış etməklə yanlış təsəvvürlər yaradılması meyllərindən uzaq olmalıdır.
5. **Mətbuat üçün bəyanatlar prinsipi.** Psixoloq müştərilərlə işinin tətbiqi sahələri ilə bağlı mətbuat üçün bəyanatlar verərkən obyektiv və dəqiq olmalı, sensasiya doğuracaq yanlışlığa yol verməməlidir.
6. **Konfidensiallıq prinsipi.** Psixoloq peşə sirrini qorumalı, fərd haqqında məlumatların gizli saxlanılacağını təmin etməli və bu barədə zəmanət verməlidir.
7. **Müştərinin rifahı prinsipi.** Psixoloq iş apardığı adamın və ya qrupun mənafeyini müdafiə etməli və onun toxunulmazlığına hörmət bəsləməlidir.
8. **Müştəri ilə qarşılıqlı münasibət prinsipi.** Psixoloq müştərini qarşılıqlı münasibətlərin əsas cəhətləri barədə məlumatlandırır və onu bu münasibətlərə qoşulmağa yönəldir.

9. **Şəxssiz xidmət prinsipi.** Diaqnostik, müalicə və ya məsləhət məqsədilə həyata keçirilən psixoloji xidmət yalnız peşəkar münasibətlər kontekstində həyata keçirilməlidir. Müştərinin müayinəsinin nəticələri və ya verilən tövsiyələr onun peşəkar nüfuzuna ziyan vurmamalı, mətbuat və ya digər kütləvi informasiya vasitələri ilə yayılmamalıdır.
10. **Xidmət haqqında elan prinsipi.** Psixoloq peşəkar xidmətlə məşğul olması barədə müxtəlif informasiya vasitələrində peşəkarlıq səviyyəsi, diplomun statusu, ünvan, telefon nömrəsi, iş vaxtı və göstərilən xidmət növü haqqında məlumatlar verə bilər.
11. **Peşədaxili münasibətlər prinsipi.** Psixoloq öz peşə həmkarları ilə qarşılıqlı münasibətlərində səmimi olduğunu göstərməlidir.
12. **Əməyin ödənilməsi prinsipi.** Peşəkar təcrübədə psixoloqun əməyinin ödənilməsi ilə bağlı maliyyə məsələləri peşə standartlarına, müştərinin və peşənin maraqlarına uyğun olmaqla ödənilir.
13. **Testin nəticələrinin məxfiliyi prinsipi.** Psixoloji testlərin və digər tədqiqat metodlarının nəticələri sınanılan şəxsin xəbəri olmadan kütləvi nəşrlərdə əks oluna bilməz.
14. **Testin interpretasiyası prinsipi.** Testin qiymətinin nəticələri, o cümlədən test materialları yalnız o şəxslərə verilə bilər ki, onlar həmin nəticələri interpretasiya etmək və onlardan lazımi səviyyədə istifadə etmək qabiliyyətinə malik olsunlar.
15. **Testin nəşri prinsipi.** Psixoloji testlər kommersiya nəşri üçün yalnız o nəşriyyatlara verilə bilər ki, onlar həmin testləri peşəkarlıqla iş apara bilən mütəxəssislər arasında yayılmasını təmin etməyə zəmanət vermiş olsunlar.
16. **Tədqiqatlarda ehtiyatlılığın gözlənilməsi prinsipi.** Psixoloqun tədqiqatları insanların rifahı ziddinə yönəlməməli, onlara ziyan

vurmamalıdır. Şəxsiyyətin enerji və imkanlarını qiymətləndirmək üçün psixoloq alternativ üsulların tətbiqinə görə məsuliyyət daşıyır. Hər bir şəxsin üzərində aparılan tədqiqat onun razılığına əsaslanmalı, bu zaman həmin şəxsin şərəf və ləyaqətinə hörmət bəslənilməli, etik məsuliyyət gözlənilməlidir.

17. **Nəşrlərin əhəmiyyəti prinsipi.** Psixoloji tədqiqatın nəticələri çap olunarkən eksperimentator və ya müəllif nəşr üçün prinsipial əhəmiyyətli şəxs olduğuna görə, onun adı siyahıda birinci yerdə yazılmalıdır. Çap olunmuş ədəbiyyatlar vasitəsilə tədqiqata birbaşa və ya dolayı təsir göstərmiş materialların müəlliflərinin hüquqları qorunur. Onların adı sitatlarla qeyd olunmalıdır.
18. **Təşkilat qarşısında məsuliyyət prinsipi.** Psixoloq tabe və yaxud daxil olduğu təşkilatın və ya institutun hüquqlarına hörmətlə yanaşmalıdır. Psixoloq tərəfindən hazırlanmış və istifadə olunan materiallar onun üzv olduğu təşkilatın mülkiyyəti hesab edilir.
19. **Hərəkət üzrə fəaliyyət prinsipi.** Psixoloq kompaniya məqsədi üçün yaradılmış psixoloji cihazların, kitabların və digər növ məhsulların yararlılığı və qanuni yolla əldə edilməsinə görə cavabdehdir.

### 1.3.6. Psixoloji xidmət kabineti

Praktik psixoloqun fəaliyyətində işin məzmunu və texnoloji komponentlə yanaşı, təşkilati parametlərin də özünəməxsus rolu və əhəmiyyəti vardır. Aydındır ki, peşəkar psixoloji xidmətin təşkilinin zəruri şərtlərindən biri də təhsil müəssisəsində psixoloq üçün normal iş şəraitinin olmasıdır. Qeyd olunan amillər praktik psixoloqun iş yerində öz vəzifələrini səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri amillər hesab edilir. Bunlar peşə səriştəliliyi anlayışı ilə bağlı olub, praktik psixoloqun işinin səmərə və keyfiyyətini şərtləndirir. Təhsil sistemində

çalışan praktik psixoloqun fəaliyyətinə bir sıra **təşkilati-metodik tələblər** verilir.

Təhsil müəssisəsinin tipindən asılı olaraq bu tələblərdə müəyyən dəyişikliklər ola bilər. Məktəbdə praktik psixoloq üçün o qədər də böyük olmayan, mütənasib ölçülü, 10-12 nəfərin yerləşə biləcəyi təxminən 25-30 kv metr sahəsi, həm təbii, həm də süni işıqlandırılması normal olan **kabinet** olmalıdır. Kabinet uşaqlarla fərdi və qrup halında söhbətlərin aparılması, diaqnostika və korreksiya üzrə işlərin yerinə yetirilməsinə xidmət etməlidir.

Psixologiya kabineti praktik psixoloqun gündəlik iş yeridir. Yaxşı olar ki, psixologiya kabineti məktəb binasının I mərtəbəsində inzibati və təsərrüfat, həmçinin idman və musiqi otaqlarından aralıda, səs-küysüz bir yerdə olsun.

Otağın rəngləri sakitləşdirici mavi, yaşıl və ya sarı rəng çalarlarına uyğun olmalıdır. Bu rəng qammaları iş şəraitinə uyğunlaşma üçün münasib hesab olunur. Otaqda canlı dekoratik otaq bitkilərinin olması, heç də az əhəmiyyətə malik deyildir. Psixoloqun iş otağı heç də müəssisə işçiləri üçün istirahət və əyləncə yeri deyil. Burada müvafiq avadanlıqların, mebel və inventarların olması da vacib şərtdir.

Psixoloqun iş yerində 3 əsas zona ayrılmalıdır.

**I zona–**uşaqlarla iş zonasıdır. Burada müvafiq mebel və avadanlıqlar, stimul yaratmaq üçün **yaşamüvafiq diaqnostik, korreksiyaedici materialların**, (test və sorğu dəstləri və s.) **köməkçi materialların** (həndəsi fiqur dəstləri, oyun üçün materiallar, oyuncaqlar, uşaq kitabları və s.), həmçinin **texniki materialların** (rəngli kağızlar, qayçı, adi və rəngli qələmlər, flomasterlər, müxtəlif formalı ağ kağız dəsti, plastilin, karton və s.)olması vacib şərtlərdən biridir**.**

**II zona–**yaşlılarla (valideynlər və müəllimlər)qarşılıqlı fəaliyyət zonası adlanır. Burada kommunikativ fəaliyyət üçün zəruri olan vasitələr, yumşaq

divan və ya kreslolar, diaqnostik –korreksiyaedici metodikalar və testlər kimi stimul materialları, psixologiyaya aid müxtəlif ədəbiyyatlar və informasiya materialları (psixonevroloq, psixiatr, laqopedin rəyləri, xəstəxanadan veilmiş arayış və rəylər və s.) yerləşdirilir.

**III zona–**psixoloqun təşkilati-planlaşdırma və interpretasiya üzrə işinin təşkilinə xidmət edən vasitələrlə təchiz edilir. Bu zonada mebel və avadanlıqlar, imkan daxilində kompyuter və çap vasitələri, yazı stolu və stullar, normativ, xüsusi və təşkilati-metodik sənədlər, psixoloqun peşə hazırlığının elmi-nəzəri səviyyəsini yüksəltmək məqsədinə xidmər edən ədəbiyyatlar və dövrü çap məhsulları (qəzet və jurnallar), müxtəlif proqram və layihələr, korreksiyaedici proqramlar, diaqnostik və korreksiya işlərinin nəticələri, psixoloji testlər bankı haqqında məlumatlar, psixoloji xəritələr, psixoloqun iş vaxtının xronometraji və qrafiki, illik və aylıq iş planları, psixoloji xasiyyətnamə və rəylər, psixoloji sorğu və görülən işlərin qeydiyyat jurnalları, yekun hesabatlar, diaqnostik müayinənin nəticələri haqqında rəylər və s. saxlanılır.

Şübhəsiz ki, indiki şəraitdə Respublikamızın bütün təhsil müəssisələrində psixoloji xidmət kabinetlərini ideal səviyyədə tam təchiz etmək mümkün deyildir. Lakin gələcəkdə bu istiqamətdə görüləcək işlər bu sahənin real və səmərəli bir fəaliyyət sahəsinə çevriləcəyinə ümüd doğurur.

### 1.3.7. Psixoloji xəritənin tərtibi

Məktəbdə psixoloqun fəaliyyətinin ən mühüm sahələrindən biri **şagird şəxsiyyətinin**, eləcə də hər bir **şagirdin daxil olduğu sinif şagird kollektivinin öyrənilməsindən** ibarətdir. Şagirdin şəxsiyyətini öyrənmək yolu ilə psixoloq hər bir şagirdin psixi inkişaf tempini izləmək, onun gedişinə nəzarət etmək, fərdi olaraq hər bir şagirdə təsir göstərmək,onun potensial imkanlarını qiymətləndirmək imkanı əldə edir. Şagird şəxsiyyətinin

öyrənilməsi onun məktəbdə statusunun, imic və reytinqinin müəyyən edilməsinin əsas vasitəsidir. Bu, psixoloqdan daha çox şagirdlə təlim-tərbiyə prosesini həyata keçirən müəllimlərə lazımdır. Şagirdin şəxsiyyətinin öyrənilməsi hər bir şagirdin psixi və mənəvi inkişafında gizli şəkildə mövcud olan ümumi və funksional ləngimə, geridəqalma və kənaraçıxma hallarının müəyyənləşdirilməsi, pedaqoji-psixoloji korreksiya işinin vaxtında aparılmasının zəruri şərtidir. Psixoloq tərəfindən vaxtında və düzgün tərtib edilmiş psixokorreksiya proqramı isə müəllimlərə optimal öyrədici, tərbiyəedici və inkişafetdirici proqramlar tərtib etməkdə kömək göstərə bilər. Şagirdlərin və sinif kollektivlərinin şəxsiyyətlərarası münasibətlərin öyrənilməsi yolu ilə psixoloq hər bir şagirdin bitkin **psixoloji portretini** yaratmış olur. Psixoloqun fəaliyyətinin nəticəsi olan bu sənəd hər bir şagird üçün tərtib edilir və **fərdi-psixoloji xəritə adlanır**. Psixoloji xəritə məktəbdə oxuyan hər bir şagird haqqında bir dəfə tərtib olunur və onun orta təhsil müddətində dövri olaraq əlavələr edilir.

Psixoloqun tərtib etdiyi fərdi-psixoloji xəritə təxminən aşağıdakı bölmələrdən ibarət ola bilər:

**Fərdi-psixoloji xəritə**

1. Ailə, şagirdin valideynlərinin adı, soyadı və atasının adı. Uşaqla birgə yaşayan qohumlar və ailə üzvləri. Onların yaşı, təhsili, vəzifəsi və iş yeri. Ailənin mənzil şəraiti, maddi vəziyyəti və digər xüsusiyyətləri;
2. Şagirdin fiziki inkişafı və sağlamlığı, fiziki inkişafın xüsusiyyətləri, fiziki qüsurların olub-olmaması, sağlamlıq durumu;
3. Temperament və xarakterin xüsusiyyətləri;
4. Psixi (duyğu, qavrayış, hafizə, nitq, təfəkkür, təxəyyül) və emosional proseslərin xüsusiyyətləri və inkişaf səviyyəsi ;
5. İdrak və təlim qabiliyyət və bacarıqlarının xüsusiyyətləri və inkişafı;
6. Özünüqiymətləndirmə və iddia səviyyəsi;
7. Maraqlar və meyllər. Məktəbdə, maraq kurslarında və bölmələrdə və s.

məşğələlər;

8. Davranışın xarakterik xüsusiyyətləri;

9. Şagirdin yaşıdları və yaşlılarla münasibətləri;

10. Şagirdin təlimə münasibəti və təlim uğurları;

11. Şagirdin peşəyönümü və peşə maraqları;

12. Şagirdin şəxsiyyətinin digər xüsusiyyətləri.

Fərdi-psixoloji xəritənin qeyd olunan bölmələri şərtidir və ona əlavələr də edilə bilər. Göstərilən hər bir bölməyə aid məlumatların əldə edilməsi məqsədilə psixoloq müxtəlif metod və metodikalardan istifadə edə bilər. Belə metodlara aşağıdakıları misal göstərmək olar:

1. "Mənim yaxşı və pis xüsusiyyətlərim", "Mən kim olmaq istəyirəm", "Mənim həyat idealım" və s mövzularda inşalar;
2. Şagirdlərin müxtəlif fəaliyyət növlərinə və tədris fənlərinə münasibətini, maraq və meyllərini, dərk edilmiş mötivlərini müəyyən etmək üçün anket sorğuları;
3. Özünüqiymətləndirmə. Şagirdə təklif olunur ki, özünün icra etdiyi tədris işlərini (həll etdiyi məsələləri, çalışmaları, inşaları və s.) qiymətləndirsin;
4. Sərbəst tapşırıqlar. Şagirdə təklif olunur ki, o, sərbəst olaraq verilmiş çoxsaylı rəngarəng tapşırıqlardan, məsələ və misallardan istənilən sayda və istənilən xarakterdə olanı seçmək imkanına malikdir. Seçimin xarakterinə və sayına görə şagirdin bir çox xüsusiyyətlərini (o cümlədən iddia səviyyəsini) müəyyən etmək olar.

Bundan başqa psixoloq müxtəlif psixodiaqnostik metodikalardan, xüsusilə psixoloji testlərdən istifadə etməklə hər bir şagirdin intellektual, iradi və emosional aləminin xüsusiyyətləri, şəxsiyyətinin fərdiyyəti haqqında da ətraflı məlumat əldə edə bilər.

Şagirdin psixoloji xəritəsi təxminən ildə iki dəfə doldurulur. Psixoloq hər bir şagird haqqında əldə etdiyi məlumatları fərdi-psixoloji xəritələrə qeyd etməzdən əvvəl fakt və məlumatların obyektiv və etibarlı olması üçün həmin

sinifdə dərs deyən müəllimlər və sinif rəhbərləri ilə birgə pedaqoji-psixoloji konsilium keçirməlidir. Konsiliumlar ayrı-ayrı siniflərdə tərbiyə işinin vahid sistemini, zəruri korreksiya-inkişafetdirici proqramların tərtibi, sinif-şagird kollektivinin gələcək inkişaf perspektivlərini müəyyən etmək baxımından da faydalıdır.

### III fəslə aid suallar və tapşırıqlar

1. *"Təhsil Sistemində Psixoloji Xidmət" haqqında "Əsasnamə"də praktik psixoloqun fəaliyyəti hansı istiqamətləri özündə əks etdirir?*
2. *Psixoloji xidmətin əsas məqsədi nədən ibarətdir?*
3. *Psixoprofilaktik istiqamətdə aparılacaq işlərin əsas məzmununu söyləyin.*
4. *Psixodiaqnostika üzrə aparılacaq işlərin məzmunu "Əsasnamı"də necə ifadə edilmişdir?*
5. *Konsultativ və psixokorreksiya işlərinin məqsəd və vəzifələri "Əsasnamə"də necə qeyd olunmuşdur?*
6. *Psixoloji xidmət işçisinin məsuliyyəti nədən ibarətdir?*
7. *Təhsil müəssisələrində çalışan praktik psixoloq hansı ixtisan tələblərinə cavab verməlidir?*
8. *Azərbaycan Praktik Psixoloqlar Assosiasiyası nə vaxt yaradılmışdır?*
9. *Təhsil sistemində çalışan praktik psixoloqların aylıq orqanı hansı dövri nəşrdir?*
10. *Praktik psixoloq hansı funksiyaları yerinə yetirir?*
11. *"Peşə etikası" nə deməkdir?*
12. *Praktik psixoloqun hüquqları hansılardır?*
13. *Təhsil sistemində çalışan praktik psixoloqun fəaliyyətinə aid sənədlər neçə qrupa ayrılır? Onların hər biri haqqında danışın.*
14. *Praktik psixoloqun fəaliyyəti hansı etik prinsiplərlə tənzimlənir?*
15. *Şagird üçün tərtib edilən fərdi psixoloji xəritəyə nələr daxildir?*
16. *Psixoloji xidmət kabineti necə olmalıdır?*

# IV FƏSİL
# PSİXOLOJİ MAARİFLƏNDİRMƏ
## 1.4.1. Psixoloji maarifləndirmənin məqsədi və vəzifələri

Təhsil sistemində praktik psixoloji xidmətin strukturunda **psixoloji maarifləndirmə** işi özünəməxsus yer tutur. Onun əsas məqsədi təhsil sisteminə daxil olan müxtəlif tipli müəssisələrdə çalışan müəllim və tərbiyəçiləri psixologiya elminin son nailiyyətləri ilə tanış etməkdən, pedaqoq və valideynləri uşaqların inkişafında və davranışında müşahidə olunan normadan kənara çıxma halları haqqında məlumatlandırmaqdan ibarətdir. Deməli, təhsil müəssisələrində psixoloji maarifləndirmə işi **təhsilləndirici** və **profilaktik** məqsəd daşıyır.

Praktik psixoloq müəllim, tərbiyəçi və valideynlər arasında müxtəlif formada maarifləndirmə işi aparmaqla, onların **"Uşaq psixologiyası", "Ailə psixologiyası", "Şəxsiyyət və şəxsiyyətlərarası münasibətlər psixologiyası", "Ünsiyyət psixologiyası"** və s. kimi konkret bilik sahələri ilə tanış edir, uşaqların inkişafı, təlimi və tərbiyəsi, pedaqoji təsir üsullarının psixoloji xüsusiyyətləri, yaş dövrlərinin dəyişməsi ilə əlaqədar uşaqların psixologiyasında meydana çıxan böhranların psixoloji təbiəti ilə tanış edir, yaranan münaqişələrin həlli yolları haqqında məsləhətlər və tövsiyələr verir.

Təhsilləndirici maarifləndirmə istiqamətində həyata keçirilən tədbirlər sırasında xüsusi hazırlığı olmayan şəxslərlə **terminoloji sahədə** görülən işlər mühüm yer tutur. Maarifləndirmə sahəsində görülən işlərin əsas təşkilat forması qrup şəklində aparılan işlərdir. Bunların sırasında **mühazirələr, söhbətlər, diskussiya xarakterli disputlar, seminarlar, treninqlər, zəruri ədəbiyyatın seçilməsi** və s. əsas yer tutur. Qeyd olunan maarifləndirici tədbirlərin həyata keçirilməsinin əsas vasitəsi **verbal-kommunikativ vasitələrdir**. Bu cür təsir formaları monoloji (mühazirə),

dioloji diskussiya) və qrup (disputlar) ünsiyyətinin imkanları nəzərə alınmaqla təşkil olunur. Maarifləndirmə işinin tematik məzmunu müəllim, tərbiyəçi və valideynlərin sorğuları və psixoloqun təşəbbüsləri əsasında müəyyənləşdirilir. Psixoloq ehtiyac yarandıqda bəzi problemli məsələlərin müzakirəsini qabaqcadan planlaşdırır. **Valideynlər arasında** aparılan maarifləndirmə işində aşağıdakı problem mövzular müzakirə edilə bilər:

- uşaqların bağçaya adaptasiyası və məktəbə hazrlanması ilə bağlı məsələlər;
- uşaqların cinsi identifikasiyası və psixoseksual inkişafı ilə əlaqədar mövzular;
- texniki informasiya mənbələrindən (televizor, video, kompyuter, oyun kompyuter qurğuları, mobil telefon və s.) istifadə ilə əlaqədar məsələlər.

**Müəllim və tərbiyəçilər** üçün bu mövzular sırasına aşağıdakılar daxil edilə bilər:

- uşaqlar üçün inkişafetdirici proqramların hazırlanması və onlardan istifadə;
- psixi pozğunluqların simptomatikası və inkişafda geridəqalma məsələləri;
- uşaqların ümumi və xüsusi qabiliyyətləri;
- uşaq, yeniyetmə və gənclərdə istedadın inkişaf etdirilməsi;
- “risk qrupu”na aid edilən uşaq və yeniyetmələrlə işin təşkili;
- “çətin” uşaqlarla təlim-tərbiyə işlərinin təşkili xüsusiyyətləri.

Qeyd etmək lazımdır ki, maarifləndirmə ilə bağlı mövzuların müəyyənləşdirlməsində psixoloq müəllim, tərbiyəçi və valideynlərin sorğularını nəzərə almalı və planlaşdırma zamanı həmin mövzulara daha çox üstünlük verməlidir.

Psixoloji maarifləndirmə işində verbal-kommunikativ vasitələrlə yanaşı qeyr-verbal (əyani) vasitələrdən də geniş istifadə olunur. Məktəbəqədər müəssisələrdə və məktəbdə stendlərdən, xüsusi tövsiyə

mətnlərindən, illüstrativ materiallardan, kitab və broşüralardan, test və anket nümunələrindən ibarət guşələrin hazırlanması məqsədəuyğundur. Bundan başqa, psixoloq öz iş otağında yaratdığı kitabxanada ailə, valideynlər üçün və nigah məsələlərinə aid olan xüsusi seçilmiş ədəbiyyatlar da cəmləşdirə bilər. Müəllim və tərbiyəçilər üçün guşədə pedaqoji-psixoloji ədəbiyyatların saxlanması məqsədəuyğundur.

Məktəbəqədər uşaq tərbiyə müəssisələrində və məktəbdə psixoloqun yardıma ehtiyacı olan şəxslərə göstərdiyi kömək əsasən kommunikativ təsirə əsaslanmaqla tövsiyə xarakteri daşıyır. Bu qarşılıqlı təsir müəssisə rəhbərliyinin, müəllim və tərbiyəçilərin, həmçinin valideyn və uşaqların sorğuları əsasında həyata keçirilir. Belə qarşılıqlı əlaqə psixoloq tərəfindən keçirilən sorğular əsasında hazırlanmış informativ və korreksiyaedici-profilaktik məzmunlu tövsiyələrin hazırlanması yolu ilə reallaşmış olur. Psixoloji məsləhətlərin təşkilinin əsas forması **fərdi məsləhətdir.** Qeyd etmək lazımdır ki, məktəbəqədər uşaq tərbiyə müəs-sisələrində psixoloji məsləhətlərin təşkilinin spesifik xüsusiyyətləri vardır. O, uşağın inkişafı, təlimi və tərbiyəsi ilə bağlı problemlərə istiqamətlənmişdir və birbaşa məsləhətvermə məzmunu daşıyır. Məktəbəqədər yaşlı uşaq hələlik sorğu ilə müraciət etmək imkanına malik olmadığına görə, bu məsələ ilə bağlı əsas təşəbbüskarlar uşağın ən yaxın əhatəsində olan yaşlılardır. Psixoloq bağçada müşahidələr aparmaqla uşaqların qarşılaşdıqla-rı əsas çətinlikləri müəyyənləşdirməli və onların aradan qaldırılmasında onlara kömək göstərməlidir.

Praktik psixoloqun tövsiyələri mümkün münaqişələrin yumşaldılması, dramatikləşməsinin qarşısının alınması strategiyasına yönəlməli və bu məqsədə xidmət etməlidir.

Təhsil müəssisəsinə cəlb edilmiş uşaqların davranış qüsurlarına görə onların günahlandırılması halları baş verdikdə, assosial davranışının motivlərini müəyyənləşdirmək, onun təzahürlərini aradan qaldırmaq

psixoemosional və psixosomatik baxımdan müalicəsi və tərbiyəsi məqsədilə əlaqədar şəxslərə məsləhət və tövsiyələr verilir.

Psixoloq ona ünvanlanan sorğuların təhlili əsasında yaşlıların uşaqla qarşılıqlı münasibətində yaranan real çətinliklərin aradan qaldırılması üçün elmi cəhətdən əsaslandırılmış psixoloji təsir strategiyasını qurur, taktiki variantlarını müəyyənləşdirir.

Təhsil sistemində **pedaqoji prosesin psixoloji təminatı** praktik psixoloqun öhdəsinə düşən vəzifələrdən biridir. Bu, praktik psixoloji xidmətin qarşısında qoyulmuş istiqamətlərdən biri kimi ontogenetik inkişaf prosesində fərdin inkişafının psixoloji qanunlara müvafiq quulmasında pedaqoji təsirlərin rolunu nəzərə almağı vacib şərt kimi irəli sürür.Qeyd olunan cəhət öz –özlüyündə pedaqoji prosesin xüsusi təşkil edilmiş təsir sistemində, yəni təlim və tərbiyə prosesində şəxsiyyətin formalaşmasının psixoloji qanunauyğunluqlarına uyğunlaşdırılması zərurətini bir tələb olaraq qarşıya qoyur.

Pedaqoji prosesdə **təhsilləndirici vəzifənin** yerinə yetirilməsi təhsil (inkişafetdirici) proqramların psixoloji müşayiəti əsasında, tərbiyə prosesi isə **tərbiyəedici situasiyaların psixoloji təminatı** vasitəsilə həyata keçirilir.

“Uşaq bağçasında təlim və tərbiyə proqramı” (B.,1998) məktəbəqədər müəssisələrdə pedaqoji prosesin həyata keçirilməsində əsas icbari sənəddir. Məktəbəqədər təlim və tərbiyə prosesinin bütün məzmunu bu proqramda öz əksini tapmışdır. Bu sənəd uşaqların sağlam və normal psixi inkişafı məqsədlərinə xidmət etməklə, onlar üçün **əlverişli inkişafetdirici mühitin** yaradılması tələbini, uşaqların sensor, əqli, estetik, fiziki, əxlaq, əmək tərbiyəsi üzrə məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Uşaq bağçalarında təlim və tərbiyə işlərinin əsas təşkilat forması **məşğələdir.** Müxtəlif tipli

məşğələlər uşaqların təhsilləndirilməsi, tərbiyə edilməsi və inkişafetdirici vəzifələrin yerinə yetirilməsinə xidmət edir.

Dünyanın inkişaf etmiş bir çox ölkələrində müxtəlif tipli məktəbəqədər uşaq tərbiyə müəssisələri yaradılmışdır. Dövlət və kommersiya tipli uşaq bağçaları, uşaq liseyləri və mərkəzləri, progimnaziyaları və s. bunlara misal göstərmək olar. Belə məktəbəqədər müəssisələrin hər birinin özünəməxsus məqsəd və vəzifələri, onlardan irəli gələn diferensial proqramları mövcuddur. Onların bəziləri bazis, yəni **ümumi inkişaf,** digərləri isə **xüsusi inkişaf** xarakterlidir.

Ümuminkişaf tipli proqramlar özündə bazis və ontogenetik inkişafın yaş mərhələlərinə uyğun pedaqoji-psixoloji təsir istiqamətlərindən irəli gələn məqsədləri birləşdirir. Belə proqramlar bir-birindən fərqli və alternativ xarakterli olub, inkişaf prosesi haqqında əsas nəzəri təsəvvürlər əsasında yaradılır.

Xüsusi proqramların tərkibində isə ümumi ontogenetik inkişaf haqqında konsepsiyaların müddəaları ilə yanaşı, uşaqların xüsusi inkişafına yönəlmiş nəzəriyyələr (təsviri və musiqi, incəsənət, nitq inkişafı riyazi hazırlıq və s.) əsasında onların dərindən mənimsədilməsi məqsədləri irəli çəkilir.

### 1.4.2. Valideynlər arasında aparılan psixoloji maarifləndirmə işinin məzmunu və formaları

Məktəb psixoloqunun valideynlərlə işi bir neçə istiqaməti əhatə edir. Uşaqların, şagirdlərin ailələri ilə sıx əməkdaşlıq və qarşılıqlı inam şəraitində işləmək üçün praktik psixoloq ilk növbədə xeyirxah məsləhətçi rolunda çıxış etməli, ailənin daxili işlərinə fəal müdaxilə etmək cəhdlərindən uzaq olmalıdır. Psixoloq valideyn yığıncaqları və ailələrə getmək yolu ilə uşaqların aktual problemlərinin həll edilməsində valideynlərin yaxın həmkarı olmalı,

maarifləndirmə və məsləhətvermə sahəsində görəcəyi işləri konkret olaraq irəlicədən planlaşdırmalıdır. Psixoloq uşaqların hüquqlarının müdafiəçisi olsa da, övlad-valideyn ünsiyyəti ilə bağlı yaranan problemlərin həllində fəal iştirak etməli, zəruri hallarda valideynlərə psixoloji dəstək verməlidir.

Məktəb psixoloqu özünün peşəkar fəaliyyətinin bütün istiqamətlərində valideynlərlə birgə fəaliyyətin zəruriliyini daim diqqət mərkəzində saxlamalıdır. Bu zərurət ilk növbədə inkişafın sosial situasiyasının formalaşdırılmasında valideynlərin rolu ilə bağlı meydana çıxır. Uşağın lap kiçik yaşlarından əhatə olunduğu yaşlılarla ünsiyyəti onun normal inkişafının zəruri şərtidir. Bu ünsiyyət prosesində uşağı əhatə edən xarici sosial strukturların təsiri onun şəxsiyyətinin daxili strukturlarının formalaşmasında mühüm rol oynayır.

Ailə mühitinin mənəvi-psixoloji cəhətdən qeyri-sağlam olması, ailə üzvləri arasında qarşılıqlı münasibətlərin qeyri-adekvatlığı uşağın koqnitiv sferası ilə yanaşı ünsiyyət sferasının formalaşmasına da mənfi təsir göstərir. Çox vaxt qeyri-sağlam təsirlər və həyat tərzi müxtəlif psixi pozğunluqların, normadan kənara çıxma hallarının və şəxsiyyətin disharmoniyasına (harmonik inkişafının pozulmasına), səbəb olur, aşağı özünüqiymətləndirmənin və aqressivliyin yaranma səbəbi kimi özünü göstərir. Valideynlərin uşaqlara qeyri-normal yaşanma tərzi, onların şəxsiyyət keyfiyyətlərindəki əlverişsiz əlamətlər: prinsipiallıq, hədsiz tələbkarlıq, səbrsizlik, yüksək iddialılıq, eqosentrizm, tez-tez təkrarlanan nevrotik hallar, affektivlik (qışqırmaq, hədə, söyüş və s.), uşağı hər bir göstərişi sözsüz yerinə yetirməyə təhrik etmə, uşaqlara qarşı inamsızlıq, emosional kütlük və introvetlik kimi xüsusiyyətlər onlarla valideynlər arasında qarşılıqlı sevgi və etibarın itməsinə gətirib çıxarır. Ailədə uşaqlarla qarşılıqlı münasibətin tez-tez pozulması fonunda onlara güclü psixoloji xəsarət dəymiş olur, nevrotik reaksiyaların yaranmasının katalizatoruna çevrilir.

Psixoloji tədqiqatlar müəyyən etmişdir ki, ailədaxili münasibətlərin pozulmasının əsas səbəbləri aşağıdakılardır:

- ailənin saxlanılması və uşaqların sağlamlığının qorunmasında valideynlərin məsuliyyəti öz üzərinə götürmək istəməməsi;
- uşaqlarda valideynlərdən birinin temperament xüsusiyyətləri və xarakter əlamətlərinin olmasının digər valideyn tərəfindən qəbul edilməməsi və qarşılıqlı isti münasibətin olmaması;
- ər-arvadlıq münasibətlərində uzunmüddətli stressin nəticəsi olaraq valideynlərdən birində və ya hər ikisində ümumi energetik potensialın zəifləməsi və sinir proseslərinin gücdən düşməsi;
- valideynlərin qeyri-ixtiyari olaraq keçmişdə baş vermiş günah, qorxu və inciklikləri tez-tez xatırlaması;
- dalğınlıq, depressiya və nevrozların nəticəsində sinir proseslərinin keçirilməsindəki çətinliklər;
- -valideynlərdən birinin nevrotik pozğunluğa düçar olması nəticəsində ailədə emosional əlaqələrin itirilməsi və tez-tez baş verən münaqişələr.

"**Çətin**" və ya mürəkkəb davranışlı uşaqlarla aparılan profilaktika və korreksiya işləri, ailə və valideynlərlə iş çox mühüm, mürəkkəb və zəruri fəaliyyət sahəsidir. Bu istiqamətdə aparılan işlər pedaqoq, psixoloq, həmçinin sosial pedaqoq və xüsusi-pedaqoji-psixoloji xidmət sahələrini də əhatə edir.

Məlum olduğu kimi "çətin" uşaq və yeniyetmələrin davranış qüsurlarının profilaktikası və korreksiyası sahəsində həyata keçirilən tədbirlər bütöv bir sistemdir və burada ailə əsas təsirə malikdir.

**"Çətin"** uşaqların davranış qüsurlarının yaranmasında ailədaxili münasibətlərdəki disharmoniya və nöqsanların təsiri heç də az deyildir. Bu baxımdan psixoloq valideynlərlə psixoprofilaktika və korreksiya məqsədilə apardığı işlərdə aşağıdakı cəhətlərə xüsusi diqqət yetirməlidir:

- ailə münasibətlərindəki disharmoniyanın və ailə tərbiyəsindəki qüsurların aradan qaldırılmasının profilaktikası məqsədilə məlumatverici - maarifləndirici işin həyata keçirilməsi;

- ailə tərbiyəsi tipinin müəyyənləşdirilməsi, valideynlərin uşaqlarla münasibətini və bütövlükdə ailədaxili münasibətlərin öyrənilməsi məqsədilə diaqnostik işlərin həyata keçirilməsi;

- ailə üzvləri arasında sağlam qarşılıqlı münasibətlərin bərpa edilməsi məqsədilə kompleks korreksiyaedici tədbirlərin həyata keçirilməsi və ailə tərbiyəsində özünü göstərən qüsurların korreksiyası.

Uşaq və yeniyetmələrin tərbiyəsindəki kənaraçıxma hallarının profilaktikası və korreksiyası məqsədilə psixoloq ailələrlə aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsini diqqət mərkəzində saxlamalıdır.

**Valideynlərlə məlumatverici–maarifləndirmə işləri** ailə tərbiyəsində və ailədaxili münasibətlərdə yol verilmiş mümükün qüsurların profilaktikası məqsədilə həyata keçirilir. Bu məqsədlə valideynləri uşaq və yeniyetmələrin rəftar və davranışında pozğunluqlara səbəb olan ailə münasibətləri tipləri ilə tanış etmək lazımdır. Ailədaxili münasibətlərdəki qüsurların əsas mənbəyi ailə cütlüyü adlanan ərlə arvad arasındakı disharmoniya və onu şərtləndirən **ailə münaqişələridir.** Ailə münaqişələri mürəkkəb sosial hadisədir. Bu münaqişələr bir tərəfdən ərlə arvadın münasibətlərindəki soyuqluq, yadlaşma, get-gedə onların formal xarakter alması, digər tərəfdən şəxsi ustanovkaların, rol gözləmələrinin təhrif olunmasıdır.

Sağlam ailədə hər bir ailə üzvünün psixoloji rolu olur. Belə ailələrdə mütəhərrik müvazinət, ümumini əks etdirən ailə “Biz”i formalaşır, ailədaxili münasibətlərdə yarana biləcək ziddiyyətləri və münaqişələri ailənin hər bir üzvü tərəfindən sərbəst aradan qaldırmaq istəyi olur.

Ahəngdarlıq olmayan ailələrdə isə qarşılıqlı münasibətlər səmimiyyətdən uzaqdır, müvazinət tez-tez pozulur, ailədaxili və xarici funksiyaların həllinin optimal yollarını müəyyənləşdirməkdə çətinliklər özünü göstərir.

Belə ailədə hər bir ailə üzvü özünün üstünlüyünü, şəxsi iddia və tələblərini qabarıq şəkildə ortaya ataraq ailədə ziddiyyət və münaqişələrin alovlanmasına bais olur. Nəticədə, uzunmüddətli münaqişələr fonunda ailədaxili mənəvi iqlim korlanır, ailə üzvlərə arasında sosial və psixoloji adaptasiya aşağı enir, ümumi ailə mənafeyi o cümlədən uşaqların tərbiyəsi üçün birgə fəaliyyət təşəbbüs və səyləri itir. Ailədə artan psixoloji gərginlik ailə üzvləri arasında açıq ifadəli emosional pozğunluqlara, nevrotik əhval-ruhiyyəyə, ailə üzvlərinin daimi narahatlığına, uşaqlara qarşı zorakılığı və baxımsızlığa gətirib çıxarır.

Ər-arvad cütlüyü arasındakı disharmoniya uşağın emosional və şəxsi inkişafına mənfi təsir göstərir ki, bu da uşaq bə yeniyetmələrin davranışında normadan kənara çıxma hallarının əsas mənbələrindən biridir. Korlanmış ər-arvad münasibətləri dolayı yolla valideyn–övlad münasibətlərinə, bununla da uşaq və yeniyetmələrin davranış və tərbiyəsində qüsurların yaranmasına güclü təsir göstərmiş olur. Məhəbbət, nəvaziş və qayğı uşaqlarda təhlükəsizlik hissi, açıq-aşkar imtina və baxımsızlıq isə aqressivliyə, emosional qeyri yetkinliyə səbəb olur.

Psixoloqun valideynlərlə apardığı maarifləndirmə işləri ər-arvad cütlüyü arasındakı münasibətlərin uşaqların tərbiyəsinə təsirinə və ailə tərbiyəsi tiplərinin izahına yönəlməlidir. Belə iş formaları mühazirələrdən, seminarlardan, söhbətlərdən, mütəxəssislərin (psixoloq, həkim, hüquqşünas və s.) də cəlb edildiyi tematik valideyn yığıncaqlarından ibarət ola bilər.

### 1.4.3. Müəllimlər arasında aparılan psixoloji maarifləndirmə işinin məzmunu və formaları

Müəllim və tərbiyəçinin peşəkar fəaliyyətinin səmərəliliyi onların peşə mühiti ilə yanaşı, pedaqoji ünsiyyət bacarıqlarından, şagirdlərin yaş və psixoloji xüsusiyyətləri haqqında biliklərinin səviyyəsindən, başqa sözlə

desək, peşə səriştəliliyindən əhəmiyyətli dərəcədə asılıdır.

Müasir dövrdə milli təhsil sistemimiz **nəticəyönümlü və şəxsiyyətyönümlü** strategiya üzrə inkişaf etməkdədir. Bu prosesdə psixoloji komponent vacib amillərdən biri kimi ciddi nəzərə alınmalıdır. Hələ XIX əsrdə təhsildə bu amilin rolunu yüksək qiymətləndirən rus ədibi tənqidçisi B.Q.Belinski yazırdı: "Psixologiyaya əsaslanmayan pedaqogika anatomiyanın mövcudluğundan xəbəri olmayan fiziologiya kimi yoxsuldur".

Müasir dövrdə pedaqoji fəaliyyətdə psixoloji biliklərin artan əhəmiyyəti, şəxsiyyətlərarası münasibətlərin xarakterində baş verən dəyişikliklər insanlarda affektivliyin artması, ünsiyyətin funksional imkanlarının genişlənməsi və xaraktercə dəyişməsi ilə bağlıdır. Pedaqoji fəaliyyət sahəsində çalışan müəllim və tərbiyəçilərin çoxu etiraf edir ki, onlar ali və orta ixtisas məktəblərində psixologiya üzrə əldə etdikləri nəzəri-psixoloji biliklərdən razı deyillər. Eyni vəziyyət onların praktik psixoloji hazırlığında da özünü göstərir.

Ali pdeaqoji məktəblərdə gələcək müəllimlərin psixoloji hazırlıq səviyyəsi ilə müasir məktəbin müəlliminə verilən peşəkar fəaliyyət tələbləri arasındakı ziddiyyət danılmaz fakta çevrilmişdir. Müəllimin psixoloji səriştəliliyi onun peşəkar fəaliyyətinin zəruri tərkib hissəsi olduğuna görə, hər şeydən əvvəl ali məktəblərdə psixologiya kursunun praktik istiqaməti, psixoloji biliklərin konstruktiv imkanları genişləndirilməlidir. Fikrimizcə, müəllimin peşəkar psixoloji səriştəliliyinin yüksəldilməsində aşağıdakı amillər kompleks şəkildə nəzərə alınmalıdır:

- psixologiya üzrə qazanılmış bilik, bacarıq və vərdişlərin səviyyəsi;
- müəllimin öz gələcək peşəkar pedaqoji fəaliyyətində psixoloji biliklərin rolunu və əhəmiyyətini aydın dərk etməsi;
- şagirdlərlə iş prosesində psixoloji biliklərdən istifadə bacarıqları;

- uşaqların idrak proseslərinin, emosional və iradi aləminin, xarakter əlamətlərinin formalaşdırılmasında, psixoloji situasiyanın qiymətləndirilməsində rasional təsir metodlarından istifadə bacarıqları;
- uşağın hərtərəfli inkişafı üçün onun psixikasına uzunmüddətli optimal təsir imkanları.

Təhsil sistemində praktik psixoloji xidmət şəbəkəsinin genişlənməsi zəruri həyati tələbat və reallıqdır. Uzun müddət peşəkar pedaqoji fəaliyyət sahəsində çalışan müəllimlər ixtisasartırma və təkmilləşdirmə kursları vasitəsilə psixologiya elmindəki yeniliklərdə tanış olsalar da, indi bu sahədə işin ağırlıq mərkəzi əhəmiyyətli şəkildə məktəb psixoloqunun üzərinə düşür. Onun iş sistemində müəllimlər arasında aparılan psixoloji maarifləndirmə üzrə işlər müəyyən yer tutur. Bu istiqamətdə aparılacaq işlərin sistemində aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalıdır:

- müəllimlərin ümumi psixoloji savadının yüksəldilməsinə kömək etmək;
- şəxsiyyətin inkişafı prosesini öyrənmək üçün asan dioqnostik metodikaları mənimsəməkdə onlara kömək göstərmək;
- şagirdlərin və şagird kollektivinin psixi inkişafında müşahidə olunan qüsurların aradan qaldırılmasında psixoloji biliklərə istinad edilməsini təmin etmək;

Psixoloqun müəllimlərlə işi o halda səmərə verə bilər ki, müəllimlər öz peşə fəaliyyətinin mahiyyətini dərk edərək özünütəhsil və özünüinkişafın zəruriliyini anlamış olsunlar.

**Pedaqoji konsiliumların** təşkili və keçirilməsində psixoloq öz mütəxəssis mövqeyini ortaya qoymağa bacarmalı, şagirdlər haqqında məlumatların yalnız müəllimlərdən deyil, müxtəlif mənbələrdən əldə edilməsinin mümkünlüyünü və zəruliliyini əsaslandırmağı bacarmalıdır.

Psixoloqun müəllimlərlə işinin əsas məqsədi pedaqoji prosesin hər bir uşağın azad inkişafı mühitinə çevrilməsinə yardım göstərməkdən, təlim-tərbiyə prosesində hər bir uşağın fəaliyyətinin, maraq və meyllərinin

formalaşmasına əlverişli zəmin yaratmaqdan ibarətdir. Bu məqsədlərə nail olmaq üçün psixoloq ilk növbədə müəllimlər arasında müasir pedaqoji-psixoloji nəzəriyyələrin fəal təbliğinə nail olmalıdır. Şagirdlərin təlimi, tərbiyəsi, inkişafı  və bu proseslərlə bağlı fəaliyyət motivlərinin diqqətlə öyrənilməsi psixoloqun müəllimlərə  işinin sistemində önəmli rol oynayır.

Psioxoloq müəllimlərlə şagirdlər arasındakı qarşılıqlı münasibətlərin öyrənilməsinə, bu münasibətlərin humanist, demokratik, qarşılıqlı əməkdaşlıq, uşaq şəxsiyyətinə hörmət prinsipləri əsasında qurulmasına həssaslıqla yanaşmalıdır. Pedaqoji kollektivlə iş prosesinə qoşulmaqla psixoloq müəllimlər və məktəb rəhbərləri arasında mənəvi cəhətdən sağlam və işgüzar qarşılıqlı münasibətlərin bərqərar olmasına, onların pedaqoji-psixoloji mədəniyyətinin, peşəkarlığının yüksəldilməsinə, davranış və fəaliyyətdə daimi refleksiyanın yaranmasına xüsusi diqqət yetirməlidir. Qeyd olunan vəzifələrin yerinə yetirilməsi üçün məktəb psixoloqu müəllimlərin **daimi fəaliyyət göstərən seminarını** təşkil edir, burada müəllimlərin peşə fəaliyyəti ilə bağlı müxtəlif pedaqoji-psixoloji problemlərin müzakirələrini keçirir. Belə müzakirələrdə müəllimlərlə yanaşı sinif rəhbərləri, uşaq birliyi təşkilatının rəhbəri və məktəb rəhbərləri də iştirak etməlidir.

Məktəbdə təşəkkül tapmış xeyirxah ənənələrin daha da möhkəmləndirilməsi, şagird özünüidarəsinin müxtəlif formalarının inkişaf etdirilməsi istiqamətində apardığı səmərəli fəaliyyətinin nəticələri heç şübhəsiz psixoloqun məktəbin pedaqoji və şagird kollektivi arasında mərkəzi və nüfuzlu bir sima kimi mövqelərinin möhkəmlənməsinə etibarlı təminat yaratmış olur.

Milli təhsil  sistemimizdə həyata keçirilən  kompleks islahatlar müasir məktəbin müəlliminin  peşə  hazırlığını yüksəltməyi,  psixoloji  səriştəliliyini artırmağı tələb edir. Aydındır ki, hər hansı pedaqoji vəzifəni  həyata keçirmək üçün psixoloji biliklər və onlardan  konkret şəraitdə istifadə bacarıqları tələb olunur. Ona görə də, məktəbdə çalışan psixoloq

müəllimlər arasında psixoloji biliklərin təbliği istiqamətində sistemli iş aparmalı, onların ümumi psixoloji cavadının artırılmasına kömək etməkdir.

Təlim, tərbiyə və inkişafla bağlı vəzifələrin həyata keçirilməsini təmin etmək əslində hər bir müəllimin peşəkar fəaliyyətinin əsasını təşkil edir. Böyüməkdə olan gənc nəslin taleyi üçün məsuliyyət hiss edən, psixologiya elminə və onun hələ istifadə olunmamış geniş imkanlarına inanan hər bir müəllim həmin vəzifələri uğurla reallaşdıra bilər.

Ali pedaqoji məktəblərdə tələbəlik illərində bütün ixtisasların tələbələri psixologiya kursunu öyrənir, bəzi ixtisaslarda isə məktəbdə psixoloji xidmətin ümumi nəzəri məsələləri ilə tanış olurlar. Müasir dövrdə, müəllimin pedaqoji şüuruna, yeni pedaqoji təfəkkürə əsaslanan təhsil quruculuğu prosesində hər bir müəllim psixoloji bilik və bacarıqlara böyük tələbat hiss edir. Ona görə də, bu sahədəki mövcud boşluğu doldurmaq üçün psixoloji xidmət sisteminin və onu həyata keçirən əsas şəxs kimi praktik məktəb psixoloqunun üzərinə bir sıra vəzifələr düşür:

1. **Müəllimlər arasında maarifləndirmə işinin və psixoloji biliklərin təbliğinin forma və metodlarının müəyyənləşdirilməsi;**

Bu istiqamətdə həyata keçirilən tədbirlərin təşkilində yaş və pedaqoji psixologiya kursu üzrə **tematik mühazirə və seminarlardan,** pedaqoji psixologiyanın aktual məsələlərinin müzakirəsinə həsr olunmuş "**dəyirmi masa" və debatlardan** istifadə etmək mümüküncdür. Müəllimlər arasında psixoloji biliklərin təbliğinin və onlar arasında maarifləndirmə işinin əsas mərkəzi kimi **psixoloji xidmət kabinetindəki** psixoloji ədəbiyyatlardan, respublikamızda çap olunan **"Məktəb psixoloqu"**qəzetindəki materiallardan, şagirdlərin öyrənilməsi üçün müxtəlif metodikalardan istifadə etmək məqsədəuyğundur. Rayon və şəhər təhsil şöbələri **"Ən yaxşı psixoloji xidmət kabineti"** müsabiqəsini keçirməklə bu sahədəki işlərin canlandırıl-masına stimul yarada bilərlər.

**2. Müəllimlərin şagirdlərin öyrənilməsi metodları ilə tanış edilməsi;**

Hər bir müəllim gündəlik peşəkar fəaliyyətində rastlaşdığı pedaqoji situasiyaların həllində şübhəsiz ki, psixoloji bilkilərə bu və ya digər səviyyədə istinad etməli olur. Lakin bütün müəllimlər heç də həmişə lazımi psixoloji səriştə nümayiş etdirə bilmir, böhranlı situasiyalarda çaşıb qalır və ya gülüş hədəfi olurlar. Şagirdləri öyrənmə metodları haqqında kifayət qədər nəzəri biliyə, tədqiqat metodikalarına bələd olmayan müəllimlər onların maraq və meyllərini, təlimdə geridəqalmanın, ayrı-ayrı şagirdlərin qüsurlu davranışının səbəblərini öyrənməkdə, belə halların daha səmərəli üsullarla aradan qaldıırılması yollarını müəyyənləşdirməkdə çətinlik çəkirlər. Məktəb psixoloqu müəllimlər arasında psixoloji biliklərin təbliğatçısı kimi onlara şagirdlərin təlim əməyinin nəticələrini, davranış motivlərini, həyat planlarını, idrak maraqlarını, ünsiyyət dairəsini, sinifdəki mövqeyini müəyyənləşdirməyə imkan verən tədqiqat metodları ilə tanış etməli, ayrı-ayrı metodikaların tətbiqi xüsusiyyətləri haqqında məlumat verməli, **tematik konsiliumlar, sosial-psixoloji treninqlər** keçirməlidir. Psixoloq müəllimləri şagirdlər haqqında informasiyanın əldə edilməsi mənbələri ilə tanış etməli, daha etibarlı mənbələrin diaqnostik metodikalar olduğunu bildirməlidir.

**3. Müəllimlərin korreksiya metodları ilə tanış edilməsi.**

Psixoloqun müəllimlər arasında apardığı maarifləndirmə işinin sistemində onların müxtəlif korreksion metodikalarla tanış edilməsi mühüm yer tutur. Psixokorreksiya üzrə işlər şagirdlərin koqnitiv proseslərindən tutmuş, şəxsiyyət keyfiyyətlərinin, onların yaşlılar və yaşıdları ilə qarşılıqlı münasibətlərinin, davranış patologiyaları da daxil olmaqla çox böyük fəaliyyət zonasını əhatə edir. Müəllimləri qeyd olunan sahələrdə fəaliyyət üçün zəruri metodikalarla və iş üsulları ilə tanış edən psixoloq onlarla fərdi və qrup halında iş apararaq bu metodikalarla işin xüsusiyyətləri ilə

məlumatlandırır. Psixokorreksion metodikalarla müəllimlərin tanış edilməsi məqsədilə psixoloq **tematik seminarlar** təşkil edə bilər.

### 1.4.4. Psixoloji – pedaqoji konsillium praktik psixoloqun əsas iş metodlarından biri kimi

Təhsil sistemində praktik psixoloji xidməti həyata keçirən psixoloqlar pedaqoqların yaxın köməkçisi və həmkarlarıdır. Onlar ümumi məqsəd ətrafında səfərbər olmaqla, öz qarşılıqlı fəaliyyətlərini **işgüzar əməkdaşlıq** prinsipi üzərində qururlar. Praktik psixoloq pedaqoji fəaliyyətin layihələşdirilməsi və qurulmasında iştirak etməklə yanaşı, pedaqoq və tərbiyəçilərin peşəkarlığının yüksəldilməsi, şəxsi inkişafı üçün əlverişli şəraitin yaradılmasında fəal iştirak edir. Müasir dövrdə təhsildə baş verən keyfiyyət dəyişiklikləri – təlim-tərbiyə proseslərinin məzmununun və onların metodlarının yeniləşdirilməsi, orta təhsil sistemində **milli kurrikulumların tətbiqi** zərurəti psixoloqun iş texnologiyasında, məqsəd və metodlarında, zəruri əhəmiyyətli dəyişikliklərin həyata keçirilməsini tələıb edir. Əgər əvvəllər məktəb direktoruna təlimin məzmunu və metodların psixoloji təminatını həyata keçirmək, müəllimlər və valideynlər arasında maarifləndirmə işinin aparılması, uşaqların diaqnostikasının keçirilməsi göstərişi verilirdisə, bu gün vəziyyət başqadır. İndi təhsil sistemində bir subyekt kimi praktik psixoloqun vəzifələri və funksiyaları gözümüz önündə dəyişir. Praktik psixoloqa məktəblərin inkişaf konsepsiyası, məktəbdaxili idarəetmənin təşkilati strukturlarının moderinləşdirilməsi, yeni fənn kurrikulumların tətbiqi, pedaqoqların psixoloji səriştəliliyinin, peşə ustalığının inkişaf etdirilməsi məsələləri ilə bağlı çoxsaylı müraciətlər edilir.

Psixoloqun bir mütəxəssis kimi fəaliyyətində başlıca məqamlardan biri zəruri anlarda öz mövqeyini ortaya qoymaq bacarığıdır. Psixoloq heç də müəllimlərin fəaliyyətini qiymətləndirmir, onları mühakimə etmir,

fəaliyyətlərinin nəticələrini ekspertizadan keçirmir. O, müəllimlərlə əməkdaşlıq şəraitində onların qarşılaşdıqları problemlərin həll edilməsində mütəxəssis-məsləhətçi kimi öz xidmətini təklif edir, onlara zəruri konsultasiyalar verir. Psixoloq təhsil müəssisələrində müəllim və tərbiyəçilərlə aşağıdakı vəzifələrin yerinə yetirilməsini təmin edir:

- pedaqoqların psixoloji cəhətdən müdafiəsi üçün şəraitin yaradılması;
- şəxsi və peşəkarlıqla bağlı problemlərin həllində pedaqoqlara kömək göstərmək;
- zəruri hallarda pedaqoqun emosional gərginliklə bağlı problemlərinin həll edilməsi;
- müəssisənin kadr siyasəti ilə bağlı məsələlərin həllində (müəllimlərin işə götürülməsi, işçi qruplarının yaradılması, işdən azad etmə, məzuniyyət və s.) metodistlərə və məktəb rəhbərliyinə tövsiyələr vermək və s.

Psixoloqun pedaqoqlarla qarşılıqlı münasibətləri könüllülük əsasında qurulmalıdır. Müəllimə “Sən hökmən psixoloqdan məsləhət alımalısan “ demək yolverilməzdir.

Psixoloq məktəb rəhbərləri və müəllimləri, uşaqları və uşaq kollektivini öyrənmək üçün zəruri olan xüsusi metodikalarla tanış etməli, bu metodikalarla işləməyin yollarını göstərməlidir. Bu baxımdan psixoloqun iş formalarından biri **pedaqoji-psixoloji konsulumdur**. O, həm də psixoprofilaktik işin perspektivli formasıdır. Pedaqoji-psixoloji konsilium şagirdləri daha dərindən öyrənmək və gələcəkdə onlarla işi düzgün təşkil etmək məqsədilə müəllimlərin məlumatlandırılması və məsləhətlərin verilməsidir. Psixoloq tərəfindən təşkil edilən konsilumların qarşısında iki əsas məqsəd durur: **birinci,** bu və ya digər şagirdin şəxsiyyətinin və ya sinif kollektivinin öyrənilməsi, onların tərbiyəlilik və inkişaf səviyyəsinin, real təlim imkanlarının müəyyənləşdirilməsi; **ikincisi,** şagirdlərin tərbiyəlilik səviyyəsini yüksəltmək, onların bilik, bacarıq və vərdişlərindəki qüsur və çatışmazlıqların (siqaretə,

spirtli içkilərə, narkomaniyaya meyl və s.) aradan qaldırılmasına istiqamətlənmiş vahid pedaqoji mövqenin, ümumi ölçü sisteminin işlənilib hazırlanması.

Pedaqoji konsilumda bir qayda olaraq psixoloqla birgə direktor müavini, sinif rəhbəri, həmin sinifdə dərs deyən müəllimlər, uşaq-gənclər birliyinin rəhbəri, məktəb həkimi iştirak edir.

Konsilumlarda şagirdlərin təlimi, tərbiyəsi, inkişafı və fəaliyyəti ilə bağlı ən müxtəlif məsələlər: şagirdin ictimai fəallığı, əxlaqi tərbiyəlilik səviyyəsi, maraq və meylləri, estetik mədəniyyəti, intizamı, dərsə hazırlğı, ailədə təlim-tərbiyə şəraiti, həmyaşıdların uşağa təsiri və s. müzakirə edilir. Pedaqoji-psixoloji konsiliumlar dərs ili ərzində hər rübdə iki dəfə olmaqla keçirilir, burada seçilmiş təsir vasitələrinin nə dərəcədə səmərəli olmasına aydınlıq gətirilir.

Məlimdur ki, müəlimin peşəkar bir mütəxəssisə çevrilməsi bir sıra amillərdən asılıdır. Bu amillər sırasında onun **yaşı, pedaqoji iş təcrübəsi, peşəkar pedaqoji fəaliyyətinin xüsusiyyətləri** xüsusi yer tutur.

Ali və ya orta ixtisas təhsili müəssisəsini bitirərək təlim-tərbiyə müəssisəsində müəllim kimi əmək fəaliyyətinə başlayan mütəxəssisin məktəbdə əmək fəaliyyətinin ilk beş ili **adaptasiya dövrü** kimi nəzərdən keçirilir. Pedaqoji fəaliyyətin start mərhələsində olan gənc mütəxəssis kifayət qədər biliyə malik olsa da, hələlik səruri bacarıqlara malik olmur. Bu iş təcrübəsi mərhələsində olan gənc mütəxəssisdə peşəkarlıq keyfiyyətləri hələlik formalaşmadığından, onlar özləri üçün yeni olan ətraf mühitə də mürəkkəb və konfiliktli situasiyaları qiymətləndirməkdə çox vaxt çətinliklərlə qarşılaşır.

Psixoloji tədqiqatlar göstərir ki, qeyd olunan məhdud iş stajına malik olan müəllim və tərbiyəçilər daha çox **intizam təsiri metodlarına** istinad edirlər ki, bu da çox vaxt əks effekt verir. Onlar dərs zamanı şagirdlərlə münasibətlərdə əmr və neqativ çalarlı mülahizələrə üstünlük

verirlər ki, bu da öz növbəsində tez-tez münaqişələrə səbəb olur. Gənc müəllimlərlə iş aparan psixoloq başlıca diqqəti müəllimin pedaqoji mühitə adaptasiyasına yönəltməklə, mümkün konfiliktlərin qarşısını almağa xidmət etmiş olur.

Praktik psixoloq pedaqoji-psixoloji konsilliumda aşağıdakı konkret məsələlər üzrə tədbirləri həyata keçirir:

- təhsil müəssisəsində pedaqoji kollektivlə peşəkar qarşılıqlı münasibətlərin təhlil edilməsi;
- uşaqların pedaqoji-psixoloji statusunun qiymətləndirilməsi;
- şagirdlərin imicinin formalaşdırılaması üçün meyarların və rəylərin konkret arqumentlərlə əsaslandırılamsı;
- uşaqların inkişafındakı patologiya və normadan kənaraçıxma hallarının psixoloji təhlili və qiymətləndirilməsi;
- şagirdlərin bilikləri mənimsəməsində və idrak proseslərinin inkişafındakı maneələrin aradan qaldırılması üçün əməli təkliflərin irəli sürülməsi;
- şagirdlərin öyrənilməsi üçün psixodiaqnostik funksiyaların bölüşdürülməsi;
- psixi inkişaf haqqında proqnozlarla diaqnostik müayinənin nəticələrinin müqayisəsi və təhlili;
- psixi və əqli inkişafda öz yaşıdlarını qabaqlayan və geridə qalan, həmçinin “risk qrupu”na aid edilən uşaqlarla fərdi və qrup halında məşğələlərin təşkili üçün müəllimlərə əməli köməkliyin göstərilməsi;
- məktəbdə şagirdlərin inkişafı üçün pedaqoji fəaliyyətin subyektləri arasında əlverişli psixoloji iqlimin və səmərəli əməkdaşlıq mühitinin yaradılması imkanlarının araşdırılması;
- pedaqoji kollektivdəki konfliktləri aradan qaldırmaq yollarının təhlil edilməsi;
- pedaqoji etikanın pozulması, ünsiyyət tərzinin kəskinləşməsi hallarını yaradan səbəblərin təhlil edilməsi və qiymətləndirlməsi.

Praktik psixoloq pedaqoqları emosional baxımdan müdafiə etməklə, onlarda özünəinam hissinin yaranması və möhkəmləndirilməsini təmin etməlidir. Bu baxımdan psixoloqun istifadə etdiyi səmərəli metodlar sırasında müəllimin peşəkar fəaliyyətdə qaşılaşdığı çətinliklərin psixoloji təhlili, peşəkar pedaqoji ünsiyyət üzrə treninqlərin keçirilməsi, psixoloqun dərslərdə və onların müzakirəsində iştirakı, qrup şəkilində seminarların keçirilməsi kimi iş formalarının adlarını çəkmək olar.

Təhsil sistemində işləyən praktik psixoloqlar uşaq, yeniyetmə, gənclər və valideynlərlə iş aparmaqla yanaşı, müəllim və tərbiyəçilərlə gündəlik sıx qarşılıqlı əməkdaşlı şəraitində fəaliyyət göstərirlər. Onlar müəllimlərlə birlikdə pedaqoji prosesin layihələşdirilməsi və qurulması proseslərində iştirak edir, müəllim və tərbiyəçilərin şəxsi və peşəkarlıq keyfiyyətlərinin inkişafı və təkmilləşdirilməsi üçün əılverişli situasiyaların modelləşdirilməsində fəal rol oynayırlar. Müasir təhsil sistemində həyata keçirilən islahatlar təlim-tərbiyə proseslərinə yeni, müasir pedaqoji texnologiyaların tətbiqi praktik psixoloqdan da öz iş texnologiyasını təkmilləşdirməyi tələb edir.

### IV fəsilə aid suallar və tapşırıqlar

1. *Psixoloji maarifləndirmə işinin məzmununa nələr daxildir?*
2. *Praktik psixoloqun valideynlər arasında apacağı maarifləndirmə işinin məzmununu söyləyin.*
3. *Valideynlərlə aparılan maarifləndirmə işinin əsas formaları hansılardır?*
4. *Psixoloji maariflənmdirmə işində hansı problemlər müzakirə mövzusu ola bilər?*
5. *Ailə münaqişələrinin mümkün səbəblərini göstərin.*
6. *Müəllimlər və məktəb rəhbərləri ilə aparılan maarifləndirmə işində psixoloq hansı məsələləri diqqət mərkəzində saxlamalıdır?*

## V fəsil.
## Psixoloji diaqnostika
### 1.5.1. Psixodiaqnostika anlayışı, onun məzmunu və vəzifələri

Psixodiaqnostika praktik psixologiyanın fərdin psixi inkişaf səviyyəsi, xüsusiyyətlərini dəqiq qiymətləndirmək üçün metodologiya və metodlar sistemini nəzəri cəhətdən işləyib hazırlayan xüsusi sahəsidir.

Psixodiaqnostik baxımdan qiymətləndirmə obyektinə psixologiyanın öyrəndiyi bütün fakt və hadisələr-duyğulardan başlamış insanların ünsiyyəti və qarşılıqlı münasibətlərində təzahür edən mürəkkəb sosial-psixi proseslərədək hər bir psixi proses, xassə və funksiyalar daxildir.

Psixodiaqnostika inteqrativ elmi-texnoloji fənn olub, **diferensial psixologiyaya** və **test yaradıcılığının riyazi texnologiyası** üzrə elmi nəzəriyyəyə istinad edir. Psixodiaqnostika bu yolla konkret praktik məsələlərin həlli üçün psixodiaqnostik metodikaların repertuarını yaradır və oanlardan istifadə edir. Bu metodikalarla psixoloji diaqnozun qoyulması üçün sınanılan şəxs haqqında kifayət qədər sürətli və etibarlı şəkildə məlumatların əldə edilməsini təmin edir.

**Psixoloji diaqnoz** – şəxsiyyətin qabiliyyətləri, motivləri kimi davamlı xüsusiyyətlərin ilk kompleks qeydə alınmış formasıdır. Psixodiaqnostik müayinənin nəticələri əsasında qoyulmuş diaqnoz nəticə olaraq öyrənilən keyfiyyət və ya xüsisiyyətin inkişaf etdirilməsi və ya korreksiyası haqqında mütəxəssislər üçün tövsiyələrin hazırlanmasını nəzərdə tutur ki, bunun əsasında pedaqoq, tərbiyəçi və praktik psixoloqlar inkişafetdirici tədbirləri həyata keçirirlər. **Psixodiaqnostikanın əsas məqsədi** fərdin psixi və şəxsi inkişafını tam təmin etməkdən ibarətdir.

Psixodiaqnostika təcrübəsində fərdin əldə etdiyi psixi inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün aşağıdakı **ümumi vəzifələr** həll edilir:

- hər hansı psixi xassə və keyfiyyətin inkişaf səviyyəsinin aşkara çıxarılması;
- müəyyən yaş mərhələsində psixi xassə və keyfiyyətlərin yaranması və onun inkişaf dinamikasının müəyyənləşdirilməsi;
- fərdin və ya müəyyən qrupun xüsusi təşkil edilmiş təlim-tərbiyənin təsiri altında (məsələn, pedaqoji eksperiment nəticəsində) psixikası və davranışında yaranan real dəyişikliklərin aşkara çıxarılması;
- şəxsiyyətin keçmişdə inkişaf dinamikasının təhlili əsasında onun bu və ya digər keyfiyyətlərinin inkişaf perspektivlərinin müəyyənləşdirilməsi;
- müayinə edilən adamların və ya qrupun əldə edilmiş inkişaf göstəricilərini nəzərə almaqla, gələcəkdə diferensiallaşdırılmış iş aparmaq məqsədilə onların kateqoriyalara bölünməsi;
- fərdin və ya qrupun bu və ya digər fəaliyyət sahəsində, məsələn, öz xidməti vəzifəsinin icrası üçün onun peşə yararlığının müəyyənləşdirilməsi;
- fərdin və ya qrupun tibbi və ya sosial normalar baxımından inkişaf göstəriciləri və davranışının uyğun olub-olmamasının müəyyənləşdirilməsi və zəruri psixokorreksiya işlərinin aparılması;
- fərdin və ya qrupun gələcək həyat yolunun seçilməsi (peşə, nigah üçün tərəfdaş və s.), gələcək özünütəhsil üçün tövsiyələrin işlənib hazırlanması.

Psixodiaqnostikanın qeyd olunan ümumi vəzifələrinin böyük hissəsi məktəbəqədər müəssisələrdə və məktəblərdə müxtəlif yaşlı uşaqlarla iş prosesinə aiddir. Bununla belə, psixodiaqnostikanın daha konkret məqsədlərlə bağlı olan bir sıra **xüsusi vəzifələri** də vardır. Həmin vəzifələrə aşağıdakılar aid edilə bilər:

- həyatın ilk aylarından başlamış orta məktəbi qurtaranadək olan dövrdə uşaqların psixoloji (idraki, intellektual, şəxsi və şəxsiyyətlərarası) inkişafının yaş dinamikasının öyrənilməsi. Bu halda hər bir uşağın (böyük uşaqlar üçün aylıq, körpə və erkən yaşlı uşaqlar üçün illik) inkişaf göstəricilərini özündə əks etdirən **xüsusi psixodiaqnostik xəritə** tərtib olunmalıdır.
- hər bir uşağın fərdi inkişaf xüsusiyyətlərinin orta standart normadan kənara çıxması (müsbət mənada sürətli inkişaf, mənfi mənada geridəqalma) hallarının müəyyənləşdirilməsi;
- uşaqlarla keçirilən inkişafetdirici pedaqoji eksperimentlərin nəticələri əsasında təlim və tərbiyənin səmərəliliyini yüksəltməyə psixoloji cəhətdən xidmət edən praktik tövsiyələrin işlənib hazırlanması;
- uşağın təbii imkanlarının, istedad və fərdi qabiliyyətlərinin inkişaf səviyyəsini vaxtında aşkara çıxarmaq və daha da inkişaf etdirmək məqsədilə elmi cəhətdən əsaslandırılmış peşə məsləhətləri və peşəyönümü işlərinin həyata keçirilməsi;
- uşağın təlimi və tərbiyəsinin optimal təşkilini təmin etmək məqsədilə onun psixologiyası haqqında müəllim və valideynlər üçün faydalı ola biləcək çoxcəhətli məlumatların əldə edilməsi.

Uşaqların həyat və fəaliyyətini müxtəlif cəhətdən öyrənən psixodiaqnostika elmi cəhətdən sınaqdan çıxarılmış çoxsaylı tədqiqat metodlarına istinad edir. Bu metodların seçilməsinə olduqca ciddi tələblər verilir. Buraya tətbiq olunan metodun **müvafiqliyi, dəqiqliyi** və **etibarlığı** daxildir. Metodun müvafiqliyi dedikdə, öyrənilən xüsusiyyətin bu metodla uyğunluğu başa düşülür. Məsələn, erkən yaşlı işaqların davranış motivlərinin öyrənilməsində onuların şəxsi mühakimələrinə əsaslanan **söhbət və ya müsahibə metodu** müvafiq hesab edilə bilməz. Çünki bu

yaşlı uşaqlar hələ öz davranışlarının motivlərini dərk etmək qabiliyyətinə malik deyillər.

Psixodiaqnostik metodun **dəqiqliyi** öyrənilən keyfiyyətin incə fərqlərini sezməyə imkan yaradır. Məsələn, tədqiqata cəlb edilmiş şəxsə verilən anket və sorğularda bəzən "hə", "yox" tipli mülahizələr cavabların dəqiqliyini bildirdiyi halda, **"hərdən", "hərdənbir", "bəzən", "deyə bilmərəm"** tipli cavablar qiyri-müəyyənliyi haqqında rəy yaratmış olur.

**Etibarlılıq** tətbiq olunan metodun mühüm keyfiyyətlərindən biri kimi tədqiqatın kim tərəfindən və ya təkrar aparılmasından asılı olmayaraq, onun nəticələrinin eyni olacağına təminat yaradır.

Praktik psixodiaqnostikada yalnız müvafiq, dəqiq və etibarlı metodlardan istifadə olunmalıdır. Əks halda,qeyri-dəqiq göstəricilərin alınması təhlükəsi yaranır ki, bunlar da yanlış nəticələrə gətirib çıxara bilər. Burada psixoloq, yəni metodları seçən və tərtib edən şəxs birbaşa məsiliyyət daşıyır.

Uşaqların psixodiaqnostikasının keçirilməsi zamanı psixoloq peşə fəaliyyətini yerinə yetirərkən mənəvi-etik xarakterli aşağıdakı tələblərə əməl etməlidir:

1. Psixodiaqnostik müayinə heç bir halda uşağa zərər yetirmək məqsədilə keçirilməməlidir;

2. Psixodiaqnostika yalnız tibbi və hüquq praktikasında yol verilən xüsusi hallar istisna olmaqla, uşaqların özlərinin və onların valideynlərinin razılığı ilə keçirilməlidir;

3. Qanunla valideynlik hüququndan məhrum olunmuş şəxslər istisna olmaqla, digər valideynlər öz uşaqlarının psixodiaqnostik müayinələrinin nəticələrini və bunun əsasında mütəxəssis psixoloqun gəldiyi qənaətləri bilımək hüququna malikdirlər. Psixoloq öz növbəsində uşaqların psixologi-yası ilə bağlı valideynlərin sorğularına ətraflı və dəqiq cavab verməyə borcludur;

4. Müəllimlərin və valideynlərin fikirlərini və bir sıra digər amilləri nəzərə almadan psixodiaqnostik müayinənin nəticələri uşağın taleyi və onun təlim və tərbiyə imkanları haqqında yekun rəyin çıxarılması üçün əsas ola bilməz.
5. Təhsil sistemində işləyən psixoloq psixodiaqnostika üzrə işi müəllim və tərbiyəçilərlə sıx əməkdaşlıq şəraitində qurmalı, onları uşaqlar haqqında zəruri məlumatlarla tanış etməlidir.

Praktik psixodiaqnostika təcrübəsində istifadə olunan metodikaların əksəriyyəti **yaş norması** adlandırılan anlayışla bağlıdır. Bu anlayış psixi və fiziki cəhətdən sağlam olan uşaqlarda öyrənilən psixi xüsusiyyətlərin orta inkişaf göstəricilərini əks etdirir. Yaş norması əsasında keçirilmiş müayinənin nəticələrinə uyğun olaraq uşaqda xüsusiyyətin inkişaf səviyyəsi müəyyənləşdirilir. Əgər uşağın fərdi göstəriciləri normadan yüksəkdirsə, onda adətən belə uşağı öz yaşıdlarını qabaqlayan, əgər aşağıdırsa, yaşıdlarından geridə qalan uşaq hesab edirlər. Birinci halda uşaq **akselerant,** ikinci halda isə **ratardant** hesab olunur.

Qeyd etmək lazımdır ki, yaş normaları mütləq və dəyişməz deyildir. Uşaqlar istisna olmaqla digər yaş dövrlərinə aid edilən şəxslərin diaqnostikası üçün yaş normaları heç də həmişə yararlı hesab edilə bilməz.

Normalar həmişə nisbi və dəyişkəndir. İctimai tərəqqi ilə əlaqədar olaraq ötən əsrin əvvəllərində norma kimi qəbul edilmiş göstəricilər şübhəsiz ki, 100 il sonra, yəni müasir dövrdə standart kimi qəbul edilə bilməz. Müasir dövrdə uşaqlar **akselerasiyanın** təsirinə məruz qalırlar və onların fiziki inkişaf göstəriciləri kimi, intellektual, şəxsi davranış göstəricilərində də norma kimi qəbul edilən orta inkişaf göstəricilərində əhəmiyyətli dəyişikliklər nəzərə çarpır.

Psixoloqlar belə hesab edirlər ki, yeni normaların standartları dəyişdiyindən müasir dövrdə on il əvvəlki dövrə aid normalardan praktik

olaraq istifadə etmək olmaz. Hər üç-beş ildən bir həmin normalara yenidən baxılmalı, dəyişikliklər və əlavələr edilməlidir.

Uşaqda bu və ya digər psixi keyfiyyətin müəyyənləşdirilməsi məqsədilə keçirilən psixodiaqnostik müayinənin nəticələri əsasında verilən qiymət əsasında uşağın gələcək inkişafı haqqında qəti mühakimə yürütmək olmaz. Bu fikri uşaqların qabiliyyətləri haqqında da demək olar. Diaqnostik müayinənin keçirildiyi vaxt uşağın qabiliyyətinin aşkar edilmiş səviyyəsi heç də onun gələcəyi haqqında dəqiq proqnozların əsas mənbəyi kimi qəbul edilə bilməz. Bu, gələcəkdə bir sıra amillərdən – uşaq tərəfindən yeni təcrübənin mənimsənilməsi, təlimin keyfiyyəti və onun təkmilləşdirilməsi, uşaqda idrak əhəmiyyətli yeni motivlərin formalaşması səviyyəsindən asılı olaraq dəyişə bilər.

Praktik psixodiaqnostika psixoloji xidmət sisteminin ən çətin sahələrindən biridir. Psixoloji müayinənin keçirilməsi, müvafiq metodikaların seçilməsi, nəticələrin düzgün qiymətləndirilməsi psixoloqdan xüsusi ixtisas hazırlığı, peşəkarlıq və məharət tələb edir. Bu istiqamətdə iş zamanı ən böyük çətinlik uşaqların istedad və qabiliyyəti ilə bağlı proqnostik əhəmiyyətli müayinələrin aparılması zamanı meydana çıxır. Burada **birinci çətinlik** ondan ibarətdir ki, uşağın qabiliyyəti praktik olaraq adətən ona verilmiş xüsusi testin nəticələrinə görə qiymətləndirilir. Lakin uşaq tərəfindən ona verilmiş tapşırığın (testin ) yerinə yetirilməsi yalnız onun qabiliyyətindən deyil, həm də motivlərdən, mövcud bilik, bacarıq və vərdişlərin inkişaf səviyyəsindən də asılıdır. İnkişafın nəticələri haqqında proqnozun verilməsi isə əksinə, yalnız qabiliyyətlər haqqında bilikləri tələb edir. Qabiliyyətlərin inkişafı və təkmilləşdirilməsi perspektivi praktik olaraq hər bir sağlam uşaq üçün müyəssərdir. Burada xüsusi diqqət tələb edən amillərdən biri də uşaqların qabiliyyətlərinin daha da yaxşılaşdırılması və inkişafı üçün optimal şəraitin, inkişafetdirici mühitin yaradılmasıdır. Bəzən elə olur ki, psixoloji testləşdirmədən keçən hər

hansı bir uşaq onu vaxtında yaxşı təlim və tərbiyə etmədiklərinə görə, aşağı nəticələr göstərir. Lakin təlim və tərbiyə şəraiti yaxşılaşdırıldıqdan və ya məktəbi dəyişdirdikdən sonra o, çox keçmədən sürətlə yüksək təlim göstəricilərinə sahib olur, yaşıdlarını arxada qoyur. Ona görə də, uşaqlar üzərində tətbiq olunan hər hansı bir psixodiaqnostik metodika yararlılıq baxımından qeydiyyatdan keçməlidir.

Müasir psixodiaqnostika təcrübəsində tətbiq olunan metodikaların işlənilib hazırlanması çoxcəhətli və mürəkkəb mərhələlərdən keçir. Təqdim olunan metodikaların bir sıra tələblərə cavab verməsi, onun tanınması və qeydə alınması aşağıdakı mərhələlərdən keçməlidir:

1.Təqdim olunan metodikanın vasitəsilə öyrəniləcək xassə və ya keyfiyyətin dəqiq müəyyən edilməsi; Əks halda həmin metodikanın xarakteristikası və onun yararlığı öz diaqnostik dəyərini itirmiş olur;

2. Metodikanın uşaqlarda bu və ya digər xassə və keyfiyyətin inkişaf dərəcəsinin müəyyən edilməsi üçün zəruri və obyektiv əlamətlər kompleksini aşkar etməyə müvafiq olması; Bu əlamətlər birqiymətli olaraq metodoloji cəhətdən tələblərə uyğun olmalıdır;

3. Fəaliyyət üçün seçilmiş əlamətlərin əməliyyatlar şəklində reallaşan, yəni əməliyyat sistemlərinin işlənilməsi praktik olaraq müşahidə, ilkin məlumatların əldə edilməsi və **relevant** əlamətlərin yenidən işlənilməsini, ardıcıllığını tamamlamalıdır;

4. Metodikanın tətbiqinin nəzəri məsələlərinin işlənilməsi; Əgər, məsələn, bu metodika test-sorğudan ibarətdirsə, onda bu mərhələ seçilmiş əlamətə aid suallar ardıcıllığının tərtib edilməsi, sınanılan şəxslərin eksperiment zamanı fəaliyyətinə aid təlimatların onlara çatdırılması və psixoloqun tədqiqat zamanı fəaliyyətini özündə əks etdirməlidir.

5. Tətbiq olunan metodikanın dəqiqliyi, etibarlılığı və yararlılığının yoxlanılması;

6. Təklif olunan metodikanın praktik olaraq yoxlanılması məqsədilə uşaq-

ların həmin metodika ilə kütləvi müayinəsinin keçirilməsi və bu yolla yaş normalarının əldə edilərək dəqiqləşdirilməsi.

Qeyd olunan tələblərin mürəkkəbliyi və ciddiliyi praktik psixodiaqnostik metodikaların yaradılması və tətbiqinin olduqca çətin elmi fəaliyyət sahəsi olduğunu söyləməyə əsas verir. Bu fəaliyyət yüksək ixtisas hazırlığı, peşəkarlıq və məsuliyyət tələb edir. Ona görə də, səriştəsiz, kifayət qədər hazırlığı olmayan şəxslərin bu işlə məşğul olması yolverilməz hesab olunur.

### 1.5.2. Psxodiaqnostikanın metodları sistemi. Testlər psixodiaqnostikanın əsas metodu kimi

Təhsil müəssisələrində psixoloqun psixodiaqnostika istiqamətində apardığı işlər müxtəlif metodikalara əsaslanır. Psixoloq psixoloji müayinənin məqsədindən asılı olaraq adətən çətin, mürəkkəb və çox vaxt tələb edən metodlardan fərqli olaraq, daha çox sadə, nəticələri tez əldə etməyə imkan verən metodikalardan istifadə etməlidir. Belə metodlar sırasına nisbətən sadə testlər, o cümlədən **test-sorğular, test-tapşırıqlar, proyektiv testlər, müşahidə, sənədlərin təhlili, psixodiaq-nostik eksperimentlər** və s. daxildir.

Qeyd etmək lazımdır ki, praktik psixodiaqnostikada istifadə olunan metodların hər birinin özünəməxsus tətbiqi xüsusiyyətləri vardır. Psixodiaqnostik müayinə və sınaqların əsas vasitəsi və aləti **testlərdir.** Müasir psixoloji testlərin mindən artıq növü vardır. Onların belə çoxluğu testlərin təsnifatının xeyli mürəkkəb olmasına səbəb olmuşdur. Müasir psixoloji testlər əsasən aşağıdakı əsas əlamətlərə görə qruplara bölünür:

- fərdi və qrup;
- verbal və qeyri – verbal;
- kəmiyyət və keyfiyyət;
- dərəcəli və alternativ;

- ümumi və xüsusi.

**Fərdi testlərdən** psixoloq hər bir uşaqla ayrılıqda iş zamanı, **qrup testlərindən** isə eyni vaxtda bir neçə şagirdlə testləşdirmə apararkən istifadə edir. **Verbal testlər** sınanılan şəxslərin şəxsi mühakimələrinin təhlilinə, **qeyri-verbal testlər** isə nəticə və ümimiləşdirmələrin əldə edilməsində nitqdən başqa digər əlamətlərə əsaslanır. **Kəmiyyət (ədədi) testləri** sınanılan şəxslərdə öyrənilən xassənin inkişafını ədədi göstəricilərlə əldə etməyə, **keyfiyyət testləri** isə bu nəticələrin yazılı xarakteristikasını əks etdirməyə imkan verir. **Qradual (dərəcəli)** testlər vasitəsilə sınanılan şəxsdə öyrənilən xüsusiyyətin inkişaf səviyyəsi müəyyən şkalanın köməyi ilə müəyyənləşdirilir. **Alternativ testlərdə** cavab variantları bir-birinə əks olan “hə” və “yox” tipli mülahizələr əsasında cavablandırılmış olur.

**Ümumi testlər** hər hansı ümumi xarakterli psixi xüsusiyyətin (məsələn, ümumi intellektual səviyyənin) tədqiq edilməsi üçün nəzərdə tutulduğu halda, **xüsusi testlər** insanın fərdiyyətinə aid keyfiyyətlərin (məsələn, sözlü-məntiqi və ya obrazlı təfəkkür) ölçülüb qiymətləndirilməsi məqsədinə xidmət edir.

Testlərin təsnifatında hər şeydən əvvəl **məqsəd**, **məzmun, psixoloji testləşdirmənin forması** kimi amillər əsas meyarlar hesab olunur. Məqsədin xarakterindən asılı olaraq sınanılan şəxslərin seçilməsi, bölünməsi və təsnifatı baxımından testlərin müxtəlif növləri fərqləndirilir.

Testlərin meydana gəlməsi və inkişafı XIX əsrin sonlarında ilk **intellekt testlərinin** yaranması ilə bağlıdır. Test nəzəriyyəsi və təcrübəsinin inkişafında Fransız həkimi Alfred Binenin xüsusi xidmətləri olmuşdur. Ötən əsrin 20-ci illəri psixoloji testlərin, xüsusilə intellekt testlərinin yaradılması sahəsində özünəməxsus canlanma dövrü kimi səciyyələndirilir. Bundan sonra xüsusi testlərin, şəxsiyyət testləri və proyektiv testlərin yaradılması səhəsində əsaslı dönüş yarandı. Bu dövrdə onlara test-eksperiment tipli sınaqlar da qoşuldu.

Uşaqlar üzərində geniş tətbiq olunan intellekt testləri içərisində Stenford şkalası əsasında qiymətləndirilən, dəfələrlə modifikasiya olunaraq müasir tələblər səviyyəsinə uyğunlaşdırılmış **Bine-Simon testinin** variantı xüsusilə məşhurdur. Bu testin tərkibində xüsusi seçilmiş müxtəlif yaşlı uşaqlar üçün test tapşırıqları qrupları mövcuddur. Həmin testlərin 2 yaşlı uşaqlardan başlamış 5 yaşlı uşaqlara qədər olan variantlarında yaş intervalı yarım ilə, 5-15 yaşlı uşaqlar üçün bu interval bir ilə, 15 yaşından yuxarı şəxslər üçün bir ildən artıq olmaqla intervallara bölünür. Bine-Simonun uşaqlar üçün intellekt testlərinin hər bir yaş variantı özündə altı, yaşlılar üçün variantı isə səkkiz subtesti birləşdirir. Qeyd olunan testin uşaq variantının icrasına ayrılan vaxt 30-40 dəqiqə, yaşlılar üçün isə 1,5 saata bərabərdir. Onun nəticələrinin qiymətləndirilməsi üçün istifadə olunan şkala mənşəyinə və müəllifin adına görə adətən Bine-Stenford şkalası adlandırılır. Həmin şkala vasitəsilə əldə olunan göstəricilər uşaqların və yaşlıların intellekt və onların müxtəlif məktəblərdə təhsil almaq imkanlarını müəyyənləşdirməyə əsas verir. Bu test vasitəsilə uşaqların **məktəbli qabiliyyətləri** ölçülür. Qeyd etmək lazımdır ki, həmin şkala uzun illər boyu uşaqlarda intellektin ölçülməsinin yeganə aləti olmuşdur. Onun vasitəsilə əldə olunan intellekt əmsalı **(İQ)** hər hansı yaş dövrünün göstəricisi olmaqla kifayət qədər etibarlı meyar hesab edilmişdir.

İntellektin ölçülməsi üçün test təcrübəsində uzun illər boyu müvəffəqiyyətlə sınaqdan keçirilən şkalalardan biri də **D.Veksler** tərəfindən işlənilib hazırlanmışdır. Bu şkala müxtəlif yaşlı uşaqların anlama, analogiyanı aşkara çıxarma, hesab əməliyyatlarını yerinə yetirmə, verbal məsələləri həlletmə, həmçinin yaddasaxlama, yarımçıq şəkilləri tamamlama və quraşdırma kimi xüsusi qabiliyyətlərinin aşkara çıxarılmasını nəzərdə tutur. Veksler testinin də 4 yaşdan 6 yaş yarımadək olmaqla 11 subtestdən ibarət uşaqlar və yaşlılar üçün variantları vardır.

Həm Bine-Simonun, həm də Vekslerin **intellekt testlərindən** uzun illər boyu istifadə etməklə, uşaqların gələcək təlim müvəffəqiyyətini proqnozlaşdırmağa çalışan bir çox psixoloqlar onların nəticələri əsasında birmənalı fikir yürütməkdə çətinlik çəkmişlər. Belə ki, onların keçirdikləri sınaqlar zamanı əldə edilən **əqli inkişaf əmsalı** ilə uşaqların təlim müvəffəqiyyəti arasında bəzən əldə olunan uyğunsuzluqlar mənimsəmənin yalnız intellektual inkişaf səviyyəsindən asılı olması fikrinin təsdiqə tam əsas verməyin mümkünsüzlüyünü ortaya çıxarmışdır.

Bir çox psixoloqlar uşaqların təlim müvəffəqiyyətinin nəticələrinin yalnız anadangəlmə ümumi qabiliyyətlərdən deyil, həm də intellektin formalaşmasınada ətraf mühitin təsirindən, təlim vasitəsilə uşaqlarda formalaşan bilik, bacarıq və vərdişlərin səviyyəsindən də asılı olduğu fikrini irəli sürmüşlər.

Psixoloji testlər içərisində çoxsaylı **şəxsiyyət testlərinin** özünəməxsus yeri vardır. Həmin testlər şəxsiyyətin əsas tibbi praktika üçün məlumat xarakteri kəsb edən xüsusiyyətlərinin müəyyənləşdirliməsi məqsədilə tətbiq olunur. Şəxsiyyət testlərinin meydana gəldiyi ilk dövrlərdə onlardan insanların şəxsiyyət keyfiyyətlərindəki qüsurların diaqnostikası məqsədilə istifadə olunurdu. Onaların vasitəsilə əldə olunan qüsuru təsdiq edən nəticələr də əsasən **patopsixoloji** baxımdan qiymətləndirilir, xəstəlik əlaməti hesab olunur və həmin xüsusiyyətlər sırasına **rigidlik, həyəcanlılıq** və s. kimi hallar aid edilirdi. Psixatriya üçün əhəmiyyət kəsb etmədiyinə görə, ilk şəxsiyyət testlərində məsələn, idrak maraqları, qabiliyyətlər kimi xüsusiyyətlərin öyrənilməsi məqsədi qarşıya qoyulmurdu. Belə metodlar sırasına **Porşah testini, tematik appersepsiya testi, Minnesottskinin çoxfaktorlu şəxsiyyət sorğusunu** və b. aid etmək olar. Əsasən tibbi məqsədlər üçün tətbiq edilən belə testlər əslində uşaqların pedaqoji və psixoloji cəhətdən hər hansı xüsusiyyətlərini öyrənməyə imkan vermədiyindən, onun nəticələri ancaq

həkimlər üçün maraqlı idi. Əslində isə şəxsiyyətin bir çox mühüm xüsusiyyətləri diqqət mərkəzindən kənara qalırdı. Ona görə də, belə testlər vasitəsilə uşaqların bütövlükdə şəxsiyyət keyfiyyətlərinin inkişafı haqqında hər hansı konkret nəticə əldə etmək mümkün deyildi. Bu cəhət belə bir qənaətə gəlməyə imkan verir ki, təcrübədə bu və ya digər testdən istifadə etməzdən əvvəl onun yaranma tarixi, əsaslandığı nəzəriyyə və ənənəvi baxımdan tətbiq olunduğu sahələr haqqında ətraflı məlumata malik olmaq, daha konkret desək, testin yararlığını bilmək lazımdır. Bunları bilməklə uşaqlarla müayinə keçirən praktik psixoloq əldə etdiyi nəticələrin interpretasiyasında çətinlik çəkmir onun rəy və tövsiyələri daha etibarlı olur. Şəxsiyyət testləri ilə iş aparan praktik psixoloq ilk növbədə müvafiq testin əsaslandığı şəxsiyyət nəzəriyyəsinə bələd olmalı və bu cəhətə xüsusi diqqət yetirməlidir. Əks halda tətbiq olunan testin imkanlarını lazımı səviyyədə qiymətləndirmək mümkün deyil. İxtiyarı psixoloji test ilk növbədə onun müəllifinin nəzəri dünyagörüşünü əks etdirdiyinə görə, onun **şəxsiyyəti anlama səviyyəsi** ilə sıx bağlıdır. Test şəxsiyyətin əsasını təşkil edən bir çox baza əlamətlərinin öyrənilməsinə xidmət etdikdə belə, eyni hal baş verir. Ona görə də, şəxsiyyət keyfiyyətlərinin diaqnostikasını keçirərkən nəticələrin etibarlığını təmin etmək məqsədilə eyni vaxtda bir neçə müxtəlif testdən istifadə etmək və nəticələri müqayisə etmək zərurəti meydana çıxmış olur.

Testlərin tətbiqi zamanı diqqət yetirilməli olan əsas cəhətlərdən biri də onların yeni şəraitə uyğunlaşdırılmasını təmin etməkdən ibarətdir. Xarici ölkələrdə yaradılmış hər bir test ilk növbədə həmin ölkənin real gerçəkliklərinə - mədəni inkişaf səviyyəsinə, milli, dini və s. kimi xüsusiyyətlərinə əsaslanır. Bir ölkədə siyasi, iqtisadi, sosial və mədəni səviyyəyə uyğun olaraq hazırlanmış hər hansı test, başqa bir ölkədə olduğu kimi tətbiq edilmək imkanına malik deyildir. Ona görə də, hər bir test tətbiqdən əvvəl müvafiq ölkənin xüsisiyyətlərinə uyğunlaşdırılmalıdır.

Lakin bəzən elə olur ki, hər hansı bir ölkədə hazırlanmış testin uyğunlaşdırılması zamanı dil amilindən irəli gələn çoxsaylı çətinliklər özünü göstərir. Orijinal variantda göstərilən söz və ifadələrin dəqiq ədəbi tərcüməsi heç də həmişə həmin testdə ifadə olunan psixoloji mənanı dəqiq və kifayət qədər düzgün ifadə etməyə imkan vermir. Testin daha yaxşı anlaşılması və tətbiqi üçün həmin testdəki ifadələrin ədəbi mənasını bilməklə yanaşı, onun müəllifinin ifadə etmək istədiyi spesifik mənanı da tam başa düşmək lazımdır.

Hər hansı bir yaş mərhələsinə aid olan insanların öyrənilməsinə aid testlər bir qayda olaraq başqa yaş qrupuna aid adamların tədqiq olunmasında istifadə oluna bilməz və onların müvafiq yaş qrupu üçün uyğunlaşdırılması zərurəti vacibdir. Bu cəhətdən yaşlı adamlar üçün nəzərdə tutulmuş intellekt və şəxsiyyət testləri adətən uşaqların müayinəsi üçün yararsız olduğu kimi, uşaqlar üçün yaradılmış testlər də yaşlılar üçün tətbiq baxımından əhəmiyyətsizdir.

Testlərin tətbiqinin mühüm xüsusiyyətlərindən biri uyğunlaşmadır. Belə ki, eyni bir test əsasında uşaqlar üzərində sınaqlar keçirilərkən onlar tədricən testə adət etmiş olur və düşünmədən, mexaniki olaraq cavab verməyə adət etmiş olurlar. Praktik psixoloqun iş fəaliyyətində uzun test-sorğulardan istifadə olunması uşaqların yorğunluğuna gətirib çıxarır. Ona görə də test sınaqlarının keçirilməsində mümkün qədər qısa testlərdən istifadə etmək lıazım gəlir. Bundan başqa, uşaqlarla ardıcıl test sınaqlarının keçirilməsi zamanı onlar arasında kifayət qədər vaxr intervalının gözlənilməsi zəruridir.

Təkrar testləşdirmə zamanı əldə olunan **nəticələrin sabit olmaması** bir sıra digər səbəblərdən də asılı ola bilər. Uşağın psixi vəziyyəti, əhvali-ruhiyyəsi, fiziki durumu, səhhəti kimi daxili təlimatın verilməsi səviyyəsi, tədqiqatçının rəftarı kimi xarici şərtlər testin nəticələrində dəyişkənlik yaradan amillər kimi nəzərə alınmalıdır.

**Yazılı və şifahi sorğular** uşaqların psixoloji diaqnostikasında özünəməxsus xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərin ən mühümü ondan ibarətdir ki, bu sorğular zamanı qoyulan suallara uşaqların cavabları bir sıra şərtlərdən asılıdır və dəyişkəndir. Uşaqlara göstərilən təsir və təzyiq nəticələrin qeyri-səmimi olmasına gətirib çıxarır. Təcrübədə yazılı və şifahi sorğulardan, o cümlədən anket sorğularından istifadə zamanı çalışmaq lazımdır ki, uşaqlar qoyulan sualları düzgün anlasınlar. Bu cəhət məktəbəqədər və kiçik məktəb yaşlı uşaqların davranışının öyrənilməsinə aid sorğuların tətbiqində xüsusi nəzərə alınmalıdır. Diaqnostik müayinəni keçirən psixoloq verilmiş sorğudakı sualların uşaqlar tərəfindən düzgün başa düşüldüyünə əmin olmalı, onların cavabından əvvəl zəruri izahatlar verməlidir.

Uşaqlarda özünüdərketmənin zəif inkişaf etdiyi müəyyən edildiyi hallarda psixodiaqnostik məqsədlərlə sorğulardan istifadə etmək məqsədəuyğun deyildir. Kiçik yaşlı uşaqlar öz hərəkətlərinin motivlərini kifayət qədər dərk edə bilmirlər. Məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlar öz xarakterlərinin əlamətlərini təhlil edib qiymətləndirmək imkanlarına malik deyillər. Ona görə də, kiçik yaşlı uşaqlarla psixodiaqnostika təcrübəsində sorğulardan yox, tədqiqatın bu yaş dövrü üçün məqsədəuyğun olan digər metodlarından – **testlərdən, eksperimentlərdən, sənədlərin təhlilindən, fəaliyyət məhsullarının öyrənilməsi** kimi daha etibarlı metodlardan istifadə etmək lazım gəlir.

Sənədlərin təhlili və fəaliyyət məhsullarının öyrənilməsi metodları müəyyən şərtlərə əməl edildikdə, kifayət qədər etibarlı və dəqiq metodlar hesab edilə bilər. Həmin şərtlərdən **birincisi** ondan ibarətdir ki, öyrənilən sənəd və ya nəticə üçün təhlil edilən fəaliyət məhsulu uşaq haqqında etibarlı informasiya mənbəyi olmalıdır. **İkincisi,** fəaliyyət məhsullarının təhlili etibarlılıq və yararlılıq baxımından qiymətləndirilmə-

lidir. Uşaqlar haqqında məlumat mənbəyi kimi sənədlərin öyrənilməsində **kontekt-təhlil metodundan** istifadə olunması təcrübədə yaxşı nəticələr verir. Sənədlərin öyrənilməsi qaydası onun məzmununun öyrənilməsinə və aid olduğu şəxsin psixolojiyası haqqında mülahizə yürütməyə imkan verir. Psixodiaqnostik metodlardan biri kimi, **müşahidə** metodu da müəyyən qaydaların gözlənilməsini tələb edir ki, onların da nəzərə alınması əldə olunan nəticələrin etibarlılığına təminat verir. Bu qaydalardan birincisi ondan ibarətdir ki, müşahidə vasitəsilə müəyyənləşdi-rilməli olan əlamətlər və onun qeydə alınması üsulları tədqiqatçıya əvvəlcədən aydın olmalıdır. İkinci qayda isə müşahidəçinin müşahidə obyektində baş verən proses və hadisələrə müdaxilə etməməsini nəzərdə tutur. Müşahidənin tam obyektivliyini bir neçə müstəqil müşahidəçinin rəyinə əsasən təmin etmək olar.

### 1.5.3. Psixodiaqnostikada istifadə olunan klinik müayinə metodları və onlara verilən tələblər

Klinik psixologiya (patopsixologiya) psixologiya elminin sahələrindən biri olub, xəstəliklərin psixikaya təsirini öyrənir. Psixikanın dəyişməsi və enməsi qanunauyğunluqlarını öyrənən **patopsixologiya** bu dəyişiklikləri normal psixi fəaliyyətin gedişi ilə müqayisədə öyrənir. Patopsixologiya sahəsində aparılan tədqiqatlar tibbi praktika üçün böyük əhəmiyyətə malikdir. Bu tədqiqatlardan əldə olunan nəticələrdən diferensial diaqnostikada, ekspertiza məsələlərində, nevrotik vəziyyətlərin, xüsusilə, uşağın psixikasının anomal inkişafı hallarında korreksiya məqsədləri ilə istifadə olunur.

Psixoloji müayinə üsullarının böyük əhəmiyyətə malik olmasına baxmayaraq, onlar kliniki təcrübəyə son illərdə daxil olmuşdur. Bunun səbəblərindən birincisi, ondan ibarətdir ki, yüksək ixtisaslı tibb mütəxəssisləri psixoloqları ya tam ciddi olmamaqla, ya da az əhəmiyyətli praqmatizmdə

günahlandıraraq kəskin tənqid atəşinə tuturdular. İkincisi isə, 80-cı illərin əvəllərinədək tətbiq olunan diaqnostika üsulları çox ibtidai və anlaşılmaz olduqları üçün, xəstəliyin diaqnostikasında və müalicəsində dəqiqlik tələb edən nəticələr vermir və əksər hallarda fərdi xüsusiyyətləri nəzərə almırdı.

Son dövrlər psixi pozğunluqların diaqnostikasına yeni yanaşma əsasında təkcə psixi və somatik xəstəliklərin özü deyil, xəstənin şəxsiyyətinin parametrləri, intellektual inkişafın səviyyəsi, psixososial streslərin ağırlıq dərəcəsi, funksional uyğunlaşmanın xarakteri və s. nəzərə alınmaqla diaqnos müəyyən edilməyə başlanılmışdır. Bu yanaşmaya görə klinisist psixi pozuntunun təzahür dərəcəsini və onun fərdi şəxsiyyətinə fərdin şəxsiyyətinə təsir səviyyəsini nəzərə almalıdır.

Differensial diaqnostikada istifadə olunan klinik –psixoloji müayinənin bütün üsulları şərti olaraq 3 tipə bölünür. **Sınaqlar** (testlər), **qiymətləndirmə cəvəli** və **sorğular.**

**Psixoloji sınaqlar** – etibarlı və dəqiq üsullarla psixikanın müxtəlif funksiyalarının standartlaşdırılmış tədqiqat metodlarını özündə ifadə edir. Psixoloji testin səciyyəvi nümunəsi intellekti yoxlamaq üçün nəzərdə tutulan **Veksler** testidir. Uşaq variantı 6-16 yaşlı uşaqlar üçün və 166 sualdan ibarət olan bu böyüklər üçün nəzərdə tutulan bu sınağın cavabları balla qiymətləndirilir. Müayinə edilən təqdim olunan cavab variantlarından birini seçməlidir.

Məsələn, “Düşünmək nədir?” sualına aşağıdakı cavablarından biri verilə bilər.

a) fikirləşmək - 2 bal;

b) maraqlanmaq – 1 bal;

c) narahat olmaq – 0 bal.

Balların hesablanması böyük dəqiqliklə insanın əqli qabiliyyətini müəyyən etməyə imkan verir.

Başqa sınaqlardan istifadə etməklə psixi funksiyaların təkcə birini deyil, eyni vaxtda bir neçəsini yoxlamaq mümkündür. Belə sınaqlardan biri **Rorşahın şəxsi üslublar və xüsusiyyətlər testidir.** Metodikaya əsasən müayinə olunana 10 amorf mürəkkəb ləkəsi təsviri göstərilir və onların nəyə bənzədiyini, nəyi xatırladığını təsvir etmək təklif edilir. Cavablar qeydə alınır və sonra standart üsullarla onların təhlili keçirilir. Əldə edilən göstəricilərə əsasən müayinə olunanın şəxsi xüsusiyyətləri, təfəkkürü və reaksiyası müəyyən olunur.

Son illərdə **Lyuşerin münasibətlərin rəngli testi** geniş yayılmışdır. Müayinə olunana 8 rəngli vərəqə verilir. Şəxs üstün tutduğu qaydada onları ardıcıl düzməlidir. Sonra vərəqlər qarışdırılır və müayinə olunan bu və ya digər anlayışa və obyektə uyğun gələn rəngi seçir. Sınaq müəyyən dəqiqliklə müştərinin emosional vəziyyəti, digər adamlarla münasibəti, davranışındakı meylləri barədə mühakimə yürütməyə imkan verir.

**Qiymətləndirmə cədvəlləri** – standartlaşdırılmış vasitələr olub, müşahidəçilərə (həkimlərə, tibbi psixoloqlara, sosial işçilərə, tibb bacılara və b.) müştərinin vəziyyətini qiymətləndirməyə imkan verir. **Funksional uyğunlaşmanı müəyyən edən qlobal cədvəl** məhşur qiymətləndirmə cədvəlidir. Cədvəl pasiyentin müxtəlif səviyyəli sosial funksiyalarını 90-dan 1-dək azalma qaydası ilə qiymətləndirməyə imkan verir. Bu cədvəlin köməyi ilə əldə olunana məlumatlar xəstənin həyat keyfiyyəti barədə mühakimə yürütməyə, əlilliyə dair qərar verməyə, müalicə və sağlamlığının bərpa etməyə aid məsələləri müzakirə etməyə də imkan yaradır. Klinik psixologiyada depressiyaları müəyyən edən Hamilton cədvəli az məhşur deyildir. Cədvəl depressiyaların müxtəlif formalarını( affektiv, vegetativ, psixotik, səbəbli, koqnitiv-depressiv əlamətləri) əhatə edən 17 və ya 24 bənddən ibarətdir. Onların təzahür dərəcəsi 0-dan 4 bala qədər qiymətləndirilir. Yekun hesablama depsseriv əlamətlərin təzahür dərəcəsi haqda dəqiq məlumatlar verir.

**Kliniki sorğular** - tərkibində müəyyən suallar və cavab variantları olan yarımstrukturlu standartlaşdırılmış üsullar sistemidir. Qiymətləndirmə cədvəllərindən fərqli olaraq, onlar müştərinin özü tərəfindən doldurulur. Bu test cavab verənin səmimiliyini yoxlayan suallardan ibarətdir. 566 sualdan ibarət olan və müştərinin vəziyyətinin 13 müxtəlif parametrlərlə (**şəsxiyyət tipi, təşviş, depressiya, psixotik əlamətlər və b.)** qiymətləndirməyə imkan verən **şəxsiyyətin çoxşaxəli Minesot sorğusu** hamı tərəfindən qəbul edilmişdir.

Son illər geniş yayılmış nəşrlərdə oxucuların asudə vaxtını keçirmək üçün müxtəlif əyləncəli psixoloji testlərə rast gəlmək mümükündür. Bu testlərin çoxu psixi cəhətdən sağlam olan insanlara aiddir.

Müasir klinik psixologiya təcrübəsində bir sıra metodlardan da geniş istifadə olunur. Bunlar aşağıdakılardır.

**Test-retest metodu** – təkrar testləşdirmə keçirilərkən birinci müayinədən bir müddət keçdikdən sonra müayinə edilən şəxslərdə metodikanın nəticələrinin dəyişmədiyini öyrənmək məqsədini daşıyır.

**Alternativ testləşdirmə metodu** –eyni müştəridə digər metodikaların tətbiqindən sonra eyni nəticələrin verəcəyini təmin etmək məqsədilə keçirirlir.

**Etibarlılıq metodu** – testin müqayisə edilə bilən müxtəlif hissələrinin müəyyən etmək məqsədilə bərabər miqdarda nöqtəsi olan bir bədən üzvünün digəri ilə maqayisə edilməsidir. Etibarlılıq meyarı başa düşməyə imkan verir ki, həqiqətən də metodika stabil qiymətləri təmin edir və onun müxtəlif bəndləri yaxşı uyğunlaşır. Lakin bu hələ metodikanın tədqiq edilməsi zəruri olan parametrləri əks etdirdiyinə təminat vermir. Buna görə də, hər bir kliniki vasitə həm də, validlik (etibarlılıq) meyarına yəni, qarşıya qoyulan məqsədi nə dərəcədə təmin etməsi sualına cavab verməlidir.

**Məzmunu yoxlama üsulu** – mətnin məzmununun tədqiqat sahəsini nə dərəcədə dolğun əhatə etdiyini müəyyən edir. Məsələn, əqli qabiliyyəti

yoxlayan mətn təkcə sözləri bilməyi deyil, həm də hesablama və ya mücərrədləşdirmə bacarığını da təmin etməlidir.

**Müqayisə-yoxlama üsulları** - mətnin digər qeyri-test metodikaların köməyilə əldə edilmiş nəticələrlə müqayisəni təmin edir. Məsələn, testin nəticələri təcrübəli həkimin müşahidələriylə uyğun gəlirmi?

**Qabaqcadan xəbər vermə üsulu** vasitəsilə gələcək dəyişikliklərin mümkünlüyünün proqnozlaşdırılmasını öyrənir. Məsələn, xəstə sınaqların nəticələri əsasında seçilmiş xüsusi müalicəyə uyğun cavab verəcəkmi?

**Konstruktivliyin yoxlanılması üsulu** – müxtəlif elmi istiqamətləri olan müstəqil müşahidəçilərin uyğun nəticələrinin nümayişinə nail olunur. Ancaq bu nəticələr əvvəlcədən quraşdırılmamalıdır.

### Kliniki-psixoloji müayinənən başlıca vəzifələri

- Müayinə edilənin vəziyyətinin qiymətləndirilməsi;
- Pozuntuların diferensial diaqnostikası;
- Əlamətlərin təzahürünün müəyyənləşdirilməsi;
- Psixikanın müəyyən sahələrinin və şəxsi keyfiyyətlərinin tətqiqi;
- Terapevtik prosesin nikbinləşdirilməsi;
- Vəziyyətə dinamik müşahidə müalicənin monitorinqi;
- Psixoterapevtik istiqamət;

Qeyd etmək lazımdır ki, psixoloji diaqnoz psixiatrik diaqnozla tam mənada eyni deyil. Psixoloji testlər eyni adamda geniş və ya kompleks şəkildə tamamilə müxtəlif psixi xüsusiyyətləri müəyyən etməyə imkan verir. Kliniki təcrübədə konkret xəstəyə ünvanlanan müalicənin şəxsi xüsusiyyətlər nəzərə alınmaqla düzgün terapevtik tədbirlərinin seçilməsi də az əhəmiyyət kəsb etmir. Psixoloji metodları tətbiq etməklə klinisistlər standart bayağı sxemləri təyin etməkdən yayına və terapevtik prosesin düzgün məcraya yönəlməsinə nail ola bilərlər.

Nəhayət, psixoloji müayinə əməliyyatının özü psixoterapevtik baxımdan böyük əhəmiyyət kəsb edir. Xəstənin sınaqdan keçirilməsi onunla psixoterapevtik ünsiyyət yaratmağa imkan verir. Sorğu prosesi xəstəyə öz vəziyyətini başa düşməyə şərait yaradır, onun müayinənin nəticələri ilə tanış olması və əldə edilən məlumatların birgə müzakirəsi psixoterapevtin işini xeyli yüngülləşdirir. Testləşdirmənin məqsədlərindən asılı olaraq, tibbi psixoloq xəstənin vəziyyətinin adekvat tədqiqi üçün münasib miqdarda zəruri olan metodları seçməlidir.

Sorğu keçirilərkən xəstə düzgün nəticələr almaqda maraqlı olmalıdır. Bu da öz növbəsində psixoloji tədqiqata obyektiv və səmimi münasibətlərdən asılıdır. Tibbi psixoloq tədqiqata başlamazdan əvvəl hər bir konkret metodun qaydaları ilə ətraflı tanış olmalıdır. Test keçirilərkən xəstənin intellektual-mədəni səviyyəsinə diqqət yetirmək vacibdir.

Psixoloqlar qohumlarla ünsiyyət zamanı tam məlumatın əldə olunmasına çalışmalı, eyni zamanda mövcud olan problemlər və yardım prosesi haqqında məlumat verməlidir. Təbii ki, qohumların verdiyi hər bir məlumat xəstənin tələbi olarsa, ona bildirilməlidir. Bəzən qohumların özlərinə də psixoloji yardım ehtiyacı duyulur, belə halda psixoloqun məsləhıtləri faydalı ola bilər. Psixoloqun verdiyi tövsiyələr arasında aşağıdakılar xüsusi əhəmiyyət kəsb edir:

- Çalışın ki, psixoloji sağlamlıq məsələləri haqqında daha çox məlumat əldə edəsiniz;
- Xəstənizin qohumuna mümkün qədər dəstək verin;
- Əgər nə isə qıcıqlanma yaradırsa, unutmayın ki, bu xəstənin özü ilə yox, xəstəliyin əlamətləri ilə bağlıdır;
- Öz xəstələrinə qarşı qohumların hövsələli və diqqətli olmalarını tövsiyə edin;
- Xəstənin öz problemləri və tələbləri barədə danışmasına imkan yaradın;

- Optimist olun. Psixi sağlamlıqla bağlı olan problemlərin uğurla həll oluna biləcəyinə nikbinliklə yanaşın;
- Özünə və başqalarına yardım qrupları və təşkilatları yaradın.

Məlum vəziyyətdə ailədə münaqişə mənbəyi olarsa, psixoloq onları tənzimləmək və xəsətəyə real yardım göstərmək üçün ən lazımlı adam ola bilər. Qohumlarla ünsiyyət vasitəsilə xəstəyə təsir etmək mümkün olmadıqda, psixoterapiya ən faydalı üsuldur. Məhz psixoterapiya ətrafdakıların iştirakı olmadan real nəticə verə bilən müalicə formasıdır.

Uşaqlar və yeniyetmələrlə ünsiyyətin öz xüsusiyyətləri vardır. Bu, yaşından asılı olaraq, onlarla aparılan kliniki müsahibə müxtəlif taktiki gedişlərdən istifadə etməyi tələb edir. Prof. N.İsmayılovun fikrincə, böyüklərdən fərqli olaraq,uşaqlarla aparılan söhbət zamanı aşağıdakı amillərə diqqət yetirilməlidir:

- Uşağı, adətən, razılığı olmadan mütəxəssisin yanına gətirirlər və heç də həmişə gəlişin səbəbi düzgün izah olunmur. Ona görə də, uşaqlar çox vaxt tibb müəssisəsində saxlanılmaqdan, yaxud da həkimin iynə vurmağından qorxurlar;
- Uşaq, əksər hallarda, məlumat mənbəyi ola bilmir;
- Bur qayda olaraq, uşaq sualları düzgün başa düşmür və ünsiyyət yaratmağa can atmır;
- Bur çox uşaqlar üçün fasiləsiz diqqət tələb edən müsahibə həyəcanlanmaya səbəb olur.

Kiçik yaşlı uşaqlarla müsahibə zamanı qeyri-verbal ünsiyyət böyük əhəmiyyət kəsb edir. Müsahibə prosesində uşağın və yaxud valideynlərinin hərəkətlərini qiymətləndirməkdən çəkinmək lazımdır. Müsahibə aparılarkən sükut və ya uşağı bezdirən monoton səs məqsədəuyğun deyildir.

Yeni işləməyə başlayan psixoloqlar uşaqlarla ünsiyyətdə bəzən çoxlu səhvlərə yol verirlər. **Birincisi,** onlar uşaqların xoşuna gəlsin deyə, "çətin" mövzudan qaçırlar. **İkincisi,** onlar öz sualları ilə uşaqları istədikləri, lakin

düzgün olmayan cavablar verməyə sövq edirlər. **Üçüncüsu,** onlar uşağın başını yelləməyinə, yaxud digər reaksiyalarına əsaslanaraq yanlış nəticəyə gələ bilərlər. N.İsmayılov yazır ki, **məktəbəqədər yaşlı**, yəni, altı yaşına qədər uşaqlarla kliniki müsahibə zamanı qorxu, şübhə yaranmasın deyə, onlarla daha sərbəst rəftar etmək lazımdır. Yaxşı olar ki, uşağın yaşından və cinsindən asılı olaraq, düzgün seçilmiş oyuncaqlar, maşınlar, gəlinciklər, kubiklər, flamasterlər, plastelinlər və s. olan otağa daxil olub, söhbəti orada aparasınız.

**Kiçik məktəb yaşlı** uşaqlara başa salmaq lazımdır ki, siz onların problemlərinin həllinə kömək edən mütəxəssissiniz, müəllim deyilsiniz. Azyaşlı uşağa həqiqi maraq və hörmət göstərmək üçün bu yaxınlarda baş verən hadisələri, hərəkətləri, dərsləri, oyunları və gələcək planları ondan soruşmaq lazımdır. Söhbətin mövzusu nə qədər canlı emosiya xarakterində olsa, onun səmərəsi daha yüksək olar.

**Yeniyetmələrlə** kliniki müsahibələr apararkən bu yaş dövrünün "çətin", "böhranlı" və ziddiyyətli, keçici bir dövr olduğunu nəzərə almaq lazımdır. Bu yaş dövründə gənclik maksimalizmi öz hüququ barədə imtiyazlar tələb etmək, hələ formalaşmamış dünyagörüşü, ətrafdakı adamlarla münaqişələrə meyllilik yeniyetmələrin spesifik xüsusiyyətləridir. Yeniyetmələr psixoloqun simasında onları anlayan, özlərinə həmfikir və kömək edə biləcək bir şəxs tapmağa çalışırlar.

Uşaq və yeniyetmələrlə işləyən psixoloq bu yaş dövründə hansı maraq və meyllərin üstünlük təşkil etməsini bilməlidir. Yeniyetmələr qarağan olunan hər şeyə, eyni zamanda kompyuter oyunlarına, internetə, mobil telefonlara, gənc musiqi ifaçılarına, əyləncəli şou proqramlara, modaya və digər bir çox şeylərə xüsusi maraq göstərirlər. Xeyrxahlıq, səmimilik, hazırcavablıq uşaq və yeniyetmələrlə ünsiyyətdə çox vacib keyfiyyətlər hesab olunur.

### 1.5.4. Müasir psixoloji testlər və onların təsnifatı

Psixoloji testlər öz məzmununa görə bir neçə qrupa ayrılır: intellekt testləri, qabiliyyət testləri, müvəffəqiyyət testləri, şəxsiyyət testləri və proyektiv testlər.

**İntellekt testləri-** İnsanların əqli inkişafını və intellektual səviyyəsini öyrənmək məqsədinə xidmət edir. İntellekt dedikdə heç də insanın fərdiyyətini əks etdirən ixtiyarı xüsusiyyət deyil, hər şeydən əvvəl onun idrak prosesləri və funksiyaları (məsələn, qavrayış, təfəkkür, hafizə, diqqət və s.) nəzərdə tutulur. **İntelekt insanın malik olduğu əqli qabiliyyətlərin məcmuyudur**. İnsanların intellekt səviyyəsinin öyrənilməsi sahəsində aparılan tədqiqatlar nəticəsində ilk intellekt testləri yaradılmışdır və bu testlər tarixən psixodioqnostikanın ilk metodlarından biri hesab edilir. Fərdin intellektinin və əqli inkişafının sabit və kifayət qədər etibarlı göstəricisi kimi "**intellektual inkişaf əmsalı"** (IQ) anlayışı müasir psixodioqnostikada özünə əbədi yer tutmuşdur. İnkişaf etmiş bir sıra xarici ölkələrin, xüsusən ABŞ-ın təhsil sistemində intellekt testləri geniş yayılmışdır. Müxtəlif tipli təhsil müəssisələrinə qəbul zamanı bu testlərdən praktik psixoloqun "ölçü alətləri" bankında məcburi bir vasitə kimi istifadə olunur. Praktik psixologiyada geniş istifadə olunan intellekt testləri içərisində D.Vekslerin, P.Amthauerin, S.Ravenin, H.Ayzenkin, Stenford-Binenin, Meylinin, Kettelin yaratdıqları intellekt testləri xüsusi yer tutur.

Rus psixoloqlarından M.K.Akimova, E.M.Borisova, K.M.Qureviç, V.Q.Zarxin, V.T.Kozlova, Q.P.Loqinova, A.M.Rayevski, N.A.Ferensin kollektiv əməyi ilə yaradılmış xüsusi intellekt testlərdən biri abituriyentlərin əqli inkişafının diaqnostikasını müəyyən etmək üçün nəzərdə tutulmuşdur. Həmin test aşağıdakı 8 subtestdən ibarətdir:

1) ümumi məlumatlılıq; 2) ikili analogiyalar;
3) labillik; 4) təsnifatlar;
5) ümumiləşdirmə; 6) məntiqi sxemlər;
7) ədədi sıralar; 8) həndəsi fiqurlar

İntelekt testləri fərdin yalnız ümumi intelektual inkişaf səviyyəsini müəyyən etməyə xidmət etmir, o, həm də sınanılan şəxsin fərdi profilini, verbal və ya obrazlı təfəkkürünü ictimai-humanitar, fizika-riyaziyyat, təbiət fənləri üzrə mənimsənilmiş biliklərinin səviyyəsini müəyyənləşdirmək imkanı verir. Beləliklə, intellekt testlərinin nəticələrinə əsasən sınanılan şəxslərin, orta məktəb məzunların müxtəlif profilli təhsil müəssisələrində təliminin müvəffəqiyyət səviyyəsi haqqında proqnozlar vermək mümkündür. İntellekt testləri fərdin əqli inkişaf xüsusiyyətləri ilə yanaşı, fikri proseslərinin surəti haqqında da məlumat əldə etməyin etibarlı mənbəyidir.

**Qabiliyyət testləri-** ümumi və xüsusi olmaqla iki əsas qrupa bölünür. Ümumi qabiliyyətlər dedikdə, ilk növbədə insanın bir neçə fəliyyətin tələblərinə cavab verən intellektual qabiliyyətləri nəzərdə tutulduğuna görə, onların diaqnostikasında adətən intellekt testlərindən istifadə olunur. Xüsusi qabiliyyətlər isə insanın konkret bir fəaliyyət sahəsində imkanlarını əks etdirir və onların ölçülməsi və qiymətləndirilməsində xüsusi qabiliyyət testləri tətbiq üçün yararlı hesab edilir.

Xüsusi qabiliyyət testlərinin köməyi ilə insanların intellektual inkişaf səviyyəsi ilə bağlı olmayan, lakin onları tamamlayan xüsusiyyət və keyfiyyətləri haqqında məlumatlar əldə edilir. Bu testlər insanın konkret bir fəaliyyət sahəsində və onun bir neçə növü üzrə işin uğurla yerinə yetirilməsini aşkara çıxarmağa yönəlmişdir. Qabiliyyət testlərinin konkret fəaliyyət növlərindən asılı olaraq **riyazi, texniki, musiqi, ədəbi, bədii** və c. kimi növləri vardır. Xarici ölkələrin testologiyasında bu tipli testlərin iki əsas cəhətə görə təsnifatı qəbul edilmişdir:

a) **psixi funksiyaların növlərinə görə** -sensor və motor testlər;
b) **fəaliyyətin növlərinə görə** -texniki və peşə fəaliyyəti testləri, yəni, bu və ya digər peşəyə uyğun olan testlər.

**Sensor testlər** vasitəsilə insanların qabiliyyətinin müxtəlif xüsusiyyətləri, məsələn, görmə və eşitmənin itiliyi, fərqləndirmə həssaslığı,

rəng duyumu, səslərin gurluğunun, tembrinin, ucalığının fərqləndirilməsi və s. tədqiq edilir. Bu zaman görmənin xüsusiyyətlərini öyrənmək məqsədilə xüsusi cədvəl və aparatlardan istifadə olunur. Eşitmə həssaslığının öyrənilməsində bir sıra sınaqlarla yanaşı, hal-hazırda **Simorun musiqi qabiliyyəti testi** özünün məşhurluğuna görə böyük nüfuza malikdir.

**Texniki qabiliyyətlərə** malik olan insan müxtəlif cihaz, qurğu və avadanlıqlarla müvəffəqiyyətlə işləmək sahəsində başqa adamlardan fərqlənir. Müəyyən edilmişdir ki, insanlarda bəzi ümumi texniki qabiliyyətlərlə yanaşı, bu qabiliyyəti səciyyələndirən bir sıra konkret, xüsusi cəhətlər də vardır. Məsələn, məkan təsəvvürləri və texniki anlamanı götürək. Fəza təsəvvürləri görmə obrazlarını, məsələn, həndəsi fiqurların qavranılmasını təmin etdiyi halda, texniki anlama qabiliyyəti fəza modellərinin düzgün qavranılmasını, onların müqayisə edilməsini təmin edir. Bu tipli testlər vasitəsilə sınanılan şəxslərin texniki quraşdırma qabiliyyətlərinin inkişaf səviyyəsi müəyyənləşdirilir.

Müasir psixoloji testlər hər şeydən əvvəl blank metodikaları formasında yaradılır. Məsəslən,məşhur testlərdən biri olan **Bennet testi** sadə texniki hissə və qurğuların təsviri olan şəkillər seriyasından ibarətdir və hər bir şəklə aid sualla müşayət olunur. Bu testi düzgün cavablandırmaq üçün ümumi texniki prinsipləri və fəza münasibətlərini anlamaq zəruri tələb hesab edilir.

Qeyd etmək lazımdır ki, bu qrupdan olan testlər əsasən sınanılan şəxsin texnika ilə işləmək təcrübəsi və meylinin, biliyinin aşkara çıxarılmasına yönəlmişdır. Bu cür testlər batareyasından əsasən abituriyentlərin texniki təmayüllü təhsil müəssisələrinə seçilməsində istifadə olunur.

**Peşə fəaliyyətli qabiliyyətlərinin** diaqnostikası məqsədi ilə ayrı-ayrı peşələrin spesifik xüsusiyyətlərinə uyğun olan xüsusi testlər yaradılır. Bununla belə, qabiliyyətlərin öyrənilməsinin bir sıra daha ümumi metodları-xüsusi test batareyaları da mövcuddur ki, onların vasıtəsilə insanların müxtəlif fəaliyyət sahələrinə aid qabiliyyətləri sınaqdan keçirilir.

**Müvəffəqiyyət testləri –** adı altında qruplaşdırılan testləri adətən **təlim və peşə müvəffəqiyyəti testləri** və ya **didaktik testlər** də adlandırırlar. Təlim müvəffəqiyyəti testləri ayrı-ayrı fənlər üzrə mənimsənilmiş konkret biliklərin səviyyəsinin qiymətləndirilməsinə xidmət edir. Bu testlər öz nəticələrinin dəqiqliliyi və etibarlılığı baxımından bal sistemi ilə biliklərin qiymətləndirilməsindən daha dəqiq və obyektivdir. Müvəffəqiyyət testləri təhsil müəssisələrində şagirdlər və tələbələr tərəfindən mənimsənilmiş biliklərin səviyyəsini, tədris planı, proqramları və dərslikləri, habelə təlim metodlarını, ayrı-ayrı fənləri tədris edən müəllimləri, bütövlükdə pedaqoji kollektivlərin fəaliyyətinin səmərəliliyini və nəticələrini qiymətləndirməyə imkan yaradır.

Müvəffəqiyyət testləri intelekt testlərindən fərqlənir. Müvəffəqiyyət testləri mənimsənilmiş konkret bilik, bacarıq və vərdişlərin diaqnostikasını nəzərdə tutduğu halda, intelekt testləri analogiya, təsnifat, ümumiləşdirmə və s. kimi əqli əməliyyatların inkişaf səviyyəsini aşkara çıxarmağa yönəlmişdir. Müvəffəqiyyət testinə daxil edilmiş suallara cavab vermək üçün sınanılan şəxsin konkret faktları, tarixləri və s. bilməsi zəruridir. Yaxşı hafizəyə malik olan hazırlıqlı və çalışqan şagird çətinlik çəkmədən qoyulan sualın düzgün həll variantını müəyyənləşdirə bilər. Əgər şagirddə məntiqi mühakimə qabiliyyəti, təfəkkür əməliyyatları formalaşmamışdırsa, onun intellekt testləri üzərində iş zamanı bir sıra çətinliklərlə qarşılaşacağı təbiidir. Şagirdlərin ayrı-ayrı fənlər üzrə təlim müvəffəqiyyətinin diaqnostikasının keçirilməsində istifadə olunan müvəffəqiyyət testlərinə daxil edilən sual və tapşırıqlar ilbəil yeniləşdirilir və onları əsasən təcrübəli müəllimlər tərtib edirlər. Psixoloq isə bir mütəxəssis kimi bu testlərin tərtibində məsləhətçi-mütəxəssis kimi iştirak etməli, tələb olunan formal qaydalara tam əməl edilməsinə və testlərin yararlılığının və etibarlılığının təlim olunmasına zəmanət verilməlidir. Adətən ayrı-ayrı fənlərə aid müvəffəqiyyət testləri vahid test batareyalarında birləşdirilir və təlim müvəffəqiyyətinin həm ümumi nəticələri, həm də təmayülü

haqqında məlumat əldə etməyə imkan verir. Qeyd etmək lazımdır ki, müvəffəqiyyət testlərinin tərtib edilməsi digər testlərə nəzərən xeyli asan olsa da, onların tərtibində də bir sıra zəruri norma və qaydaların gözlənilməsi vacibdir. Belə ki, testdə qoyulan suallar aydın və dəqiq olmalı, proqram üzrə keçilmiş bütün təlim materiallarını əhatə etməli, əsas anlayışların, qaydaların, qanun və qanunauyğunluqların mənimsənilməsi və s. səviyyəsi haqqında etibarlı məlumatların əldə edilməsinə təminat yaratmalıdır. Müvəffəqiyyət testlərinin tərtibində bir sıra qaydalar ciddi surətdə nəzərə alınmalıdır:

- test ikinci dərəcəli terminlərlə, mexaniki hafizəyə əsaslanan detallarla yüklənilməməlidir;
- sual dəqiq, qısa və birmənalı olmalıdır;
- elmdə mübahisə doğuran məsələlər testə daxil edilməməlidir;
- sualın birinin cavabı digərinin cavabının tapılmasına səbəb olmamalıdır;
- hər bir tapşırığa aid cavab variantları düşündürücü, tapmaca xarakterindən uzaq olmalıdır;

Test tapşırıqları öz məntiqi strukturuna görə müxtəlif ola bilər:

- “nə”, “harada”, “kim”, “nə vaxt”? modeli üzrə faktoloji suallar;
- “nədən ötrü”, “niyə”, “nə üçün”? tipli funksional xarakterli suallar;
- “nədən”, “hansı hissələrdən ibarətdir”? tipli struktur xarakterli suallar;
- “anlayışı müəyyən edin...” tipli, konsentual xarakterli suallar;
- “buraxılmışları yerinə qoyun” tipli konsentual-assosiativ xarakterli suallar;
- “analogiyanı müəyyən edin” tipli konsentual-analitik xarakterli suallar;
- “sıranı davam etdirin” tipli tapşırıqlar;
- məna yaxınlığını müəyyən etmək üçün cavab variantında “hansı mənaca yaxındır?” tipli konsentual-semantik xarakterli tapşırıqlar;
- problemli tapşırıqlar;

Müvəffəqiyyət testləri **yazılı və şifahi** formada tətbiq olunur. **Yazılı müvəffəqiyyət testlərindən** xüsusi tapşırıqların yerinə yetirilməsi vasitəsilə

ümumi məlumatlılığın müəyyənləşdirilməsi məqsədilə istifadə olunur. Belə testlər bir qayda olaraq sifariş əsasında tərtib edilir, xüsusi blanklarda yerləşdirilən suallar seriyasından ibarət olur və dar peşə ixtisaslaşmasını əhatə edir. Hal-hazırda Respublikamızın ali və orta ixtisas məktəblərinə qəbul zamanı istifadə olunan müvəffəqiyyət testləri buna misal ola bilər. Yazılı müvəffəqiyyət testlərinin əsas üstünlüyü ondan ibarətdir ki, onlar eyni vaxtda yüzlərlə şəxsi test sınağından keçirməyə imkan verir.

Yazılı müvəffəqiyyət testlərindən fərqli olaraq, **şifahi testlərdə** suallar seriyası şifahi, müsahibə formasında qoyulur. Onlar tətbiq baxımından xeylı asandır, nəticələri qısa müddətdə müəyyənləşdirmək imkanı verir. Müasir psixodiaqnostika təcrübəsində gənclərin peşələr üzrə müxtəlif təhsil müəssisəslərində yerləşdirilməsi məqsədilə geniş istifadə olunur. Hal-hazırda inkişaf etmiş xarici ölkələrdə 250-dən çox peşə üzrə belə testlər işlənilib hazırlanmış və tətbiq olunmaqdadır. Peşə müvəffəqiyyəti testləri nəticələrinin obyektivliyi, tətbiqinin sadəliliyi baxımından əhəmiyyətlidir və müxtəlif peşə sahələrində çalışan işçilərin attestasiyasının, vakant yerlərin tutulması üçün müsabiqələrin keçirilməsində və ixtisas dərəcələrinin verilməsində artıq xeylı müddətdir ki, uğurla tətbiq olunur.

**Şəxsiyyət testləri-** şəxsiyyəti müxtəlif cəhətlərdən –motivlər, maraqlar, şəxsi yönəlişlik, emosional bazanın və c. öyrənilməsi baxımından əhəmiyyətli metodikalardan biridir. Praktik psixoloji xidmətin ayrı-ayrı sahələrində şəxsiyyət testlərinin müxtəlif növlərindən geniş istifadə olunur. Onların sırasında müxtəlif test-sorğular, xüsusilə, Ç.Oshudun **semantik differensial,** Q.Kellinin "**repertuar qəfəs texnikası"**nın, S.Y.Rubinşteynin **"vaxtın bölünməsi metodikası"**nın adlarını xüsusi qeyd etmək lazımdır. Qeyd olunan metodikalardan biri olan "**vaxtın bölünməsi metodikası**"nın mahiyyətinə diqqət yetirək.

Sınanılan şəxsə müxtəlif işlərin adı yazılmış siyahı verilir və xahiş olunur ki, o, 20 gün (480 saat) ərzində qeyd olunan işləri yerinə yetirməyə

neçə saat vaxt sərf etməli olduğunu qeyd etsin. Sonra təklif olunur ki, əgər o, sərbəst vaxt bölgüsü ayırmaq imkanında olarsa, həmin işlərin icrasına nə qədər vaxt ayırardı. Sınanılan şəxsə təqdim olunan siyahıda yuxu, nahar, nəqliyyat, iş, təhsil, ev işləri və qayğıları, mütaliə, gəzinti, oyun, istirahət və s. olmaqla 17 müxtəlif sahəyə aid işlərin adı qeyd olunmuşdur. Sorğu keçirildikdən sonra vaxtın faktiki və arzu olunan bölgüləri qarşılaşdırılaraq müqaisə olunur, uyğun və fərqli bölgülər əsasında şəxsiyyətin maraq və ustanovkaları, dərk olunan və dərk olunmayan təhrikləri haqqında nəticə çıxarılır.

Psixodiaqnostik xarakterli şəxsiyyət metodikalarında adətən suallar şəklində qoyulmuş sorğulardan geniş istifadə olunur. Belə sorğular şifahi və yazılı formada olur. Onlara verilən cavablar açıq və ya qapalı ola bilər. Cavabları açıq verilməli olan sorğulara sınanılan şəxslər sərbəst cavablar verməli olduqları halda, qapalı cavablandırılan sorğulara “hə”, “yox”, “deyə bilmərəm” və s. tipli hazır cavab variantlarından birini qeyd edirlər.

Belə sorğular vasitəsi ilə şəxsiyyətin xarakter əlamətləri, onun maraqları, iddia səviyyəsi, ətrafdakılara və özünə münasibəti, özünüqiymətləndirməsi, motivləşməsi və s. tədqiq edilir. Sorğu xarakterli metodikalar **proyektiv texnikalara** nəzərən asan və sadədir. Sorğular və anketlər şəxsiyyətin tərcümeyi halının, həyat və peşə yolunun öyrənilməsində, onun aktual həyati problemlərə, təlim prosesinə və ayrı-ayrı fənlərə münasibətinin öyrənilməsi və s. məqsədilə də tətbiq oluna bilər.

Psixodiaqnostika təcrübəsində daha geniş yayılmış və məşhur olan sorğular sırasında **R.Kettelin şəxsiyyət sorğusunun, patopsixoloji diaqnostik sorğunun, şəxsi və situativ həyəcanlılıq sorğusunun, E.Stronqun maraqlar sorğusunun** və s. adlarını qeyd etmək olar.

Şəxsiyyət keyfiyyətlərinin öyrənilməsinə aid istənilən sorğunun səciyyəvi cəhəti ondan ibarətdir ki, onlar yalnız yarandıqları müvafiq ölkənin mədəniyyətini əks etdirir. Ona görə də, onların başqa ölkələrdə tətbiqi xüsusi

ehtiyatlı yanaşma tələb edir. Belə sorğular dəqiq tərcümə edilməli, onların hər bir sualı müvafiq ölkənin mədəniyyətinə uyğunlaşdırılmalı və aprobasiya edilməlidir. Şəxsiyyət keyfiyyətlərinin öyrənilməsi zamanı tədqiqatın məqsədi və vəzifələri dəqiq müəyyənləşdirilməli, daha adekvat diaqnostik metodikaların seçilməsinə xüsusi diqqət yetirilməlidir.

**Proyektiv testlər**- şəxsiyyətin eksperimental yolla tədqiq edilməsinin sınanılmış və etibarlı vasitələrindən biridir. Onların vasitəsilə şəxsiyyətin maraqları və ustanovkaları, motivləri, sərvət meylləri, qorxu və həyəcanları, dərk edilməyən tələbatları və təhrikləri müayinə edilir. Proyektiv metodikalar vahid psixoloji mexanizmə-“**proyeksiyaya”** əsaslanır. Bu anlayışın mahiyyətini təhlil edən məşhur psixoanalitiklər Z.Freyd və K.Yunq qeyd edirdilər ki, proyeksiya zamanı insan özündə olan, xoşlamadığı xüsusiyyətləri qeyri-ixtiyari olaraq başqa adamlar üzərinə köçürməyə çalışır. Şüursuz təəssüratlar, insanın anadangəlmə dərk edilməyən həvəsləri obyektiv diaqnostika üçün asandır. Belə ki, onlar insanın sürətli sözlü assosiasiyalarının xarakterində, qeyri-ixtiyari olaraq işlətdiyi söz və ifadələrdə, gördüyü yuxuların məzmununda, fantaziyalarında, psixikanın müəyyən səhvlərində, çəkdiyi şəkillərin məzmununda və ya qeyri-müəyyən rəsmlərin qavranılmasında əks olunur. **Rorşahın məşhur “mürəkkəb ləkələri”** testi bu xüsusiyyətlərin öyrənilməsi sahəsində özünü doğrultmuş uğurlu sınaq hesab edilir. 1921-ci ildə Q.Rorşah tərəfindən yaradılmış bu test öz məşhurluğuna görə xarici psixodiaqnostik metodikalar içərisində aparıcı yerlərdən birini tutur. Bu test 5 ağ-qara, 5 rəngli simmetrik amorf təsvirlərdən, yəni Rorşah “ləkələri”ndən ibarətdir. Sınanılan şəxsə bu ləkələr olan vərəqlər göstərilir və onlardan bu ləkələrin nəyə bənzədiyi, ona nəyi xatırlatdığı soruşulur. Nəticədə, daxili aləmin məcmuyunun xaricə
aləmə köçürülməsi baş verir. Uşaq rəsmlərinin,
onların plastilindən düzəltdikləri əl işlərinin,
oyunlarının onların daxili aləmini əks etdirməsi

fikri psixoanalitiklərin çoxdan sübuta yetirdikləri arqumentlər kimi qiymətləndirilir. Proyektiv testlər içərisində Morqan və Myureyin 1935-ci ildə yaratdıqları **Tematik Appersepsiya Testi** öz məşhurluğuna görə xüsusi seçilir. Bu testin tətbiqi zamanı sınanılan şəxslərə o qədər də aydın olmayan, insan fiqurunu xatırladan və müxtəlif situasiyalar təsvir olunmuş şəkillər verilir. Sınanılan şəxs bu situasiyalara müvafiq hekayə tərtib etməlidir. Bu zaman sınanılan şəxs qeyri-ixtiyari olaraq diqqətini ayrı-ayrı detallara yönəldir, özünün qayğıları və yaşantılarını özündən asılı olmayaraq quraşdırdığı hekayənin qəhrəmanı üzərinə köçürür. Tematik Appersepsiya testinin yalnız yüksək ixtisas hazırlığına malik, bu metodikanı mənimsəmiş psixoloq tətbiq edə bilər. Proyektiv testlər içərisində **Rozentsbeyqin Furustrasiya testi** də olduqca məşhurdur. Bu testdə müxtəlif konfliktli situasiyalar təsvir olunmuşdur. Günahkar olan şəxsin söylədiyi fikrə qarşı sınanılan şəxs öz münasibətini bildirməlidir. Verilən cavablardan asılı olaraq sınanılan şəxsin frustrasiyaya, aqressivliyə meyllilik səviyyəsi, onun reaksiya tipi (aqressiv, özünü günahlandırma və ya məntiqə əsaslanan) müəyyənləşdirilir.

Şəkil

*Rorşah testindən nümumələr*

Uşaqların psixoloji diaqnostikası vasitəsilə onların psixoloji xüsusiyyətlərinin öyrənilməsində sözə əsaslanan metodlardan daha çox qrafik proyektiv metodikaların tətbiqi səmərəli nəticələr verir. Bu zaman uşağa ağac, ev, adam, ailə, heyvan şəkillərindən ixtiyari birini çəkmək tapşırığı verilir. Qrafik metodikalar zahirən asan və sadə görünsə də, aldadıcı xüsusiyyətlərə malikdir. Təcrübəli psixoloq uşaqların bu metodika üzrə çakdikləri rəsmlərin ayrı-ayrı hissələrinə diqqət yetirmədən, onları uşaqların həyatına aid vəziyyətlərin ümumi planında kompleks şəkildə təhlil edərək müvafiq nəticə çıxarır.

**5. Kriteriyalara əsaslanan testlər:**

Kriteriyalara əsaslanan testlər (latınca "kriterion" – mülahizə üçün vasitə deməkdir) psixoloji diaqnostikanın metodlarından biridir. Onların vasitəsilə hər hansı fəaiyyətlə (təlim, peşə və s.) məşğul olan şəxsin müəyyən qrup tapşırıqları yerinə yetirmə səviyyəsi öyrənilir. Bu testin əsas məqsədi sınanılan şəxs tərəfindən məsələlərin hansı qrupunun asan, hansının çətin həll edildiyini və yaxud həll edilə bilmədiyini aşkara çıxarmaqdır.

Buna uyğun olaraq, testlərin hazırlanması zamanı məntiqi-psixoloji təhlil əsasında konkret peşə və ya təlim qrupları üçün testlər seçərkən onların peşə təyinatlarının xüsusiyyətləri nəzərə alınır və diferensiallıq təmin olunur.

**6. Kreativ testlər:** ("latınca" "creatio"-yaradıcılıq) şəxsiyyətin yaradıcılıq qabiliyyətinin öyrənilməsi və qiymətləndirilməsi üçün metodikalar sistemidir. Qabiliyyət dedikdə qeyri-adi, yeni ideyalar yaratmaq, təfəkkürün ənənəvi sxemlərindən uzaqlaşmaq, problem situasiyanı orijinal yolla həll etmək bacarığı nəzərdə tutulur. Qabiliyyətlərin xüsusi tipi kreativlik adlanır. Bu testlər vasitəsi ilə şəxsiyyətin qabiliyyətlərinin, yaradıcı fəaliyyət amillərinin öyrənilməsi iki əsas istiqamət üzrə gedir:

1.Yaradıcı şəxsiyyətin fərdi xüsusiyyətləri və həyat təcrübəsinin təhlili;

2.Yaradıcı təfəkkürün və onun fəaliyyət məhsullarının təhlili(kreativlik amilləri- təfəkkürün itiliyi, aydınlığı, çevikliyi, problemlərə həssaslıq, orıjınallıq, onların həllində ixtiraçılıq ünsürləri və s.)

Kreativlik qabiliyyətinin intellektdən birbaşa asılılığı məsələsi hələlik psixologiya elmində öz həllini tapmamışdır. Kreativliyin ölçülməsi üçün etibarlı üsullar da hələlik mövcud deyildir. Belə ki, əgər kreativ testin(müvafiq tapşırığın) həlli insanda yaradıcı qabiliyyətlərin mövcudluğu üçün bir sübut kimi qəbul edilirsə, onun həll edilməməsi belə bir qabiliyyətin olmadığına sübut kimi qəbul edilməlidir. Bəzən elə olur ki, böyük kəşflər etmiş adamlar o qədər də dərin olmayan bir problemin ətrafında çaşıb qalırlar.

Yaş dəyişkənliyi, xarici təsir amilləri uğurlu yaradıcı fəaliyyət haqqında nikbin proqnozlar əldə etməyə imkan yaratmır.

İnsan maraqlarının bütün sahələrinə aid yaradıcı nailiyyətlər, hər bir konkret sahədə şəxsiyyətin xassə və qabiliyyətlərinin mürəkkəb əlaqələrini nəzərə almağı tələb edir.

Müasir dövrdə psixoloji biliklərə, onların praktik tətbiqinə geniş imkanlar açılmışdır. Ayrı-ayrı peşə və fəaliyyət sahələrində adamlara psixoloji biliklərin və məsləhətlərin verilməsi ilə əlaqədar psixologiyanın praktik istiqamətinin güclənməsi meylləri artmaqdadır. Bu istiqamətdə psixoloqlar apardıqları praktik işlərdə psixodiaqnostik metodlardan biri kimi testlərə xüsusilə böyük əhəmiyyət verirlər. Ümumiyyətlə, müasir praktik psixologiyada testlərin tətbiqi 3 əsas sahəni əhatə edir:

1.Təhsil sahəsi - təhsil müddətinin genişlənməsi və tədris proqramlarının mürəkkəbləşməsi ilə əlaqədar şagirdlərin mənimsəmə səviyyəsini aşkara çıxarmaq məqsədilə;

2. Peşə hazırlığı və peşə yönümü sahəsində yeniyetmə və gənclərin maraq və meyllərini aşkara çıxarmaq, onlara peşə məsləhətləri vermək məqsədilə;

3. Sosiodinamik proseslərin, həyat tempinin sürətlənməsi ilə əlaqədar insanların psixoloji yardıma tələbatlarını təmin etmək məqsədilə.

Yeri gəlmişkən, praktik psixologiyada geniş yayılmış xüsusi testlər haqqında məlumat vermək lazımdır (Sonrakı bölmələrdə biz bu testlərə geniş istinad edəcəyik).

**1. Ayzenk testi_**- geniş yayılmış intellektual testlərdən biridir. İnsanın ümumi intellektual inkişaf səviyyəsini, o cümlədən riyaziyyat və dilçilik sahəsində xüsusi qabiliyyətlərinin inkişaf səviyyəsini aşkara çıxarmaq məqsədilə tətbiq olunur.

2. **Amthauer testi**- üntellektual testlərdən biri olub, insanın əqli fəaliyyətinin müxtəlif aspektlərini, o cümlədən təfəkkür məntiqini, fikrən

hesablamaq bacarığını, obrazlı-məntiqi təfəkkürü, xüsusən diqqət və hafizənin xüsusiyyətlərini öyrənmək məqsədilə tətbiq olunur.

**3.Bennet testi** - xüsusi psixodiaqnostik testlərdən biridir. Şəxsiyyətin fiziki-texniki təfəkkürünün inkşaf səviyyəsini aşkara çıxarmaq və qiymətləndirmək məqsədilə tətbiq olunur.

**4. Burdon testi-** (Burdonun korrektura sınağı) insanın diqqətinin inkişaf səviyyəsini, xüsusilə onun məhsuldarlığı, paylanması, keçirilməsi kimi xüsusiyyətlərinin səviyyəsini müəyyən etmək üçün nəzərdə tutulmuşdur.

**5. Veksler testi**- (Vekslerə görə intellektin ölçülməsi şkalası) ümumi intellektual testlərdən biridir. Onun 5-15 yaşı əhatə edən uşaqlar üçün və 16-64 yaşı əhatə edən böyüklər üçün variantları vardır. İntellektin inkişaf səviyyəsini ölçmək və qiymətləndirmək üçün tətbiq olunur. Bu test əqlin ümumi məlumatlılıq, dərketmə, riyazi qabiliyyətlər, məntiqi düşünmək bacarığı, anlayışları müəyyən etmə, təsnif etmə, müqayisə, sözün mənasını izah etmə, şəkil, sxem və çertyoju anlama kimi intellektual keyfiyyətlərin aşkara çıxarıması məqsədilə tətbiq olunur. Bu test 12 subtestdən ibarətdir. Onlardan 6-sı Verbal (sözlü-) "Xəbərdar olma"", "Fərasət", "Hesab", "Analogiya", "Lüğət", "Rəqəmlərin təkrarı"), 6-sı isə qeyri-Verbal ("Çatışmayan detallar", "Ardıcıl şəkillər", "Koos kubikləri", "Fiqurların toplanması", "Kodlaşdırma"", "Labirint ") tapşırıqlar sistemindən ibarətdir.

**6. Kettel testi**- Şəxsiyyətin öyrənilməsinin ən geniş yayılmış və məşhur testlərindən biridir. Bu testin də uşaqlar və böyüklər üçün olmaqla 2 əsas variantı mövcuddur. Onun köməyi ilə şəxsiyyətin xarakterinin 16 əsas əlamətini öyrənmək mümküdür.

**7.Raven testi** - (Ravenin mütərəqqi matrisləri) obrazlı-məntiqi təfəkkürün inkişaf səviyyəsini müəyyən etmək üçün tətbiq olunan xüsusi intellektual testlərdən biridir.

**8. Rozentsbeyq testi** - (Rozentsbeyqin frustrasiya testi) şəxsiyyəti öyrənmə testlərindən biri olub, şəxsiyyətin xarakter əlamətlərindən biri kimi

aqressivliyin səviyyəsini aşkara çıxarıb qiymətləndirmək məqsədi daşıyır.

**9. Məktəb yetkiniyi testi** - (Kern-Yirosek testi) 3 əsas tapşırıqdan – subtestdən ibarətdir:

1. Əlin həssas hərəkətlərinin inkişaf səviyyəsinin müəyyənləşdirilməsi. uşağa ağ vərəqdə sxematik təsvir yolu ilə kişi fiquru çəkmək tapşırığı verilir.

2. Görmə-hərəki koordinasiyanın inkişaf səviyyəsinin müəyyən edilməsi ("O sup yedi." cümləsini verilmiş nümunə əsasında köçürmək).

3. Nümunəni təqlid etmək və təlim tarşırığını qəbul etmək bacarığının aşkar edilməsi (müəyyən qaydada düzülmüş 10 nöqtəyə əsasən nümunəyə uyğun fiquru çəkmək).

**10. Filippin testi** — (Uşağın məktəb təliminə fiziki yetkinliyini müəyyən etmək üçün tətbiq olunan qeyri-adi test.) uşaqların təlimə fiziki cəhətdən hazır olmasını aşkar etmək məqsədilə tətbiq olunur.Bu, intellektual göstəriciləri əks etdirmir. Belə hesab olunur ki, uşağın sağ əlinin barmaqları başın təpə hissəsini aşmaqla sol qulaq seyvanına çatarsa, o, məktəbdə fiziki yükə tab gətirə bilər. Əlbəttə, bu testi o qədər də ciddi və tam elmi kriteriyalara əsaslanan test hesab etmək olmaz.

**11. P.Y. Qalpernin diaqnostik metodikası** — (Əqli əməlliyyatların mərhələlər üzrə formalaşdırılması) təlimin ayrı-ayrı mərhələlərində dəqiq reqlamentləşdirmə əsasında pozulmuş və ya formalaşmamış əməliyyatların aşkara çıxarılması, onların aradan qaldırılması və korreksiya edilməsi üsullarından bəhs edən xüsusi metodik sistemdir. Yeni materialın öyrədilməsi zamanı tapşırıqların yerinə yetirilməsinin: əşyavi, verbal, bir əməliyyat səviyyəsindən digərinə keçilməsinin mümkünlüyü, ümumiləşdirmə, ixtisar və avtomatlaşdırma kimi səviyyələrinin qiymətləndirilməsinə xidmət edir. Aşağıda pedaqoji prosesin psixoloji təminatı ilə psixodiaqnostika arasındakı qarşılıqlı əlaqəni əks etdirən sxem verilmişdir (sxem 1). Bu metodika əsasında əldə olunan nəticələr psixokorreksiya işində etibarlı arqumentlər hesab olunur (Sonrakı bölmədə bu barədə ətraflı məlumat verilir).

**Pedaqoji prosesin psixoloji təminatı və psixodiaqnostika**




*Sxem 1*

Test metodu və onun  konkret metodikaları psixodiaqnostikanın ən vacib aləti funksiyasını yerinə yetirir. Test metodu psixoloji tədqiqatın digər metodlarından fərqli olaraq bir sıra spesifik əlmətlərə malikdir:

1. Adətən hər hansı elmi-tədqiqat metodu çoxsaylı konkret metodikalar əsasında həyata keçirilir. Test metodu üçün bu cəhət xüsusilə xarakterikdir- yüzlərlə müxtəlif metodikalar məhz testlər metodunu təmsil edir.

2. Testlər metodu daha optimal və konkret diaqnostik xarakteristikaya malikdir, qısa vaxt ərzində yüzlərlə insanın konkret psixoloji xarakteristikasını verməyə imkan yaradır.

3. Hər bir test metodikasının spesifik riyazi- statistik aparatı, qiymətləndirmə üçün normalar cədvəli olur .

4. Testlərin üstün cəhətlərindən biri onun proqnozlaşdırıcı xarakterə malik olmasıdır.

Bütün bunlarla yanaşı testlər metodnun müəyyən qüsurları da olmamış deyil:

1. Testlər metodu sınanılan şəxsin fəaliyyətinin nəticəsini izləməyə imkan versə də, onun fəaliyyət prosesində istinad etdiyi əməliyyat və onların xarakterini müəyyən etməyə imkan yaratmır.

2. Test metodu sınanılan şəxsin real imkanlarını, qabiliyyətlərini tam açmağa imkan vermir.

Uşaqlar üzərində psixodiaqnostik müayinəni həyata keçirən praktik psixoloq etik prinsiplərə dönmədən əməl etməlidir. O, diaqnostik müayinənin nəticələrinə görə uşağa dəymiş mümkün mənəvi ziyana, o cümlədən somatik və sinir-psixi sağlamlığa dəymiş ziyana görə tam peşə məhsuliyyəti daşıyır.

### 1.5.5. Kompyuter diaqnostikası məsələləri

Müasir dövrdə sürətlə inkişaf etməkdə olan yeni texnologiyalardan biri **informasiya-kommunikasiya texnologiyalarıdır**. Bu texnologiyaların əsas vasitəsi olan kompüterlər geniş aydivizual imkanlara malik olmaqla, psixoloji dioqnostikada yeni yanaşmalar bazasında yeni metodların işlənib hazırlanmasına stimul yaradır. İnformasiyanın operativ işlənməsini təmin edən müasir geniş imkanı kompyuterlər elm və texnikanın, ictimai praktikanın bütün sahələrinə dərindən nüfuz etmiş, yeni diaqnostik metodikaların işlənib hazırlanmasında böyük uğurların etibarlı təminatçısına çevrilmişdir. Kompyuter diaqnostikası informasiyanın sürətlə və operativ işlənilməsinə təminat verir, keçirilmiş sınaqların nəticələrinin olduqca qısa vaxt ərzində qiymətləndirilməsinə imkan yaradır. Test sınaqlarının keçirilməsi kompyuter proqramlarının irəlicədən standartlaşdırılmış şkala əsasında qiymətləndirilmiş, xalların və balların cəmlənməsi ilə tamamlanır. Sınanılan hər bir konkret şəxsin göstəriciləri yalnız düzgün yerinə yetirilmiş tapşırıqların miqdarına görə deyil, həm də tapşırığın çətinlik dərəcəsi və digər psixometrik xarakteristikasına əsaslanır. Yekun test göstəricisi ayrılıqda hər bir tapşırığa aid müvəffəqiyyətin çətinlik dərəcəsi nəzərə alınmaqla müəyyənləşdirilir.

Kompyuter testləşdirməsində testin yoxlanılmasına lüzum yoxdur, sınanılan şəxsin cavabları fənlərin mənimsənilmə səviyyəsi haqqında qərar qəbul etmək üçün kifayət qədər informasiya kompyuterin proqram-yaddaşında irəlicədən yerləşdirilir.

Müasir dövrdə kompyuter diaqnostikası əsasında müxtəlif sahələrdə uyğunlaşdırılmış kompyuter testlərindən istifadə olunur.

Dünyanın bir çox ölkələrində **uyğunlaşdırılmış kompyuter testlərindən** genişmiqyaslı layihə və proqramların həyata keçirilməsində, xüsusilə, sənaye, dövlət müəssisələrinə və orduya seçim zamanı istifadə olunur. Belə testlərdən istifadənin zəruriliyi və onun nəticələrinin etibarlılığı aşağıdakı arqumentlərlə əsaslandırılır:

- bu gün dünyada sürətlə artmaqda olan peşələrlə tanışlığın zəruriliyi;
- bu və ya digər peşə sahələrinə iddiaçı namizədlərin sayının artması ilə əlaqədar seçim texnologiyalarının təkmilləşdirilməsi zərurəti;
- müxtəlif peşə fəaliyyəti sahələrində tələb olunan uğurlu fəaliyyət üçün zəruri olan qabiliyyətlərin səviyyəsinin müəyyənləşdirilməsinə olan tələbat;

Hər hansı testin ən yaxşı müdafiəsi onun da daxil olduğu test bankında kompyuterin yaddaşında saxlanılan tapşırıqlar dəstidir.

Psixoloji testləşdirmənin nəticələrinin işlənməsində kompyuterin imkanlarından istifadə əhəmiyyətli səmərə verir. Kompyuter proqramlarına daxil edilmiş bir sıra testlərin nəticələri bu qurğunun yaddaşında bu və ya digər sözlü formulalar şəklində saxlanılır. Bu cür yanaşma həm şəxsiyyət, həm də qabiliyyət və intellekt testləri üçün xüsusilə səciyyəvidir. Kompyuterin imkanlarından istifadə etmədən diaqnostik müayinədən keçirilən şəxsin peşə maraqlarını və şəxsiyyət keyfiyyətlərini operativ qiymətləndirmək mümkün deyildir.

Müasir testlərin böyük əksəriyyəti, xüsusilə qrup şəklində tətbiq edilən testlər ilkin göstəricilərin maşınla hesablama metodikasına

uyğunlaşdırılmışdır. Qərb ölkələrində nəşr edilən bir sıra testlər istifadəçilər üçün zəruri avadanlıqdan istifadə xidməti təklif edir. Bunlara ilk növbədə kompyuter disklərini misal göstərmək olar ki, onların köməyi ilə istifadəçi öz fərdi kompyuterində nəticələri əldə edə bilər.

Qeyd etmək lazımdır ki, psixoloji diaqnostikanın bütün sahələrində kompyuter geniş  imkanlar açsa da, ondan düzgün istifadə olunmaması nəticələrin yanlışlığına səbəb ola bilər. Ona görə də, inkişaf etmiş Avropa ölkələrində və ABŞ-da kompyuterdən istifadə etməklə diaqnostikanın keçirilməsinə rəhbərlik üçün prinsiplər, təlimatlar işlənilib hazırlanır.

Bu gün kompyuter texnologiyalari diaqnostik müayinənin təkmilləşdirilməsinin  bir çox sahələrində yeni və geniş imkanlar açmaqdadir və onun böyük perespektivləri vardir. Son illər inkişaf etmiş bir sıra ölkələrdə ictimai həyatın və  praktikanın müxtəlif sahələrində (təhsil, səhiyyə, maliyyə, hüquq, hərb və s.) psixoloji diaqnostika üzrə yüksək ixtisas hazırlığına malik psixoloqlar çalışırlar. Bununla belə, bu mütəxəssislər diaqnostik praktikada psixometrik tələblərlə uzlaşmayan bir sıra xətalara yol verirlər. Onların sırasında:

- sınanılan şəxslərin təlimatlandırılmasına verilən qaydaların pozulmasını;
- test tapşırıqlarının yerinə yetirilməsində vaxt standartlarının gözlənilməməsini;
- şüurlu və ya şüursuz olaraq sınanılan şəxslərə müəyyən yönəldici köməyin (replika, jertlərlə yönlətmə, pıçıldama və s.) və bir çox digərləini göstərmək olar.

Diaqnostik testləşdirmə zamanı kompüterlərdən istifadə isə bu qüsurları aradan qaldırmağa və ya onları minimum həddə endirməyə imkan yaradır.

Təhsil sahəsində geniş yayılmış verbal metodikaların tətbiqi test tapşırıqları vasitəsilə sınanılan şəxslərdə analogiya, təsnifat, ümumiləşdirmə və s. kimi əqli əməliyyatların formalaşması səviyyəsini aşkar etməyə xidmət

edir. Belə testlərdə çox vaxt təfəkkürlə sıx bağlı olan məsələ həllinə lazımınca yer ayrılır, verilən variantlardan doğru olan birini seçmək təklif olunur. Əslində diaqnostika sınanılan şəxslərin intelektual imkanlarının aşkara çıxarılmasına yönəldilməlidir ki, burada da məsələ həllinin rolu şübhəsizdir. Psixoloqların qənaətinə görə, təhsil sahəsində hal-hazırda geniş tətbiq olunan ənənəvi test-sınaq texnologiyaları təkmilləşdirilməklə insan təfəkkürünün kompyuterin imkanları bazasında öyrənilməsinə gətirib çıxaracaqdır.

### 1.5.6. Məktəbəqədər yaşlı uşaqların psixoloji diaqnostikası üzrə işin sistemi

Respublikamızın təhsil sistemində praktik psixoloji xidmət işi hal-hazırda yalnız orta təhsil müəssisələrində həyata keçirilsə də, gələcəkdə məktəbəqədər uşaq tərbiyə müəssisələrində də təşkil olunacağı qarşıda duran vəzifələrdən biridir. Bir sıra xarici ölkələrdə, o cümlədən Rusiyada bu sahədə xeyli təcrübə mövcuddur. Məktəbəqədər uşaq tərbiyə müəssisələrində həyata keçilən psixoloji xidmətin mühüm istiqamətlərindən biri **psixodiaqnostikadır**. Bu istiqamətin əsas vəzifəsi məktəbəqədər yaş dövründə uşaqların psixoloji cəhətdən öyrənilməsindən ibarətdir. Məktəbəqədər müəssisələrdə psixoloji diaqnostikanın keçirilməsinin bir sıra özünəməxsus cəhətləri vardır. Onun **predmeti** məktəbəqədər yaşlı uşaqların yaş və fərdi psixoloji müayinəsinin keçirilməsindən və bu yolla uşaqların psixi inkişafında mümkün kənaraçıxma və geridəqalma hallarının korreksiyasını təşkil etməkdən ibarətdir. Qeyd olunan psixoloji problemlərin həlli üçün praktik psixoloq məktəbəqədər yaşlı uşaqlarla aparılacaq psixodiaqnostik işlərin məzmununa dərindən bələd olmalıdır. Praktik psixoloq ilk növbədə psixoloji təsir obyektlərini dəqiqləşdirməli, daha sonra, psixoloji təsirin əsas mövzusunu xarakterizə edən normativ yaş göstəricilərini müəyyənləşdirməlidir. Ona görə də, praktik psixoloqun əlində məktəbəqədər yaşlı

uşaqların yaş-normativ və fərdi inkişafının göstəriciləri olmalıdır. Həmin göstəricilərin gələcəkdə məktəbəqədər müəssisələrdə işləyəcək praktik uşaq psixoloqları üçün zəruriliyini və əhəmiyyətini nəzərə alaraq şərh etməyi lazım bilirik:

**Məktəbəqədər yaşlı uşaqların normativ-yaş və fərdi inkişafınının göstəriciləri**

**I blok. Psixoloji göstəricilər:**

1. Ətraf xarici aləmlə qarşılıqlı əlaqə üsulları (idraki, kommunikativ və refleksiv qabiliyyətlər);
2. Motivləşmə-təlabat sahəsi;
3. Sərvətlər sistemi (mənəvi mövqe);
4. Yaş kompitentliyi (fəaliyyətin uşaq növləri: produktiv və prosesual);
5. Psixomotor sfera;
6. Şəxsi-emosional xüsusiyyətlər;

**II blok. Psixofizioloji xüsusiyyətlərin göstəriciləri:**

**(temp, steniklik, uyğunlaşma qabiliyyəti, sinir sisteminin dinamikliyi və labilliyi )**

**III blok. Psixoloji –pedaqoji göstəricilər:**

1. Təlimə qabillik və təlim fəaliyyəti üçün ilkin zəmin;
2. Xüsusi qabiliyyətləri (musiqi, bədii, riyazi və s.);
3. Uğurları (bilik, bacarıq və vərdişlər);

**Məktəbəqədər tərbiyə müəssisəsinin kollektivinin uşaqlarla qarşılıqlı münasibətlərinin psixoloji-pedaqoji göstəricilərinin xüsusiy-yətləri.**

1. Yaş qrupunda qarşılıqlı münasibətlərin tərzinin göstəriciləri (yaşlı-uşaq);
2. Tərbiyə strategiyasının göstəriciləri (məktəbəqədər tərbiyə konsepsi-yasına uyğunluğu);

3. Təhsilləndirici strategiyanın göstəriciləri (məktəbəqədər təhsil proqramına uyğunluğu);
4. Pedaqoji kadrların (pedaqoji kollektivin üzvlərinin) psixoloji (şəxsi-emosional) sabitliyinin göstəriciləri;

**Ailədə qarşılıqlı münasibətlərin xüsusiyyətlərinə aid göstəricilər.**

1. Ailədə qarşılıqlı münasibətlərin tərzi və onların göstəriciləri;
2. Valideynlərin (onları əvəz edən şəxslərin) tərbiyə strategiyasının göstəriciləri;
3. Valideyn mövqeyinin (niqativ, pozitiv) aktuallığı və onun formalaşma səviyyəsinin göstəriciləri;
4. Uşağın valideynlərinin (onları əvəz edən şəxslərin) psixoloji (şəxsi-emosional) sabitliyinin göstəriciləri;

Məktəbəqədər yaşlı uşaqların psixoloji diaqnostikasının əsas **məqsədlərindən biri** onlarda psixi proseslərin (qavrayış, təfəkkür, nitq, hafizə, təxəyyül və s.) və şəxsiyyət keyfiyyətlərinin formalaşma səviyyəsinin diaqnostikasının keçirilməsindən ibarətdir. Məktəbəqədər müəssisələrdə çalışan uşaq psixoloqu bu məqsədlə müxtəlif diaqnostik metodikalar və vasitələrdən istifadə etməklə uşaqlarda inkişafın spesifik və qeyrı-spesifik göstəricilərini əldə edə bilər. Uşağın psixi inkişafının spesifik göstəricilərin müəyyənləşdirilməsində konkret metodik vasitələrdən istifadə olunduğu halda, qeyri-spesifik göstəricilərin aşkara çıxarılmasında ümumi xarakterli diaqnostik və metodik vasitələrdən - müşahidə və diaqnostik müayinələrdən istifadə olunur. Məsələn, "görmə sintezlərinə malik olma"nın xarakteristikası **"Perseptiv modelləşdirmə"** adlanan metodikanın spesifik göstəricisi olub, əyani-obrazlı təfəkkürün diaqnostikasına yönəlmişdir. **"Əməliyyatların ardıcıllığı və məqsədəyönəlmişliyi**" isə, "Piktoqram", "Korrektura sınağı" metodikalarının qeyri-spesifik, vasitəli göstəriciləridir. Burada "Piktoqram" metodikası vasitəli yaddasaxlamanın, "Korrektura sınağı" isə diqqətin davamlığının diaqnostikası zamanı tətbiq olunur.

Qeyd etmək lazımdır ki, məktəbəqədər yaşlı uşaqların psixi inkişafının diaqnostikasının keçirilməsində tətbiq olunan əsas müayinə-diaqnostik metodlar **müşahidə, eksperiment və testləşdirmədir**. Bunlarla yanaşı, məktəbəqədər müəssisələrdə uşaqların psixoloji diaqnostikasında yardımçı metodlar kimi **ankertləşdirmə, söhbət, yaradıcı fəaliyyət məhsullarının təhlili** kimi metodlardan da geniş istifadə olunur.

**Testləşdirmə** - psixoloji diaqnostikanın əsas aləti olub, standart xarakterli sual və məsələlərdən (testlərdən) və müəyyən qiymətləndirmə şkalasından ibarət olan metodik sistemdir. Testlərin tətbiqindən məqsəd şəxsiyyətin müəyyən psixi keyfiyyətlərinin (xüsusiyyətlərinin) ölçülməsi və qiymətləndirilməsidir. Standartlaşdırılmış testlər vasitəsilə adətən idrak prosesləri, başqa sözlə desək, intellektual inkişaf səviyyəsi ölçülür. Məktəbəqədər yaşlı uşaqların əqli inkişafının diaqnostikasında istifadə olunan, psixoloji-metodik təcrübədə geniş yayılmış testlərdən biri rus psixoloqu **L.A.Venqer** tərəfindən işlənilib hazırlanmış **standartlaşdırılmış testlər kompleksidir**. Həmin kompleksə daxil olan testlər məktəbəqədər yaşlı uşaqların qavrayış və təfəkkürünün inkişaf səviyyəsini müəyyənləşdirməyə imkan verən **"Perseptiv modelləşdirmə", "Sxematikləşdirmə", "Etalonla tutuşdurma", "Naxışların çəkilməsi"** və s. kimi metodikalardan ibarətdir.

Bağça yaşlı uşaqların yaş normalarına müvafiq psixi inkişaf səviyyələrini müəyyənləşdirmək üçün təcrübədə müxtəlif psixodiaqnostik metodikalardan istifadə olunur. Onların sırasında **"Balıq", Piramida", "Nümunəyə əsasən quraşdırma", "Üç istək", "Piktoqram", "Oyuqlar"** və s. adlarını qeyd etmək olar. Məktəbəqədər yaşlı uşaqların şəxsiyyət keyfiyyətlərini müayinə edilməsində müxtəlif proyektiv metodikaların uşaq variantlarından istifadənin də özünəməxsus üstünlükləri vardır. Bu testlər içərisində **"Uşaq appersepsiyası testi", "Rozentsbeyq testi", "Adam**

**şəkli", "Mövcud olmayan canlıların rəsmi", "Ailə rəsmi"** və b. xüsusi diaqnostik dəyərlərə malikdir.

Son dövrlər məktəbəqədər yaşlı uşaqların psixoloji müayinəsi təcrübəsində **"Seqen lövhələri", "Görmə imla", "Məişət əşyaları ilə iş", "Poçt qutusu", "Nümunəyə əsasən seçmə", "Ayzenk sorğusu"** (uşaq variantı), **"Qeyri-verbal təsnifat", "10 şəklin yadda saxlanılması", "Ardıcıl şəkillər", "Perseptiv modelləşdirmə", "Koos metodikası", "Sujetlı şəkillər" metodikası, "Raven matrisi"** və s. kimi metodikalar geniş yayılmışdır. Həmin metodikalarla işin təşkili qaydaları ilə kitabın "Təhsil sistemində psixoloji xidmətin tətbiqi məsələləri" adlanan II hissəsində tanış olmaq olar.

Altı yaşlı uşaqların məktəbə hazırlığının sınaqdan çıxarılmış əsas diaqnostik metodları aşağıdakılardır:

1. Korrektura sınağı;
2. Bender testi ( və ya Kern-Yerasek testi);
3. Naxışlı imla;
4. Piktoqram;
5. Mövcud olmayan canlılar;
6. Tapşırığı qəbul etmə testi;
7. Ümumi məlumatlılıq testi (Bine və ya Veksler variantı)
8. "Yadda saxla və çək" testi;
9. Məntiqi təfəkkürə aid müxtəlif testlər;
10. Uşaq Appersepsiya testi (1-2 şəkil).

Məktəbəqədər müəssisələrdə çalışan praktik uşaq psixoloqu qeyd olunan həmin metodikalarla yanaşı, uşaqların məktəbə hazırlığının diaqnostikası məqsədilə aşağıda göstərilən bir sıra əlavə metodikalardan da istifadə edə bilər:

1. Labirint (Veksler testi);
2. Koqan testi;

3. Torrens testləri;
4. Yunq testi;
5. “Ailə rəsmi” testi;
6. Ailənin mövcud olmayan canlılar şəklində rəsmi;
7. İmpulsivlik – refleksivliyin tədqiqi metodikası;
8. Lyuşer testi;
9. “Sehrli çubuq” və ya “Üç istək” testi;
10. Liri testi.

Məktəbəqədər müəssisələrdə çalışan praktik uşaq psixoloqunun iş metodları sırasında **müşahidə** özünəməxsus yer tutur. Psixoloji diaqnostikanın metodlarından biri olan müşahidə məqsədyönlü və planlı şəkildə izləmə yolu ilə uşaqların müəyyən şəraitdə psixi həyatında baş verən dəyişikliklərin öyrənilməsini nəzərdə tutur. Psixoloji təcrübədə müşahidə metodundan istifadə yolu ilə əldə edilmiş nəticələrin digər müayinə metodlarının nəticələri ilə müqayisəsi praktik psixoloqa uşaq haqqında obyektiv rəy tərtib etməyə imkan yaradır. Praktik uşaq psixoloqunun həyata keçirdiyi diaqnostik müayinə zamanı müşahidənin aparılmasına **ümumi tələblərlə** ( planlaşdırma, protokol tərtibi, nəticələrin təhlili və s.) yanaşı bir sıra **xüsusi tələblər** də verilir. Bu tələblər bir tərəfdən uşaqların yaş xüsusiyyətləri, digər tərəfdən isə məktəbəqədər tərbiyə müəssisəsində uşaqların həyat və fəaliyyətinin təşkili şəraiti ilə bağlıdır. Ona görə də, məktəbəqədər müəssisələrdə işləyən psixoloq müşahidənin təşkilinə verilən aşağıdakı xüsusi tələbləri diqqət mərkəzində saxlamalıdır:

- müşahidə uşağın təbii həyat və fəaliyyəti prosesində aparılmalıdır;
- müşahidə uşaq fəaliyyətinin konkret bir formasına yönəlməlidir;
- müşahidə xüsusi təşkil edilmiş fəaliyyət prosesində keçirilməlidir;

Psixoloji müayinə məqsədilə aparılan müşahidələr uşağın təbii həyat və fəaliyyət prosesini əhatə etməlidir. Bu uşağın yemək, yuxu, gəzinti,

oyun və s. kimi təbii fəaliyyət formalarını nəzərdə tutur. Müşahidənin bu növü uşağın təbii davranışının öyrənilməsinə yönəldiyi üçün o, psixoloqa uşağın fərdi xüsusiyyətləri haqqında məlumat əldə etməyə imkan verir. Yönəldici fəaliyyət prosesində isə, əksinə, müşahidə uşağın yaşlılarla qarşılıqlı münasibətləri kontekstini əhatə edir.

Xüsusi təşkil edilmiş müşahidələr uşağın həyatının idrak fəaliyyəti ilə bağlı (nitq inkişafı, sadə riyazı təsəvvürlərin formalaşması, savad təlimi, ətraf ələmlə tanışlıq) və estetik, əmək, fiziki tərbiyə istiqamətli (musiqi, təsviri fəaliyyət, bədən tərbiyəsi və s.) müxtəlif məşğələlərin gedişində aparılır.

Praktik uşaq psixoloqu öz fəaliyyətində həm müşahidə, həm bələdləşmə, həm də müşayətedici funksiyaları yerinə yetirir. Bu o deməkdir ki, müşahidənin nəticələri bir tərəfdən psixoloqu test sınaqlarını keçirməyə yönəldir, digər tərəfdən keçirilmiş test sınaqlarının nəticələrini təsdiq və inkar etməyə imkan verir.

Məktəbəqədər yaşlı uşaqların psixoloji müayinəsində istifadə olunan metodların obyektivliyini təmin etmək üçün bir sıra vasitələrdən istifadə olunur. Həmin vasitələrə **müşahidə protokolları və diaqnostik xəritələr** aiddir.

Müşahidə protokollarında uşğın davranış reyaksiyaları, özünü necə aparması, qarşılıqlı münasibət formaları, fəaliyyət növü və psixi hadısənin kəmiyyət və keyfiyyət göstəricilərinin dinamikası qeyd olunur. Diaqnostik xəritədə isə qeydə alınmış diaqnostik göstəricilər əks olunur. Qiymətləndirmə vasitəsi kimi müxtəlif psixi hadısələrin yaş normasına uyğun etalonlarından və diaqnostik-normativ göstəricilərindən istifadə olunur.

**Anketləşdirmə** - verbal kommunikasiya (yazılı nitq) əsasında sosial-psixoloji və psixoloji-pedaqoji məlimat əldə etməyə imkan verən diaqnostik metodlardan biridir.

Məktəbəqədər müəssisələrdə anket sorğusu yalnız müəssisənin yaşlı kontingenti, yəni valideynlər, tərbiyəçilər və pedaqoqlarla keçirilir. Bu metodun əsas diaqnostik vəzifəsi qeyd olunan qrupa aid yaşlılardan bioqrafik məlumatların, ailə üzvlərinin sərvət meylləri, sosial yönəlişlikləri, şəxsiyyət keyfiyyətləri haqqında məlumatların toplanılmasıdan, həmçinin onların valideynlik və pedaqoji mövqelərinin müəyyənləşdirilməsindən ibarətdir.

Tərbiyəçilər və valideynlər üçün anketlər "hə" və ya "yox" tipli cavablandırılan, bəzən isə bir neçə cavab variantı təqdim olunan suallardan ibarət olur. Bəzi hallarda tərbiyəçi, pedaqoq və valideynlərdən daha geniş məlumat toplamaq zərurəti yarandıqda şifahi ankertləşdirmə (müsahibə) keçirmək tövsiyə olunur. Nümunə olaraq həm tərbiyəçilər, həm də valideynlər üçün nümunəvi anket suallarının məzmunu ilə tanış olaq:

**I. Tərbiyəçilər üçün anket sualları:**

- uşağın adı və soyadı;
- doğulduğu il, ay və gün;
- ailə tərkibi;
- ailədə uşaqların sayı;
- valideynlərin təhsili;
- ailənin maddi vəziyyəti;
- ailənin mənzil şəraiti;
- uşaq hansı yaşdan bağçaya gedir;
- uşağı adətən bağçaya kim aparır;
- uşaq daha çox hansı fəaliyyəti uğurla yerinə yetirir;
- uşağın davranışında sizi ən çox nə narahat edir;
- uşağın qrupdakı mövqeyi necədir?

Qeydlər:

**II. Valideynlər üçün anket sualları:**

- uşağın cinsi;
- uşağın təvəllüdü;

- doğulduğu yer;
- sizin təhsiliniz;
- dini etiqadınız;
- sizin valideynlərinizin ailə tərkibi;
- sizin ailə tərkibiniz;
- əsas məşğuliyyətininz və iş yeriniz;
- vəzifəniz;
- uşağın saxlanılmasına ayda nə qədər pul xərcləyirsiniz?;
- sizin fikrinizcə, əslində nə qədər xərcləmək tələb olunur?;
- mənzilinizdə ayrıca uşaq otağı varmı?;
- uşağa ayrıca otaq lazımdırmı?;
- Bakıda neçə il yaşamısınız?;
- sizin xroniki xəstəliyiniz varmı?;
- hansı dispanser qeydiyyatındasınız;
- siz belə hesab edirsinizmi ki, ərinizin (arvadınızın) xroniki xəstəliyi var;
- dövlətdən müavinət alırsınızmı?;
- hər hansı ictimai təşkilatın işində iştirak edirsinizmi?;
- uşaq cəlb olunduğu bağçaya necə münasibət bəsləyir?;
- uşağınız hansı oyuncaqlarla daha çox maraqlanır?;
- evinizdə oyuncaqlar üçün xüsusi guşə varmı?;
- uşaq ailədə daha çox kiminlə ünsiyyətdə olur?;
- uşağa kim daha çox oyuncaq alır?;
- siz uşağa kitablar oxuyursunuzmu?;
- ailədə uşaqla bağlı problemlərin həllində ziddiyyətlər varmı?;
- uşağa daha çox nə ilə təsir edirsiniz?;
- uşağa adətən ailə üzvlərindən kim təsir göstərir?;
- uşaq daha çox kimə üz tutub şikayətlənir?;

- uşaq öz təəssüratlarını daha çox kiminlə bölüşür?;
- uşaq ailədə hansı işləri yerinə yetirir?;
- uşağın özünəxidmət vərdişləri hansılardır?;
- uşaq hansı məşğələlərə üstünlük verir?;
- bağçada uşağın dostları varmı?;
- ailədə uşağın dostu kimdir?;
- uşağın maktəbə hazırlığı harada həyata keçirilir?;
- uşağınızın hansı tipli və ya təmayüllü məktəbdə oxumasını istərdiniz?;

Məktəbəqədər uşaq tərbiyə müəssisələrində işləyən praktik psixoloqun iş metodlarından biri də **söhbət** metodudur. Söhbət verbal (sözlü) ünsiyyət əsasında məlumat əldə edilməsini təmin edən diaqnostik metodlardan biridir. O, anket metodundan fərqli olaraq şifahi və sərbəst formada tətbiq edilən, ciddi reqlament qaydalarının olması ilə fərqlənən bir müayinə üsuludur. Söhbət metodunun tətbiqində başlıca məqsəd diaqnostik müayinə obyekti olan uşaq haqqında psixoloji-pedaqoji anamnez (ilkin məlumatlar) toplamaqdan ibarətdir. Söhbətin keçirilməsi zamanı uşaqla əlaqə yaradılması, onun əməkdaşlığa cəlb olunması təmin edilmiş olur. Uşaq bağçası psixoloqu öz fəaliyyətində söhbət metodunun iki əsas növündən istifadə edir:

**Sərbəst söhbət** (mövzu və forma baxımından reqlamentləşməmiş); **direktiv söhbət** (strategiya və mövzu baxımından reqlamentləşmiş). Söhbətin keçirilmə taktikası (qaydaları və metodik vasitələri), həmçinin sualların qoyuluşu söhbətin növündən asılı olmayaraq çevik olmalıdır. Bu, kiçik yaşlı uşaqların yaş xüsusiyyətləri ilə bağlı olub, təşkilati xarakterli çətinliklərin aradan qaldırılması zərurəti ilə bağlıdır. Psixoloq məqsəddən asılı olaraq  uşaqla müxtəlif mövzularda söhbətlər apara bilər. Nümunə olaraq bağça yaşlı uşaq haqqında ümumi məlumat əldə etmək, onun ailə tərbiyəsi vəziyyəti ilə bağlı keçirilən söhbətlərin birində qoyulan suallara diqqət yetirək.

**Uşağa verilən suallar:**

- sənin adın nədir?
- sənin bacın və qardaşın varmı? Onlar səndən böyükdür, yoxsa kiçik?
- nənən, baban varmı?
- evdə sənin hansı oyuncaqların var?
- sən kiminlə gəzintiyə getməyi xoşlayırsan?
- sənə oyuncaqları kim alır?
- evdə olarkən ata-ananı incidirsənmi?
- sən evdə özünü necə aparırsan?
- pis iş görəndə ata-anan səni necə cəzalandırır?
- ailədə sən ən çox kimin sözünə baxırsan?
- siz evinizdə gül saxlayırsınızmı? Onları kim suvarır?
- səni incidəndə ən çox kimə şikayət edirsən?
- ev heyvanı saxlayırsınızmı? Onlara kim qulluq edir?
- evinizdə televizor, kompyuter varmı?
- ən çox hansı televiziya verlişlərinə baxmağı sevirsən?
- ən sevimli oyuncaqların hansılardır?
- qonşuluqda sənin ən yaxın dostların kimdir? və c.

**Uşaq yaradıcılıq məhsullarının təhlili** diaqnostik metodlardan biri kimi uşaq fəaliyyətinin məhsuldar növlərinin nəticələrini qiymətləndirmək imkanı verir. Bu metodun tətbiqindən məqsəd uşağın müvafiq yaş dövrünə uyğunluğunu və onun inkişaf səviyyəsini müəyyən etməkdən ibarətdir. Psixoloq, bağça yaşlı uşaqların fəaliyyət məhsulları olan rəsmləri, naxışları, fiqurları, kompozisiyaları, öyrəndikləri şer və nağılları, mahnıları və s. təhlil etməklə, onların proqram tələblərinə və yaş normalarına uyğunluğunu müəyyənləşdirir. Bu metodu tətbiq etməklə psixoloq uşağın müstəqil şəkildə yaratdığı fəaliyyət məhsullarını təhlil edib qiymətləndirməlidir. Uşaq

yaradıcılıq məhsullarının təhlili metodu bəzən sərbəst metod kimi tətbiq edilsədə, o, əsasən yardımçı diaqnostik metod kimi nəzərdən keçirilir.

Uşağın **kompleks diaqnostikası** peşəkar psixoloji müayinəyə əsaslanır. Bu müayinə aşağıdakı beş əsas mərhələdən ibarətdir:

1. **Hazırlıq mərhələsi:**
   - uşağa aid xüsusi sənədlərin təhlili və tibb işçiləri ilə söhbət əsasında tibbi anamnezin tərtib edilməsi;
   - valideynlər arasında anket sorğusu keçirməklə uşağın həyatına aid sosial-məişət məzmunlu xarakteristikaların tərtib edilməsi;
   - tərbiyəçilər, pedaqoqlar və valideynlər arasında anket sorğuları və söhbətlər keçirməklə, pedaqoji anamnezin (xarakteristika-ların) tərtib edilməsi;
   - valideynlər və uşağın tərbiyəsində təsirli rol oynayan digər yaşlılarla söhbət keçirməklə ailə haqqında anamnezin toplanması;
2. **Uyğunlaşdırıcı mərhələ:**
   - müşahidə, söhbət, yaradıcı fəaliyyət məhsullarının öyrənilməsi vasitəsilə uşaqla ilkin tanışlıq;
3. **Əsas mərhələ:**
   - testləşdirmə;
4. **İnterpretasiya: (fərziyyənin nəticə ilə tutuşdurulması):**
   - diaqnostik nəticələri təhlil etmək və yenidən işləmək yolu ilə uşaq haqqında psixoloji rəyin tərtib edilməsi;
5. **Yekunlaşdırıcı mərhələ:**
   - müayinənin nəticələrinin tərbiyəçilər və valideynlərlə söhbət əsasında dəqiqləşdirilməsi;
   - valideynlər (tərbiyəçilər) üçün şifahi və yazılı tövsiyələrin hazırlanması;

Məktəbəqədər yaşlı uşaqların psixoloji müayinəsi zamanı valideynlərin bu müayinənin hazırlıq mərhələsində psixoloqla birgə iştirak etməsi zəruridir. Bu bir yandan uşaq üzərində aparılan müayinəyə valideynin rəsmi razılığını təmin edir, digər tərəfdən müayinənin nəticələrinə onlarda yarana biləcək şübhəni aradan qaldırmış olur. Müayinənin sonunda əldə edilmiş nəticələrdən aslı olaraq psixoloq valıdeynlərlə yekun səhbəti aparır, müvafiq tövsiyələr verir. Yekun söhbətin keçirilməsi zamanı uşağın iştirakı məsləhət görülmür. Psixoloq keçirilmiş testləşdirmənin nəticələrinə istinad edərək çox ehtiyatla uşağın psixoloji portreti haqqında valideynə ümidverici məlumatlar və faydalı tövsiyələr verir. Uşağın psixi inkişafında geridəqalma, ləngimə və psixi pozğunluqların simptomları müşahidə olunsa belə, o, belə qiymətləndirici mühakimələrə çox ehtiyatla yanaşmalıdır. Psixoloqun valideynlərə verdiyi **korreksiyaedici, inkişafetdirici** və **profilaktik** xarakterli tövsiyələr psixoloji cəhətdən əsaslandırılmış olmalıdır. Ailə üzvlərinin uşağa qarşı məhsuliyyətsiz və ya cinayət xarakterli münasibəti müşahidə olunduqda, bunun uşağın psixi sağlamlığına vurduğu zərbə haqqında psixoloq öz ciddi rəyini həmin valideynlərə bildirməli, lazım gəldikdə səlahiyyətli orqanlara da bu barədə məlumat verməli, uşağın hüquq və mənafelərinin müdafiəçisi olduğunu sübut etməlidir.

Üç yaşadək uşaqlarda əyani-əməli təfəkkür forması üstünlük təşkil etdiyinə görə, onların müayinəsi zamanı “**sistemləşdirmə”** xarakterli diaqnostik metodikalardan istifadə etmək məqsədəuyğun deyildir. 4-5 yaşlı uşaqlarda verbal ünsiyyət növü müəyyən səviyyədə formalaşdığından onlarla keçirilən diaqnostika işində anlayışlara aid diferensial sorğulardan istifadə etmək mümkündür.

Məktəbəqədər yaşlı uşaqların psixoloji müayinəsi məqsədilə keçirilən testləşdirmədə aşağıdakı qaydalara əməl etmək zəruridir:

- müayinə zamanı psixoloqun uşaqla üz-üzə ünsiyyətinin təmin olunması;

- testləşdirmənin keçirilməsi üçün uşaq fəaliyyətinin müxtəlif növlərinin (“oyun”, “rəsmetmə”, “ünsiyyət” və s) sərbəst seçilməsi;
- vaxt normasına əməl edilməsi (testləşdirmə uşağın yaşından asılı olaraq 30 dəqiqədən 1 saata qədər davam edə bilər);
- intelektual yükün normalaşdırılması. Bu tələb diaqnostik müayinə kompleksində intelektual testlərin normalaşdırılmasını nəzərdə tutur. Bir diaqnostik müayinə zamanı 3 testdən artıq verilə bilməz. Onlardan biri verbal testdirsə, digəri qeyri-verbal test olmalıdır.
- şəxsi-emosional yükün normalaşdırılması. Bu tələb diaqnostik müayinə kompleksində proyektiv testlərin sayının normaya uyğunluğunu nəzərdə tutur.
- eyni məqsədlə keçirilən diaqnostik müayinə zamanı müxtəlif metodikalardan istifadə mümkündür. Məsələn, testləşdirmə, anket sorğusu, müşahidə və söhbət.

### 1.5.7. Psixi inkişafda geridəqalmanın diaqnostikası

Məktəb təhsilinin keyfiyyətcə yaxşılaşdırılmasına tələbkarlığın artdığı müasir dövrdə şagirdlərin **inkişaf qüsurlarının** öyrənilməsi və onlara diferaensial yanaşmanın zəruliliyi tələbi getdikcə artır. Psixi inkişaf qüsurlarının müəyyən edilməsi üçün ilk növbədə **psixi inkişafın yaş normasının** müəyyən edilməsi, onun yalnız kəmiyyətcə deyil, həm də keyfiyyət göstəriciləri baxımından müvafiq yaş dövrünün sərhədlərinə uyğunluğunun aşkar edilməsi mühüm əhəmiyyətə malikdir. İnkişaf anomaliyaları olan uşaqların xüsusiyyətlərinin və potensial imkanlarının müəyyənləşdirilməsi, inkişaf qüsurlarının aradan qaldırılması məqsədilə **inkişafetdirici korreksiya proqramlarının** işlənilib hazırlanması və həyata keçirilməsi praktik psixoloqun qarşısında duran aktual problemlərdən biridir. Psixoloji tədqiqatlar ümumtəhsil məktəblərində təlimdə geridəqalan

şagirdlərin kütləvi müayinəsi vasitəsilə müəyyən etmişdir ki, belə şagirdlərin təxminən yarısı psixi inkişafda geridə qalan şagirdlərin hesabınadır.

**Psixi inkişafda geridəqalma** inkişaf anomaliyası olub, hər şeydən əvvəl özünü məktəb təliminin ilkin mərhələlərində şagirdlərin bilik, bacarıq və vərdişləri mənimsəməsində, təlim tələblərinə uyğunlaşmasındakı çətinliklərdə özünü biruzə verir. Bu çətinliklərin səbəblərinin elmi-psixoloji təhlili psixi inkişafda geridəqalan uşaqlar qrupunun **kliniki-fizioloji** və **pedaqoji-psixoloji** xüsusiyyətlər baxımdan normal inkişafda olan və əqli cəhətdən geridəqalan uşaqlardan fərqli xüsusiyyətlərini müəyyənləşdirməyə gətirib çıxarmışdır.

Psixi inkişafda geridəqalmanın əsas forması **psixofiziki infantilizm** adlanır. Uşaqların psixi inkişafında qeyri-yetkinliyin bu forması əsasən keçici, müvəqqəti olub, təlim prosesi vasitəsilə kompensasiya olunur. Psixi inkişafda geridəqalmanın ən geniş formalarından biri serebral-üzvü mənşəlidir. Bu cür psixi pozğunluq beyin fəaliyyətinin minimal funksional çatışmazlığı ilə şərtlənmiş olduğundan davamlı xarakter daşıyır. Psixi inkişafda geridəqalma hallarının klinik təhlili göstərmişdir ki, psixofiziki infantilizmin yaranmasının aparıcı amili uşağın emosional-iradi sferasındakı intellektual qeyri-yetkinliyi ilə şərtlənən bəzi qüsurlardır.

İnkişafda pozğunluq bir sıra səbəblərlə bağlı olaraq meydana çıxa bilər:

- sensor orqanların, hərəkət aparatının və ya mərkəzi sinir sisteminin üzvi zədələnmələri (məsələn, eşitmə qavrayışının çatışmazlığı, karlıq). Bu amillər aşağıdakı ilkin pozğunluqların yaranmasına səbəb olur: tədricən digər pozğunluqların meydana gəlməsi, şifahi nitqin inkişafdan qalması, əqli qabiliyyətlərin və məntiqi təfəkkürün formalaşma prosesindən qalması və nəticədə şəxsiyyətin inkişafında qüsurların yaranması;

- beynin analitik-sintetik fəaliyyətindəki pozğunluqların məcmuyu kimi müxtəlif səviyyəli əqli gerilik: yüngül forma (debillik), ağır forma (imbetsillik və idiotiya);
- uşağın şəxsi inkişafda geridə qalmasına səbəb olan müxtəlif amillər: toksikoz və ya qidalanmanın pozulması, hamiləlik dövründə ananın keçirdiyi yolxucu xəstəliklər, dölün inkişafdan qalması, yüngül doğuş travmaları, dispensiya (mədənin fəaliyyətinin pozulması), dizenteriya, həyatın ilk mərhələlərində uşağın keçirdiyi xəstəliklər, uşağın yaşlılarla ünsiyyətinin çatışmazlığı, uşaq yaşlarında psixotravmalar, tez-tez baş verən xroniki xəstəliklər və zəiflik.

Tibbi və patopsixoloji ədəbiyyatlarda intellektual pozğunluq nəticəsində yaranan oliqofreniyanın debillik imbetsillik və idotiya olmaqla üç əsas forması fərqləndirilir.

**Debillik-** anadangəlmə oliqofreniyanın yüngül və daha geniş formasıdır. Onun dərin, mülayim, ifadəli və yüngül formaları mövcuddur. Debilliyin erkən uşaq yaşı dövründə bir sıra kliniki əlamətləri özünü göstərir. Belə uşaqlarda bədən quruluşunun uyğunsuzluğu, hərəki koordinasiyanın zəifliyi və sifətin mənasız görkəmi diqqəti cəlb edir. Debil uşaqlar gec, təxminən 3-5 yaşlarında yeriməyə və danışmağa başlayır, onların nitqi müvafiq yaş normasından geri qalmış olur. Belə uşaqlar çox vaxt küt və fərsiz olur, ən sadə uşaq oyunlarının mənasını anlamırlar. Onlarda psixi inkişaf tempi aşağı olur. Çox az hallarda tək-tək debillər onlar üçün müvafiq olan yardımçı internat məktəbləri formal olaraq bitirməyə nail olsalar da, əslində onların böyük əksəriyyəti 2-4-cü siniflərlərədək təhsil ala bilirlər.

Debillər müstəqil fəaliyyətin tam subyekti kimi mütəşəkkil fəaliyyət qabiliyyətinə malik olmur, daim qulluğa ehtiyac duyurlar.

Debilliyin daha yüngül forması nisbətən gec aşkar edilir. Belə xəstələr bəzən ümumtəhsil məktəblərinə daxil ola bilir, lakin tez bir vaxtda onların hətta ən yüngül dərs materialını qavramağa qabil olmadıqları aşkar edilir.

Onların dərs proqramını mənimsəməsi üçün görülən pedaqoji tədbirlər, müəllimlərin səyi müsbət nəticə vermir. Bir qayda olaraq belə xəstələr 2-3-cü sinifdən sonra kəmağıllar üçün olan yardımçı məktəbə və ya bu tipli internat məktəblərinə keçirilirlər. Bu tipli məktəblərdə xüsusi  təhsil mütodlarının tətbiq edilməsi sayəsində xəstə uşaqlar zəif dərəcədə olsa da, yazmaq, oxumaq, hesablamaq vərdişinə, hətta bəzi cüzi biliklərə yiyələnməyə nail olurlar. Belə uşaqlar əşyalar və hadisələr arasındakı  fərqi yalnız xarici əlamətlərinə görə müəyyən edə bilirlər.

Onlar atalar  sözlərinin, zərb məsələlərin məcazi mənasını anlamırlar.

Fəal, məqsədyönlü diqqətin zəifliyi meydana çıxır, xətsələrin diqqəti tez yayınır, müəyyən bir şey, hətta maraqlı olan söhbətlər, əhvalat üzərində təsbit edilmir. Onların nitqi söz kasadlığı ilə xarakterizə olunur.

Yardımçı məktəblərdə xəstələr bəzən adi istehsalat vərdişlərinə, stereotip və mexaniki əməyə yiyələnə bilirlər. Belə olan halda onlar primitiv əmək  qabiliyyətinə malik olmaqla müvafiq müəssisədə işləyə bilirlər.

Debillər yardımçı məktəbi bitirməyə nail olsalar da, onlar bilik ehtiyyatlarının kasadlığı, görüş səhnəsinin məhdudluğu, müstəqilliyin və təşəbbüskarlığın olmaması, psixi proseslərin ləngliyi və inertliyi ilə fərqlənirlər. Onlar üçün yeni şəraitə, vərdiş etmədikləri rejimə düşmək həll edilməz problem yaradır.

Ağıl zəifliyinin daha   yüngül ifadəsi xəstələrdə çox gec və adətən onlar üçün vərdiş etdikləri həyat stereotipinin dəyişilməsi ilə əlaqədar aşkar edilir. Onların bir hissəsi Texniki peşə məktəbini bitirməyə müvəffəq olur. Belə xəstələrdə debillik əlamətləri təhsili davam etdirmək istədikdə, ordu sıralarına çağırıldıqda və s. səbəblə  bağlı tibbi komissiyadan keçdikdə aşkar edilir.

Debil xəstələrin xarakteroloji xüsusiyyətləri müxtəlif dərəcədə ifadəli iki əsas variant arasında səciyyələnir; bir tərəfdən -son dərəcə oyanıqlıq, qıcıqlanma, qarayaxalıq, konfliktlik və hiperseksuallıq, digər tərəfdən isə tormozlanma, süstlük, apatiya və ətrafa qarşı etinasızlıq. Çox vaxt qeyd

edilən təzahürlər mülayim tərzdə ifadə edilirlər, bəzi hallarda isə debil şəxslərin xarakteroloji xüsusiyyətləri psixopatiyalara xas olan patologiyanın müxtəlif variantlarını xatırladırlar.

Debillərin sağlam adamlardan fərqi ondadır ki, bu xəstələr ətrafı dərk etmək ehtiyacına malik olmurlar, onlarda hər şeyə maraq yaransa da, hər şeyi öyrənmək, bilmək həvəsi olmur.

İradi sferanın ümumi xüsusiyyəti onlarda səviyyəsiz maraq və məqsədin impulsiv davranışla, təlqinliyin yüksəlməsi və öcəşkənliklə əlaqələnməsindən ibarət olur.

Buna baxmayaraq yüngül debillik dərəcəsində olan şəxslər öz hərəkətlərini korreksiya etmək və onların nəticələrini qabaqcadan görmək imkanına malik olurlar.

Müşahidələr göstərir ki, eyni psixi qüsur səviyyəsinə malik olan debil xəstələrin bəziləri ətrafdakılara qarşı xeyirxah münasibəti, sadiqliyi, qulluq göstərmə təşəbbüsü, işdə və məişətdə çalışqanlığı və s. pozitiv əməlləri ilə fərqlənirlər. Onlar hətta evlənib ailə qurur, qayğıkeş ər, valideyn olurlar. Qohumlarının, yaxın adamlarının xeyir-şər işlərində fəal iştirak edirlər.

Bununla yanaşı, onu da göstərmək lazımdır ki, debil xəstələrin çox hissəsi şəxsi qiymətini şişirtməyə, qabiliyyətini böyütməyə çox meylli olurlar. Onların əksinə olaraq digər qrup xəstələr öz qüsurlarını başa düşərək utanırlar, eyblərini gizlətməyə, onu nə ilə isə kompensasiya etməyə çalışırlar.

Digər tərəfdən debil xəstələrin şəxsiyyətinin əlverişsiz mikrososial şəraitdə formalaşması, onlarda təhsilə və əməyə, eləcə də birgəyaşayış normalarına qarşı neqativ münasibətlərin yaranmasına səbəb olur. Belə xəstələr delilivet (cinayətkar) davranışlı xəstələr dəstəsinə asanlıqla cəlb edilir, siqaret şəkmək (bəzən narkotik vasitələr qəbul etmək) və spirtli içkilər qəbuluna erkən yaşlarından başlayır, oqurluq və digər hüquqa zidd hərəkətlər törədirlər.

**İmbetsillik** – (Latınca-zəif, köməksiz) anadangəlmə və ya erkən uşaqlıq dövründə yaranan kəmağıllığın orta formasıdır. Bu xəstəlik klinik təsnifatına görə debilliklə idotiya arasında orta mövqe tutur. İmbetsilliyin səbəbi hər şeydən əvvəl uşağın bətndaxili inkişaf dövründə normal inkişaf etməməsi, doğuş travmaları, həyatın erkən dövrlərində uşağın aldığı ağır kəllə-beyin xəsəratlarıdır. Belə xəsəratlar uşağın yalnız böyük yarımkürələr qabığında deyil, həm də baş-beynin aşağı şöbələrində -qabıqaltı mərkəzlərdə, uzunsov beyində və beyincikdə də baş verə bilər.

İmbetsil uşaqlarda adətən fiziki inkişaf normadan kənara çıxmış olur. Belə ki, onlarda bədənin mütənasibliyi pozulmuş olur. Çox vaxt onlarda başın formasında əyintilər (defasiyalar) müşahidə olunur ki, bunlara da mikrosefaliya və molsfesefoliya deyilir. Daxili sekresiya vəzilərinin funksiyasının pozğunluğu imbetsillərdə xarici görünüşün və davranışın yöndəmsiz təsirini doğruldur. Hərəki funksiyalar inkişafdan qaldığına görə, imbetsil uşaqlar uzun müddət başlarını düz saxlamaqda, gəzməkdə və oturmaqda çətinlik çəkirlər. Sonralar bəzi imbetsillərdə əl, qol və bədənin artıq hərəkətləri, digərlərində isə hərəki donuqluq olur, əl və barmaq hərəkətlərinin diferensiasiyası demək olar ki, müşahidə olunmur. İmbetsil uşaqlara elementar özünəxidmət vərdişlərinin (geyinmək, yuyunmaq, çarpayını yığışdırmaq və s.) aşılanması hədsiz dərəcədə çətin olur. Onlarda nitqin inkişafında da bir sıra qüsurlar nəzərə çarpır. Nitqin kasıblığı, pəltəklik kimi nitq qüsurlar olsa da, imbetsillərin nitqi az və ya çox dərəcədə idiotların nitqindən fərqlənir. Onların təfəkkürü bəsit və konkret xarakterlidir, mücərrəd təfəkkür onlar üçün səciyyəvi deyildir. İdrak proseslərinin inkişafdanm qalması səbəbindən belə uşaqlara oxu, yazı və hesablama vərdişləri aşılamaq hədsiz dərəcədə çətin olur.

İmbetsillərin davranışı əksər hallarda situasiyaya uyğun olmur, ona görə də onları intizama alışdırmaq bəzən çox çətin, əksər hallarda isə mümkünsüz olur. Onlar dərs vaxtı sinifdə gəzir, qışqırır, yemək yeyir, səbəbsiz olaraq

gülür, dərslikləri və məktəb ləvazimatlarını cırır, sındırırlar. Bütün bunlara baxmayaraq yardımçı məktəblərdə xüsusi təlim priyomları vasitəsilə elementar təlim və əmək vərdişləri-oxumağı və yazmağı, zərfləri yapışdırmağı, yüngül karton işlərini və s. öyrətmək mümkündür. Bununla belə, imbetsillər daim müşahidə və təlimatçıların nəzarəti altında işləmək qabiliyyətindədir. İmbetsilliyin bəzi formalarında pedaqoji tədbirlərlə yanaşı, stimullaşdırıcı peraparatlardan, dərman vasitələrindən istifadə etmək lazım gəlir.

**İdiotiya**- (yunanca avamlıq, ədəbsizlik) psixi inkişafdan qalmanın, oliqofreniyanın ən ağır formasıdır. İdiotiyanın səbəbləri adətən dölün ana bətnində inkişafdan qalması (hamiləlik dövründə ananın keçirdiyi xəstəliklər və xəsarətlər, doğuş travmaları və s.) ilə əlaqələndirilir. Psixi xəstəliyinin bu növünün etiologiyasında valideynlərin siflis xəstəliyinin daşıyıcısı olması da xüsusi təsirə malikdir.

İdiotiyanın qazanılma forması körpəlik dövründə uşağın keçirdiyi ağır beyin xəstəliklərinin də rolu vardır. İndiotiyanın ağır formaları özünü beynin funksiyalarının hətta elə ağır pozğunluğunda göstərir ki, uşaqda elementar şərti reflekslərin yaradılması belə mümkün olmur.

İdiotiyanın əsas əlaməti ağır formalı kəmağıllıqdır. İdiotlar nəinki təlimə qabil deyillər, hətta özünəxidmət bacarıqlarından da məhrumdurlar. Motorikanın inkişafı kəskin şəkildə ləng getdiyindən onlar ayaq üstündə durmağı və yeriməyi bacarmırlar. İdiotlarda stereotip olaraq avtomatik təkrarlanan hərəkətlərə meyllilik (bədənin yırğalanması, barmaqları sovurmaq) müşahidə olunur. Onlarda duyğular və emosional sfera kəskin şəkildə pozulmuşdur. Ona görə də belə xəstələr adətən görmə və eşitmə orqanları üçün xarakterik olan qıcıqlandırıcılara cavab reaksiyası göstərə bilmirlər. İybilmə və dadbilmə duyğuları inkişafdan qaldığına görə idiotlar yemək və içmək üçün tam yararsız olan şeyləri yeyib-içməyə cəhd göstərirlər. Nitq inkişafdan qaldığına görə belə xəstələr heç bir sözü tələffüz edə bilmir, yalnız ayrı-ayrı səslər çıxarırlar.

Təfəkkür inkişafdan qaldığına görə onlar məhfumları və hökmləri qavraya bilmirlər. Onların bütün maraqları üzvi tələbatların təmin edilməsinə yönəlmiş olur. Emosional sahənin hədsiz kütlüyünə baxmayaraq idiotlarda bəızən kəskin qəzəb hissləri müşahidə olunur. Belə hallarda onlar birgəyaşayış şəraitində təhlükəli hərəkətlər törədə bilirlər. Əksər hallarda idiotlarda doğma adamlara bağlılıq hissləri müşahidə olunmur. İdiotların fizioqonomik maskasında da disharmoniya nəzərə çarpır. Onların əl barmaqları uzun, qulaq seyvanları böyük, çənələri kəskin görüntülü olur.
İdiotiya müalicə olunmayan psixi xəstəlikdir. Belə xəstələrin həyat qabiliyyətləri zəif olduğundan infeksiyalara yoluxma nəticəsində ölürlər. Onlar daim nəzarətə, kömək və sosial himayəyə möhtacdırlar. Daha ağır formalı idiotlar xüsusi psixatriya müəssisələrində saxlanılırlar.

Müasir tibbi və psixoloji ədəbiyyatlarda intellektual inkişafda geridəqalmanın 4 əsas variantı fərqləndirilir:

1) konstitutsional;

2)somatogen;

3)psixogen;

4)serebral-üzvi mənşəli (beyin mexanizmlərinin zədələnməsi)

İnkişaf tempi zəif olan uşaqlarda intellektual pozğunluğun aşağıdakı formaları müəyyən edilmişdir:

- əlverişsiz mühit və tərbiyənin və yaxud davranış patologiyası ilə bağlı intellektual pozğunluqlar;
- somatik xəstəliklərin təsiri ilə uşağın uzunmüddətli astenik vəziyyəti nəticəsində meydana çıxan intellektual pozğunluqlar;
- müxtəlif formalı infantilizmin doğurduğu pozğunluqlar;
- eşitmə, görmə, nitq qüsurları, oxu və yazı qabiliyyətinin pozulması ilə əlaqədar ikinci intellektual çatışmazlıq.

Fenomatik sintez və analizin kifayət qədər inkişaf etməməsi, nitq səslərini fərqləndirmə qabiliyyətinin inkişafdan qalması, yazı və oxu

vərdişlərinin mənimsənilməsində çətinliklər yaradır, verbal təfəkkürün inkişafını ləngidir, tələffüz çətinliklərinə, oxu və yazının pozulmasına, nəticədə nitqin ikişafdan qalmasına səbəb olur. Defektoloqların fikrincə, nitqin ümumən inkişafdan qalması (alaliya), nitqin ümumiyyətlə anadangəlmə inkişaf etməməsi və ya olmaması beyinin nitq mexanizmlərinin zədələnməsi ilə bağlıdır.

İntellektual fəaliyyətin pozulması **astenik vəziyyətin** (hədsiz yorulma, əsəb sisteminin gücdən düşməsi, baş ağrıları, hafizənin, diqqətin, iş qabiliyyətinin zəifləməsi) nəticəsi olaraq meydana gəlir. **Serebral asteniya** (beyində mayenin hərəkətinin pozulması, beyin silkələnməsi, beyində iltihab ocaqlarının yaranması), **somatogen asteniya** (kəskin və xroniki somatik xəstəliklər) və **psixogen asteniya** kimi intellektual pozğunluğa səbəb olan amillər fərqləndirilir. Ümumi qüvvətləndirici və xüsusi müalicəvi tədbirlər vasitəsilə astenik təzahürləri və təlimdə çətinlikləri müəyyən səviyyədə aradan qaldırmaq mümükündür.

Serebral-üzvi mənşəli geridəqalmanı şərtləndirən amillər sırasında aprıcı amil kimi əksinə, intellektual çatışmazlıq və onun emosional-iradi sferaya təsiri əsas hesab olunur.

Psixi inkişafda geridəqalan kiçik yaşlı məktəblilərin psixofizioloji və pedaqoji-psixoloji cəhətdən tədqiqi nəticələri bu kontingentin müxtəlif olduğunu göstərmişdir. Bu qrupa aid edilən uşaqların 20-50 %-də tapşırığın çətinlik dərəcəsindən asılı olaraq **mnemik, perseptiv və fikri məsələlərin həlli** zamanı orta normadan geridəqalma halları qeydə alınmışdır. Psixi inkişafda geridəqalan bütün uşaqlar üçün xarakterik olan bütün cəhətlər müxtəlif səviyyəli emosional dayanıqsızlıq, ixtiyari diqqətin formalaşmaması, hədsiz yorulma və s. kimi fəaliyyətin ixtiyarı formalaının tənzimi təmin edən idrak proseslərində müşahidə olunan qüsurlarıdır.

Bu qüsurların klinik-fizioloji və pedaqoji-psixoloji təhlili onların

strukturunda aparıcı amilləri fərqləndirməyə əsas verir:

**I qrup** uşaqlarda fəaliyyətin ixtiyarı tənzimi formalarının formalaşmaması ilə şərtlənmiş idrak proseslərinin bəzi formalarının inkişafdan qalması;

**II qrup** uşaqların psixi qüsurlarının strukturunda aparıcı amil əksinə, idrak proseslərinin inkişafdan qalması ilə şərtlənmiş fəaliyyətin ixtiyarı formalarının tənziminin inkişafdan qalması.

Psixi inkişafda geridəqalma halları müşahidə olunan I qrupa aid edilən uşaqların davranışında aşağıdakı xüsusiyyətlər özünü göstərir: canlı və vasitəsiz emosional reaksiyalar, onların davamsızlığı, dərin həyəcan-lanmanın olmaması, situasiyanı qiymətləndirə bilməmək, sadəlövhlük, oyun maraqlarının təlim maraqları üzərində üstünlüyü, iradi fəaliyyətdə səyin olmaması.

Belə uşaqlarda özünənəzarət qabiliyyəti zəif olur. Onlar fəaliyyətlərini Proqramlaşdırmaqda, hərəki və intellektual xarakterli tapşırıqların yerinə yetirilməsində çətinlik çəkirlər.

**I qrupa aid edilən** uşaqların emosional-iradi cəhətdən qeyri-yetkin olması onlarada ixtiyari və qeyri ixtiyari diqqətin formalaşmaması ilə bağlıdır. İxtiyari diqqət olduqca zəif inkişaf etdiyinə görə, belə uşaqlar naməlum güclü qıcıqlandırıcıların təsirinə qarşı olduqca həssas olurlar. Onlarda diqqətin davamlılığı, paylanması, yeni fəaliyyət növünə keçirilməsi kimi xassələr inkişaf etməmiş olur. Qeyd olunan xüsusiyyətlər belə uşaqlara fəaliyyətin məqsədyönlü olaraq təşkilində, psixi fəaliyyətin tənzimində maneçilik törədir. Psixoloji ədəbiyyatlarda bunun səbəbi uşaqlarda baş beyinin alın payının qabıq hissəsi ilə qabığaltı mərkəzlər arasında rabitələrin inkişafdan qalması ilə əlaqələndirilir. Rabitələrin bu istemi öz inkişafında xeyli uzun müddət tələb edir və təxminən 12-15 yaşlarda norma həddinə çatmış olur.

Ontogenetik inkişafın gedişində və təlim prosesinin təsiri altında I qrup kimi fərqləndirilən uşaqlarda idrak proseslərinin inkişafında müsbət

dinamika və normaya yaxınlaşma halları müşahidə olunur. Bununla belə, belə uşaqlarda iradi-emosional sferanın pozulması fonunda affektiv oyanıqlıq, impulsivlik, aqressivlik, tez qıcıqlanma kimi mənfi davranış formaları nəzərə çarpır. Bu xüsusiyyətlər uşaqlarda ifadəli yorğunluq, diqqətin davamsızlığı, fəaliyyət prosesində onun həcminin daralması kimi hallarla çulğalaşmış olur. İxtiyari diqqətin çatışmazlığı onlarda perseptiv əməliyyatların yerinə yeritilməsində, onların sürəti və dəqiqliyinin, sözlü-məntiqi təfəkkürün aşağı səviyyədə olmasında özünü göstərir. Serebral-üzvü mənşəli geridəqalma halları uşaqlarda intellektual çatışmazlığın əsas səbəbi kimi qiymətləndirilir.

**II qrupa aid edilən** uşaqların klinik və psixoloji-pedaqoji müayinəsi əsasında tərtib edilən xarakteristikaların təhlili göstərir ki, bu qrupa aid edilən uşaqlarda **intellektual çatışmazlıq** ön planda durur. Onlarda sözlü-məntiqi təfəkkürün aşağı göstəriciləri bilik bə təsəvvürlərin həcminin kasıb olması ilə uyğunluq təşkil edir. Hər iki qrupa aid edilən uşaqlarda müşahidə olunan əsas cəhət iradi-emosional sfera ilə bağlıdır. Belə ki, II qrupa aid edilən uşaqlarda təhriklərin zəif olması, qətiyyətsizlik , passivlik kimi hallar diqqəti cəlb edir. Beləliklə, psixi inkişafda geridəqalan uşaqların müayinəsi vasitəsilə onların təlimdə qarşılaşdığı çətinlikləri müəyyənləşdirmək, psixoloji xüsusiyyətlərini kəmiyyət və keyfiyyət baxımından qiymətləndirmək və adekvat korreksiyaedici metodları müəyyənləşdirmək mümkündür.

Psixi inkişafda geridəqalan uşaqların müayinəsi prosesində psixoloq diaqnostik metodikaların seçilməsinə verilən aşağıdakı tələbləri nəzərə almalıdır:

1. İstifadə olunan metodikalar defektin strukturunda aparıcı amili aşkar etməyə, yəni, fəaliyyətin ixtiyari formalarının tənzimi ilə idrak prosesləri arasındakı pozğunluğun qarşılıqlı əlaqəsini müəyyən etməyə imkan verməlidir;

2. Bu və ya digər psixi funksiyanın vəziyyəti və onlar arasındakı əlaqənin xarakterini müəyyənləşdirməkdə etibarlılığı təmin etməlidir. Onların vasitəsilə norma ilə patologiya arasındakı münasibət (somatik, zəiflik, pedaqoji nəzarətsizlik, sensor və lokal qüsurlar və s.) müəyyən edilir;
3. Müayinə bir saatdan artıq davam etməməlidir. Çünki qeyd olunan kateqoriyaya aid edilən uşaqlar üçün uzunmüddətli intellektual xarakterli tapşırıqların yerinə yetirilməsi, fəaliyyətin davamlılığı səciyyəvi deyildir.

Psixi inkişafda geridəqalma halları müşahidə olunan uşaqlarla ilkin müayinə zamanı yığcam, psixi qüsurları kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verən mütodikalardan istifadə olunmalıdır. İlkin müayinənin nəticələrindən asılı olaraq əlavə və klinik müayinə metodlarının zəruri olub-olmaması haqqında rəy əldə edilməlidir. Klinik və psixoloji praktikada müxtəlif və çoxsaylı diaqnostik metodikalardan istifadə olunsa da, onların çoxu psixi inkişafda geridəqalmanın səbəblərini, psixi pozğunluğun etiologiya və patogenezini müəyyənləşdirməyə imakan vermir. Bəzi metodikalar (məsələn, Veksler testi) psixi qüsurların diaqnostikası üçün optimal deyildir. Psixi inkişaf qüsurları olan uşaqların diaqnostikasında eksperimentator və ya psixoloq stimullaşdırıcı və təşkiledici xarakterli metodikalarla işləməyə üstün əhəmiyyət verməlidir.

**Klinik müayinə** aşağıdakı xüsusi məqsədlərlə həyata keçirilir:

1. Mərkəzi sinir sisteminin lokal mərkəzlərindəki pozğunluqların (sensor və nitq qüsurlarının, serebral iflic, epilepsiya) ocaqlarının müəyyən edilməsi;
2. İlkin yaş dövrlərində uşağın aldığı travmaların mərkəzi sinir sisteminə pozucu təsirinin öyrənilməsi;

3. Psixi xəstəliklərdən asılı olaraq onların mərkəzi sinir sisteminə göstərdiyi pozucu təsirlərin və onların klinik forma almış əlamətlərin (sindromların) inkişafda geridəqalmaya təsirinin araşdırılması;

**Klinik müayinəyə aşağıdakılar daxildir:**

**1. Anamnez:** nəsildən keçən psixi və irsi xəstəliklər; ailənin tərkibi haqqında məlumat, valideynlər; ananın hamiləliyi, doğuşların sayı; uşaq yaşlarında ekzogen zərərli təsirlər; uşağın postnatal ( məktəbəqədər) inkişafı (motorika, nitq, meyllər, maraqlar, oyun, ətrafdakılara, situasiyalara münasibət, enurez, qorxular, isterik, nevrotik təzahürlər;) məktəb yaşı dövrü (metorika, nitq, meyllər, maraqlar, ətrafdakılara münasibət, enurez, qorxular, isterik, nevrotik təzahürlər, davranış);

**2. Somatik status;**

**3. Nevroloji status:** kəllə-beyin sinirləri, sifətin simmetriyası; reflektor mühit; hərəki sfera(əzələ tonusu, fəal hərəkətlər, diferensiallaşmış mimik hərəkətlər, əl barmaqlarının incə hərəkətləri, müvazinət və s.)

**4. Psixi status:** emosional – iradi xüsusiyyətlər; psixi geridəqalma; nitqin funksiyalarının formalaşması;

**Psixoloji müayinənin** qarşısında duran başlıca məqsəd fəaliyyətin ixtiyari davranış formalarının tənzimi və idrak proseslərinin formalaşma səviyyəsini və onlar arasında qarşılıqlı əlaqənin müəyyənləşdirilməsidir. Psixi inkişafda geridəqalmanın diaqnostikası məqsədilə hazırda çoxsaylı metodikalardan istifadə olunur. Onlardan birinə diqqət yetirək.

Təqdim olunan bu metodika həm normal, həm də psixi qüsurları olan uşaqların psixoloji müayinəsində istifadə üçün müvafiq mütodikalardan biridir. O, proqnostik əhəmiyyətə malik olub, uşaqlarda diqqətin, hafizə və təfəkkürün qüsurlarını müaəyyən etməyə imkan verir.

**Metodika:**

Uşaqlarda proqnostik fəaliyyətin xüsusiyyətlərini öyrənmək məqsədilə 3 kartoçka dəsti təqdim olunur. Düzgün hesab edilən mülahizələr **A** ilə,

yanlış mülahizələr isə **B** ilə işarə olunmalıdır. Uşaq düzgün və yanlış mülahizələri sərbəst olaraq qiymətləndirməlidir.

I dəstdəki 20 kartoçkada sıranın ardıcıllığı A,B,A,B....., II dəstdə 60 kartoçkanın ardıcıllığı B,B,A,A,....,III dəstdə isə 60 kartoçka A,B,B.... ardıcıllığı ilə düzülmüşdür. Uşaq hər bir sırada növbəti qoyulacaq hərfi deməlidir.

Bu metodika uşaqlarda normal və anomal psixi inkişaf göstəricilərini kəmiyyət və keyfiyyət baxımından təhlil edib qiymətləndirməyə imkan verir. Bu metodika ixtiyari diqqətin davamlılığı, keçirilməsi, paylanması, hafizənin yaddasaxlama, tanıma və yadasalma kimi aktlarının formalaşma səviyyəsi, təfəkkür əməliyyatlarının (ümumiləşdirmə) inkişafı, müvafiq proqnozlaşdırmanın sürəti haqqında nəticə əldə etməyə imkan verir.

Uşaqlarda sinir-psixi pozğunluqlar-reaktiv vəziyyətlər onların psixikasına zədələyici təsir göstərən amillərlə şərtlənir. Belə amillər uşaqda əzələlərin atması, kəkələmə, qorxu, sidik və nəcis buraxma, müvəqqəti karlıq, nitqin itməsi, keyiyib qalma, yeməkdən imtina etmə, sayıqlama ideyaları və s. meydana gəlməsinə səbəb olur.

Konfliktlər uşaqların təəssüratlarına ağır zərbə vurur. Ailədə və məktəbdə uşağa göstərilən zədələyici zorakı təsirlər uşağın şüurunda bu situasiyanı yaradan yad və ya doğma adama qarşı affektiv reaksiya doğurur, onu yaşadığı mühitə qarşı yadlaşdırır, öz mühitindən soyudur.

Psixi inkişafda geridə qalan uşaqlar gec gəzməyə və danışmağa başlayırlar. Bunlarda **infantilizm,** ixtiyari diqqət, məntiqi yaddasaxlama, məkan təsəvvürləri, qavrayış, təfəkkür kimi idrak prosesləri ilə əlaqəli olduğundan oxu və yazı vərdişlərini mənimsəməkdə, təlim fəaliyyətinə qoşulmaqda çətinlik çəkirlər. Lakin belə uşaqlar oxuduqları mətnləri və məsələlərin mənasını anlayırlar. Düzgün pedaqoji yanaşma və psixoloji korreksiya vasitəsilə belə uşaqlarda təlimdə və əqli inkişafda geridəqalmanı aradan qaldırmaq mümükündür.

Uşağın əqli cəhətdən qeyri-yetkinliyi ilə **pedaqoji baxımsızlıq**

nəticəsində meydana gələn psixi inkişafdakı ləngiməni fərqləndirmək və onların ayrı-ayrılıqda diaqnostikasını keçirmək lazımdır. İnkişaf pozğunluğunun psixoloji diaqnostikası uşağın psixi inkişaf səviyyəsini və xüsusiyyətlərini aşkara çıxarmaq məqsədi daşımalı və uşağın təlimdəki uğursuzluğunu aradan qaldırmaq üçün fərdi korreksiya proqramının hazırlanmasına yönəlməlidir. İntellektual pozğunluğu müəyyən etmək məqsədilə **intellekt testlərindən** istifadə edilməli, nəticələr əsasında psixi pozğunluğun strukturu müəyyənləşdirilməlidir.

İnkişaf pozğunluqlarının psixodiaqnostikasında aşağıdakı əsas prinsiplər nəzərə alınmalıdır:

1. Müxtəlif mütəxəssislərin – psixoloq, müxtəlif ixtisaslı həkimlərin, loqoped və pedaqoqların iştirakı ilə uşağın öyrənilməsinə kompleks yanaşma;
2. Aşkar edilmiş psixi fəaliyyət pozğunluqlarının sistemli və keyfiyyətcə təhlili;
3. Uşağın yaş xüsusiyyətlərinin və "yaxın inkişaf zonası"nın nəzərə alınması.

Psixi inkişafda geridə qalan uşaqlarda görmə qavrayışı və əyani-obrazlı təfəkkürün inkişaf səviyyəsini müəyyən etmək məqsədilə tətbiq olunan metodikalardan biri **S.Rozentsbeyq** testinin uşaq variantıdır. Bu testlə iş zamanı uşaqlara kifayət qədər stimullaşdırıcı kömək göstərilə bilər. Uşaq tapşırığı düzgün həll edə bilmədikdə, ona ikinci dəfə cəhd göstərmək, yanlışlıq təkrarlandıqda isə üçüncü dəfə cəhd göstərmək təklif olunur. Psixi inkişafda geridəqalan uşaqlarda impulsivlik yüksək olduğuna və onlar tapşırığa zəif bələdləşdiyinə görə bu cür istiqamətləndirici kömək tamamilə təbii hesab olunur.

Test tapşırığı uşaq tərəfindən birinci cəhd zamanı düzgün həll edildikdə 1 bal, ikinci cəhd nəticəsində həll edildikdə 0,5 bal, üçüncü cəhdə görə isə 0,25 bal verilir. Bütün balların cəmi yekun olaraq ikinci və üçüncü cəhdlər nəticəsində toplanmış balları cəmləməklə hesablanır.

### 1.5.8. Koqnitiv (idrak) proseslərin və qabiliyyətlərin diaqnostikası

Müasir psixoloji terminologiyada son dövrlərdə tez-tez işlədilən **“koqnitiv psixologiya”** söz birləşməsi öz mahiyyəti etibarilə şəxsiyyətin psixi idrak proseslərinin tədqiqini əhatə edən mühüm istiqamətlərdən biridir. Koqnitiv psixologiya (latınca “cognitiv”- “bilik”, “idrak” deməkdir.) XX əsrin 50-ci illərinin sonu, 60-cı illərinin əvvəllərində ABŞ-da hakim mövqeyə malik olan Biheviorizm cərəyanına qarşı mübarizə zəminində meydana gəlmişdir. Onun yaradıcıları D.Brodbent, S.Steriberq, C.Sperlinq, R.Atainson subyektin qəbul etdiyi informasiyanın işlənilməsində xüsusi psixi proseslərin, o cümlədən **verbal və obrazlı komponentlərin** yaddasaxlama və təfəkkür proseslərindəki rolunu ön plana çəkmişlər. ABŞ psixoloqu U.Naccer koqnitiv psixologiyanın vəzifəsini biliklərin subyektin davranışında həlledici rolunu sübuta yetirməkdə görürdü. Sonralar Q.Bayer, A.Payvio, P.Şenard koqnitiv proseslər kimi hafizə və təfəkkürün öyrənilməsində müstəsna xidmət göstərmişlər. S.Şexter emosiyaların, N.Ayzenk fərdi fərqlərin, C.Kettel isə şəxsiyyətin koqnitiv nəzəriyyələrini yaratmağa təşəbbüs göstərmişlər.

Rusiyada bu nəzəriyyələrin təsiri altında müxtəlif psixoloji mərkəzlərdə bir sıra idrak proseslərinin-**qavrayış, diqqət, hafizə, nitq və təfəkkürün** tədqiq edilməsinə yönəlmiş geniş tədqiqatlar aparılmışdır. Rus psixoloqlarından E.İ.Boyko, N.F.Dobrının, N.İ.Jinkin, A.V.Zaporojets, A.N.Leontyev, S.L.Rubinşteyn, A.A. Smirnov, B.M.Teplov, B.J. Ananyev və b., gürcü psixoloqlarından P.Q.Natadze, A.S.Pranqişvili, D.N.Uznadze və b. ukrayna psixoloqu P.İ.Zinçenko, Azərbaycan psixoloqlarından Ə.K.Zəküyev, F.A.İbrahimbəyov, M.Məhərrəmov, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Z.M.Mehdizadə, Ə.Ə.Qədirov, A.İ.Məmmədov, Ç.A.İsmayılov,T.A.Mustafayev əhəmiyyətli tədqiqatlar aparmışlar.

Ötən əsrin 80-cı illərindən başlayaraq dünyada koqnitiv proseslərin tədqiqi yeni vüsət almış və yeni prespektiv qazanmışdır. Koqnitiv proseslərin

öyrənilməsinə sistemli yanaşmanın nəzəri-metodoloji əsasları yaradılmış, onların psixoloji, psixofizioloji və sosial-psixoloji planda bütöv və çoxaspektli tədqiqi aktuallaşmışdır. Yeni metodoloji yanaşma idrak proseslərinin psixi inikasın təşkilinin müxtəlif səviyyələrdə-ünsiyyət və fəaliyyət kontekstində araşdırılmasının zəruriliyini ön plana çəkmişdir.

1983-cü ilin mayında Finlandiyanın Turku şəhərində "Koqnitiv psixologiya" adlı Sovet-Fin birgə simpoznumu keçirilmişdir.

Müasir dövrdə koqnitiv və ya idrak prosesləri psixologiyasına aid tədqi - qatların nəticələrindən psixologiyanın bir çox tətbiqi sahələrində geniş istifadə olunur. Bunların sırasında **mühəndis psixologiyası, tibbi psixologiya, əmək psixologiyası, elmi və bədii yaradıcılıq psixologiyası, idarəetmə psixologiyası, pedaqoji psixologiya** və s. ilə yanaşı, formalaşma mərhələsində olan **təhsil sistemində psixoloji xidmətin** də adını çəkmək olar. Müasir təlimin strategiyasında, yəni şagirdlərdə **metakoqintiv bacarıqların formalaşmasının** rolu və əhəmiyyəti xüsusilə aktuallaş-maqdadır. Təlimin idrak fəallığının xüsusi forması və öyrənmə məzmunu kəsb edən fəaliyyət növü olduğunu nəzərə alsaq, şagirdlərdə təlim fəaliyyəti bacarıq və vərdişlərinin formalaşmasında koqnitiv proseslərin müstəsna rolu birmənalı olaraq qəbul edilməlidir.

Praktik psixoloqun şagirdlərlə aparacağı diaqnostik işlərin sistemində mühüm yürlərdən biri **idrak proseslərin və qabiliyyətlərin** aşkara çıxarılmasına yönəlmiş fəaliyyətlə bağlıdır. Şagirdlərin məktəbdə təlimə başladığı ilk dövrlərdə psixoloji diaqnostika adətən uşağın təlimə qabilliyinin müəyyənləşdirilməsi, qabiliyyətlərinin aşkara çıxarılması və inkişafda mövcud olan qüsurların vaxtında müəyyən edilməsi və onların aradan qaldırılması məqsədlərindən irəli gəlir. Məlumdur ki, şagirdin idrak qabiliyyətləri və tələbatları ilə onun idrak fəallığı və təlim uğurları arasında **birbaşa koppelyasiya** mövcuddur. **Uşağın idrak qabiliyyətləri və ümumi əqli potensialı onun intelektual, iradi, emosional aləminin əsas göstəricisi,**

**müxtəlif fəaliyyət növlərində müvəffəqiyyətinin zəruri şərtidir.** Yüksək idrak qabiliyyətlərinə malik olan uşaq geniş məlumatlılığa, zəngin lüğət fonduna və təxəyyülə, məntiqi mühakimə qabiliyyətinə, tənqidi təfəkkürə, inkişaf etmiş intuisiyaya malik olan uşaqdır. Qabiliyyətli uşaqlar ətraf xarici aləmə qarşı olduqca həssas olur, hər şeylə maraqlanır, praktik əhəmiyyətli məsələlərə üstün əhəmiyyət verirlər. İxtiyari diqqət, yaxşı hafizə, davamı maraqlar, qarşıya qoyduğu məqsədə çatmaq üçün təkidlilik onları səciyyələndirən ən əsas xüsusiyyətlərdir. İdrak qabiliyyətlərinin üstünlüyü ilə yaşıdlarından fərqlənən uşaqlarda dərin və çoxcəhətli maraqların olması diqqəti cəlb edir. Belə uşaqlar uğursuzluqdan olduqca qəmgin olur, sarsıntı keçirirlər. Onlar ətrafda baş verən hadisələrə həssas və tədqiqatçı münasibəti ilə yanaşırlar. Çətin və mürəkkəb məsələlərin həllinə həvəslə qoşulan qabiliyyətli uşaqlarda müstəqillik meyli güclü olur. Onlarda ədalət hissi, haqqın tərəfini tutmaq təşəbbüsləri, ayrı-ayrı fəaliyyət növlərində, xüsusilə ünsiyyət prosesində özünü aydın biruzə verir. Onlar canlı təxəyyülə, zəngin fantaziyaya malik olsalar da, səbrsizlik və dözümsüzlük kimi hallar belə uşaqların emosional-iradi sferasında üstün xüsusiyyətlər kimi nəzərə çarpır. Küyə və qorxuya düşmə, yaşıdları ilə ünsiyyətə qoşulmaqda çətinliklərin olması onların çox vaxt qapalılığına səbəb olur.

Məktəbdə təhsil alan şagirdlərin sırasından üstün qabiliyyətli uşaqların müəyyən edilməsi, onların qabiliyyətlərinin daha da inkişaf etdirilməsinə yönəldilən pedaqoji səylərin səmərəliliyi psixoloqun həyata keçirdiyi dioqnostik işlərin nəticəsi olaraq verdiyi rəylərdən və tövsiyələrdən əhəmiyyətli dərəcədə asılıdır. Psixoloq belə rəyləri tərtib etməzdən əvvəl nəzərə almalıdır ki, fiziki və psixi cəhətdən sağlam və normal olan hər bir uşaq yaxşı qabiliyyətlərin formalaşdırılması üçün müəyyən potensial qabiliyyət sahibidir, ona görə də, əsas məsələ heç də qabiliyyətin indiki anda olub-olmaması deyil, əksinə, mövcud təbii imkanların məhv olmasının qarşısının alınmasından ibarət olmalıdır.Psixoloqun bu istiqamətdə aparacağı

işlərin sistemi **ilkin psixodioqnostika** adlanır.

İlkin psixodioqnostika müəyyənedici xarakter daşıyır. Onun nəticələri əsasında ayrı-ayrı uşaqlarda idrak qabiliyyətlərinin inkişaf səviyyəsi müəyyənləşdirilir, sonrakı mərhələdə isə, onların maksimum səviyyədə inkişafını təmin edə biləcək inkişafetdirici proqramlardan fərdi və qrup halında istifadənin imkanları müəyyənləşdirilir.

Tövsiyə olunan inkişafetdirici proqramlar uşaqların yaradıcı qabiliyyətlərinin, intelektal təşəbbüskarlığının, tənqidi təfəkkürünün, sosial-mənəvi və liderlik keyfiyyətlərinin aşkara çıxarılmasına xidmət etməlidir. Qabiliyyətlərin müəyyən edilməsinə yönəldilmiş təlim materialları orta məktəbin ümumi təlim proqramlarına daxil edilmiş məzmundan fərqlənməli, özünün mürəkkəbliyi, yeniliyi və cəlbediciliyi baxımdan seçilməlidir. Belə proqram materiallarına daxil edilən tapşırıqlar məzmunca dərin və düşündürücü olmaqla yanaşı, şagirdə fərdi uğurlarını nümayiş etdirmək, ünsiyyət və şəxsiyyətlərarası sferaya aid imkanlarını sınaqdan çıxarmağa şərait yaradır. Uşaqların yaradıcı qabiliyyətlərinin inkişafını "**əgər... olsaydı**, **onda nə olardı**?" tipli qeyri-adi, **hipotetik suallar** vasitəsilə stimullaşdırmaq məqsədəuyğundur. Orta məktəbdə şagirdin əldə etdiyi nəzər biliklərin praktik tətbiqi onların intelektual qabiliyyətlərinin inkişafına əhəmiyyətli təsir göstərir. Şagirdin fikri proseslərini fəallaşdırmaq üçün onun qarşısına idrak xarakterli (məsələn, "müqayisə edin", "sadalayın", "adlarını çəkin", "söyləyin", "müəyyən edin" və s., **anlama tipli** ("öz sözlərinizlə söyləyin", "qarşılıqlı asılılığı göstərin", "mənasını izah edin") **tətbiqetmə xarakterli** ("nümayiş etdirin", "məqsədi izah edin" və s.) **analitik xarakterli** ("səbəbini izah edin", "ardıcıllıqla düzün", "təklif edin", "izah edin, nə üçün") tipli **sintltek xarakterli** ("qurun", "əlamətlərə görə birləşdirin", "birləşdirsək, nə baş verər"),tipli **qiymətləndirmə xarakterli** ("təyin edin", "normanı müəyyən edin", "ən çox xoşumuza gələni seçin" və s.) tipli tapşırıqlardan istifadə etmək olar.

Uşaqların qabiliyyətlərinin və idrak səviyyəsinin psixodioqnostikası üzrə işlər

yalnız mövcud inkişaf səviyyəsinin müəyyən edilməsinə deyil, həm də təlim-tərbiyə proseslərinin təkmilləşdirilməsi, uşaqların psixososial inkişafı və yetişməsinin, o cümlədən qavrayış, diqqət, təxəyyül, hafizə, təfəkkür, nitq kimi ali psixi funksiyaların, hərəki bacarıq və vərdişlərin, ümumi və xüsusi qabiliyyətlərin daha da inkişaf etdirilməsi məqsədlərinə yönəldilməlidir.

Uşaqların ***qavrayışının*** diaqnostikasında bu idrak prosesinin əsas xüsusiyyətləri olan **əşyaviliyi, strukturluğu sabitliyi mənalılığı, tamlığı** ayrı-ayrılıqda öyrənilməlidir. Psixoloq uşaqların qavrayışının qeyd olunan xüsusiyyətlərini öyrənmək məqsədilə müxtəlif testlərdən və digər analoji metodlardan istifadə edə bilər. Uşaqlarda qavrayışın diaqnostikası prosesində əşyaların düzgün obrazının yaradılmasını təmin edən perseptiv əməliyyatların formalaşdırılması və inkişafına xüsusi diqqət yetirilməlidir.

İdrak proseslərindən biri kimi ***diqqətin*** xüsusiyyətlərinin öyrənilməsində hər şeydən əvvəl onun ixtiyari, qeyri-ixtiyari, ixtiyarından sonrakı kimi növlərinin və diqqətin əsas göstəriciləri olan həcmi, davamlılığı, keçirilməsi, paylanması, konsentrasiyası, dövri tərəddüdü və s. kimi əsas xassələrinin diaqnostikasına xüsusi əhəmiyyət vermək lazımdır.

Uşaq ***təxəyyülünün*** diaqnostikasının keçirilməsində psixoloq çoxcəhətli metodlardan, o cümlədən uşaq rəsmlərinin, uşaq fantaziyası və təsəvvürü məhsullarının məzmunca təhlili metodlarından istifadə edə bilər. Uşaqların çəkdikləri rəsmlər onların dünyanı necə dərk etməsinin bədii inikasıdır. Bəzən uşaqlarda rəsmetmə və bədii-təsviri bacarıqlar zəif formalaşdığından əl işləri onların təxəyyül obrazlarına adekvat olmur. Uşaqların çoxu özlərinin yaratdıqları təxəyyül surətlərini rəsm işlərində tam dolğunluğu ilə nümayiş etdirə bilmirlər. Onların nitqinin obrazlılığı təxəyyülün zənginliyini müəyyən etməyin əsas göstəricilərindən biridir. Ona görə də, psixoloq uşaq təxəyyülünün xüsusiyyətlərini müayinə edərkən ilk növbədə onların fantaziya məhsullarının təhlilinə xüsusi diqqət yetirməlidir.

Uşaqların ***təfəkkür*** xüsusiyyətlərinin psixoloji cəhətdən öyrənilməsi

məqsədilə müasir psixodioqnostika təcrübəsində çoxsaylı metodika və metodlardan istifadə olunur. Bunların sırasında **intelekt testləri** və məhfumların formalaşması prosesini öyrənməyə yönəldilmiş **xüsusi metodikalar** geniş yayılmışdır. Psixoloq bu məqsədlə uşağa əyani-əməli, əyani –obrazlı və sözlü-məntiqi formada təklif olunan çoxcəhətli məntiqi çalışma və tapşırıqlardan istifadə edə bilər. Bu metodikalar vasitəsilə uşağın təfəkkürünün psixodioqnostikasını keçirən psixoloq müayinəni kompleks şəkildə, yəni bir sıra metodların tətbiqinə əsaslanmaqla aparmalıdır. Bu halda konkret bir metodun tətbiqi vasitəsilə əldə olunan nəticələr tam etibarlılığı təmin edə bilməz. Əgər psixoloq uşaqda sözli-məntiqi təfəkkürün inkişaf səviyyəsini tədqiq edirsə, o, eyni zamanda əyani-obrazlı təfəkkürün inkişaf səviyyəsini də müəyyənləşdirməlidir. Yalnız təfəkkürün müxtəlif növlərini xarakterizə edən bu göstəricilərin məcmuyu uşağın ümumi intellektual inkişaf səviyyəsi haqqında mühakimə yürütməyə, konkret rəy söyləməyə əsas verə bilər. Uşaqlara təklif olunan fikri məsələlər onların yaş xüsusiyyələrinə uyğun olmaqla yanaşı, onlar üçün cəlbedici və maraqlı olmalıdır.

Uşaqlarda ***nitqin*** psixodioqnostikasında nitq inkişafı ilə bağlı bir sıra məsələlər-fonetika, qrammatika, lüğət ehtiyatı, semantika və s. kimi məsələlərə xüsusi diqqət yetirilməlidir. Psixoloq nitqin tədqiqində onun əsas ünsiyyət və ümumiləşdirmə (təfəkkür) vasitəsi olmasına, psixi proses və vəziyyətlərin iradi cəhətdən tənzim və idarəolunma vasitəsi kimi baxmalıdır.
Müxtəlif metodikalar vasitəsilə ***qabiliyyətlərin*** psixodioqnostikasını həyata keçirən psixoloq ilk növbədə uşaqda artıq formalaşmış qabiliyyətlərin səviyyəsini, onları şərtləndirən təbii imkanların xarakterini müəyyənləş-dirməyə, təlim və tərbiyə proseslərinin qabiliyyətlərin formalaşmasına təsir imkanlarını araşdırmağa xüsusilə diqqətlə yanaşmalıdır. Psixoloq müvafiq metodikaların köməyi ilə uşaqların həm ***ümumi***, həm də ***xüsusi*** qabiyyətlərini müəyyənləşdirmək imkanına malik olmalıdır. Bu məqsədlə ümumi və xüsusi qabiliyyət testlərindən istifadə etmək məqsədəuyğundur.

### 1.5.9. İntellektin və əqli inkişafın diaqnostikası

**İntellekt anlayışı** (ingilisgə. Intellengence) elmi tədqiqatın obyekti kimi psixologiya elminə ingilis antropoloqu F.Holton tərəfindən XIX əsrin sonlarında gətirilmişdir. Ç.Darvinin təkamül təliminin təsiri altında olan Halton insanlarda istənilən fərdi fərqlərin əsas səbəbini irsiyyətlə şərtlənmiş cismani və psixi fərqlərdə axtarırdı. Əgər əvvəllər əqli gerilik yalnız irsiyyət amili ilə izah edilirdirsə, Holton bu amilin rolunu genişləndirərək onun təsirini intelektin inkişafının bütün səviyyələrinə, o cümlədən istedad və dahiliyə də aid etməyə təşəbbüs göstərmişdir. Haltona görə, intellektual qabiliyyətlərin bütün təzahürləri irsi cəhətdən şərtlənmişdir. Burada təlim-tərbiyənin və inkişafın digər xarici amillərinin rolu yoxdur və ya az əhəmiyyətlidir.

F.Holtonun intellektin irsi cəhətdən şərtlənmiş qabiliyyət olması haqqında təsəvvürləri uzun onilliklər boyu hakim təsirə malik olmuşdur. Ona görə də ilk intellekt testlərinin yaradıcıları A.Bine, C.Kettel, L.Termen bu metodologiyanın təsiri altında olaraq belə hesab etmişlər ki, onlar inkişaf şəraitindən asılı olmayaraq mövcud olan anadangəlmə qabiliyyətləri ölçürlər.

F.Holtonun tədqiqatları intellekt probleminə tamamilə yeni yanaşma modelinin əsasını qoymuşdur. İxtisasca antropoloq olmasına baxmayaraq, Holton insanların intellektual əlamətlərinin, psixi funksiyalarının eksperimental yolla öyrənilməsinin əsasını qoymuşdur. 1882-ci ildə Londonda kiçik laboratoriya yaradan Halton insanlara xidmət təklif edirdi. Onun laboratoriyasında istənilən adam pul ödəməklə özünün cismani (boy, əzələ gücü) həm də psixoloji parametrlərinin-xüsusən həssaslığının, obrazlı hafizəsi və hərəki funksiyalarının səviyyəsini yoxlada bilərdi. Sonralar bu cür ölçmələr intellektin psixoloji diaqnostikasının inkişafı sahəsində işlərin inkişafı üçün prinsipial əhəmiyyətə malik olmuşdur.

1921-ci ildə Nyu-Yorkda çap olunan "Pedaqoji psixologiya" jurnalı 14 məhşur amerikan psixoloquna "intellekt nədir?" sualına cavab vermək xahişi

ilə müraciət etsə də, suala birmənalı cavab ala bilməmişdir. Verilən cavablar bir-birinə uyğun gəlmir, bir-birini inkar edirdi.

İntellekt problemi XIX əsrdə psixologiya elmində birmənalı cavablandırılmayan və indiyədək də açıq qalan bir problem olaraq qalmaqdadır. XX əsrdə intellekt probleminin mahiyyətinin anlayışılmasında bir sıra yanaşmalar özünü göstərmişdir.

1. A.Bine, Ç.Spirmen, Ç.Kolvin, Q.Budron və başqaları intellekti təlimə qabillik;
2. L.Termen, E.Torndayk, C.Peterson mücərrəd əməliyyat aparmaq qabiliyyəti;
3. V.Stern, L.Tepctoun, Y.Klanaped, J.Piaje isə yeni şəraitə uyğunlaşmaq qabiliyyəti kimi səciyyələndirmişlər.

İntellektin təlimə qabillik kimi anlaşılması zoopsixologiyada geniş yayılmışdır. Biheviorist nəzəriyyəsinin tərəfdarları B.Skinner, E.Torndayk, A.Bitterman müxtəlif canlı orqanizmlərin təlim edilməsi xüsusiyyətlərinə əsaslanaraq, onların intellektual imkanlarını müqayisə edirdilər. Onların fikrincə, onurğalıların bir çoxunda mümarisə əyrilərinin eyni formada olması təlimə qabilliyin, intellektual səviyyənin eyni olması haqqında mülahizə irəli sürməyə əsas verir.

İntellektin təlimə qabillik kimi anlaşılması fikrinə XX əsrin əvvəllərində psixoloqlar arasında birmənalı yanaşma sonralar fərqli baxışlarla əvəz olunmağa başladı. Belə ki, A.Bine və Ç.Spirmenin ilk tədqiqatlarında intellektlə **təlimə qabillik** faktiki olaraq eyniləşdirilirdisə, V.Xenmon belə hesab edirdi ki, intellekt insanın artıq mənimsəmiş olduğu biliklərlə müəyyən edilir. V.Diaborn isə intellekti oxumaq və təcrübə qazanmaq adlandırır, ən yaxşı intellekt testini "təlimdə real prosesin ölçülməsi" hesab edirdi.

İntellektə təlimə qabillik kimi baxan müasir psixoloqlar intellektin göstəricisi kimi özünü göstərən təlimin metodlarını müəyyənləşdirməyə çalışırlar. Bir çox psixoloqlar belə hesab edir ki, məsələn, öyrənmə sürəti

belə bir kriteriya ola bilməz. Belə ki, R.Snou və E.Yelounun fikrincə, intellektlər arasındakı fərqləri öyrənmə sürəti arasındakı fərqlərlə qarşı-qarşıya qoymaq əsassızdır. Belə ki, **öyrənmə sürəti** bir çox amillərdən (məsələlərin tipi, hər bir məsələnin daxilindəki komponentlər, təlim metodları, öyrədilənlərə maraq və s.) asılıdır. İntellektlər arasındakı fərqlər öyrənmə sürəti arasındakı fərqlərə nəzərən daha böyükdür. Öyrənmə sürəti təlimin heç də yeganə olmayanm göstəricilərindən biridir. Bu amillər sırasında təlimin asanlığı və **vərdişlərin köçürülməsi** intellekt psixologiyasında mürəkkəb xarakteristikalardan biridir.

Müasir psixoloqların heç də hamısı öyrənməyə qabilliyi intellektin əsas amili kimi qəbul etmirlər. Aydındır ki, təlim fəaliyyəti insanın həyatının müəyyən mərhələsində (uşaqlıq, yeniyetməlik və gənclik) özünü aparıcı fəıaliyyət kimi göstərir. Yaşlı adamların intellekti isə hər şeydən əvvəl qeyri-təlim tipli problemlərin - peşə fəaliyyəti, məişət və s. müvəffəqiyyətlə həll edilməsində təzahür edir. Bu problemlərin həll edilməsi heç də həmişə təlim fəaliyyətinin uğurları ilə bağlı olmur. Məsələn, **A.Eynşteyn** məktəbdə pis, zəif hazırlıqlı şagird kimi tanınırdı. Sürix Politexnik İnstitutuna qəbul imtahanlarında kəsilirdi. Sonralar ora daxil olsa da, ali məktəbi çox çətinliklə bitirmişdi. Professorlar onun diplom işini pis rəylərlə qiymətləndirmişdilər. Göründüyü kimi, təlimdəki uğurlar heç də müasir psixologiyada olduğu kimi, intellektin əsas göstəricisi kimi qəbul edilə bilməz.

Müasir pedaqogika və psixologiya elmləri artıq çoxdan bu faktı qəbul edir ki, **pedaqoji təsirlə şagirdlərin fərdi xüsusiyyətlərinin uyğunluğu** təlimin nəticələrinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Ona görə də məktəb yaşlı uşaqların intellekt səviyyəsini yalnız təlimin xarakterində axtarmaq doğru deyildir. Deməli, intellekt öyrənmənin amillərindən biri, öyrənmə isə intellektin çoxsaylı təzahürlərindən yalnız və ya yalnız biridir.

XX əsrin əvvəllərində Bine – Stenford şkalasının yaradıcılarından biri L.Termen, C.Peterson və başqa məhşur psixoloqlar isə intellekti **mücərrəd**

**münasibətlər və simvollar üzərində əməliyyatlar aparmaq qabiliyyəti** kimi səciyyələndirirdilər. Belə ki, P.Torndayk qeyd edirdi ki, intellekt mücərrəd təfəkkürdən asılıdır və problemin həllində mücərrəd əlamətlərə istinad etmək bacarığında təzahür edir. Lakin intellektin yalnız mücərrədləşdirmə qabiliyyəti kimi başa düşülməsi, intellektual qabiliyyətlərin dairəsini məhdudlaşdırdığına görə, psixoloqlar tərəfindən birmənalı qarşılanmadı.

"İntellekt" anlayışının elmi təhlilini verən bir sıra psixoloqların (B.Ştren, L.Terstoun, E.Klapared, P.Pinter, J.Piaje və b.) fikrincə, bu anlayış yeni şəraitə uyğunlaşma qabiliyyəti kimi başa düşülməlidir. V.Şterin yazırdı ki, intellekt təfəkkür əməliyyatlarından intellektual məqsədə çatmaq üçün düzgün istifadə üsullarıdır.

XX əsrin 70-ci illərində intellektə baxışda yeni tendensiyalar meydana gəldi. Onların müəlliflərindən biri olan Q.Qardner intellekti kompyuter proqramı şəklində təsəvvür edir və yazırdı ki, ümumiyyətlə, intellekti genetik cəhətdən proqramlaşmış, daxili və xarici informasiyaya uyğunlaşmış, neyron mexanizmi və ya kompyuter sistemi şəkilində qurulmuş sistem kimi başa düşmək olar. Bu dövrdə intellekt psixologiyası üzrə araşdırmalar aparan tədqiqatçılar insan fikirləri ilə məsələ həll edən kompyuter əməliyyatlarının gedişi arasında anologiya axtarmağa çalışırdılar.

1959-cu ildən Rilferd intellektin strukturunu təşkil edən 120 faktorun adını qeyd etmiş, onun kubik modelini yaratmışdı. 1967-ci ildə Kettel qeyd etmişdir ki, bizim hər birimiz doğulduğumuz andan etibarən potensial intellektə malikik, ki, bu da bizim təfəkkür, mücərrədləşdirmə, mühakimə qabiliyyətlərimizin əsasında durur. Təxminən 20 yaşda intellekt özünün daha yüksək çiçəklənmə həddinə çatır.

İntellekt mücərrəd bir fenomen deyil, o, fərdin, subyektin konkret intellektual fəaliyyətinin təzahürüdür. Bəzi psixoloji konsepsiyalar intellekti əqli **əməliyyatlar sistemi, həll stili və problemin həlli strategiyası** ilə eyniləşdirir, fərdin situasiyaya daha səmərəli yanaşması hesab edirlər.

İnsanın hansı xüsusiyyətlərinin onun intellektini əks etdirməsi bu günədək mübahisəlidir. Bəzi alimlər intellekti abstrakt (mücərrəd) təfəkkür kimi qələmə verir, onu insanın məqsədəuyğun fəaliyyət forması adlandırırlar. ABŞ, İngiltərə, və bir çox qərb ölkələrində intellektin ölçülməsi təcrübəsi geniş yayılmışdır. İntellekt idrakın mürəkkəb inteqral mərhələsi olub, əqli fəaliyyətin bir çox cəhətlərini özündə əks etdirir. Tarixdə özlərinə əbədi heykəl qoymuş bir çox məşhur adamlar - təkamül nəzəriyyəsinin banisi Ç.Darvin, rus yazıçısı F.M.Dostoyevski, yazıçı və həkim N.Nərimanov, fizik A.Eynşteyn, fizioloqlar L.Paster, İ.Pavlov, İ.Seçenov, kimyaçılar D.Mendeleyev, Y.Məmmədəliyev, hərbi xadimlər H.Aslanov, Suvorov, dövlət xadimləri Atatürk, H.Əliyev, Şarl de-Qoll və onlarla başqaları dərin intellekt sahibi olmuşlar.

Avropa psixoloqlarından V.Ştern, J.Piaje və başqaları intellekti fərdin həyat şəraitinə biopsixi adaptasiyası kimi səciyyələndirirdilər.

Geştalt psixologiyanın nümayəndələri M.Vertheymer və V.Köler intellektin məhsuldar yaradıcılıq komponentlərini öyrənərək elmə “insayt“ anlayışını gətirmişlər. XX əsrin başlanğıcında fransız psixoloqları A.Bine və T.Simon əqli qabiliyyətlərin səviyyəsini müəyən etmək üçün xüsusi testlər təklif etmişdilər. Onların tədqiqatları ilə intellektə praqmatik baxış tərzi formalaşmış və hal-hazırda da bu davam etməkdədir. Bu nöqteyi-nəzərə görə intellekt müvafiq məsələləri orijinal yolla həll etməkdən, sosial-mədəni həyat şəraitinə səmərəli şəkildə qoşulmaqdan və müvəffəqiyyətlə uyğunlaşmaqdan ibarətdir. Onlar belə hesab edirdilər ki, bunun üçün intellektin mədəni təsirlərdən asılı olmayan **anadangəlmə baza strukturları** olmalıdır.İntellektin diaqnostikasının təkmilləşdirilməsi məqsədilə onlar onun strukturunun müxtəlif tədqiqat üsullarını, ilk növbədə faktor təhlilini irəli sürmüşlər. Müxtəlif müəlliflər intellektin baza faktorlarının 1-2-dən 120-dək olmaqla çoxsaylı kəmiyyət göstəricilərini qeyd etmişlər.

XX əsrdə elmi-texniki tərəqqinin nəticəsi olaraq kibernetika, informasiya nəzəriyyəsi, hesablayıcı texnika və kompyuter texnikasının yaranması

zəminində müxtəlif proqramlarla idarə olunan süni intellekt yaratmaq fərziyyəsi reallığa çevrilmişdir.

Subyektin intellektual fəaliyyəti onun şüuru və onun tərkibinə daxil olan idrak proseslərinin, ilk növbədə təfəkkürün fəaliyyətilə bağlıdır. Burada təfəkkür əməliyyatları, onun məzmunlu əməliyyat komponentləri başlıca yer tutur. Təfəkkür psixi fəaliyyətdə özü tənzim olunan forma kimi çıxış edir, bu və ya digər intellektual məsələlərin həllində nəinki planlaşdırma və icra funksiyalarını yerinə yetirir, həm də özünənəzarət, yanlış gedişlərin korreksiyasını da icra edir. İntellektual məsələni həll edən subyekt hər bir əməliyyatı ayrılıqda deyil, verilmiş məntiqi əməliyyatlar sistemində yerinə yetirir, həll zamanı atdığı hər bir addıma nəzarət edir. Bütün bunları sistemli bir əməliyyat kompleksi kimi qiymətləndirərək intellektual fəaliyyəti daim tənzimlənən fəaliyyət kimi xarakterizə etmək olar.

İntellektual fəaliyyətin qeyd olunan strukturu onun bütün növlərinin - həm əməli-əyani məsələlərin (məsələn, konstruktiv fəaliyyət), həm də nitq planında həyata keçirilən nəzəri məsələlərin həllində təzahür edir.

Bütün hallarda intellektual fəaliyyətin bütün növləri özünün inkişafının ilkin fazalarında bir sıra mərhələlərdən keçir ki, bunlar da əqli fəaliyyəti tədricən təkmilləşdirir. Əqli fəaliyyətin formalaşması prosesi aşkar maddiləşmiş fəaliyyət formalarından ixtisar edilmiş, yığcam formaya keçid-əvvəlcə xarici nitqin köməyi ilə sonra isə əqldə icra yolu ilə gedir. İnkişaf etmiş intellektual fəaliyyət səviyyəsində bu cür “ixtisar edilmiş“ sürətlə cərəyan edən əməliyyatlar təfəkkürün əsasını təşkil edir.

İntellektin ölçülməsi və diaqnostikası üçün adətən sürətli intellekt testlərindən-Ayzenk testindən, Veksler testindən, Ravenin mütərəqqi matrislərindən (Raven testi), Kettelin intellekt və s. testlərindən istifadə olunur.

## V fəsilə aid suallar və tapşırıqlar:

1. *"Psixodiaqnostika" anlayışı nəyi ifadə edir?*
2. *Psixodiaqnostikanın qarşısında duran əsas vəzifələr nədən ibarətdir?*
3. *Psixoloji diaqnostikada istifadə olunan əsas metodlar hansılardır?*
4. *Müasir psixoloji testlər hansılardır?*
5. *Məktəbəqədər müəssisələrdə psixoloji diaqnostika işi necə qurulmalıdır?*
6. *Psixi inkişafda geridəqalma nədir və onun əsas səbəbləri hansılardır?*
7. *Uşaqların məkətəb təliminə hazırlığının diaqnostikası necə keçirilməlidir? Burada hansı metodikalardan istifadə etmək məqsədəuyğundur?*
8. *Kiçik yaşlı məktəblilərinin idrak proseslərinin diaqnostikasında hansı metodlardan istifadə olunmalıdır?*
9. *Şəxsiyyət, ünsiyyət və qarşılıqlı münasibətlərin diaqnostikasında sınaqdan çıxarılmış metodikalar hansılardır?*
10. *İntellektin diaqnostikasında istifadə olunan metodikaların adlarını söyləyin.*

## VI FƏSİL

## Psixoloji profilaktika

### 1.6.1. Müasir psixoprofilaktikanın məqsədi və vəzifələri

Psixoprofilaktika məsləhətvermə məntəqələri, “inam telefonları” və digər təsisatlar vasitəsilə psixi cəhətdən sağlam, lakin ehtiyacı olan adamlara psixoloji yardımın göstərilməsini əhatə edən vahid psixoloji xidmətin ayrılmaz tərkib hissələrindən və ən mühüm istiqamətlərindən biridir. O, təhsil müəssisələrində təhsil alanların, tərbiyə olunanların qarşılaşdığı maneə və çətinliklər haqqında vaxtında xəbərdarlıq edilməsi və onların qarşısının alınması məqsədilə pedaqoji işçilər və valideynlər üçün konkret tövsiyələrin işlənilib hazırlanmasını nəzərdə tutan fəaliyyət sahəsidir.

Psixoprofilaktika psixokorreksiya metodlarına əsaslanmaqla əhalinin vaxtında məlumatlandırılmasını, **“risk qrupu”na** aid edilən adamların müayinəsi və onlarla psixoprofilaktik işlərin aparılmasını, müşahidə olunan qüsurların simptomlarının vaxtında aradan qaldırılmasını nəzərdə tutur. Müasir psixoloji profilaktikanın əsas vəzifəsi adamlara istehsalat, təhsil, idman, ailə, biznes və s. kimi sahələrdə, habelə böhranlı vəziyyətlərdə, ekstremal şəraitlərdə zəruri köməyin göstərilməsindən ibarətdir.

Ailədaxili konfliktlərin həllində, xüsusilə ailələrə psixoloji dəstəyin göstərilməsi baxımdan psixoloji profilaktika həm də **humanitar xidmət sahəsi** kimi də nəzərdən keçirilə bilər.

**Psixoloji profilaktika** uşağın inkişafında arzuolunmaz mümkün anomaliya və qüsurların irəlicədən qarşısını almağa yönəlmiş qabaqlayıcı tədbirlər sistemidir. Bu istiqamətin psixoloji xidmət sistemində zəriliyi müəllim, tərbiyəçi və şagirdlərdə psixoloji biliklərə olan tələbatların təmin edilməsi zərurəti ilə bağlıdır. Praktik psixoloq psixoprofilaktik işlər vasitəsilə müəllim və tərbiyəçilərdə, valideynlərdə və ya onları əvəz edən şəxslərdə ümumi psixoloji mədəniyyət formalaşdırır, uşaqlarla iş zamanı psixoloji

biliklərdən istifadənin zəruriliyini, onların hərtərəfli inkişafı üçün əlverişli təhsilləndirici, tərbiyəedici və inkişafetdirici mühitin yaradılmasının əhəmiyyətini əsaslandırır. Psixoprofilaktik iş müəllim, valideyn və tərbiyəçilər tərəfindən yerinə yetirdikləri gündəlik sosial rollardan asılı olaraq həyata keçirilsə də, bu sahədə ixtisaslı işin məsuliyyəti praktik psixoloqun üzərinə düşür. Psixoloq sinif rəhbərləri və müəllimlərə ayrı-ayrı şagirdlərin və ya onların müxtəlif sosial qruplarının qarşılıqlı olaraq digərlərinə mənfi təsirini proqnozlaşdırmaq və xəbərdarlıq etməklə davranışda və qarşılıqlı münasibətlərdə yarana biləcək pozğunluqların vaxtında qarşısını almaqda yardım göstərmiş olur.

Psixoprofilaktik istiqamətdə iş aparan psixoloq aşağıdakı konkret tədbirləri həyata keçirir:

- müəllimlər və şagirdlər arasında pedaqoji-psixoloji bilikləri təbliğ edir;
- psixologiya üzrə dərnək və ya maraq kursu təşkil edir və ona rəhbərlik edir;
- şagirdlərin şəxsiyyətinə mənfi təsir edən zərərli mənbələri aşkara çıxarır, pedaqoji kollektiv üçün onların təcrid edilməsi və ya neytrallaşdırılmasına yönəlmiş tövsiyələr hazırlayır;
- qayğıdan kənarda qalmış, qabiliyyətli olan baxımsız uşaqlar aşkara çıxarır, onların inkişafı məqsədilə müəllimlər üçün fərdi planlar tərtib edir;
- sinif rəhbərlərinə, tərbiyəçilərə məsləhətlərlə psixoloji yardım göstərir, şagirdlər arasında alkoqolizm, narkonamiya, toksikonaniya və s. Kimi neqativ halların genişlənməsi təhlükəsinin qarşısını almaq məqsədilə zəruri iş aparır, pedaqoji şura üçün təkliflər hazırlayır;
- pedaqoji kollektiv üzvlərinin psixoloji cəhətdən yüklənməsinin qarşısını almaq məqsədilə məktəb rəhbərliyinə xəbərdarlıqlar

edir, bu sahədə müstəqil iş aparır;

- şagirdlərlə qarşı müxtəlif zorakılıq hallarının qarşısının alınmasına, onların təlim-tərbiyəsi, həyat şəraiti ilə bağlı məlumatlar toplayır və profilaktik tədbirlər həyata keçirilir;
- təhsil müəssisəsində, pedaqoji və şagird kollektivində əlverişli, sağlam mənəvi-psixoloji iqlimin yaradılması sahəsində iş aparır;
- müəllimlər və tərbiyəçilərlə birlikdə uşaqlar və şagirdlərin təhsil müəssisəsinə adaptasiyası üzrə elmi cəhətdən əsaslandırılmış proqramlar işləyib hazırlayır və onların həyata keçirilməsində iştirak edir;
- sinif rəhbərləri və müəllimlərə şagirdlərlə fərdi iş proqramlarının tərtib edilməsi məsələlərində məsləhətlər verir;
- Praktik psixoloqun fəaliyyətində onun iş apardığı əsas kontingent şagirdlərdir.

Psixoproflaktika çox vaxt psixoterapiya ilə vəhdətdə götürülür. Çünki psixopraflaktik vəzifələrin həyata keçirilməsində adətən psixoterapevtik metod və texnikalardan istifadə olunur. Hal-hazırda belə metod və texnikaların sayı yüzlərlədir. Psixoterapevtik təsirin səmərəliliyi təsir metodu və texnikasının optimal seçilməsindən asılıdır. Qeyd etmək lazımdır ki, psixoterapiya tibb elminin tətbiqi sahələrindən biri olduğuna görə, məktəb psixoloqları peşəkar fəaliyyətlərində bu təsir metodlarından istifadə etmirlər. Bunun əsas səbəbi ondan ibarətdir ki, məktəb psixoloqlarının bu sahə üzrə müvafiq hazırlığı yoxdur və onlar səmərəli psixoterapevtik təsir vasitələri haqqında mükəmməl hazırlığa malik deyillər.

Psixoprofilaktika təlim, tərbiyə və inkişafdaləngimə, geridəqalma hallarının, xarakterdə xoşagəlməz əlamətlərin, axmaq adətlərin və meyllərin təzahürlərini vaxtında qarşısının alınmasına yönəlmiş fəaliyyət metodlarının sistemidir.

Psixoloji profilaktikanın əsas **məqsədi** insanlarda psixoloji müdafiə

bacarıqlarının formalaşdırmaqdan, psixi və davranış sahəsində meydana çıxan qüsurların aradan qaldırılması üçün müvafiq qabaqlayıcı tədbirlərin müəyyənləşdirmək və həyata keçirməkdən ibarətdir. Psixoprofilaktika psixi qüsur və pozuntu yarada biləcək amillərlə (alkaqol, siqaret, nakotik və taksioloji maddələr, aqressiv və seksual meyllər, depressiya və s.) qarşı fərdin psixoloji müqavimətini yaratmağı nəzərdə tutur. Bu istiqamətdə həyata keçirən psixoprofilaktik işlər uşaq yeniyetmə və gənclərin fiziki, psixi və mənəvi sağlamlığını qorumağı qarşısında əsas vəzifə olaraq qoyur.

Psixoprofilaktikanın fəaliyyət zonası çox genişdir. Buraya şəxsiyyət keyfiyyətlərinin psixoprofilaktikası, normativ (idrak) proseslərin psixoprofilaktikası və davranışdakı qüsurların psixoprofilaktikası daxildir. Bu cəhətdən psixoprofilaktika sahəsində iş aparan psixoloq sinif-şagird kollektivini öyrənir, uşaqların məktəb mühitinə uyğunlaşmasını müşahidə və təhlil edir, onların həmyaşıdları və yaşlılarla qarşılıqlı münasibətini öyrənir, psixiprofilaktik və psixokorreksiya istiqamətlərində iş aparmaq məqsədilə diaqnostik metodikalar paketini seçir, şagirdlərin maraq, meyl və qabiliyyətlərini aşkara çıxarır və inkişaf etdirir.

Psixoloq uşaqların qanuni hüquqlarının müdafiəçisi olmaqla yanaşı, həm də ehtiyacı olan uşaqlara psixoloji dəstək verir, qarşılaşdıqları həyatı problemlərin həllində mənəvi yardım göstərir.

### 1.6.2. Psixoloji profilaktikaya verilən əsas tələblər

Praktik psixoloqun vəzifəsi yalnız qarşılaşdığı çətinlik və ya problemlə bağlı ona müraciət edən şəxslərə yardım göstərməkdən ibarət deyil. O, həm də şagirdlər üzərində gündəlik müşahidələri əsasında qeydə aldığı faktlara əsaslanmaqla mənfi təzahürlərin qarşısını vaxtında almaq üçün əməli tədbirlər həyata keçirməlidir. Şagirdlərin rəftar və davranışında müşahidə olunan **potensial təhlükəli amillərin** neytrallaşdırmağa yönəlmiş proqramların işlənilib hazırlanması və konkret əməli tədbirlərin həyata

keçirilməsi praktik psixoloqun fəaliyyət sistemində diqqət tələb edən sahələrdən biri olmalıdır. Vaxtında həyata keçirilən **qabaqlayıcı tədbirlər** məktəb yaşlı uşaqların fiziki və psixi sağlamlığına ziyan vura biləcək amillərin qarşısını almaq,təhrif edilmiş və **təqlidi davranış modelinin,** ziyanlı həyat tərzi formalarını vaxtında aradan qaldırmağa imkan yaratmış olur. Praktik psixoloqun məktəbdə həyata keçirdiyi istənilən profilaktik tədbirlər şagirdlərin davranışına neqativ dəyişdirici təsir göstərə biləcək "**risk amilləri"nə**, onların genişlənərək kəskin xarakterli sosial-psixoloji anomaliyalara gətirib çıxarmasını əngəlləməyə yönəlməlidir.

Psixoloji profilaktika ilk növbədə məktəbdə və digər təlim-tərbiyə müəssisələrində təhsil alan uşaq, yeniyetmə və gənclərin psixi sağlamlığının qorunması və müdafiəsini nəzərdə tutur. Psixi sağlamlıq dedikdə, ilk növbədə ifadəli psixi pozulmanın olmaması, gözlənilməz stressləri aradan qaldırmağa imkan verən ehtiyat qüvvənin məcmuyu və ətraf mühitlə insan arasında tarazlığın olması nəzərdə tutulur. Psixi sağlamlığın əsas əlamətlərindən biri də fəaliyyət subyekti olan konkret şəxsdə asosial davranış təzahürlərinin olmamasıdır. Psixi sağlamlığa təhlükə törədən "risk amilləri"nin elmi cəhətdən düzgün təhlil edilib aradan qaldırılmaması get-gedə dərinləşərək mənəvi şikəstliyə gətirib çıxarmış olur.

Yaşından, tərbiyə şəraitindən, anadangəlmə psixi və bioloji qüsurlarından, ailə vəziyyətindən və fərdi xüsusiyyətlərindən asılı olaraq uşaq, yeniyetmə və gənclər neqativ təsirlərə qarşı həssaslıq səviyyələrinə görə fərqlənirlər. Bu cəhətdən məktəbdə yüksək "risk qrupu"na görə xüsusi seçilənlər azyaşlı uşaqlar, yeniyetmələr, yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlardır. Qeyd etmək lazımdır ki, psixoprofilaktik işlərin məqsəddən "risk amili"ndən asılı olaraq müxtəlif modelləri mövcuddur. Modeldən asılı olaraq profilaktikanın psixoloji metodları da geniş və çoxsahəlidir. Bu metodlar özündə bu və ya digər qüsura gətirib çıxara

biləcək kənaraçıxma hallarının qarısını amlağa xidmət edən psixoloji priyomların və bərpaedici təsir vasitələrinin məcmuyunu əks etdirir.

Müasir praktik pedaqoji psixologiyada psixoprofilaktikanın üç səviyyəsi fərqləndirilir, ilkin profilaktika adlanan **birinci səviyyə** təlimdə, davranışda və emosional aləmində ciddi problemlər olmayan uşaqlarla aparılacaq işləri nəzərdə tutur. İkinci psoxoprofilaktika "risk qrupuna" aid edilən, qeyd olunan səhələr üzrə müəyyən problemləri olan uşaqlarla işin təşkilini, üçüncü psixoprofilaktika isə, təlimdə və davranışda aydın ifadəli qüsurları olan uşaqlarla iş sistemini təşkili və həyata keçirilməsini nəzərdə tutur. Məhz bu səviyyədə psixoloqun həyata keçirdiyi profilaktik tədbirlər paralel olaraq korreksiyaedici işlərlə uzlaşdırılaraq həyata keçirilir.

Təhsil sisteminə daxil olan təlim-tərbiyə müəssisələrinin tiplərindən asılı olaraq psixoloq aşağıdakı müvafiq psixoprifilaktik işləri yerinə yetirir:

- uşaqların bağçaya adaptasiyası dövründə onlara kömək etmək, bu məqsədlə valideynlərlə və ya onları əvəz edən şəxslərə tövsiyələr vermək;
- böyük qrupdan məktəbə hazırlıq qrupuna keçid dövründə təlimə hazırlıq məqsədilə uşaqların müayinəsini keçirmək, tərbiyəçilərə, valedeynlərə və ya onları əvəz edən şəxslərə məktəbə hazırlıq sahəsində müşahidə olunan mümükün geridəqalmanın aradan qaldırılması üçün tövsiyələr vermək;
- uşaq üçün müvafiq təlim-tərbiyə müəssisəsinin seçilməsi məqsədilə onların məktəb təliminə psixoloji hazırlıq səviyyəsinin müəyyənləşdirməsi, qabiliyyətlərinin erkən təzahürlərinin, inkişafda geridəqalma və ya ləngimənin aşkara çıxarılması və onların korreksiyasının həyata keçirilməsi;
- müəllimlərlə birlikdə ehtiyacı olan uşaqlar üçün fərqi proqramların işlənib hazırlanması;
- internat tipli müəssisələrə uşaqların qəbulu zamanı onların inkişafı və

sosial psixoloji reabilitasiyası üçün maksimum əlverişli şəraitin yaradılması məqsədilə psixoloji müayinələrin keçirilməsi;

- uşaqların həyat, təlim və tərbiyəsi şəraitindən asılı olaraq onlarda psixoloji yüklənmə və nevrotik pozğunluqlara səbəb olan amillər haqqında xəbərdarlıq etmək;
- pedaqoqların uşaqlarla, öz həmkarları və valideynlərlə münasibətlərini sağlamlaşdırmaq məqsədilə təlim-tərbiyə müəssisəsində əlverişli mikropsixoloji iqlimin yaradılmasını təmin etmək, müəssisə işçiləri arasında geniş məsləhətlər keçirmək;
- məktəbəqədər müəssisənin və məktəbin psixoloqunun peşəkarlıq səviyyəsi, qarşıda duran problemləri savadlı həll etməsi əsasən psixoprofilaktik işlərin aparılmasından asılı olaraq qiymətləndirilir. əgər hər hansı bir yaş gövründə uşağın normal inkişafı şəraiti pozulursa, sonrakı mərhələdə əsas fəaliyyəti və diqqəti şübhəsiz ki, korreksiya üzərinə yönəltmək və xüsusi inkişafetdirici iş aparmaq lazım gəlir.

**VI fəsilə aid suallar və tapşırıqlar:**

1. *Təhsil sistemində psixoloji profilaktika işinin mahiyyəti nədən ibarətdir?*
2. *Psixoloji profilaktikaya verilən əsas tələblər hansılardır?*
3. *Onun qarşısında duran əsas vəzifələri sadalayın.*
4. *Psixoloji profilaktikanın səviyyələri hansılardır? Hər üç səviyyənin xüsusiyyətlərini söyləyin?*
5. *Məktəbəqədər yaşlı uşaqlarla aparılan psixoloji profilaktika işinin məzmununa nələr daxildir?*
6. *Məktəb yaşının müxtəlif mərhələlərində aparılacaq psixoprofilaktika işlərinin məzmununu şərh edin.*
7. *Tərbiyəçi, müəllim və valideynlərlə aparılacaq psixoloji profilaktika işinin məzmununu və formalarını söyləyin*

## VII fəsil
## Psixoloji konsultasiya
### 1.7.1. Psixoloji konsultasiyanın elmi-nəzəri əsasları

Psixoloji yardımın strukturunda psixoloji konsultasiyalar (məsləhətlər) mühüm yer tutur. **"Psixoloji yardım"** öz mahiyyətinə görə, psixoloji xidmət sistemində geniş işlədilən tutumlu anlayışlardan biridir. O, özündə nəzəri və praktik əhəmiyyətli, çoxcəhətli, geniş bilikləri əks etdirir. Psixoloji yardım ən xırda, adi məişət problemlərinin həlli üçün məsləhətlərdən tutmuş ciddi münaqişələrin həlli üçün sosial-psixoloji treninqlərə, tibbi psixoterapiya metodlarına qədər çox geniş təsir vasitələrini əhatə edir. Psixoloji yardım göstərən məsləhətçi-psixoloqun peşəkarlıq səviyyəsi onun müştəri ilə münasibətlərinin qurulmasının, onlar arasında əməkdaşlığın əsas şərtidir. Müştəriyə psixoloji yardımın müasir metod və metodikalarını bilmədən, praktik təcrübəyə malik olmadan psixoloq öz fəaliyyətində müsbət nəticə əldə edə bilməz. Onun fəaliyyəti adi nəsihətçilik, müştərinin halına sadəcə olaraq acımaq, ondan kədərlənmək kimi emosional hallardan uzağa gedə bilməz ki, bu da əməli faydası olmayan haldan başqa bir şey deyildir.

"Psixoloji yardım" anlayışı insanın psixi həyatına aid çətinliklərlə bağlı problemlərin, məsələlərin həll edilməsi, aradan qaldırılması ilə əlaqədar fəliyyət sahəsini, psixososial praktikanı əhatə edir.

Psixoloji yardımla məşğul olan mütəxəssisin fəaliyyət sahəsi sosial varlıq kimi insanın psixi həyatından tutmuş onun psixi xüsusiyyətlərinə kimi geniş problemlər dairəsini əhatə edir. Psixoloji yardım insana və cəmiyyətə müxtəlif problemlərin həlli üçün nəzərdə tutulan təsirləri və fəaliyyət üsullarını özündə əks etdirən psixoloji xidmət sahələrindən biridir. Rus psixoloqu M.K.Tutuşkunanın fikrincə, "psixoloji yardım" anlayışının tərkibunə psixodiaqnostika, inkişaf korreksiyası, psixoterapiya,

müxtəlif treninqlər, davranışda kənaraçıxmanın profilaktikası, peşəseçmə və s. daxildir.

XX əsrdə insanların psixoloji yardıma olan tələbatı **sosial işçi, psixoloq-məsləhətçi, psixoloq-psixoterapevt** kimi bir sıra yeni peşələrin meydana gəlməsinə səbəb olmuşdur. Çoxsaylı elmi ədəbiyyatların təhlili göstərir ki, insan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, o, şəxsi və ictimai həyatda qarşılaşdığı problemlərin həllində, çətinliklərin aradan qaldırılmasında başqa adamların köməyindən istifadəyə ehtiyac duymasın.

Müasir psixoloji ədəbiyyatlarda psixoloji yardımın aşağıdakı tətbiqi sahələrinin adları qeyd olunur:

1. Uşağın psixi - ruhi inkişafına yardım ("Edip kompleksi"nin aradan qaldırılması, emosional tələbatların təmin edilməsi, dayanıqlı əxlaq normalarının qazanılması və s.;
2. Yeniyetmənin ekzistensial və şəxsi problemlərinin həllinə yönəldilən yardım;
3. Ailə və nigah problemi ilə bağlı psixoloji yardım;
4. Psixi və şəxsi sağlamlıq problemlərinin həlli;
5. Ölməkdə olan adama psixoloji yardım və kədərin psixoterapiyası;
6. Qocalıq dövrünü keçirən adamlara psixoloji yardım;
7. Kazarma, xəstəxana, həbsxana rejimində, tələbə şəhərciyində yaşayan şəxslərə psixoloji yardım;
8. Böhranlı vəziyyətlərdə (qəfil ölüm, zorlanma, xəyanət, məhəbbətin itirilməsi və s.) insanlara göstərilən psixoloji yardım;
9. Məktəblilərə psixoloji yardım;
10. Mühacirlərə, etnik azlıqlara yeni həyat şəraitinə uyğunlaşma ilə əlaqədar göstərilən psixoloji yardım;
11. Peşəkar məsləhətvermə;
12. İdarəetmə sahəsində psixoloji yardım.

Psixoloq -məsləhətçinin müştəri ilə ünsiyyət şəraiti bir sıra amillərdən asılıdır. Buraya müştərinin şəxsiyyəti və onun həyəcanları, psixoloq - məsləhətçinin özünün şəxsiyyəti və peşəkarlıq səviyyəsi, onlar arasındakı qarşılıqlı münasibətlərin xarakteri daxildir. Tərəflər arasında ünsiyyyətin normal səviyyədə alınması həm də bir sıra xarici amillərdən, xüsusilə müştərinin müraciətini şərtləndirən səbəblərdən də asılıdır. Aydındır ki, "**insan-insan" münasibətləri** üzərində qurulan hüquqşünas, müəllim, həkim, dindar, rəhbər işçi, hətta ofisiant kimi peşə adamlarına müraciətlə psixoloqa yardım üçün edilən müraciətlər arasında çox böyük fərqlər vardır.

Rus psixoloqu **A.A. Bodalev** psixoloji yardımın yönəldiyi sahələrə və aparılacaq içlərin xarakterinə insanlara göstərilən yardımın pedaqoji, diaqnostik, sosial, tibbi olmaqla bir neçə modelinin adlarını qeyd edir.

Bununla yanaşı, müasir təcrübədə daha geniş yayılan model xüsusi pedaqoji modeldir ki, bu da əsasən psixoterapevtik mahiyyət daşıyır. Müasir psixoloji ədəbiyyatlarda psixoloji yardımın formaları müxtəlif göstəricilər əsasında təsnif edilir:

**1. Təsir müddətinə görə:** təxirəsalınmaz, **təcili psixoloji yardım**. Psixoloji yardımın bu forması mürəkkəb psixoloji vəziyyətlərdə zəruridir. Məsələn, təqib, intihar cəhdi, zorlama zamanı və s. Belə yardımlar **inam xidməti, inam telefonları** vasitəsilə göstərilir, anonimliyə zəmanət verir. Çətin həyati situasiyalarda, psixoloji böhran, münaqişələr zamanı psixoloji yardım məsləhətvermə şəklində həyata keçirilir.

**2. İstiqamətinə görə:** **birbaşa** psixoloji yardım. Belə yardım müştərinin müraciətinə əsasən ona bilavasitə göstərilən yardımı nəzərdə tutur. Burada **həmrəylik** və **qabaqlayıcı** xarakterli yardım formalarına da rast gəlinir ki, bu da adətən ailə xidmətində səciyyəvi olan yardım formaları hesab olunur;

**3. Təşkil olunma yerinə görə: kontakt** (bu zaman psixoloq müştəri ilə üz-üzə söhbət aparır) və **distant** psixoloji yardım. (bu zaman müştəriyə yardım telefonla və ya yazılı şəkildə göstərilir);

**4. Psixoloqun yerinə yetirdiyi funksiyalara görə:** diaqnostik (psixoloji diaqnozun qoyulması, fərdiliyin psixoloji portretinin təsdiq edilməsi), dispetçer (lazımi mütəxəssisin göndərilməsi), informativ ( müştəri, onun ailəsi, sosial əhatəsi, vəziyyəti haqqında məlumatların toplanması), korreksion, konsultativ, terapevtik xarakterli psixoloji yardım:

**5. İştirakçıların sayına görə: fərdi** və **qrup** formalı psixoloji yardım;

**6. Psixoloqun müdaxiləsinə görə: direktiv** (məsləhət vermənin icbariliyi) və **qeyri-direktiv** (müştərinin istəyinə uyğunlaşan).

İctimai təcrübənin müxtəlif sahələrində geniş tətbiq olunan psixoloji xidmətin zəruri komponentlərindən biri olan psixoloji yardımın ən geniş forması **psixoloji məsləhətvermədir**. "Psixoloji məsləhətvermə" anlayışına birmənalı yanaşmaq və konkret tərif vermək çox çətindir. Bununla belə psixoloji xidmətin demək olar ki, bütün sahələrində, psixoloji biliklərdən istifadə olunan istənilən fəaliyyət sahəsində psixoloji məsləhətvermə iş formalarından biri kimi geniş tətbiq olunur. Məsləhətvermənin geniş tətbiq sahələri içərisində peşəseçmə üzrə məsləhətvermə, pedaqoji, sənaye, rəhbər işçilərin konsultasiyası və b. xüsusi yer tutur. Müasir dövrdə psixoloji məsləhətvermə artıq psixoterapiyanın himayəsi altından çıxaraq psixologiya elminin və praktikasının müstəqil sahəsinə çevrilmişdir.

Psixoloji məsləhətvermə hər şeydən əvvəl qabaqlayıcı, himayəedici kömək forması olub, arzuedilməz mürəkkəbləşmədən xilas olmaq üçün müştəriyə göstərilən əməli yardımdır. Psixoloji yardım almaq, bu xidmət növündən istifadə etmək hüquqi baxımından hər bir vətəndaşın insan haqları ilə müəyyən edilmiş bəşəri hüquqlarından biridir. Rus psixoloqları P.P.Qornostay və S.V.Vaskovskaya psixoloji məsləhətverməni "**ilkin psixoterapiya"**, V.Y.Menovşikov isə "**psixologiyanın başlanğıc mərhələsi**"

kimi xarakterizə etmişlər. Onlar psixoloq-məsləhətçini müştəri ilə psixoterapevt arasında vasitəçi adlandırırlar. Məsləhətvermə prosesində psixoloq bir qayda olaraq müştəriyə düşdüyü çətin vəziyyətdən çıxmaq yollarını göstərir, şəxsi həyat problemlərinin həllində istiqamət verir, onun psixi qüvvələrini və qabiliyyətlərini aktuallaşdırmaqda, problemin həlli üçün yeni imkanların tapılmasında kömək göstərir.

Konsultativ təcrübədə daha çox **söhbət metodundan** istifadə olunur. Müştəri ilə aparılan söhbətin diaqnostik və psixoterapevtik olmaqla iki əsas növü fərqləndirilir. Söhbətin diaqnostik vəzifəsi müştəri haqqında zəruri informasiyanın toplanması, problemi doğuran situasiyanın təhlilindən ibarətdir. Bu zaman məsləhətçi-psixoloq işə problemi doğuran səbəbləri və onların mənbələrini araşdırmaqdan başlayır.

Söhbətin terapevtik vəzifəsi psixoloji yardımın xüsusi üsullar və texnika vasitəsilə istifadəsinə əsaslanır. Burada əsas məqsəd müştəriyə psixoloji dəstək göstərmək, onun psixi vəziyyətini optimallaşdırmaq, psixi imkanlarını aktuallaşdırmaqdan ibarətdir.

Psixoloq – məsləhətçinin fəaliyyət sxemini şərti olaraq aşağıdakı kimi göstərmək olar:

**Problemin aşkar edilməsi → diaqnoz → faktların təhlili → müdaxilə planı → məsləhətvermə şəklində müdaxilə → müştəri ilə məsləhət-çinin birgə fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi.**

Psixoloji məsləhətvermənin təşkili və aparılmasına müxtəlif yanaşmalar mövcuddur. Bir çox psixoloqlar psixoloji məsləhətvermənin təşkilində yaş amilini əsas meyar hesab edirlər. Yaş kateqoriyası baxımdan psixoloji məsləhətvermə 15 yaşadək olan uşaqlar üçün məqsədəuyğun hesab edilmir. Bu yaş dövrünədək uşaq məhsuldar şəxsiyyət kimi qəbul edilmir, tam müstəqil və öz hərəkətləri üçün cavabdehlik hissinə tam şəkildə malik deyildir. Ona görə də, bu yaşlı uşaqlara göstərilən psixoloji yardımın əsasən **psixoterapevtik** və ya

**korreksion köməkdən** ibarət olması məqbul hesab edilir. Yaşlı həyat dövründə isə məsləhətvermə ildən ilə öz nəticəsini itirir. Belə ki, bu yaş dövründə müvafiq yaş dövrü üçün səciyyəvi olan tələbatlar və şəxsiyyətin özü dəyişir. **Qocalıq dövründə** isə vəziyyət daha kəskin xarakter alır: insanın xarakteri dəyişir, öz hərəkətlərinə cavabdehliyi azalır,qocalıqönü ağıl kəmliyi və əmək məhsuldarlığının aşağı düşməsi insanın başqalarından asılılığına səbəb olur.

Psixoloji məsləhətvermənin keçirilməsi bir sıra prinsiplərə, tələblərə əsaslanır. Psixoloji məsləhətvermənin nisbətən bitkin və mükəmməl təsnifatı rus psixoloqları P.P. Qornostay və S.V.Vaskovskaya tərəfindən verilmişdir. Onlar öyrənilən konkret psixoloji problemlərin xarakterindən asılı olaraq psixoloqun fəaliyyətini **"problemli yanaşma"** mövqeyindən öyrənmiş və aşağıdakı prinsipləri müəyyən etmişlər:

1. **Səbəbiyyət prinsipi**. Psixoloq müştərinin problemini doğuran səbəb və mexanizmləri öyrənir, onların xarici təzahürləri onun üçün o qədər də əhəmiyyətli deyildir.

2. **Konsultativ alyans prinsipi** psixoloqla müştəri arasında yüksək qarşılıqlı inam və səmimiyyətin, açıqlığın olmasına əsaslanır.

3. **Problemli diaqnostika prinsipi** psixoloji çətinliklərin səbəbi və xarakterinin müəyyənləşdirilməsini nəzərdə tutur. Bəzən qoyulmuş fərziyyənin yoxlanılması üçün diaqnostik metodikaların tətbiqi lazım gəlir.

4. **Səmərəlilik prinsipi.** Bu prinsip hadisələrə qeyri-standart yanaşmanı nəzərdə tutur. Psixoloq - məsləhətçi zəruri hallarda müştərinin dili ilə danışmalı, müvafiq situasiyaya uyğun olaraq müstəsna tövsiyələr (məsələn, uşağın tərbiyəsi, konfliktli vəziyyətdən çıxmaq məsələləri üzrə) verməklə yanaşı, əsasən sınaqdan çıxarılmış, yoxlanılmış məqsədəuyğun metodlardan istifadəyə üstünlük verməlidir.

5**. Psixoloji vasitəlilik prinsipi**. Bu prinsipə əsasən məsləhətçi-psixoloq münaqişə tərəfləri arasında üçüncü tərəf rolunda çıxış etməklə onlar

arasında barışığın, kompromisin yaradılmasına nail olmağı bacarmalıdır.

6. **Qeyri-manipulyativ yanaşma prinsipi** müştərinin şəxsən sərbəst qərar qəbul etməsinə stimul yaratmaq imkanının reallaşdırılmasını nəzərdə tutur.

7. **Peşəkarıq prinsipi** - psixoloji vəzifələrin adekvat şəkildə yerinə yetirilməsini, müştəridə özü haqqında "hər şeyə qadirlik" kimi illüziyanın yaradılması fikrindən uzaq olmağı nəzərdə tutur.

8. **Müştərinin özünün özünə yönəlişliyi.** Bu prinsipə görə müştərini xarici deyil, daxili aləminə yönəltmək lazımdır.

9. **Konsultasiyanın nəticələrinin təhlili prinsipi**. Psixoloq apardığı məsləhətvermənin nəticələrini təhlil etməli, problemin ayrı-ayrı cəhətlərinə həssaslıqla yanaşmalı, bu əsasda da peşəkarlıq baxımından refleksiyaya sahib olmalıdır.

Psixoloq - məsləhətçi nə qədər peşəkar bir mütəxəssis olsa da, o öz əməli fəaliyyətində şəxsi mövqeyi ilə elmi-nəzəri yanaşmaları uzaqlaşdırmağı bacarmalıdır.

1. Konsultant –məsləhətçi müştəriyə birbaşa məsləhətlər verir;
2. Konsultant köməkçi – müştəriyə öz intellektual potensialını müəyyənləşdirməkdə, daxili imkanlarını hərəkətə gətirməkdə, aktuallaşdırmaqda kömək edir;
3. Konsultant – ekspert müştəriyə problemli situasiyanın həllinin daha optimal variantını göstərir, onunla birgə daha müvafiq variantın müəyyən edilməsində iştirak edir.

Yerinə yetirdiyi xeyirxah vəzifələrə, daşıdığı funksiyalara görə psixoloji ədəbiyyatlarda psixoloq-məsləhətçini **"səbrli dinləyici", "ağıllı analıtik", "psixoloji qanunauyğunluqların mahir bilicisi", "mənəvi rəhbər", "ruhun mühəndisi", "bacarıqlı fasilitator"** və s. kimi çoxsaylı adlarla səciyyələndirirlər.

Praktik psixoloq-məsləhətçinin istinad etdiyi ümumiləşmiş elmi

biliklər tarixən təşəkkül tapmış müxtəlif nəzəriyyələrdən qaynaqlanır.

Müasir dövrdə psixoloq - məsləhətçinin praktik fəaliyyətdə istinad etdiyi əsas psixoloji cərəyanların xarakteristikalarını nəzərdən keçirək.

**1. Psixoanaliz və ya Z.Freydin psixodinamik nəzəriyyəsi.** (Sonralar Freydin ardıcılları A.Adler, E.Erikson, F.Fromm, K.Xorin, K.Yunq, V.Rayx tərəfindən bu nəzəriyyənin çoxsaylı modifikasiyaları yaradılmışdır).

Psixoanalizin başlıca vəzifəsi insanı idarə edən şüuraltı sahənin öyrənilməsindən, məqsədi isə, müştəriyə öz şüuraltı proseslərini dərk etmədə, stereotiplərə əsaslanan davranışın formalarından və təfəkkürdən uzaqlaşmaqda kömək etməkdən ibarətdir. Psixoanaliz nəzəriyyəsinin mərkəzi problemlərindən biri də şəxsiyyətə təsir göstərən xarici (sosial)qüvvələrlə daxili (psixi) qüvvələr arasında balansın saxlanılması məsələsidir. Psixoanalizə görə, insanı onun emosional davranışın mexanizmlərini öyrənməklə dərk etmək olar. Psixodinamik nəzəriyyə əsaında öz işini quran psixoloq müsahibə prosesində öz işində sərbəst assosiasiya, gündəlik simvolların və səhvlərin təhlili, müştərinin şüuraltı hisslərinin, yuxugörmələrinin, sıxışdırılma mexanizminə qarşı göstərdiyi müqavinətin təhlili kimi texnikalardan istifadə edir.

**2. Biheviorist istiqamət** praktik psixoloqun peşəkar fəaliyyətində istinad etdiyi metodikalardan biridir.Bu nəzəriyyə əsasında psixoloji məsləhətvermə xidmətini həyata keçirən psixoloq müştəriyə öz hərəkətləri üzərində nəzarəti həyata keçirməkdə kömək etmək məqsədini qarşıya qoyur. Klassik biheviorizmin nümayəndələri olan E.Tolmen, K.Xall, C.Uotson və B.Skinner belə hesab edirlər ki, ətraf mühit insanın şəxsiyyətinə təsir göstərir. Psixoloq əməkdaşlıq yolu ilə müştərinin həyat şəraitini dəyişdirmək məqsədilə onun həyatına müdaxilə etməlidir. Biheviorist nəzəriyyə iş metodu kimi aşağıdakıları təklif edir:

1. Müştərinin fəallığının rəğbətləndirlməsi (stimullaşdırılması).
2. Davranışın operantlaşdırılması vasitəsilə müştərinin problemlərinin

müəyyənləşdirlməsi.

3. Funksional təhlil vasitəsilə problemin mahiyyətinin aydınlaşdırılması (səbəb-nəticə əlaqələrinin aşkar edilməsi).
4. Müştəri üçün sosial cəhətdən vacib məqsədlərin (konkret fəaliyyət planının) qurulması.

Biheviorial nəzəriyyəyə əsaslanın məsləhətvermə metodikası zamanı dözümlülüyün inkişaf etdirilməsi üçün müxtəlif **treninqlərdən, məşqetdirici təmrinlərdən, rollu oyunlardan, müştəridə lazımlı davranışın dəstəklənməsi, çətin situasiyaların irəlicədən proqnozlaşdırlması** və s. kimi texnikalardan istifadə olunur.

**3. Psixologiyada humanist istiqamətin** ( K.Rocers, F.Perlz, V.Franki, C.Moreno) əsas metodoloji mövqeyi ondan ibarətdir ki, hər bir insanın sərbəst yaşaması, fəaliyyət göstərməsi və öz taleyini müəyyənləşdirməsi onun özünəməxsus olmalı, bütün bunlara nəzarət, qərar qəbulu onun özü tərəfindən həyata keçirilməlidir.

Psixoloq ona müraciət edən şəxsə müştəri kimi baxmalı, düşdüyü çətin vəziyyətdən çıxmaqda ona kömək etməlidir. O, müştərini mühakimə etməməli, əksinə, fəal, yaradıcı, dəqiq qərar qəbul etməli, müştərini dəstəkləməli və qəbul etdiyi qərarın məsuliyyətini dərk etməlidir. Bu nəzəriyyəyə əsaslanan texnoligiya ilə öz işini quran psixoloq konkret müştərinin daxili aləminə nüfuz etməklə onu duymağa çalışır. Psixoloq **real** və **ideal "Mən"** obrazının əsasında konqurentlik yaratmalı və bu ziddiyyətlərlə işləməlidir.

Bu metodika əsasında iş aparan psixoloq - məsləhətçi bir sıra texnikalardan **("burada və indi", direktivlik, nitq dəyişkənliyi, boş kreslo metodu, "öz "Mən"inin hissəsi ilə söhbət", "yuxarıdakı itlə" – avtoritar, direktiv və "aşağıdakı itlə"** – (passiv, günah hissi keçirən, bağışlanma üçün fürsət axtaran) **dialoq, yuxularla iş** və s. istifadə edir.

Müasir psixoloji konsultasiya nəticəsində humanistik psixologiyanın

təsirli iş metodları kimi **eklektika, geştaltterapiya, davranış terapiyası** daha geniş yayılmışdır.

Psixoloqun müştərinin problemlərinin peşəkar həllində istinad etdiyi əsas psixoloji məsləhətvermə metodu **müsahibədir.** Psixoloq müsahibə zamanı suallardan istifadə etməklə müştəriyə təsir göstərir. Psixoloji ədəbiyyatlarda müsahibənin beş mərhələli modeli göstərilir.

Hər bir mərhələnin qısa məzmununa nəzər yetirək:

1. Müştəri ilə psixoloq arasında qarşılıqlı münasibətlərin qurulması, psixoloji komfort və inamın yaradılması; (adətən bu salamlaşma ilə başlanır).
2. "Nə kimi probleminiz var?" – sualı ilə psixoloq – məsləhətçinin müştəriyə müraciəti və problemin mahiyyətinin öyrənilməsi;
3. "Siz nəyə nail olmaq istəyirsiniz?" - sualı ilə müştərinin istəklərinin, arzu edilən nəticələrinin müəyyən edilməsi;
4. "Biz sizin istəyinizin həyat keçirilməsi üçün baxaq görək nə edə bilirik?" - sualı ilə problemin həlli üçün alternativ həll yollarının müəyyən edilməsi;
5. Nəticələrin ümumiləşdirilməsi. ( Siz belə edəcəksinizmi?").

Psixoloji konsultasiya üzrə iş aparan praktik psixoloqun məsləhətvermə və psixoterapiya sahəsində ümumi qanunauyğunluqlara əsaslandığı sınaqdan çıxmış psixoloji təsir metodları **sirayət** (yoluxma), **təlqin, inandırma** və **təqliddən** ibarətdir.

**Sirayət (yoluxma)** ünsiyyət prosesində həyata keçirilən psixoloji təsir metodlarından biri olub, şüursuz, qeyri-ixtiyari xarakter daşıyan davranış nümunəsidir.

Psixoloji sirayət kütlə psixologiyası üçün tipik olan hadisə olsa da, bu effektə kiçik qruplarda da təsadüf olunur. Dini eksztaz, kütləvi psixoz hadisələri, əhəmiyyətli idman yarışları, ritual rəqslər zamanı adamların rəftar və davranışı asanlıqla kütlənin (çoxluğun) təsiri altına düşür və ona

uyğunlaşır. Belə hallarda qızışan ehtirasların şüurlu idarə olunması zəifləyir, insanlar kütləyə qoşulub yersiz hərəkətlər edir, qışqırırlar. (futbol azarkeşləri, ixtişaşlar, inqilabi çıxışlar, mitinq və küçə yürüşləri və s.).

Psixoloji surayət həm də adamların psixoloqa inamına əsasən yaranan hallardan biridir. İnformasiyanı xüsusi emosional tərzdə, hiss və həyəcanla, ritmlə ifadə edən psixoloq məsləhətçi adamların böyük hissəsində öz qüdrətinə inam yaratmış olur. (sehirbaza, falçıya inam bəslənilən kimi)

**Təlqin** bir adamın başqalarına yönəlmiş məqsədəyönlü, niyyətli, xüsusi növ təsir formasıdır. Təlqin üçün səciyyəvi cəhət ondan ibarətdir ki, bu zaman hər hansı bir adamın bir və ya bir neçə adama verdiyi informasiya onlar tərəfindən qeyri-tənqiqi surətdə qavranılır. Təlqin verbal (sözlü) təsir vasitələri ilə həyata keçirilir.

**İnandırma** məntiqi əsaslandırma əsasında informasiyanı qəbul edən şəxsi razılaşdırmaqdan ibarət təsir prosesidir. Bu prosesdə informasiyanı qəbul edən şəxs müstəqil qərara gəlir. Təlqin emosional – iradi xarakterli təsir forması olduğu halda, inandırma daha artıq intellaktual təsir forması kimi qiymətləndirilir.

Psixoloji təsirin sonuncu variantı olan **təqlid** başqa adamların davranışının xarici təzahürlərinin və ya kütləvi psixoloji vəziyyətlərin sadəcə olaraq qəbul edilməsinə deyil, nümayişkaranə davranış obrazlarının, əlamətlərin qavranılması və yadda saxlanılmasına əsaslanır. Təqlidin bir neçə növü fərqləndirilir:

a) məntiqi və məntiqdənkənar təqlid;

b)daxili və xarici təqlid;

c) moda və ənənələrin təqlidi;

ç) bir sosial sinif daxilində təqlid və bir sosial sinfin digərini təqlid etməsi.

Müasir dövrdə psixoloqlar şəxsiyyətin situasiyadan kənar dərk olunmasının mümükünsüzlüyü fikrini irəli sürməklə, insanın həyat şəraiti

ilə onun şəxsiyyəti arasında sıx əlaqənin mövcud olması reallığını qəbul edirlər. Bu postulatın müdafiəçilərindən biri olan və psixoloji stress anlayışını elmə daxil etmiş R.Lazurus qeyd edir ki, insan özü üçün çətinlikləri və stress faktorlarının yaradılmasının əsas subyektidir. Onun toxunduğu problemlər insanın məişət həyatı ilə bağlı olan problemlərdir. Bu problemləri **"həyatın epizodları"** adlandıran R.Lazurus qeyd edir ki, bu problemlər insanın ruhunda onun istədiyindən də dərin izlər buraxır. İnsanın psixoloqa tez-tez müraciəti bəzən boş və mənasız görünsə də, müştəri problemlərinin həll yolunu bu müraciətdə axtarmalı olur. Vasvası olan, öz sağlamlığına hədsiz diqqət yetirən, daxili problemləri olan adamlar psixoloqa daha çox müraciət edirlər. Məsələn, qohum-əqrabası və dostları olmayan təqaüdçülər özlərinə daha çox diqqət yetirirlər. Özü haqqında bilikləri olan adamlar öz uğur və uğursuzluqlarına haqq qazandırmaq üçün müxtəlif vasitələrə əl atırlar. İntellektual, emosional və fiziki bioritmləri düzgün hesablamaqla insan onu gözləyən fəallığın, əhvalın enməsinə sakit münasibət bəsləyə və bunun keçici fizioliji proses olduğunu dərk edə bilər.

### 1.7.2. Psixoloji konsultasiyanın məqsədi, vəzifələri və prinsipləri

Psixoloji konsultasiya psixoloji praktikanın terapiyadan ayrılmış nisbətən yeni və müstəqil sahələrindən biridir. Bu sahə klinik qüsurları olmayan, lakin psixoloji yardıma ehtiyacı olan insanların həyati təlabatlarından yaranmışdır.

Hər bir insan doğrudan da, gündəlik həyatda çoxsaylı probemlərlə qarşılaşır. Işdəki çətinliklər, şəxsi həyatda və ailədəki problemlər, məktəbdə təlim uğursuzluqları, özünəinamsızlığın və özünəhörmətin aşağı olması, qərar qəbul etməkdə üzücü tərəddüdlər, ünsiyyət və münasibətlər yaratmaqda qarşıya çıxan maneə və çətinliklər və s. buna misal ola bilər. Psixoloji

konsultasiya psixoloji praktikanın və xidmət sisteminin yeni sahələrdən biri olduğuna görə, onun dəqiq müəyyən edilmiş sahələri mövcud deyildir və ona görə də, onun predmetinə ən müxtəlif problemlər daxildir.

Psixoloqlar **psixoloji konsultasiyanın predmetini** müxtəlif nöqteyi-nəzərdən izah edirlər. Məsələn, ABŞ psixoloqları H.Burks və B.Steffirin fikrincə, "konsultasiya ixtisaslı konsultantın müştəriyə "şəxsiyyət-şəxsiyyət" tipli münasibətlər çərçivəsində göstərdiyi peşəkar yardımdır".

ABŞ psixoloqu L.Bramer yazir ki, "konsultasiya peşə karyerası, nikah, ailə, şəxsiyyətin təkmilləşdirilməsi və şəxsiyyətlərarası münasibətlər zəminində yaranan problemlərin həllində insana yönəldilmiş proseduraların məcmuyudur". Psixoloji konsultasiyanın **məqsədi** müştərinin gündəlik həyatda qarşılaşdığı şəxsiyyətlərarası və emosional xarakterli çətinlikləri anlamaqda və onların həll edilməsində kömək göstərməkdən ibarətdir. Konsultasiya hər bir insana öz şəxsi istəklərinə uyğun davranış proqramı seçməkdə və ona müvafiq hərəkət etməkdə, yeni şəraitə uyğunlaşmaqda, şəxsiyyətin **iradi, intellektual** və **emosional** sahədə yaranan problemlərin həllində kömək göstərmək məqsədi daşıyır.

Psixoloji konsultasiya sahəsində çalışan mütəxəssis ona müraciət edən müştərinin şəxsiyyətinə hörmətlə yanaşmalı, onun fərdiyyətini, yaşama hüququnu tanımalı, sərbəst seçim hüququna hörmət bəsləməlidir. Mütəxəssis- konsultant belə bir cəhəti diqqət mərkəzində saxlamalıdır ki, istənilən təlqin və təziq insana öz problemlərini düzgün həll etməkdə, hərəkətləri üçün məhsulliyyəti öz üzərinə götürməkdə mane olur. Psixoloq – məsləhətçiyə yardım üçün müxtəlif adamlar və müxtəlif məqsədlərlə müraciət edə bilərlər.

Müasir psixoloji konsultasiya praktikasında aşağıdakı istiqamətlər geniş yayılmışdır:

- Psixoanalitik istiqamət;
- Adler istiqaməti;

- Davranış terapiyası;
- Rasional-emosional terapiya (A.Ellis);
- Müştəriyə yönəlmiş terapiya (K.Rocers);
- Ekzisteksial terapiya.

Psixoloji konsultasiyanın bir tərəfdən ümumi, digər tərəfdən qlobal, perspektiv, spesifik, konkret və qısamüddətli məqsədləri ola bilər. Təhsil müəssisələrində həyata keçirilən psixoloji konsultasiya şagirdin davranışının dəyişdirilməsinə yönəldiyindən əsasən konkret məqsədlərə xidmət edir. Konsultasiya işi aparan məktəb psixoloqunun qarşısına qoyduğu məqsədlər adətən şagirdin, müəllim və valideynlərin tələbatlarından, rol gözləmələrindən asılı olaraq formalaşır. Psixoloq ona müraciət edən müəllim və valideynlərə "**Siz bizim ünsiyyətimizdən nə gözləyirsiniz**?", **"Sizin istəyiniz nədir?"** və s. kimi suallarla müraciət edərək, onların konkret məqsədlərini müəyyənləşdirməlidir. Onlar arasında yaranan dialoq psixoloqa öz məqsədlərini, nə kimi məsləhət və tövsiyələr verəcəyini müəyyən etmək imkanı vermiş olur. Müəllim və valideynlərin çoxu adətən psixoloqa ümidlə müraciət edir və belə hesab edirlər ki, o dərhal hansısa bir köməklik göstərəcəkdir. Ona görə də, müraciət edənlərin ümidini qırmamaq üçün psixoloq anlamalıdır ki, hər bir adamın psixoloji yardıma ehtiyacı ola bilər. Psixoloq sehirbaz deyildir, o da adi bir insandır və onun da həyati problemləri olmamış deyildir. Böhranlı, münaqişəli vəziyyətlərdən çıxmağın optimal yolları olmamış deyildir. Psixoloq müəllim və valideynlərə bu mövqedən yanaşaraq onlarla fəal əməkdaşlıq mühiti yaratmaq yolu ilə problemlərinin həlli üçün peşəkar yardım göstərə bilər.

Psixoloji yardımın **konsultasiya** və **psixoterapiya** olmaqla iki əsas sahəsi vardır. Çox vaxt isə bunları bir-birindən qəti şəkildə ayırmaq mümkün olmur. Belə ki, psixoloji yardımın iki sahəsini bir-birindən fərqləndirilməsi tam şərtidir. Psixoloji konsultasiyada da pisixoterapiyada olduğu kimi, eyni peşəkar vərdiş və qaydalardan istifadə olunur. Hər iki halda müraciət edən

şəxsə kömək konsultant (psixoterapevt) arasında eyni qarşılıqlı təsirə əsaslanır. Bir çox psixoloqlar bu oxşar cəhətlərə və işin oxşar olmasına görə psixoloji konsultasiya ilə psixoterapiya anlayışlarını sinonim anlayışlar hesab edirlər. Bununla belə, bir sıra inkişaf etmiş ölkələrdə psixoloji yardımın bu iki forması qismən fərqləndirilir və psixoterapiya ilə daha çox həkim, psixoterapevtlər məşğul olurlar. Onlar kiliniki baxımdan sağlam olan, lakin şüur və şüuraltı səviyyədə situativ problemlərlə qarşılaşmış, fərdlərə psixoterarevtik yardımlar göstərirlər.

ABŞ psixoloqları Gelso, Fretz və Bloşer psixoloji konsultasiyanın psixoterapiyadan fərqləndirən aşağıdakı əlamətlərini göstərmişlər:

- Konsultasiya kliniki baxımdan sağlam olan insanlara yönəlmişdir; Bu adamlar gündəlik həyatda **nevrotik xarakterli şikayətləri** və psixoloji çətinlik problemləri olan adamlardır;
- Konsultasiya psixi qüsurların səviyyəsindən asılı olmayaraq sağlam adamlara yönəlmişdir. Bu təmayül ona əsaslanır ki, hər bir insan, hətta maliyyə vəsaitinin çatışmadığına, xəstəliyə, əlilliyə, qocalığa görə sosial deprivasiyaya məruz qalsa belə, öz həyatını və özünü dəyişdirə bilər. Bu isə onun həyatının yaxşılaşmasına gətirib çıxarmış olar;
- Konsultasiya müştərinin bu günü və gələcəyi ilə bağlı narahatlıq doğuran problemlərin həllinə yönəlməlidir;
- Konsultasiya adətən qısamüddətli kömәkdir (ən çoxu 15 görüş);
- Konsultasiya şəxsiyyət və mühit arasında qarşılıqlı təsir zamanı yaranan problemin həllinə yönəlmişdir;
- Konsultasiya müştərilərin şəxsiyyətinin inkişafına və onların davranışının dəyişdirilməsinə yönəlmişdir.

Psixoloq-konsultant yüksək nəzəri hazırlığa malik olmalı, peşəkar fəaliyyətdə daim öz hazırlığını genişləndirməyə və dərinləşdirməyə çalışmalıdır. O, insanın **genetik və psixoloji təbiətinə** bələd olmalı, onun dəyişdirilməsi üçün zəruri olan təsir vasitələrini seçməyi və tədbiq etməyi

bacarmalıdır. Bütün bunların uğurla həyata keçirilməsi üçün psixoloq-konsultant şəxsiyyətin strukturunu, davranışını şərtləndirən amilləri, mövcud potologiyanın genezisini (mənşəyini) və normal inkişafını perspektivlərini dəqiq müəyyən etməyi bacarmalıdır.

Psixoloq belə bir cəhəti diqqət mərkəzində saxlamalıdır ki, insanların problemləri bir-birinə oxşasa da, əslində hər bir insanın problemi fərdi və fərqlidir. Ona görə də, konsultasiya zamanı resept xarakterli tövsiyələr əhəmiyyətsizdir. Hər bir müştəri öz problemlərinin ən yaxşı ekspertidir.

Hər bir psixoloq-konsultant özünün peşə-ixtisas hazırlığıının səviyyəsini, şəxsi çatışmazlıqlarını bilir. O, peşə etikasına ciddi əməl etməklə yanaşı öz peşə məsuliyyətini dərk etməlidir.

Təhsil müəssisələrində praktik istiqamətdə iş aparan psixoloq konsultasiya sahəsində fəaliyyətində aşağıdakı **prinsiplərə** əməl etməlidir.

- **Humanizm prinsipi -** "ziyan vurma!". Bu prinsipə görə psixoloqun apardığı iş uşağın psixi imkanlarının öyrənilməsinə, onun inkişafına kömək göstərməyə xidmət etməlidir;
- **Obyektivlik prinsipi.** Uşağın psixologiyasının inkişaf xüsisiyyətlərinin nəzərə alınmasını nəzərdə tutur.
- **Sistemlilik prinsipi.** Vəzifələrin müəyyənləş-dirilməsində ardıcıllığın gözlənilməsini, hərtərəfliliyi və proqnozlaşdırmanın zəruruliyini əks etdirir.
- **Determinizm prinsipi.** Bu prinsip uşağın inkişaf xüsusiyyətləri arasında səbəb-nəticə əlaqələrinin aşkara çıxarılmasının (həyat şəraiti, tərbiyə və s.) vacibliyini ifadə edir.
- **İnkişaf prinsipinə** görə uşaq yalnız fəaliyyətdə inkişaf etmir. Fəaliyyət həm də uşağın öyrənilməsinin və onun aşkar edilmiş qüsurlarının korreksiya edilməsi vasitəsidir.
- **Fərdi yanaşma prinsipi.** Konsultasiya prosesində hər bir uşağın
- fəaliyyətinin,özünəməxsus inkişaf tempinin nəzərə alınmasını əks etdirir

- **Şüurla davranışın vəhdəti prinsipi.** Şüurun fəaliyyət vasitəsilə öyrənilməsinin zəruriliyini ifadə edir.
- **Könüllülük və anonimlik prinsipi.** Konsultasiya prosesinə cəlb edilənlərin könüllülüyünü və aparılan işin mahiyyətinin gizli saxlanılmasını nəzərdə tutur.

### 1.7.3. Valideynlərlə aparılan pedaqoji – psixoloji konsultasiya işinin məzmunu və formaları

Ailədə uşağa qulluq və onun tərbiyəsi hər bir valideyni düşündürən və qayğılandıran problemlərdən biridir. İlk tərbiyəçilər olan ata və anaların bir çoxu uşağın tərbiyəsi ilə bağlı meydana çıxan suallara cavabları özləri axtarıb tapdıqları halda, əksəriyyəti bu sahədə təcrübəsi olan yaşlılarla, hörmətli və nüfuzlu adamlarla, tərbiyəçi və müəllimlərlə məsləhətləşməyə ehtiyac duyurlar. “Uşağın utancaqlığı və ya küsəyənliyini necə aradan qaldırmalı?”, “Uşağa nəyi və necə öyrətməli?”, “Pis adət və vərdişləri, neqativizmi necə aradan qaldırmalı?”, “Uşağı məktəbə necə hazırlamalı?”, “Ailədə uşağın dərsə hazırlığına necə kömək etməli?”, “Uşaqların televizora baxmasını necə tənzimləməli?”, “Məktəb yaşlı uşaqlar mobil telefon gəzdirməlidirmi?” və s. bu kimi yüzlərlə sual valideynləri daim düşündürmüş, müasir dövrdə isə onların sırası daha da genişlənmişdir. Belə suallar ailədə valideynlərə göstərilməli olan psixoloji xidmətin zəruriliyinə elmi-psixoloji və pedaqoji əsaslar yaradır. Ona görə də, təhsil sistemində psixoloji xidmət işində **pedaqoji-psixoloji konsultasiyalar** mühüm istiqamətlərdən biri kimi nəzərdə tutulmuşdur. Məktəb təhsilinin yarandığı həm ötən əsrlərdə, həm də müasir dövrdə valideynlərlə aparılacaq konsultativ işin ağırlığı həmişə məktəb müəllimlərinin üzərinə düşmüşdür və bu gün də bu işdə müəllimlərin və sinif rəhbərlərinin rolu böyükdür. Təhsil sistemində psixoloji xidmət yarandıqdan sonra isə valideynlərə göstərilən konsultasiyaların təşkili və keçirilməsində ixtisaslı mütəxəssis kimi praktik psixoloqun rolu artmaqdadır. Uşağın həyatda

müşahidə olunan hər hansı normadan kənaraçıxma halları və patoloji təzahürləri, təlimə, yaşlılara və həmyaşıdlarla münasibətdəki anomaliyaların səbəblərini bilməyən valideynlər ixtisaslı yardıma ehtiyac duyurlar. Uşağın anatomik-fiziki inkişafı gedişində meydana gələn **normal yaş böhranlarının simptomları** ailədə valideynlər və yaxın qohumlar arasında ağır emosional təəssüratların yaranmasına, obrazlı desək “qan qaraçılığına” səbəb olur. Belə hallarda ailəyə kömək etmək üçün hər şeydən əvvəl valideynlərə onların övladlarının xüsusiyyətləri haqqında tam məlumat vermək, onun müsbət və mənfi keyfiyyətlərini, güclü və zəif cəhətini göstərmək lazım gəlir. Bu tipli etibarlı və düzgün məlumatlar isə ilk növbədə uşağı müntəzəm müşahidə edən mütəxəssis kimi psixoloqdan əldə edilə bilər.

Böyük məktəbəqədər yaşın sonunda **uşağın məktəbə hazırlanması** ailədə yeni qayğılara səbəb olur. Bu dövrdə uşaqlara qarşı tələbkarlıq kəskin artır. Valideynlər ailədə uşaqlarına irəlicədən yazmaq, oxumaq, hesablamaq kimi təlim vərdiş və bacarıqları aşılamağa çalışaraq vaxtı qabaqlamaq istəyirlər. Lakin qarşılaşdıqları ilk çətinliklər çox vaxt onların səbrini tükəndirir, ailədə əsəbi mühit yaradır, uşağın qabiliyyətsizliyi haqqında yanlış qənaətlərə səbəb olur. Adətən belə hallarda ailədə konfliktli vəziyyətlər yaranır. Valideynlər uşağın imkanlarını düzgün qiymətləndirə bilmədiyindən mütəxəssis rəyinə ehtiyac duyulur.

Məktəbə qəbul ərəfəsində uşaqların təlimə hazırlığının diaqnostikasını keçirən psixoloq valideynlərin müşahidəsi ilə müxtəlif metodikalardan istifadə etməklə, hər bir uşağın diferensial müayinəsini keçirir və onun funksional hazırlıq səviyyəsi haqqında obyektiv rəy hazırlayır. Həmin rəydə uşağın intelektual inkişaf səviyyəsi, sensor və motor funksiyaların vəziyyəti, bilik və bacarıqların səviyyəsi, uşağın şəxsiyyətinin və fəaliyyətinin xüsusiyyətləri öz əksini tapmış olur, valideynlərə konkret məzmunlu tövsiyələr verilir.

Valideynlər üçün təşkil edilən konsultasiyalar öz xarakterinə görə söhbətə yaxındır. Burada əsas fərq ondan ibarətdir ki, konsultasiyanı keçirən

psixoloq valideynlərin suallarını dinlədikdən sonra onlara ixtisaslı məsləhətlər verir, nəyi isə öyrətmiş olur. Psixoloji konsultasiyalar psixoloqun valideynlərlə apardığı fərdi və diferensial işin əsas formalarından biridir. Konsultasiyanı keçirən psixoloq bir tərəfdən uşağın tərbiyə olduğu ailəni daha yaxından tanıyır, digər tərəfdən isə onları uşaqların tərbiyəsi məsələlərinə həssaslıqla yanaşmağa təhrik edir. Psixoloq –konsultantın simasında valideynlər özlərinə xeyrxah tərəfdaş tapmış olur, onun dəstəyini və himayəsini hiss etmiş olurlar.

Ailədə uşaqların tərbiyə şəraitini, mövqeyini və valideynlərlə qarşılıqlı münasibətlərin xarakterini öyrənməklə psixoloq hər bir valideynə ixtisaslı, həm də diferensial yardım göstərə bilər. Bu məqsədlə o, valideynlərə aşağıdakı anketdə qeyd olunan suallara yazılı cavablar verməyi xahiş edir:

- Sizin oğlunuz (qızınız) üçün hansı müsbət keyfiyyətlər səciyyəvidir?
- Siz övladınızda hansı qabarıq mənfi xüsusiyyəti görürsünüz?
- Övladınızda hansı xüsusiyyətləri tərbiyə etməyə çalışırsınız və buna nə qədər nail olursunuz?
- Ailədə övladınızın daimi vəzifəsi varmı və o, bunu necə yerinə yetirir?
- Övladınız ailədə özünəxidmət qabiliyyətini nümayiş etdirə bilirmi?
- Ailədə uşağınızın gün rejimi varmı, rejimə necə əməl edilir?
- Övladınız ailənin digər üzvlərinə necə münasibət bəsləyir, lazımi kömək göstərirmi?
- Sizin övladınız ailə işlərində və bayramlarında fəallıq və təşəbbüs göstərirmi?
- Övladınız boş vaxtlarını harada və kimlərlə keçirir?
- Övladınızın evdə ayrıca otağı varmı, o, dərslərə hazırlığa nə qədər vaxt ayırır?

Alınmış nəticələri təhlil etməklə növbəti görüşlərdə psixoloq hər bir valideynə zəruri konsultasiyalar verir.

Psixoloji konsultasiyalar özlərinin təşkili formalarına görə **fərdi** və **qrup** olmaqla iki yerə ayrılır. Psixoloqun təşkil etdiyi fərdi konsultasiyalar ayrı-ayrı

valideynlərlə təklikdə, qrup konsultasiyaları isə bir neçə valideynin birgə iştirakı ilə keçirilir. Adətən fərdi konsultasiyalar ailədə və ya təhsil müəssisəsində, qrup konsultasiyaları isə ancaq təhsil müəssisəsində keçirirlir. Konsultasiyaların keçirilmə müddət 30 dəqiqədən bir saatadək ola bilər. Konsultasiyaların mövzusu həm konkret, həm də geniş və əhatəli ola bilər. Mövzular valideynlərin istəyindən, uşaqların üzərində aparılan müşahidə faktlarından, müəllim və valideynlərin şikayətlərindən asılı olaraq fərqli məzmun daşıya bilər. Psixoloq konsultasiyaların təşkilində gənc valideynlərə xüsusi diqqət yetirməli, onlara uşağın tərbiyəsinin optimal metodları haqqında əməli tövsiyələr verməlidir.

**Konsultasiyalar aşağıdakı konkret mövzular üzrə də keçirilə bilər:**

1. Uşaqların tərbiyəsində valideyn nüfuzu.
2. Uşağın inkişafında fəaliyyətin rolu.
3. Ailədə yeganə ərköyün uşaq.
4. Natamam ailədə uşağın tərbiyəsi xüsusiyyətləri.
5. Fiziki cəhətdən zəif və xəstə uşaqların ailədə tərbiyəsi.
6. Uşağın geyimində gigiyenik tələblər
7. Ailədə uşağın təlim əməyinin təşkili
8. Uşaqlar və virtual məkan.
9. Mobil telefonlar uşaq üçün əyləncə və ünsiyyət vasitəsidirmi?
10. Yeniyetmələrin problemləri və s.

**Təhsil sistemində çalışan praktik psixoloq konsultasiyaların keçirilməsində aşağıdakı tələblərə əməl etməlidir.**

- Konsultasiyanın keçirilməsi zamanı valideynlər hiss etməlidirlər ki, psixoloq onların övladlarının tərbiyəsində xeyrxah və səmimi mövqe tutmuşdur,o, bu tədbirləri görüntü xatirinə keçirmir, əksinə, valideynlərə uşağın tərbiyəsində əməli kömək göstərmək istəyir.
- Valideynlərə verilən tövsiyələr konkret olmalı, ailənin həyat şəraitini, uşaqların fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

- Hər bir konsultasiya valideynlərə nə isə yeni, faydalı bir şey verməli, onların pedaqoji və psixoloji biliklərini genişləndirməlidir.
- Konsultasiyanın uğurlu olması bir çox cəhətdən psixoloqun səriştəsindən,valideynlərə qarşı həssaslıqdan, onun təlqinetmə və inandırma məharətindən asılıdır.
- Konsultasiya hazırlıq tələb edir. Psixoloq valideynlərin suallarına elmi cəhətdən əsaslandırılmış cavablar verməlidir.
- Valideynlərə tövsiyələr verməzdən əvvəl psixoloq valideyni ona müraciət etməyə məcbur edən faktı ətraflı öyrənməli, elmi ədəbiyyatlara istinad edərək, həyati nümunələrə əsaslanaraq sübutlar gətirməyi bacarmalıdır.

**Qrup şəklində konsultasiyaların təşkili üçün psixoloq aşağıdakı nümunədə təxmini plan tərtib edə bilər:**

1. Tərbiyədə pedaqoji takt nə deməkdir?
2. Pedaqoji taktın vacib şərtləri:
   - uşaqları yaxşı tanımaq, onların davranış motivlərini öyrənmək;
   - tələbkarlıqda və məhəbbətdə ölçü hissini gözləmək;
   - uşaqlarla münasibətdə özünün hər bir hərəkətinin mümkün nəticələrini irəlicədən görməyi bacarmaq;
   - uşağın şəxsi ləyaqətinə hörmət bəsləmək, inam və tələbkarlığı uzlaşdırmağı bacarmaq;
   - valideynlərin tələblərinin uşaqların yaş və fərdi xüsusiyyətlərinə, onların hərəkətlərinin tonuna və xarakterinə uyğunluğu;
3. Tərbiyənin müxtəlif metodlarının (rəğbətləndirmə və cəzalandırma) tətbiqi zamanı pedaqoji taktın gözlənilməsi.

Konsultasiya başa çatdıqdan sonra psixoloq onun mətnini qısa tezislər mətnində öz iş otağındakı valideynlər üçün zonada yerləşdirməlidir.

Əgər psixoloq alınan məlumatdan əmin olsa ki, uşağın yaş böhranı uzanır və mürəkkəbləşir, birinci növbədə valideynlərə yaş böhranı anlayışını başa salmaqla yanaşı, böhranda uşağın cavabdeh olmadığını bildirməlidir.

Valideynlərə həm də məlumat vermək lazımdır ki, hər böhranı şərti olaraq üç hissəyə bölmək olar: köhnə idarəetmə dağılır, yenisi isə hələ formalaşmayıb; bu istiqamətdə iş asta gedir və yaxın zamanda keyfiyyət dəyişikliyinin yeni ilk görüntülərini gözləmək olar. Valideyn bu zaman xüusən köhnənin dağılmasına mane olmamalıdır. Çünki dağılanın yerində yenisi ucalır. Valideynin belə bir vəziyyətlə barışması üçün onu inandırmaq çox mühüm şərtdir. Digər tərəfdən, valideyn öz etalonuna uyğun uşağın özünü aparması ilə bağlı olaraq ona nəinki təsir göstərməməli, əksinə, uşağa məhəbbətini nümayiş etdirməlidir. Valideyn, "kiçik addımlar"- la uşağa yanaşmalı, uşaqda gələcəyə inam yaratmalıdır.

Bu kontekstə xüsusi diqqət yetirmək lazımdır ki, uşaq sözügedən böhran dövründə nəinki sevgi hissləri qəbul etsin, həm də ətrafdakılara öz sevgisini versin. Hər bir böhran uşağın öz daxili aləminə dərindən yeni baxışı ilə bağlıdır. Bu baxış potensial imkanlarını reallaşdırmaq, başqalarına nəyə qadir olduğunu təsdiq etmək üçün lazımdır.

Valideynlər yadda saxlamalıdırlar ki, uşaq bir tərəfdən sərbəst olmağa can atır, həmişə bu sərbəstliyə istiqamətlidirsə, digər tərəfdən, onu tam reallaşdıra bilmir. Deməli, uşağa bu sərbəstlikdən düzgün istifadə etmək qaydaları öyrədilməlidir. Bu dövrdə tərbiyənin mühüm elementi sərbəstliyin valideyn və uşaq tərəfindən identik düşünülməsidir. Məsələn, uşağın sərbəstliyi dedikdə valideyn mənzili sahmana salmağı, uşaq isə nə vaxt istədi yatmağı, musiqiyə qulaq asmağı nəzərdə tutursa, deməli, konflikt qaçılmazdır.

Sonda qeyd etmək yerinə düşərdi ki, yeniyetmə dövrün yaş böhranı zamanı valideyn üçün uşaqla ümumi dil tapmaq sonuncu şans kimi qiymətləndirilir. Əgər uşaq görsə ki, o, başa düşülür, deməli, gələcəkdə

validyenlə birgə anlaşma təmin edlib, əks təqdirdə anlaşılmazlıq getdikcə dərinləşərək dəfedilməz maneəyə çevrilə bilər. Psixoloqun vəzifəsi məhz birincisini təmin etməkdə valideynlərə köməklik göstərməkdədir.

Məktəb psixoloqunun valideynlərlə işi bir neçə istiqaməti əhatə edir;

- ailə situasiyasına müdaxilə etmədən uşağın tərbiyəsində ailənin təsirini artırmaq üçün əməkdaşlıq mühitinin yaradılması;
- uşaqların aktual həyat problemləri ilə əlaqədar maarifləndirmə və konsultasiya işləri;
- valideynlərin sorğuları əsasında uşaq-valideyn ünsiyyəti məsələləri ilə bağlı konsultasiyaların keçirilməsi;
- valideynlərin psixoloji cəhətdən himayə edilməsi.

Psixoloqun ailə ilə işi ailəyə sistemli dinamik model kimi yanaşmağı tələb edir. O, valideynlərin mövqelərinə və problemlərinə həssaslıq və hörmətlə yanaşmalı, müxtəlif söhbətlər və sorğular keçirməklə onların problemlərini öyrənməli, təhlil etməli, düzgün məsləhət və tövsiyələr verməlidir. Bu istiqamətdə aparılan işlərin sistemində uşağın inkişaf xüsusiyyətlərinin öyrənilməsi əhəmiyyətli yer tutur. Psixoloq bu məqsədlə valideynlərlə aşağıdakı tipli anket sorğuları keçirə bilər:

**Valideynlər üçün nümunəvi anket**

1. Müayinə tarixi;
2. Uşağın adı və soyadı;
3. Doğum tarixi;
4. Məişət şəraiti: ümumi yaşayış sahəsi, ailə üzvlərinin sayı. Uşaq üçün ayrıca otağın olub-olmaması;
5. Ailənin maddi təminatı: aşağı, orta, yüksək;
6. Valideynlər haqqında məlumat: onların yaşı, təhsili, peşəsi, ailənin tərkibi;

7. Tam və ya natamam ailə olub-olmaması: Boşanma olubsa, həmin vaxt uşağın neçə yaşı vardı? Ailədə ögey ata və ya ananın, ögey bacı və ya qardaşın olub-olmaması;
8. Ailədə qarşılıqlı münasibətlər;
9. Ailə üzvlərindən alkaqol, narkotik maddə qəbul edənlər varmı?
10. Valideynlərin sağlamlıq durumu. Valideynlərin xarakterində aydın ifadə olunan psixi və xroniki xətəliklər haqqında məlumat;
11. Uşağın doğulması vaxtında və normal olmuşdurmu?
12. Uşaq doğuş travması almışdırmı? Onda anadangəlmə qüsurlar varmı?
13. Körpəlik və erkən uşaqlıq dövründə inkişaf xüsusiyyətləri: hərəki və nitq inkişafı. Cərrahi əməliyyat olunubmu? Həkimin qeydiyyatındadırmı?
14. Tərbiyənin xüsusiyyətləri: körpələr evi, bağça, ev tərbiyəsi;
15. Uşağın məktəb problemləri və əlavə yüklənməsi;
16. Uşağın ailədə tərbiyəsi ilə kim məşğul olur. O, ailədə kimin rəyi ilə hesablaşır? Ailə tərbiyəsinin prinsipləri. Ailədə cəza üsulları.
17. Uşaq asudə vaxtını necə keçirir;
18. Uşağın fiziki vəziyyəti, cinsi tərbiyəsi;
19. Uşağın üstün əhvalları;
20. Uşağın fərdi xüsusiyyətləri, davranışı və əsas şikayətləri.

### 1.7.4. Müəllimlərlə aparılan konsultasiya işləri

Psixoloqun müəllimlərlə apardığı psixoloji konsultasiya işlərinin sistemində əsas vəzifə hər bir şagirdin şəxsiyyət kimi inkişafı üçün inkişafetdirici optimal mühitin yaradılmasına kömək göstərməkdən ibarətdir.

Təlim-tərbiyə prosesində, **şəxsiyyətyönümlü** və **nəticəyönümlü** pedaqoji əməkdaşlıq şəraitinin yaradılmasında ixtisaslı mütəxəssis kimi

məktəb psixoloqunun rolu böyükdür. Psixoloqdan ixtisaslı məsləhət və yardım alan müəllimlər özlərinin gündəlik peşəkar fəaliyyətində hər bir şagirdə fərdi yanaşmanın priyomlarını öyrənir, onların konkret psixoloji xarakteristikaları haqqında etibarlı məlumatlar əldə etmək imkanı qazanır. Onlar arasındakı peşə əməkdaşlığı, ümumi və ortaq vəzifələrin birgə həllinə yönəlmişdir. Psixoloq müəllimlər arasında müasir pedaqoji-psixoloji təlim nəzəriyyələrini, yeni, fəal və **interaktiv texnologiya və innovasiyaları** təbliğ edir, onları təlim prosesində şagirdlərin fəaliyyətinin motivləri, təlim-tərbiyə proseslərinin idarə olunmasının texnologiyası və şagird nailiyyətlərinin qiymətləndirilməsi metodikaları ilə tanış edir. Müəllimlərlə keçirilən konsultasiyalar zamanı psixoloq müəllimlər tərəfindən tətbiq edilən təlim metodları və metodikalarına qarışmır və onlara müdaxilə etmək hüququna malik deyildir.

Müasir pedaqoji-psixoloji biliklərin fəal təbliğatçısı olan psixoloq müəllimlərlə şagirdlər və şagirdlərin özləri arasındakı qarşılıqlı münasibətlərin xarakterinin öyrənilməsinə xüsusi diqqət yetirir. O,bu münasibətlərin humanist və demokratik olmasına, mənəvi və işgüzar dəyərlər əsasında qurulmasında fəal yardımçı rolunda çıxış edir.

Psixoloqun konsultativ işinin sistemində müəllimlərin pedaqoji-psixoloji mədəniyyətinin yüksəldilməsi, peşə hazırlığının təkmilləşdirilməsi, onlarda mənəvi və peşə şüurunun, yeni pedaqoji və metodik təfəkkürün formalaşdırılması məsələləri mərkəzi yer tutur. Bu məqsədlə psixoloq müəllimlərin **daimi fəaliyyət göstərən seminarını** təşkil edir və burada onların peşəkar fəaliyyəti prosesində meydana çıxan müxtəlif pedaqoji-psixoloji problemlərin işgüzar müzakirələrini keçirir.

Psixoloq məktəb rəhbərliyinin və yuxarı təhsil orqanlarının göstərişi ilə müəllimlərin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsində fəal iştirak edir, öz rəyini bildirir. Belə qiymətləndirmə zamanı psixoloq pedaqoji fəaliyyətin və müəllim şəxsiyyətinin aşağıdakı əsas cəhətlərinə xüsusi diqqət yetirməlidir:

- Müəllimin ixtisas-peşə hazırlığı və təlim-tərbiyə işindəki uğurları;

- Müəllim şəxsiyyətinin tipoloji xüsusiyyətləri, kollektivdə və şagirdlər arasında reytinqi;
- Müəllimin aqressivliyinin qiymətləndirilməsi;
- Onun ünsiyyətlilik səviyyəsi və şagirdlərlə qarşılıqlı münasibətlərinin tərzi;
- Konflikli situasiyalarda davranışı;
- Müəllimin peşə fəaliyyətində mövcud maneə və əngəllər;
- Müəllimin mühüm şəxsi peşəkar keyfiyyətləri.

**VII fəsilə aid suallar və tapşırıqlar:**

1. *Psixoloji konsultasiyaların tətbiqi sahələri hansılardır?*
2. *Psixoloji yardımın hansı formaları vardır?*
3. *Psixoloji konsultasiyanın prinsipləri hansılardır?*
4. *Praktik psixoloqun psixoloji konsultasiya (məsləhətvermə) üzə işinin məzmununa nələr daxildir?*
5. *Təhsil müəssisələrində psixixoloji konsultasiyaya verilən əsas tələblər hansılardır?*
6. *Psixoloji konsulatsiyanın keçirilmə texnikasını izah edin.*
7. *Valideynlərlə aparılan psixoloji konsultasiya işinin məzmunu və formaları haqqında nə bilirsiniz?*
8. *Uşaqların konsultasiyasında hansı məsələlər müzakirə mövzusu olmalıdır?*
9. *Müəllim və tərbiyəçilərlə aparılacaq konsultasiya işlərinin mahiyyətini, forma və vasitələrini izah edin?*

## VIII fəsil
## Psixoloji korreksiya
### 1.8.1. Psixoloji korreksiyanın mahiyyəti, məqsədi və vəzifələri

Təhsil sistemində praktik psixoloji xidmətin tətbiqi səciyyə kəsb edən ən mürəkkəb sahələrindən biri **psixokorreksiyadır**. Korreksiya (latınca "correktio"-düzəldilmə, yaxşılaşdırma) bu və ya digər qüsurun, çatışmazlığın və ya pozulmanın bərpa edilməsi, düzəldilməsidir.

Psixoloji korreksiya yalnız o halda həyata keçirilir ki, psixi qüsur və ya normadan kənara çıxma halları mərkəzi sinir sistemini üzvü zədələnməsi və ya psixi xəstəlik mənşəli olmasın. Bu istiqamətdə görülən tədbirlər inzibati-tərbiyəvi xarakterdən uzaq olmalı, diferensial diaqnostikanın nəticələrinə və yekun rəyə əsaslanmalıdır. Aşkar edilmiş qüsurlar patopsixoloji və defektoloji təbiətə malik olduqda və ya açıq şəkildə hüquqpozma halları ilə müşahidə olunduqda korreksiya tədbirləri praktik psixoloqun səlahiyyətləri çərçivəsindən çıxmış olur. Belə hallarda müvafiq sahə üzrə mütəxəssislər ekspert və ya məsləhətçi olaraq vəziyyətə müdaxilə etməlidir. Psixoloji korreksiya psixoloji təsirin metod və priyomları vasitəsilə psixi qüsurların, çatışmazlıqların aradan qaldırılmasına yönəldilmiş məqsədyönlü və planlı fəaliyyət sahəsidir. Şəxsiyyətin idrak proseslərinin, şəxsiyyət keyfiyyətlərinin, iradi-emosional, ünsiyyət və s. sahələrinin inkişaf səviyyəsinin öyrənilməsi məqsədilə həyata keçirilmiş psixodioqnostik işlərin nəticəsində hər hansı potologiya-normadan kənaraçıxma halları aşkara çıxarıldıqda, mövcud çatışmazlığın aradan qaldırılması üçün müvafiq inkişafetdirici-korreksiya proqramları işlənib hazırlanır və həyata keçirilir. Şəxsiyyətin əqli inkişafında, məsələn, təfəkkürün inkişafında müəyyən çatışmazlıqlar aşkara çıxarıldıqda (ümumiləşdirmə, analiz, sintez və s.) onların aradan qaldırılmasına yönəldilmiş korreksion təsirlər həyata keçirilir.

Korreksiya yalnız iki əsas şərtin gözlənildiyi halda mümkün ola bilər:

- Fikri əməliyyatın hansı halda düzgün, səmərəli olması, normal hesab edilə bilməsinə tam yəqinlik olduqda;
- Psixi inkişafda qüsurun, çatışmazlığın, inkişafda kənaraçıxmanın psixoloji diaqnostika əsasında əldə edilmiş dəqiq və etibarlı nəticələri olduqda.

Psixoloji korreksiyanın zəruriliyi o halda xüsusilə aktuallaşır ki, aşkar edilmiş çatışmazlıq fərdin inkişafının gedişinə mane olur, əngələ çevrilir. Məsələn, məktəblilərdə **təlim motivlərinin** və ya **təfəkkür əməliyyatlarının**, **ixtiyari diqqətin** formalaşdırılması onların məktəb proqramları üzrə biliklərin kifayət səviyyədə mənimsənilməsində çətinliklərin meydana çıxmasına səbəb olur. Belə hallarda korreksiya işinə zərurət yaranmış olur.

Korreksiya xüsusi psixologiya və pedaqogika elmlərinin (defektologiyanın) sahələrindən biri olub, xüsusi priyomlar və metodlar vasitəsilə **anomal** uşaqlarda psixi və fiziki qüsurların tam və ya qismən aradan qaldırılmasını nəzərdə tutur. Korreksiya metodlarının geniş sistemi **xüsusi treninqlər** və **məşqetdirici tapşırıqlar** vasitəsilə uşaqlarda aşkar edilmiş inkişaf qüsurları və çatışmazlığın təlim və tərbiyə vasitəsilə müəyyən səviyyədə aradan qaldırılmasını elmi cəhətdən əsaslandırır. Psixokorreksiya belə hesab edir ki, uşaqda inkişaf qüsurlarının aradan qaldırılmasına yönəlmiş məqsədyönlü iş nə qədər erkən yaş dövrlərində və qüsurun ilkin mərhələlərində başlanarsa, onun nəticələri bir o qədər uğurlu ola bilər.

Psixoloji korreksiya işi olduqca çətin və mürəkkəb fəaliyyət sahəsidir. O, praktik psixoloqdan yüksək ixtisas hazırlığı və səriştə tələb edir. Psixoloji korreksiyanın konkret **məqsədləri** və **vəzifələri,** həmçinin korreksiya işinin metod və priyomları bütün hallarda inkişaf qüsurunun növü, xarakteri və uşağın fərdi xüsusiyyətləri nəzərə alınmaqla müəyyənləşdirilir.

İnkişaf qüsurunun növündən və xarakterindən asılı olaraq psixokorreksiya üzrə iş müxtəlif sahələri əhatə edə bilər: anomal uşağın şəxsiyyətinin inkişaf etdirilməsi, onun orqanizminin möhkəmləndirilməsi, hissi

təcrübənin və təfəkkürün inkişaf etdirilməsi, nitq qüsurlarının aradan qaldırılması və s.

Psixokorreksiya daha çox korreksion pedaqogikada müxtəlif sensor və əqli qüsurları (eşitmə, görmə, əqli inkişaf, nitq) olan uşaqlarla həyata keçirilən xüsusi fəaliyyət sahəsi kimi nəzərdən keçirilsə də, həm də ümumtəhsil məktəblərində psixoloji xidmət sisteminin mühüm istiqamətlərindən biridir.

Psixoloji korreksiya üzrə işlərin sistemində uşaqlarda inkişaf qüsurlarının, idrak prosesləri, ünsiyyət fəaliyyəti və davranışla bağlı qüsurların aradan qaldırılmasına yönəlmiş fəaliyyət üstün yer tutur. Praktik psixoloq sınaqdan çıxarılmış etibarlı metodikalara, inkişafetdirici-korreksiya proqramlarına istinad etməklə mövcud qüsurun təshih edilməsi istiqamətində sistemli və ardıcıl iş aparmalıdır.

Son bir neçə onillik ərzində bütün dünyada fiziki cəhətdən sağlam, lakin psixoloji yardıma ehtiyac hiss edən insanlara psixokorreksion təsir vasitələrinin müxtəlif sistemləri, metod və vasitələri meydana gəlmişdir. **Psixokorreksiya fiziki cəhətdən sağlam adamların psixikası və davranışındakı qüsur və çatışmazlıqların aradan qaldırılması üçün psixoloqun istifadə etdiyi psixoloji təsir priyomlarının məcmuyudur.** Bu priyomların bir çoxu əvvəllər psixoterapiya təcrübəsində tətbiq olunmuş, lakin sonralar onun sərhədlərini aşaraq, praktik cəhətdən sağlam adamların da davranış tərzinə psixoloji təsirin vasitəsinə çevrilmişdir.

Psixokorreksiyanın təsir vasitələri insanların yeni həyat şəraitinə daha yaxşı uyğunlaşması, gündəlik daxili və xarici gərginliklərin aradan qaldırılması, müxtəlif münaqişələrin həll edilməsi, insanların zərərli vərdiş və meyllərdən xilas edilməsini nəzərdə tutur.

Pedaqoji fəaliyyət təcrübəsi psixokorreksiya metodikalarının tətbiqi sahələrindən biridir. Pedaqoji praktikada psixokorreksiya üzrə həyata keçirilən işlərin əsas məqsədləri aşağıdakılardır:

1. Uşağın yaş normativinə uyğun olaraq inkişafının davam etdirilməsi, təlim-tərbiyənin fərdiləşdirilməsi işində pedaqoji kollektivə köməyin göstərilməsi;
2. Uşaqlarda qabiliyyətlərin, maraq və meyllərin inkişaf etdirilməsi;
3. Uşaqların inkişafındakı geriləmələrin, təlimdə və davranışdakı pozğunluqların aradan qaldırılması məqsədi ilə inkişafetdirici-korreksiya proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi;
4. Ayrı-ayrı uşaqlar və onların qrupları ilə, xüsusilə "risk qrupu"na aid edilən uşaqlarla korreksiyaedici treninqlərin keçirilməsi.

Pedaqoji təcrübədə geniş yayılmış çoxsaylı psixokoreksiya metodları sırasında **şəxsiyyətə yönəlmiş psixoterapiya** xüsusi yer tutur. Onun tərkibində psixoloji təsirin fərdi və qrup formaları geniş yayılmışdır. Pedaqoji təcrübədə tətbiq edilən psixokorreksiyanın əsas **vəzifələri** bunlardır:

1. İnsanın emosional köləlikdən azad edilməsi;
2. Adamlarda ünsiyyətə tələbat, ünsiyyətlilik hissi formalaşdırmaq;
3. İnsanın şəxsiyyət kimi özünüaktuallaşdırmasını təmin etmək;
4. İnsanda şəxsiyyətlərarası münasibət və davranışın səmərəli formalarını yaratmaq və möhkəmləndirmək;
5. İnsanın ictimai həyata daha fəal cəlb olunmasını təmin etmək və özünə qarşı məsuliyyətliliyə təhrik etmək.
6. Uşaqla inkişafetdirici–korreksiya işinin vasitə və yolarını müəyyənləşdirmək, aşkar edilmiş fərdi xüsusiyyətlər əsasında onun inkişafı və təlimi imkanları haqqında proqnozlar hazırlamaq.
7. Məktəbdə təhsil dövründə və dərsdənkənar iş prosesində uşaqların inkişafı istiqamətində inkişafetdirici-korreksiya işləri aparmaq.

Təhsil müəssisələrində psixokorreksiya sahəsində iş aparan praktik psixoloq hər bir uşağın fərdiyyətini öyrənməklə, onun təlimi, tərbiyəsi və inkişafı üçün şəxsi məsuliyyət daşıdığını dərk etməlidir.

Psixokorreksiya sahəsində iş aparan praktik psixoloq **psixoterapevt** rolunda çıxış edir. Bu məqsədlə yaradılan qrupların bir sıra tipləri vardır:

**T – qruplar** (sosial-psixoloji treninq qrupları), **görüş qrupları, geştalt qruplar, psixodram qrupları, cismani terapiya qrupları, bacarıq treninq qrupları.**

Psixokorreksiya qruplarının bütün tiplərində qrup üzvləri arasında rol bölgüsü aparılır və qarşılıqlı münasibətlər müəyyən edilmiş qaydalar əsasında qurulur.

**T –** qruplar və ya sosial-psixoloji treninq qrupları praktik psixoloq tərəfindən adətən şəxsiyyətlərarası münasibətlərin müxtəlif situasiyalarına uyğun təşkil edilir və düzgün davranış normalarının formalaşdırılmasına xidmət edir. Belə qruplarda iştirakçıların gündəlik həyatda qarşılaşdıqları problemlər müzakirə edilir, onların həlli yolları axtarılır.

**T–**qrupların əsas vəzifəsi uşaqlar arasında şəxsi və işgüzar qarşılıqlı münasibətlərin formalaşdırılmasından, onların birgə fəaliyyətinin təşkilindən ibarətdir. Bəzən psixoloq belə qrupları uşaqların fərdi psixologiyasını dəyişdirmək, psixoterapevtik effekt yaratmaq məqsədi ilə təşkil edir.

**T–**qruplarda əsas diqqət birbaşa iştirakçıların daxili vəziyyətinə, onların özünüdərketməsinə, ətrafda nələrin baş verdiyinə yönəldilir.

**T–**qrupların konkret məqsədləri isə iştirakçıların özlərindən, onların fəaliyyətindən asılı olaraq müəyyən edilir. Belə qruplarda əməkdaşlıq məqsədləri daim ön planda olduğu üçün onun iştirakçılarının bu məqsəd əsasında xüsusi təlimi diqqət mərkəzində saxlanılır. T–qruplarda **məqsədə doğru dəyişiklik** və **inkişaf** mərhələli şəkildə davam edir. Burada işin əsas mərhələlərini aşağıdakı kimi qeyd etmək olar:

1. Hər bir iştirakçının müəyyən fəaliyyət növü sahəsində özü haqqında təsəvvürləri (“Mən necəyəm?”).

2. Hər bir iştirakçının şəxsi mülahizələrinə başqa adamların reaksiyasının əldə edilməsi (“Sən necəsən?” , “Biz səni necə görürük?”).

3. Başqa iştirakçıların rəy və reaksiyalarını nəzərə almaqla hər bir şəxsin şəxsiyyətlərarası davanışın yeni formalarını axtarması.

4. Qrup izvlərinin böyük əksəriyyəti tərəfindən bəyənilmiş səmərəli davranış formalarının yenidən işlənilməsi və möhkəmləndirilməsi.

T–qrupları adətən özünəməxsus sosial-psixoloji laboratoriya da adlandırırlar. Bu qruplar ünsiyyət çətinliklərinin aradan qaldırılmasında iştirakçılar arasında şəxsiyyətlərarası ünsiyyət bacarıqlarının formalaşdırılmasında təsirli psixokorreksiya metodudur.

**Görüş qrupları** və **geştalt qruplarda** əsas diqqət hər bir uşağın fərdiyyətinin müəyyənləşdirilməsinə və inkişafına yönəldilir. "Görüş qrupu" adlandırılan şərti qruplarda uşaqlar arasında açıq, birbaşa ünsiyyət mühiti yaradılır, qrup üzvlərinin hər biri özlərini başqaları ilə müqayisə etmək zəminində adekvat özünüdərketmə və qiymətləndirmədə məsuliyyət hissinə sahib olurlar. Belə qrupların yaradılmasından məqsəd hər bir uşağın **refleksiya** yolu ilə özünün şəxsi və intellektual potensialını dərk etməsinə şərait yaratmaqdan ibarətdir. Görüş qruplarına cəlb edilmiş uşaqlar bir-birlərinin real imkanlarını obyektiv qiymətləndirmək imkanı əldə etməklə, real həyatda olduqları vəziyyətlərini qarşılıqlı inam əsasında dərk edirlər. Görüş qruplarında açıq ünsiyyət mühiti iştirakçılar arasında yaxın, etibarlı münasibətlərin formalaşmasının əlverişli vasitəsidir. Onun köməyi ilə tədricən uşaqlar arasında müsbət şəxsiyyətlərarası münasibətlər yaranır, müəyyən qarşılıqlı fəaliyyət və əməkdaşlıq təcrübəsi təşəkkül tapır. Qarşılıqlı inam və etibarlılığın təmin edilməsi zəminində uşaqlar mövcud həyati problemləri, keçmişdə həyatlarında baş vermiş hadisələri, gizli hissləri barədə bir-birləri ilə müstəqil tərəfdaş kimi fikir mübadiləsi aparırlar. Bu isə şəxsiyyətlərarası mənfi emosiya və hisslərin açıq təzahür formalarını aradan qaldırmış olur.

Görüş qruplarında özünüdərketmənin səviyyəsinin yüksəldilməsi yollarından biri qarşılıqlı inmasızlıq və çəkişmələrin, ziddiyyətlərin aradan

qaldırılmasıdır. Belə qruplara cəlb edilmiş uşaqlar arasında formalaşmış inam və etibar onlar arasında bir-birinə hörmət və məsuliyyət hisslərinin inkişafına təkan verir, **özünüinkişaf motivlərinin** yaranmasına gətirib çıxarmış olur. Qrup üzvləri özlərinin gündəlik hərəkət və davranışına görə cavabdehlik daşıyır, üzərinə öz üzvlərinin müdafiəsi funksiyasını götürür, öz imkanları daxilində onları rəğbətləndirir, müsbət hərəkətlərini təqdir edir. Aydındır ki, hər bir insan məsuliyyətli davranışa malik olmazdan əvvəl, öz hisslərini düzgün qiymətləndirmək bacarıqlarına sahib olmalıdır. Ona görə də, görüş qruplarının liderləri olan uşaqlar digər iştirakçılar üçün şəxsi nümunə roluna praktik olaraq sahib olmalıdırlar. Onlar rəhbərlik etdikləri qrupda psixoloji yaxınlıq, şəxsiyyətlərarası inam mühiti yaratmalı, oz şəxsi davranışı ilə nümunə göstərməlidir.

Görüş qruplarında işin təşkilinin əsas mərhələləri aşağıdakılardan ibarətdir:

1. Şəxsiyyətlərarası əlaqələrin qurulması. Bu prosesi asanlaşdırmaq üçün qrupa düşünülmüş ad qoyulur və qrup üzvləri bir-birinə təqdim olunur. Bəzən bu məqsədilə qrup üzvləri arasında **qeyri-verbal** əlaqələrin yaradılması (bir-birinin əlindən tutmaq, üz-üzə durmaqla bir-birini vizual qavramaq, ünsiyyət zamanı tərəfdaşın əl hərəkətlərini izləmək, əl-ələ tutub zəncir yaratmaq və s.) lazım gəlir;
2. Qarşılıqlı inam münasibətlərinin qurulması (məsələn, qrup üzvlərindən biri gözləri yumulu vəziyyətdə arxaya yıxılarkən tərəfdaş onu tutur və döşəməyə yıxılmasının qarşısını alır);
3. Yarana biləcək münaqişələrin aradan qaldırılması;
4. Özünütənqidetməyə qarşı müqavimətin aradan qaldırılması;
5. Tərəfdaşın halına acımaq və bir-birinə dəstək göstərmək.

Görüş qrupları tipli şəxsi psixoterapiya və psixokorreksiya metodlarının praktikada tətbiqi heç də həmişə gözlənilən səmərə vermir. Güclü emosional təəssüratlı adamlar belə metodlarla korreksiyaedici

təmrinlər zamanı situasiyaya uyğunlaşmaqda çətinlik çəkir, gündəlik həyatda belə məşqlərin nəticələri onların davranış və rəftarında hiss olunmur. Onlar kəskin psixoloji və etik konfliktlər zamanı özlərini ələ ala bilmir, güclü emosiyalar keçirirlər.

**Geştalt qrupların** T – qruplar və görüş qruplarından təcrübədə özünü göstərən əsas fərqi ondan ibarətdir ki, geştalt qrupların rəhbərləri eyni vaxtda qrupun bir neçə iştirakçısı ilə deyil, onlardan əsas rolu ifa etməyə şəxsi razılığı olan hər hansı biri ilə iş aparır. Belə şəxs qrupda mərkəzi fiqur, "qaynar nöqtə" rolunda çıxış etməli olur. Qrupun digər üzvləri isə qrup rəhbəri ilə "müştəri" rolunda çıxış edən könüllü iştirakçının qarşılıqlı münasibətlərinin müşahidəçisi olurlar. Belə müşahidə nəticəsində qrupun müşahidə rolunda çıxış edən iştirakçıları özlərini xəyalən müştəri rolunda çıxış edən iştirakçının yerində hiss edərək öz şəxsi problemlərini daha yaxşı anlamaq və dərk etmək imkanı əldə edirlər. Geştaltterapiyanın səmərəsi insanın bu zaman özünü necə dərk etməsindən, indiki halda qarşılaşdığı carı qayğılara reyaksiyasından asılı olur. Təcrübə zamanı geştaltqrup üzvlərindən tələb olunur ki, onlar keçmiş təcrübəyə müraciət etmədən, gələcək haqqında düşünmədən məhz indiki situasiyanın tələblərinə uyğun hərəkət etsinlər.

Geştaltqruplarda iş zamanı istifadə olunan piyomlar sırasında dərketmənin genişləndirilməsi, əksliklərin inteqrasiyası, hisslərə qarşı diqqətin gücləndirilməsi, arzularla iş, cavabdehliyi öz üzərinə götürmə və müqavimətin aradan qaldırılması mühüm yer tutur. Dərketmənin genişlənməsi insana əhatə olunduğu ətraf aləmdə və özündə nələrin baş verdiyini daha yaxşı anlamaq imkanı vermiş olur. Bunun üçün qrup üzvləri cütlərə ayrılır və tərəfdaşla ünsiyyət zamanı psixi vəziyyətində baş verən dəyişiklikləri qeydə alır. Əksliklərin dərk edilməsi insana onun psixi aləmində bir-birini tamamlayan ziddiyyətli, müsbət və mənfi xarakterli xüsusiyyətləri, məsələn, doğruçuluq və yalançılıq, prinsipiallılıq və prinsipsizlik və s.

anlamağa təkan verir. Hisslərə qarşı diqqətin gücləndirilməsi iştirakçıya şəxsi emosional vəziyyətini və yaşantılarını daha dərindən anlamaq və dərk etməkdə kömək edir. Arzularla iş priyomu insanın özünü bir şəxsiyyət kimi daha yaxşı qiymətləndirmək imkanlarına geniş meydan açmış olur. Məsuliyyəti öz üzərinə götürmək üzrə təmrinlər iştirakçıya öz imkanlarını qiymətləndirmək , özünü yoxlamaq, inam qazanmaqda kömək edir. Daxili psixoloji müqavimətin aradan qaldırılması əsasında insan özünü riskli aparmaqda ona mane olan psixoloji sədləri aradan qaldırmaq imkanı əldə etmiş olur.

**Psixodrama** üzrə təmrinlər zamanı insanın daxili aləmini daha dərindən açmağa imkan verən həyati situasiyaların dramatik improvizasiyası elementlərindən istifadə olunur. Bu metodika əsasında treninqlər zamanı süjetin seçilməsi, rol bölgüsü, onların ifa tərzləri kənar şəxslər tərəfindən deyil, müştərinin özü tərəfindən aparılır. Bu halda **rollu oyunlardan** daha geniş istifadə olunur. İştirakçı oyunun başlanğıcında rol davranışının elə formalarından istifadə edir ki, o, sonralar həmin fərdin şəxsiyyətinin strukturuna daxil olaraq onu müxtəlif həyat şəraitinə daha yaxşı uyğunlaşmasına kömək etmiş olsun.

**Psixoterapevtik qruplara** müxtəlif eksperimental rollarda daxil olmaq insana daha yaxşı özünüdərketmə imakanı verir.

**Bədən terapiyası qruplarında** insanın öz bədəni ilə "ünsiyyətə", onun idarə edilməsinə və insanlara bədən səviyyəsində təsir üsullarına xüsusi əhəmiyyət verilir. Psixoterapiyanın bu tipinə daxil olan metodikaların əsasında belə bir inam dayanır ki, insana özünü normal aparmaqda və inkişaf etməkdə mane olan amilləri birbaşa cismani əlaqələr adlanan **psixoloji müdafiə mexanizmləri** ilə aradan qaldırmaq mümkündür.

**Bacarıq treninqi qrupları** biheviorist ideyaların təsiri altında insanın həyata fəali uyğunlaşması üçün zəruri olan faydalı bacarıq və vərdişlərin təcrübədə tətbiqi məqsədləri əsasında meydana gəlmişdir. Bacarıq treninq

qrupları adətən başqa adamlarla ünsiyyət prosesində kommunikativ çətinlikləri olan və kommunikativ bacarıq və vərdişlər üzrə öyrədici xüsusi kurs keçmiş adamlardan təşkil olunur. Belə qruplara ünsiyyətdə çətinlikləri olan və bu sahədə vacib bacarıq və vərdişlər əldə etmək istəyən şagirdlər də cəlb oluna bilərlər. Bu cəhətdən yeniyetmə və erkən gənclik yaşında olan uşaqların belə qruplarda treninqlər keçməsi faydalıdır. Bacarıq treninq qruplarının təşkili zamanı zəruri xarici davranış formalarının əldə edilməsi əsas məqsədlərdən biridir. Bunların sırasına həyəcan, qorxu, hədsiz emosional gərginlik kimi psixi vəziyyətlərin aradan qaldırılması, habelə, peşəkar fəaliyyət üçün zəruri olan qərar qəbulu, danışıqların və diskusiyaların aparılması bacarıqlarının formalaşdırılması aiddir. Belə qruplarda iş zamanı iştirakçılara öz üzərində müşahidə aparmaq, özü haqqında məlumatları qeydə almaq öyrədilir. Bacarıq treninq qruplarında öyrədilən bacarıqlar sırasında özünəinamın yaradılması da məxsusi əhəmiyyət kəsb edir. Bir çox adamlar uşaqlıq illərində sərt cəza, fiziki və mənəvi zorakılıq mühitində böyüdüklərinə görə, onlarda öz qüvvə və inamlarına inamsızlığın simptomları meydana gəlir. Başqa adamlarla ünsiyyət prosesində belə adamlar səbəbsiz günah hissi keçirir, hədsiz qorxaq və həyəcanlı olurlar. Onlarda davamlı olaraq yaşanan belə hisslər asosial davranışın ağır formalı təzahürlərindən biri olan **təcavüzkarlığa** gətirib çıxarır. Təcavüzkar adam başqalarının şəxsi hüquqlarını pozur, onlara qarşı kobud, qaba, ədəbsiz davranışı ilə problemlər yaradır, əhvalını korlayır.Təcavüzkar adamlar öz fikrini hakim tutaraq başqalarına təzyiq göstərir, onlari təhqir edir, alçaltmaqdan belə çəkinmir.

Bacarıq treninq qruplarında iş zamanı iştirakçılarla əvvəlcə sadə həyati situasiyalar, daha sonra mürəkkəb, konfliktli vəziyyətlərin həlli üzrə davamlı məşqlər keçirilir. Belə hallarda hər bir iştirakçı yaranmış vəsiyyətdə hamını qane edə biləcək ən optimal çıxış yolunu tapmalı olur. Qruplar üzrə məşqlər zamanı bəzən konfliktli situasiyalardan bəhs edən

audio və video yazıların nümayişi və ya səsləndirilməsindən istifadə olunur.

Bacarıq treninq qruplarının iştirakçıları özünə qarşı inamsız, həyəcanlı adamlar olduqda, onlarla iş zamanı **autogen məşqlərdən** ( “auto” - özü, “genes” - əmələ gətirmək) istifadə olunur. Autogen məşqlər və ya qısa olaraq autotreninq insanın özü tərəfindən özünə yönəlmiş, psixi və fiziki vəziyyətlərin özünütənziminə xidmət edən təmrinlər sistemidir. Yüksək emosional gərginlik tələb edən peşələrdə çalışan, insan münasibətləri zəminində tez-tez konfliktlərlə qarşılaşan insanlar adətən yüksək psixi sarsıntıya, ruh düşkünlüyünə, stressə məruz qalırlar. Autogen məşq priyomlarından istifadə etməklə insan öz **psixoemosional vəziyyətini**, əhvalını, səhhətini və normal iş qabiliyyətini bərpa etmək imkanı əldə etmiş olur. Sistematik olaraq autogen məşqlərlə məşğul olan hər bir adam gündəlik həyatda öz qüvvəsini rasional şəkildə paylamaq, qənaətlə istifadə etmək, lazımi anlarda isə qüvvəsini tam səfərbərliyə almaq imkanına malik olur.

Autotreninq insanın özü tərəfindən öz orqanizminə və sinir sisteminə müxtəlif psixoloji təsir vasitələri ilə şüurlu təsirə əsaslanır. Belə təsir vasitələrinə skeletdəki və daxili orqanlardakı əzələlərin tonusunu dəyişdirmək üçün nəzərdə tutulan xüsusi təmrinlər aiddir. Autogen məşqlər zamanı ifadə vasitəsilə səfərbər olunan təsəvvürlər, hissi obrazlar, sözlü özünütəlqin fəal rol oynayır. Psixoloji təsirin bütün bu vasitələrindən autotreninq zamanı kompleks şəkildə istifadə olunur. Autotreninqin praktik olaraq həyata keçirilməsinin xüsusi texnikası vardır. Autotreninq texnikası diqqətin idarə olunması, hissi obrazlarla əməliyyatlar aparmaq, sözlü özünütəlimat, əzələ tonusunu iradi olaraq tənzimləmək və tənəffüs ritmini idarə etməyə yönəlmiş təmrinlərdən ibarətdir. Diqqəti idarə etmək sisteminə diqqəti hər hansı obyektə, hadisə, əşya və fakt üzərində konsentrasiya etmək, cəmləşdirmək qabiliyyəti daxildir.

Hissi obrazlarla əməliyyat aparmaq qabiliyyəti diqqətin xarici aləmdən daxili aləmə, daha sonra isə duyğulara və hissi obrazlara köçürülməsinə istiqamətlənmiş xüsusi təmrinlər vasitəsilə əldə edilir. Nisbətən sadə, vərdiş halına salınmış təsəvvürlər autotreninq zamanı tədricən daha mürəkkəb, məsələn, bədənin bir hissəsindən digərinə yayılan ağırlıq və istilik hissi, təbiət mənzərələri və s. kimi təsəvvürlərə doğru yönəlmiş olur. Müxtəlif ucalıqda tələffüz edilən xüsusi sözlərin və ifadələrin, daxili və öz-özünə nitq planında **sözlü özünütəlqin** vərdişləri qazanılmış olur.

İnsan tərəfindən bacarıqla istifadə edildikdə, bu cür özünütəlqin psixoloji və ya fizioloji vəziyyətin lazımı səviyyədə dəyişməsini sürətləndirmiş olur. Autotreninq zamanı sözlü özünütəlqin tənəffüslə özünəməxsus şəkildə birləşmiş olur. Tənəffüs ritminin idarə edilməsi öyrədilən şəxslərdə təmrinlər vasitəsilə tələb olunan həddə qədər çatdırılır. Bütün bu təmrinlər üç əsas vəziyyətdə - uzanmış, oturaq və ayaq üstə dayanmaqla aparılır.

Əzələ tonusunun ixtiyari tənzimi ilə bağlı təmrinlər də müəyyən sistem və ardıcıllıq əsasında əldə edilir. Təcrübəyə cəlb edilmiş adam əvvəlcə öz qol və ayaq əzələlərini, daha sonra boyun, baş, çiyin və qarın əzələlərinin tonusunu zəiflətmək üzrə məşqlər aparır və nəhayət daxili orqan əzələlərinin tonusunu tənzim etməyə alışır.

Autotreninqin tərkibinə daxil olan daha vacib və mürəkkəb təmrinlər sırasında başın və bədənin qan damarlarının vəziyyətini tənzimləyən, orqanizmin tonusunu artıran və fəallaşdıran təmrinlər xüsusi yer tutur. Belə təmrinlər zamanı insanın ovucunun təbii istisi və iradi yolla yaradılan istilik və ya soyuqluq haqqında təsəvvür obrazlarından istifadə olunur.

Qeyd olunan **autogen məşq texnikasından** istifadə etməklə hər bir şəxs həyatda rastlaşdığı yorğunluq və gərginlikləri aradan qaldırmağa, orqanizminin iş qabiliyyətini və sağlamlığını bərpa etməyə nail ola bilər.

Autogen məşq texnikasını bilən, onunla məşğul olan psixoloq, müəllim və tərbiyəçi bu sahədə şagirdlərə daha çox kömək göstərə bilər.

Peşəkar praktik psixoloq qrup şəklində apardığı psixokorreksiya praktikasında bu metoddan istifadə etməklə pedaqoq və tərbiyəçilərə, yuxarı sinif şagirdlərinə əməli yardım göstərmiş olur.

**Autogen məşq texnikası belə aparılır:**

Məşqlər üçün ilk növbədə sakit, heç kəsin mane ola bilməyəcəyi yarıqaranlıq otaq seçilməlidir. Burada zəif yaşıl və ya göy işıq yansa, daha yaxşı olar. Stulda əyləşib sağ ayağınızı azacıq qabağa, sol ayağınızı isə azacıq geriyə qoyun. Kürəyinizi stulun arxasına söykətməyin. Başınızı sərbəst buraxıb aşağı əyin. Əgər seans yataqda keçirilərsə, əllərinizi yanlarınıza, ayaqlarınıza tərəf uzatmalı, baş yastığı çox hündür olmamalıdır. Bütün bunları etdikdən sonra dərindən nəfəs alıb bədəninizin əzələlərini tamam boşaldın, heç nə bvarədə düşünmək, fikirləşmək lazım deyil.

Bir-iki dəqiqə bu vəziyyətdə qalıb sonra özünüzü təlqin etməyə başlayın.

- Mən sakitəm...
- Hər nəfəs alıb- buraxdıqda bədənim süstləşir...
- Sifətimin əzələləri boşalır, süstləşir...
- Dodaqlarımın əzələləri boşalır...
- Qaşlarım ağırlaşır...
- Göz qapaqlarım boşalır... ağırlaşır...
- Alnım sərinləşir...
- Sifətim istiləşir...
- Mənim sağ qolum ağırlaşır, istiləşir...
- Biləklərim ağırlaşır.... istiləşir...
- Çiyinlərim boşalır... istiləşir...
- Qollarımın əzələləri tam boşalır... istiləşir...

- Bədənimin əzələləri boşalır... aşağıya dartılır...
- Ayaqlarımın əzələləri boşalmağa başlayır...
- Sağ ayağımın əzələləri boşalır...
- Sol ayağımın əzələləri boşalır...
- Hər iki ayağımın əzələləri boşalır... istiləşir...
- Kürəklərim boşalır ... istiləşir...
- Kürəyimdə xoş istilik hiss edirəm...
- Belimin əzələləri boşalır...
- Mən sinəmdə xoş istilik hiss edirəm...
- Ürəyim ritmik döyünür...
- Bədənimdə qan dövranı yaxşılaşır...
- Qarnımın əzələləri boşalıb... tam yumşaqdır...
- Qarnımda xoş istilik hiss edirəm...
- Alnımda soyuqluq hiss edirəm...
- Başım yüngül və işıqlıdır...
- Bədənim yüngülləşir... yaxşılaşır....
- Artıq bədənimdə heç bir ağrı yoxdur...
- Mən tamam istirahət etmişəm...
- Mən özümü çox yaxşı hiss edirəm...
- Mən ayağa durduqda özümü çox sağlam və gümrah hiss edəcəyəm...
- Mən 3-ə qədər sayıb ayağa qalxıram...

1...2...3...

Gecə təlqinlərində isə axırda ayağa qalxıram yox, “mən özümü çox yuxulu hiss edirəm” , “mən bu gecə çox sakit və rahat yatacağam” demək lazımdır.

Hər seansı 30-35 dəqiqə davam etdirməklə 20-25 gün apamaq lazımdır.

İlk 10-15-ci seanslarda ola bilsin ki, siz öz təlqinlərinizi qəbul edə bilməyəsiniz. Buna görə heç ruhdan düşmək lazım deyil. Bu iradənin zəif olamsından irəli gəlir. Siz uzun məşqlərdən sonra görəcəksiniz ki, artıq istədiyinizə nail olmusunuz. Bundan sonra sizdə bir xəstəlik baş versə, özünüz-özünüzü müalicə edə biləcəksiniz.

İradəni möhkəmləndirmək üçün başqa formalı məşqlər də aparmaq olar.

Bunladan birincisi gecə səma aydın olanda beyində ayrı fikir tutmadan, gözləri qırpmadan **ulduz saymaqdır**. Siz ulduz saydıqca heç vaxt fikrinizi dağıtmayın. Bütün diqqətinizi ulduzlarda cəmləşdirməlisiniz. Bu formalı məşqləri hər gün təkrar etmək lazımdır. Axırda görəcəksiniz ki, yarım saatdan çox gözlərinizi qırpmadan çoxlu miqdarda ulduz sayırsınız.

Diqqətini cəmləşdirə bilməyən adam adicə qəzet məqaləsini və ya kitab oxuduqda bir səhifəni tam axıra qədər oxuya bilmir. Onun fikri tet-tez dağılır və fikrini cəmləşdirib oxumağa başlayır. Bəzən isə kitabı ordan-burdan oxuyanlar da olur. Əgər sizdə belə xüsusiyyət varsa, boş vaxtınızda saata baxın, görün neçə dəqiqə fikriniz dağılmadan oxumusunuz. Baxın görün, oxuduğunuzun hamısı yadınızdadırmı?

Hər gün sizdən çox uzaq bir məsafədə bir nöqtə, ağac və ya dağ tapıb fikirlərinizi dağıtmadan, gözlərinizi qırpmadan həmin obyektə diqqətlə baxın. Baxdığınız zirvəni və ya onun bütün əlamətlərini diqqətlə sezin və bu zaman heç nə barədə fikirləşməyin.

Hər gün əsəblərinizi sakitləşdirmək üçün məşq edin. Yadda saxlamaq lazımdır ki, siz əsəblərinizi sakitləşdirməyi bacarmalısınız, istər seans zamanı, istərsə də məşqlər vaxtı bir şeyə nail olmasanız, əsəbləşəcək və ruhdan düşəcəksiniz. Bəzən elə subyektlərə rast gəlmək olur ki, onlar həddən-ziyadə əsəbidirlər. Belə əsəbi subyektlə əsəbi opeator heç vaxt heç bir təcrübə apara bilməz.

### 1.8.2. Təlimdə geridəqalmanın korreksiyası

Məktəb təhsilinin keyfiyyətcə yaxşılaşdırılmasına tələbkarlığın artdığı müasir dövrdə şagirdlərin inkişaf qüsurlarının öyrənilməsi və onlara diferensial yanaşmanın zəruliliyi getdikcə yüksəlir. İnkişaf anomaliyaları olan uşaqların xüsusiyyətlərinin və potensial imkanlarının müəyyənləşdirilməsi, inkişaf qüsurlarının aradan qaldırılması məqsədilə inkişafetdirici-korreksiya proqramlarının işlənilib hazırlanması və həyata keçirilməsi aktual problemlərdən biridir.Rus defektoloqları M.S.Pevzner, T.A.Vlasova, V.İ.Lubovski, K.S.Lebednski, N.A. Nikaşina və b. müəyyən etmişdir ki, təlimdə geridə qalan bütün uşaqları heç də əqli cəhətdən qeyri-normal uşaqlar sırasına daxil etmək olmaz. Təlimdə geridəqalma və onun səbəbləri uzun onilliklər boyu pedaqogika və pedaqoji psixologiya elmlərində tədqiq edilən mühüm problemlərdən biri olmuş və olmaqdadır. Bu problemə qarşı daim diqqətin olmasına baxmayaraq onu doğuran səbəblərin çoxcəhətli olmasına görə, o aktual bir problem kimi qalmaqdadır. Təlimdə geridəqalma **pedaqoji, psixoloji və neyrofizioloji** determinantlarla şərtlənmiş kompleks bir problemdir.

Psixi inkişafda geridəqalma inkişaf anomaliyası olub, hər şeydən əvvəl özünü məktəb təliminin ilkin mərhələlərində şagirdlərin bilik, bacarıq və vərdişləri mənimsəməsində, təlim tələblərinə uyğunlaşmasındakı çətinliklərdə biruzə verir. Bu çətinliklərin səbəblərinin elmi-psixoloji təhlili psixi inkişafda geridə qalan uşaqların kliniki-fizioloji və pedaqoji-psixoloji baxımdan normal inkişafda olan və əqli cəhətdən geridə qalan uşaqlardan fərqli xüsusiyyətlərini müəyyənləşdirməyə gətirib çıxarmışdır.

Psixoloji ədəbiyyatlarda bunun səbəbi uşaqlarda baş beyinin alın payının qabıq hissəsi ilə qabığaltı mərkəzlər arasında rabitələrin inkişafdan qalması ilə izah edilir. Rabitələrin bu sistemi öz inkişafında xeyli uzun

müddət tələb edir və təxminən 12-15 yaşlarda norma həddinə çatmış olur.

Xroniki müvəffəqiyyətsizliyin psixoloji sindromları uşağın təlim uğursuzluğunun yeganə səbəbi kimi özünü göstərsə də, bəzən bu asteniya, təlim motivlərinin ifadəli olmayan zəifləməsi halları ilə də bağlı olur. Hər bir valideyn və müəllim öz övladının və şagirdinin uğurlarına sevinir, lakin bu uğurların əldə edilməsi üçün zəruri olan şərtlərin təmin edilməsinə lazımi diqqət yetirmirlər. Hələ 30 il bundan əvvəl məşhur psixoloq A.V.Zaparojets yazırdı: " Pedaqoji prosesin qurulmasında, yeni tərbiyə proqramlarının tərtibində yalnız uşağın nəyə qabil olduğuna deyil, bunun üçün ondan hansı fiziki qüvvələr tələb olunduğuna diqqət yetirmək lazımdır, çünki hər cür həddən artıq yüklənmə, hər cür yorğunluq, sağlamlıq vəziyyətinə və inkişafın ümumi nəticələrinə məhvedici təsir göstərə bilər".

Uşağın təlimdən "soyuması", uzaqlaşması kimi halları doğuran səbəblərin vaxtında müəyyən edilməməsi nəticəsində onun fəaliyyətdən yayınması baş verir ki, bu da son nəticədə təlim uğurlarının aşağı enməsinə gətirib çıxarmış olur. Bu hal isə uşaqda təlim fəallığının zəifləməsi ilə nəticələnir.

Uşaqların psixi inkişafı ilə bağlı olaraq təlim çətinliklərinin köklü səbəblərindən biri də **verbalizm** adlanır. Bu, uşağın təlim uğurlarının ifadəli qeyri-bərabər nəticələrində əks olunur. Belə şagirdlər humanitar elmlərə aid olan fənləri yaxşı mənimsədikləri halda, yüksək intellektual inkişaf səviyyəsi tələb edən riyaziyyat, kimya, fizika və s. kimi fənlərin mənimsənilməsində nə qədər çalışqanlıq və səy göstərsələr də, yüksək nəticələr əldə edə bilmirlər. Məsələn, belə şagirdlər hesab əməllərini formal olaraq yerinə yetirməyi bacardıqları halda, məsələ həllində xüsusi çətinlik çəkirlər.

Valideynlər, xüsusən baba və nənə uşağın dilli-dilavər olmasından fərəhlənir və onun ümumi psixi inkişafının yüksək olması qənaətində olurlar. Onlar uşağın sərbəst, dəqiq və obrazlı danışığından fərəhlənərək ona çoxlu şeirlər əzbərlədir, vaxtından əvvəl oxumağı və yazmağı öyrədirlər.

Fəaliyyətin uşaqlara aid növlərindən, xüsusilə əşyavi və rollu oyunlar, quraşdırma, təsviri fəaliyyət kimi səmərəli fəaliyyət növlərindən uzaq düşmüş belə uşaqların ümumi əqli inkişafı geri qalmış olur. Belə uşaqlarda obrazlı və sözlü-məntiqi təfəkkür, sözlü-mücərrəd hafizə kimi psixi proseslər zəif inkişaf etmiş olduğundan, onların bilikləri formal xarakter daşıyır. Valideynlər yanlış olaraq övladlarının nitq qabiliyyətini əsas götürərək onları hətta **"vunderkind**" adlandırırlar. Nəticədə, belə uşaqlarda özləri haqqında qeyri-adekvat yüksək özünüqiymətləndirmə formalaşır. Onların təlim çətinlikləri birinci sinifdə deyil, proqram materiallarının get-gedə mürəkkəbləşdiyi sonrakı siniflərdə müşahidə olunur.

Valideynlər və müəllimlərin dilindən uşaqlar haqqında səslənən şikayətlər içərisində **uşağın tənbəlliyi** xüsusi yer tutur. Tənbəlliyin yaranması bir sıra səbəblərlə bağlıdır. Onlardan biri uşağa qarşı hədsiz tələbkarlığın olmasıdır. Bəzən valideynlər və müəllimlər tam normal səviyyədə oxuyan uşağı tənbəl adlandırır, özləri uşağın xüsusi səylərini tam səfərbər edə bilmədikləri halda, günahı uşaqda görürlər. Ona görə də, uşaq öz potensial enerjisini təlimə deyil, başqa bir əyləncəli fəaliyyət növünə sərf edir. Belə uşaqlar həyata həzz və əyləncə kimi baxır, yalnız özünə xoş olan işləri görür, yaşlıların göstərişlərinə məhəl qoymur. Psixoloqlar uşağın həyat və fəaliyyətində müşahidə olunan belə halların ilkin səbəblərini onların ərköyün tərbiyəsində görürlər.

Şagirdlərin təlim sahəsindəki geriliyini şərtləndirən amillər sırasında **fəaliyyət tempinin ləngliyinin** də özünəməxsus təsiri vardır. Belə

hallarda uşaq nə qədər vicdanla, məqsədyönlü olaraq çalışsa da, onun iş tempi ləng olduğundan, ətrafdakılara elə gəlir ki, o, tənbəldir, işi başa çatdıra bilməyərək yarımçıq qoyacaq. Əslində, bu amil uşağın tənbəlliyi ilə deyil, sinir proseslərinin cərəyanetmə sürəti ilə bağlıdır və fizioloji təbiətə malik bir haldır.

Uşaq orqanizminin **energetik imkanlarının** zəif olması onun təlimdə geriliyini yaradan səbəblərdən biridir. Belə uşaqlar uzun müddət çarpayıda uzanmağı, saatlarla bir yerdə oturmağı, barmaqları ilə oynamağı xoşlayırlar və elə buna görə də yorulmuş olurlar. Yaşlılara isə elə gəlir ki, belə boş şeylərə görə uşaq yorula bilməz. Uşağın özünəinamsızlığı və həyəcanlı olması onun ətrafdakı adamların nəzərində tənbəl olması haqqında rəyin formalaşmasına səbəb ola bilər.

**Müəllimlərlə münasibətlərin pozulması** uşağın məktəb həyatından uzaqlaşamasına səbəb olan amillərdən biridir. Belə hallarda uşaq məktəbə getmək, ev tapşırıqlarını yerinə yetirmək istəmir, məktəb həyatı ilə bağlı olan bütün işlərdən uzaqlaşmış olur. Ailə münaqişələri, yaxın əhatədəki adamların qarşılıqlı ədavəti uşaqlarda qorxu duyğusu, müdafiəsizlik hissi yaradır. Yaşlıların korlanmış əhvalı nəvaziş və səbrin çatışmazlığı uşağa qarşı münasibətin dəyişməsinə gətirib çıxarır.

Uşağın **dalğınlığı, diqqətsizliyi** və diqqətin digər funksiyalarının formalaşmaması onlarda bəzən beyinin üzvü zədələnməsi ilə də bağlı ola bilər. **Hiperaktivlik, impulsivlik, yüksək hərəki fəallıq** kimi hallar da diqqətin funksiyalarına pozucu təsir göstərən amillərdəndir. Uşaqlar arasında az-az hallarda müşahidə olunan fenomenal hallardan biri də **intellektualizm** adlanır. Belə uşaqlar məişət həyatı ilə bağlı hadisələrə, qaydalara riayət edə bilmir, həmişə dalğın və qayğılı görünür: çantasını unudaraq məktəbdə qoyur, yolda mənzilin açarlarını itirir, və s. Bu hal heç də uşaqlarda diqqətin pozulması ilə deyil, hafizənin yüksək seçiciliyi ilə bağlıdır.

İntellektualizm uşağın ümumi əqli inkişafında harmoniya və balansın pozulmasının nəticəsidir. Belə uşaqlarda məntiqi təfəkkür orta yaş normasından da xeyli yüksək səviyyədə inkişaf etmiş olduğu halda, əyani-obrazlı təfəkkür, qavrayış kimi idrak prosesləri, motorika inkişafdan qalmış olur. Belə halın yaranma səbəblərindən biri valideynlərin lap kiçik yaşlarından uşağa məktəb proqramlarına uyğun mürəkkəb məsələləri öyrətməsi, onu uşaqlıq dövrü üçün səciyyəvi olan fəaliyyət növlərindən təcrid etməsi ilə bağlıdır.

Korreksiya–bu və ya digər qüsurun, çatışmazlığın və əyintinin düzəldilməsidir. Korreksion təsir tədbirləri psixi funksiyaların aktual inkişaf səviyyəsinə yönələrək, müvafiq yaş normalarından kənara çıxma hallarının aradan qaldırılamsına istiqamətlənməlidir.

Korreksiyaedici tədbirlərin həyata keçirilməsinə zərurət o halda yaranır ki, subyekt inkişafdakı əyintiləri dərk etmir və onların əmələ gəlməsi daxili, psixi amillərin təsiri altında baş verir. Yaranan qüsurlar, əyintilər və çatışmazlıqların qarşısı vaxtında alınmadıqda daha da irəliləyir, xüsusilə təlimdə və davranışda ağır nəticələrə gətirib çıxarır. Qeyd etmək lazımdır ki, təlimdə geridəqalmanı şərtləndirən səbəblərin geniş və çoxcəhətliliyi müəllimlərin işini çətinləşdirir, bəzən onları aciz vəziyyətdə qoyur. Yaranmış vəziyyətdən çıxış yollarını müəllimlər adətən belə şagirdlərlə ənənəvi iş üsullarını seçməkdə (şagirdlərlə əlavə məşğələlər, keçilmiş materialların dəfələrlə təkrarı və s.) görürlər. Təcrübə göstərir ki, belə iş üsulları böyük vaxt və qüvvə sərfi tələb edir və çox vaxt arzu olunan nəticəni vermir. Məsələn, bəzi şagirdlərdə hər hansı fikri əməliyyatlar (analiz, ümumiləşdirmə və s.) formalaşmadıqda, təlimin müəyyən mərhələsində biliklərin tam həcmdə, kifayət qədər dərindən mənimsənilməsində **maneələrin** yaranması baş verir. Belə halda korreksiyaedici proqramların zəruriliyi meydana gəlir. Adətən təlimdə müşahidə olunan qüsurlar öyrənən subyekt kimi şagirdin özü tərəfindən dərk olunmadığı kimi,

öyrədən və tərbiyə edən subyekt kimi müəllim və tərbiyəçi tərəfindən də aydın dərk olunmur. Belə hallarda müəllim fənnin mənimsənilməsində əngəl yaradan çətinlikləri, maneələrin həqiqi səbəblərini müəyyən edə bilmir. Ona görə onun şagirdə yönəlmiş ümumi tələbləri ("daha çox məşğul ol","çalış","səy göstər", "tənbəllik etmə") şagirdə az fayda verir. Şagird təlim uğursuzluqlarını aradan qaldırmaq üçün "necə səy göstərmək", "necə çalışmaq" lazım gəldiyini anlamaqda çətinlik çəkir.

Çox vaxt şagidin intellekt testlərinin tətbiqi zamanı əldə etdiyi nəticələrlə onun təlim göstəriciləri arasında uyğunluqlar özünü göstərir. Bu sübut edir ki, şagirdin testdə qazandığı nəticə bu və ya digər dərəcədə onun təlim fəaliyyətindəki uğurlarını əks etdirir. Lakin şagirdin test vasitəsilə aşkar edilmiş hansı fərdi xüsusiyyətinin təlim fəaliyyətində uğur və ya uğursuzluqlarını praktik olaraq yüksəltdiyi aydın olmur. Odur ki, belə testlər vasitəsilə proqnoz əhəmiyyətli korreksiya planlarının tərtib edilməsi mümükün deyildir.

Rus psixoloqu K.M. Qureviç yazır ki, əqli inkişafın məktəb testlərində buraxılan xarakterik səhvləri təhlil etməklə, bu sahədə korreksiya-inkişafetdirici proqramlar işləyib həyata keçirmək mümüköndür. Şagird həm riyazi, həm humanitar, həm də təbii-elmi fənlər üzrə tapşırıqları yerinə yetirərkən eyni xarakterli səhvləri buraxdıqda (məsələn, analogiya əsasında əqli nəticə çıxarma əməliyyatını icra edə bilmədikdə) bu əqli əməliyyatın formalaşdırılmasına yönəlmiş korreksiyaedici proqramlar tətbiq edilə bilər. Həmin proqramların hazırlanması zamanı aşağıdakı prinsiplərə əməl edilməlidir.

***1. Fikri əməliyyatların şüurluluğu prinsipi.***

Məlumdur ki, fikri fəaliyyət bir sıra əməliyyatlara əsaslanır və onların sırasında mücərrədləşdirmə, ümumiləşdirmə, analiz, sintez, müqayisə və təsnifat mühüm yer tutur. Fikri fəaliyyətin səhvsiz yerinə yetirilməsi üçün fərd bu prosesi dərk etməli, onu bir əməliyyat kimi

qavramalıdır. Öz təfəkkür fəaliyyətinin xüsusiyyətlərini dərk edən fərd əqli inkişafın süksək səviyyəsinə yüksələ bilər. Öz fikri fəaliyyətini dərk edən hər bir adam fikrinin gedişinə nəzarət edə bilir, onu idarə edir, buraxdığı səhvləri və qüsurları təhlil edərək aradan qaldıra bilir.

2*. **Tapşırıqlarda müxtəlif məktəb fənlərinə və bilik sahələrinə aid rəngarəng materiallardan istifadə olunması prinsipi.***

***3. Şagirdlərdə əsas (baza) fikri əməliyyatlarının və mühüm intellektual bacarıqların inkişaf etdirilməsinin zəruriliyi və bu əsasda inkişafetdirici–korreksiya proqramlarının hazırlanması prinsipi.*** Bu bacarıqlar insanın istənilən fəaliyyət sahəsində idrak fəaliyyətinin və fəallığının əsasını təşkil edir. Nümunə üçün bir neçə korreksiyaedici proqramın məzmununa diqqət yetirək:

**İnkişafetdirici korreksiya proqramı 1.**

II-IV sinif şagirdlərində analiz, oxşar əlamətlərə görə müqayisə, sintez, ümumi-ləşdirmə əməliyyatları ilə bağlı müxtəlif məntiqi əlaqələrin qurulması bacarıqlarının formalaşdırılması. Sadalanan əməliyyatlar fikri fəaliyyətin əsas üsulları olmaqla, mühakimə və əqli nəticə üçün əsasdır və təfəkkürün mürəkkəb məqsədəyönəlmiş aktıdır.

**İnkişafetdirici korreksiya proqramı 2.**

Pedaqoqların səylərinin arzu edilın nəticəni verməsi, məktəbin şagirdlərə elmi bilikləri öyrətməsi üçün anlama kimi mühüm intellektual bacarıqların inkişaf etdirlməsi və korreksiyası zəruridir. Bu məqsədin reallaşması üçün proqrama daxil edilən tapşırıqlar III-V sinif şagirdlərində semantik təhlil aparmaq və sözün, ifadə və mətnlərin ümumi və xüsusi mənalarını anlamaq, mətndə əsas fikirləri ayırmaq bacarıqlarının formalaşdırılmasını nəsərdə tutur.

**İnkişafetdirici-korreksiya proqramı 3.** Bu proqram tam şəkildə aktiv nitqin inkişafına yönəlmişdir. Bu proqram əsasında uşaqlarda nitqin inkişaf etdirilməsi üçün sözlərin yadda saxlanılmasını sürətləndirməyə imkan

verən sərbəst söz assosiasi-yaları metodu tətbiq edilir. (Məsələn: şəhər-Bakı, dəniz-Xəzər, parta-məktəb və s.) Uşaqlarda idrak fəaliyyətinin və idrak proseslərinin zəifliyi, motivləşmənin olmaması təlimdə geridəqalmanın əsas səbəblərindən biri olduğuna görə, idrak proseslərinin inkişafına yönəlmiş bir sıra korreksiya proqramlarından istifadə etmək məqsədəuyğundur. Bu məqsədlə bir neçə korreksiya proqramına nəzər salaq.

***Kim daha tez?***

Şagirdlərə hər hansı bir mətn parçası təklif olunur. Bu mətndə tez-tez rast gəlinən, məsələn, “o” və “e” hərflərinin altından xətt çəkmək tapşırığı verilir. Tapşırığın uğurla yerinə yetirilməsi buraxılmış səhvlərin sayına və sərf edilmiş vaxta görə müəyyən edilir. Bu göstəricilər nə qədər aşağıdırsa, müvəffəqiyyət daha yüksəkdir.

***Müşahidəçilik***

Uşaqlara təklif olunur ki, evdən-məktəbə gələrkən yüzlərlə dəfə gördükləri hər şeyi yolda və məktəb həyətində rastlaşdıqları bütün obyektlərin adlarını müfəssəl şəkildə təsvir etsinlər.

***Çətindir, yadda saxla!***

Müəllim şagirdlərə 25-30 saniyə ərzində yazılışı çətin olan on sözün yazıldığı şəkillər göstərir. Vaxt başa çatdıqdan sonra şəkilləri götürür. Bundan sonra şagirdlər müəllimin diktəsi ilə bu sözləri yazırlar. Görmə hafizəsi bu halda eşitmə hafizəsi ilə əlaqələnmiş olsa da, burada birincinin üstünlüyü daha əhəmiyyətlidir. Bütün sözləri düzgün yazmış şagird qalib hesab olunur.

***Ümumiləşdirici anlayışı müəyyən et.***

Şagirdlərə blankda 20 ümumiləşdirici söz və onların hər biri ilə əlaqəli olan beş söz təklif olunur. Bu sözlərdən ikisi ümumiləşdirici sözlə daha sıx bağlıdır. Həmin sözləri tapıb altından xətt çəkmək lazımdır.

**Məsələn:** 1) Bağ (bitki, bağban, it, hasar, torpaq). ( bitki, torpaq) ;

2) Kitab (şəkillər, müharibə, kağız, məhəbbət, mətn). (kağız, mətn) və s.

İnkişafetdirici-korreksiya proqramlarının qurulmasının IV prinsipi **tədricilik** adlanır. Bu prinsip həmin proqramlarla iş qaydalarını, sadə biliklərdən tədricən daha mürəkkəb əməliyyat və bacarıqlara keçidi nəzərdə tutur. Belə proqramlar tərtib edilərkən hər bir tapşırıq və çalışma daha mürəkkəb tapşırıqların yerinə yetirilməsinə hazırlıq məqsədi daşıyır.

Beşinci prinsip adlanan **fərdiləşdirmə** psinsipi inkişafetdirici-korreksiya proqram-larının yerinə yetirilməsində ayrı-ayrı uşaqlara və ya onların qrupları ilə işin xüsusiyyətlərini əks etdirir. Fərdiləşdirmə uşaqların fərdi əqli xüsusiyyətlərini, korreksiyaedici proqrama daxil edilmiş nəzəri biliklərin mənimsənilməsi tempini, məşqetdirici tapşırıqların yerinə yetirilməsi sürətini özündə ehtiva edir. Təlimə qabilliyi aşağı səviyyədə olan uşaqlar üçün daha ətraflı izah, daha çox məşqetdirici çalışmalar, keçilmiş materiallara dəfələrlə qayıdış tələb olunur.

### 1.8.3. "Risk qrupu"na aid edilən uşaqlarla aparılacaq psixokorreksiya işi

Uşaqlarda müşahidə olunan davranış pozğunluqları sırasında aqressivlik, coşqunluq, hiperaktivlik, utancaqlıq və qorxaqlıq kimi simptomlar mühüm təsirə malikdir.

**Aqressiv davranış** məktəbəqədər və yeniyetmə yaşlı uşaqların davranışında müşahidə olunan ən geniş yayılmış davranış qüsurlarından biridir. Belə davranışın əsas motivini istəyə daha tez və səmərəli üsulla çatmaq niyyəti təşkil edir.

Aqressiya və aqressivlik nəzəri planda kifayət qədər dərindən öyrənilmiş bir hadisədir. Məktəbəqədər müəssisələrdə və məktəblərdə işləyən praktik psixoloq üçün belə davranışın üç əsas cəhətini bilmək zəruridir:

1. aqressiya (aqressivlik) nədir;

2. onun təzahürünün mümükün səbəbləri hansılardır;
3. onu necə korreksiya etmək olar.

Uşaqlarla işləyən savadlı psixoloq hər şeydən əvvəl “aqressiya” və “aqressivlik” anlayışlarını fərqləndirməyi bacarmalıdır.

**Aqressiya** cəmiyyətdə insanların mövcudluğu və birgəyaşayışını təmin edən norma və qaydalara zidd, motivləşmiş destruktiv davranışdır. Onun əsasında canlı və cansız obyektlərə hücum etməklə ziyan vurmaq, adamlara fiziki və mənəvi xəsarət yetirmək, onlarda psixoloji diskomfortun yaranmasına səbəbkar olmaq durur.

**Aqressivlik** aqressiyaya hazırlıqla müşayət olunan psixoloji vəziyyətdir. Uşaq və yeniyetmələrdə belə davranışın yaranması bir sıra amillərlə bağlıdır:

- uşağın ailədə tərbiyə üslubu (hiper və ya hipo himayə);
- uşağa zorakılıq səhnələrinin nümayiş etdirilməsi və ya buna şəraitin yaradılması;
- ailədə qeyri-sabit sosial-iqtisadi vəziyyət;
- insanın özünün sinir sistemi tipindən asılı olan fərdi xüsusiyyətləri (davranışda impulsivlik, fəal ləngimənin aşağı səviyyədə olması);
- ailənin sosial-mədəni statusunun aşağı olması və s.

İnamla qeyd etmək olar ki, uşaqda aqressiv davranışın yaranmasında ailə mühitinin və tərbiyənin mühüm rolu vardır. Uşaqla münasibətlərdə emosionallığın xarakteri və səviyyəsinin, təqdir edilən, bəyənilən davranış formalarının aqressiv davranışın yaranmasında təsiri heç də az deyildir. Psixoloq konkret olaraq hər hansı uşaqda müşahidə olunan aqressivliyin səbəblərini və motivlərini ilk növbədə müəyyən eyməyi bacarmalıdır.

Aqressivlik fiziki və psixi cəhətdən şərtlənmiş olur. Hələ körpəlik və erkən uşaqlıq dövründə uşaqlarda müxtəlif səbəblərlə şərtlənmiş (fiziki diskomfort, əxlaq qaydalarını bilməmək, özünənəzarət funksiyalarının formalaşmaması və s.) aqressiv reaksiyalara rast gəlmək mümkündür.

Uşağın aqressivliyini heç də həmişə birmənalı olaraq mənfi qiymətləndirmək doğru deyildir. Çünki o, uşaq üçün hələlik fiziki və sosial baxımdan özünümüdafiə funksiyasını yerinə yetirir.

Psixoloqların qeyd etdiyi kimi, çox vaxt uşaqlarda gözlənilməz aqressiv reaksiyalar **yaş böhranları** dövründə meydana gəlir. Əgər aqressiv davranış qeyd olunan səbəblə bağlıdırsa və konkret uşaq üçün tipik deyildirsə, deməli, uşağın tipik çətinlikləri və problemləri vardır və o, ətrafdakıların köməyinə ehtiyac hiss edir.

Uşağın aqressiv davranışına səbəb olan amillərdən biri də onun həmyaşıdları qrupunda öz statusu ilə daxilən razı olmaması, xüsusən liderliyə can atmasıdır. Ətrafdakıların uşağa müxtəlif **yarlıqlar** yapışdırması, onu lağ, istehza obyektinə çevirməsi vəziyyəti gərginləşdirən amillərdəndir.

Uşağın valideynlər və ya digər yaşlılar tərəfindən təbii tələbatlarının, istəklərinin məhdudlaşdırılması onda belə halları yaradanlara qarşı açıq qiyam şəklində aqressiv təzahürlərə səbəb olur.

Uşaqlarla iş aparan psixoloq ilk növbədə onlarda aqressivliyin səbəblərini müəyyən etmək üçün müəyyən diaqnostik metodikalardan (oyunda uşağın müşahidə edilməsi, "Rene Jilya" testi, "Rozentsbeyq" testi, "Nağıl" testi, "Əl" testi və s) istifadə etməli, daha sonra korreksiya işi aparmalıdır.

Uşaqlarda aqressivliyin korreksiyası paralel olaraq onu əhatə edən yaşlılar, valideynlər, müəllim və tərbiyəçilərlə də aparılmalıdır. Aşkar edilmiş səbəbdən asılı olaraq psixoloqun yaşlılara aşağıdakı məsləhətləri verməsi zəruridir:

- uşağa qarşı neqativ ustanovkanın pozitiv olaraq dəyişdirilməsi;
- uşaqla qarşılıqlı münasibətlərin üslubunun dəyişdirilməsi və yaxşılaşdırılması;
- müəllim və tərbiyəçilərin ünsiyyət bacarıqlarını inkişaf etdirilməklə onların uşaqla davranış repertuarının genişləndirilməsi;

- ətrafdakıların uşağa qarşı ümumi münasibət strategiyasının dəyişdirilməsi.

Aqressiv uşaqlarla **psixokorreksiya** işinin qarşısında aşağıdakı vəzifələr durur:

- başqa adamın vəziyyətini anlamaq bacarığının inkişaf etdirilməsi;
- öz emosiyalarını sosial cəhətdən qəbul edilən həddə idarə etmək və təqdim etmək bacarıqlarının inkişaf etdirilməsi;
- gərginliyin zəiflədilməsi üsullarının öyrədilməsi;
- ünsiyyət vərdişlərinin inkişaf etdirilməsi.

Rus psixoloqu Q.A.Şirokova uşaqlarda aqressivliyin neytrallaşdırılması yolu ilə korreksiyası üçün bir sıra metodlar təklif edir:

- balıncla savaşmaq;
- fiziki cüc tələb edən hərəkətlər etmək;
- kağız cırmaq;
- döymək istədiyin adamın şəklini çəkib ona "zərbə" endirmək;
- psixogimnastika;
- kollektivdə öz davranışını tənzim etmək vərdişlərinin inkişafına yönəlmiş oyun və etüdlər;
- izoterapiya elementlərindən istifadə edilməsi ( gil və su ilə oynamaq);
- aqressiv uşaqlara güc xarakterli (pəhləvan, cəngavər) rollar verməklə tamaşalar hazırlatmaq və s.

## Hiperaktiv uşaqlarla iş

Hiperaktivlik (hiperaktivliklə diqqətin çatışmazlığə sindromu) impulsivliyi və dalğınlığı normal olmayan uşaqlar üçün səciyyəvi olmayan təzahürlərdən biridir. Belə uşaqlar bir qayda olaraq hər hansı bir obyekt üzərində öz diqqətlərini az və ya çox müddət cəmləşdirməyi bacarmır, qarşıya qoyulan vəzifəni yerinə yetirə bilmir, onun icrasında ehtiyatsızlığa yol verirlər. Onların iş üzərində məhsuldar fəaliyyəti olduqca aşağı olur, tez-tez dalğınlığa

qapılırlar. Hiperaktiv uşaqların əqli fəaliyyəti dövri olması ilə səciyyələnir: onlar 5-15 dəqiqə məhsuldar işləyir, bundan sonra onların beyni 3-7 dəqiqə, “istirahət edir”, sonrakı iş üçün zəruri olan enerjini toplayır. Belə uşaqlarda dalğınlıq və diqqətin pozulması səbəbsiz baş verir. Onların belə, qeyri-adi davranışını heç də axmaqlığın, tərslik və ya tərbiyəsizliyin nəticəsi kimi qiymətləndirmək doğru deyildir. Bu, onların psixikasının spesifik fizioloji xüsusiyyətləri (beyinin müəyyən strukturlarında pozğunluqlar, irsiyyət, hamiləlik və doğuş patologiyası, həyatın ilk illərində infeksiya və intoksasiya) həmçinin psixososial amillərlə bağlıdır.

Uşaqlarda hiperaktivliyi doğuran mümükün səbəblərə aşağıdakılar aid edilir:

1. **Perenatal patologiya** (toksikozlar, anada xroniki xəstəliklərin kəskinləşməsi, infeksion xəstəliklər, qarın sahəsində xəsarətlər, böyük dozada alkoqol və nikotin qəbulu, rezus-faktorun immunoloji uyğunsuzluğu, hamiləlikdən azad olma cəhdləri və s.);
2. **Doğuşun kəskin keçməsi** (doğuşun vaxtından əvvəl və ya gec olması, doğuşun stimullaşdırılması (inyeksiyalar), dölün düzgün olmayan vəziyyəti, daxili qanaxma);
3. **Psixososial** (ailədə tərbiyə üslubu).

Hiperaktiv uşaqlar dünyaya gəldikləri ilk günlərdən yaşlıların qayğısına daha çox möhtac olurlar. Onlar pis yatır, xarici qıcıqlandırıcılara (işıq, səs, temperatur, iy) qarşı hədsiz dərəcədə həssaslığı, yüksək əzələ tonusuna malik olmaları ilə seçilirlər. Orta məktəbəqədər yaş dövründə (4-5 yaş) onlar oxunan və ya söylənilən nağılı axıradək dinləyə bilmir, hər hansı işi sona çatdırmağı bacarmırlar.

Hiperaktivlərin maraqları hədsiz yüksək olsa da, davamlı deyil, hər hansı bir şeyin mahiyyətinə varmaq təşəbbüsləri nəzərə çarpmır. Belə uşaqların hərəkətləri gizli, qaydasız, oyunları səs-küylü olur. Onlar heç vaxt öz əməllərinin nəticələri haqda düşünmür, doğma adamlarının belə

vəziyyətlərinə etinasız olurlar. Eqoizm, nümayişkaranəlik və tələbklarlıq onların ucbatından daim ailədə münaqişələrin yaranmasına gətirib çıxarır, aqressivliyin inkişafına səbəb olur. Hiperaktivlik sindromu yeniyetmə yaşı dövründə belə uşaqlarda asosial davranışın (hüquqpozma, alkoqolizm, narkotik asıllıq) inkişafına səbəb ola bilər. Hiperaktiv uşaqlar yaşlıların tələblərinə məhəl qoymur, onlara müqavimət göstərirlər. Belə uşaqlarla korreksiya işinin təşkilində onların aşağıdakı bacarıqlarının inkişaf etdirilməsi diqqət mərkəzində olmalıdır:

- diqqətin konsentrasiyasının inkişaf etdirilməsi;
- başlanmış işin sona çatdırılması bacarıqlarının inkişaf etdirilməsi;
- öz hərəkətlərinə nəzarət etmək bacarıqlarının fiormalaşdırılması;
- əzələ gərginliyinin aradan qaldırılması;
- emosional gərginliyi nəzarətdə saxlamaq və tənzim etmək bacarıqlarının inkişaf etdirilməsi;
- yaşlılar və həmyaşıdlarla qarşılıqlı münasibətlərin repertuarının genişləndirilməsi.

Psixoloq yaşlılarla, hər şeydən əvvəl valideynlərlə iş zamanı onlara öz uşaqları ilə qarşılıqlı münasibətlərinin üslubunun dəyişdirilməsi zərurəti barədə xəbərdarlıq etməlidir. Valideynlərə bildirilməlidir ki, hiperaktiv uşaqlarla tərbiyə işində intizam-cəza tədbirləri, qadağanlar faydasızdır. Belə uşaqlara eyni vaxtda bir neçə iş tapşırmaq olmaz, çünki onlar belə tapşırıqları yadda saxlamağı bacarmırlar. Valideynlər belə uşaqlarına verdikləri hər bir tapşırığın icrası üzərində nəzarət etməli, daha sonra başqa tapşırıq verməlidir.

## Utancaq və qorxaq uşaqlarla iş

Psixoloqun uşaqlara yardımının səmərəliliyi qarşıya çıxan bu və ya digər problemin səbəblərinin düzgün müəyyən edilməsindən asılıdır. Uşaq haqqında **anamnezin,** yəni ilkin informasiyanın toplanması zamanı psixoloq

uşağın normal yaşamasına və inkişafına əngəl törədən amillərin müəyyən edilməsinə xüsusilə həssaslıq göstərməlidir. Belə səbəblər sırasında **utancaqlıq və qapalılığın** təsiri olduqca böyükdür. Bu cür problemləri olan uşaqlar daim həyəcanlı görünür, həyatlarında baş verən dəyişikliklərə çətinliklə alışır, yeni şəraitdə və yad adamların əhatəsində qorxu hissi keçirirlər.

Utancaq uşaq qrupda və ya sinifdə o qədər də nəzərə çarpmır, fəal həmyaşıdlarının təsirinə asanlıqla düşür, onlardan qorxur. Bir çox valideynlər yanlış olaraq utancaqlığı uşağın yaxşı tərbiyə olnumasının əlaməti hesab edir, onun daxili həyəcan və qorxusunun, diskomfortunun səbəblərini anlamırlar. Psixoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, qorxu hissi uşağın yalnız emosional deyil, həm də intellektual aləminin inkişafını blokadaya alır. Belə uşaqlarda özünüqiymətləndirmənin səviyyəsi qeyri-adekvat olur. Utancaq uşaqlar böyüdükdən sonra da şəxsi həyatda və peşəkar fəaliyyətdə işgüzar əlaqələr yaratmaqda çətinlik çəkir, ünsiyyətdən qaçırlar. Psixoloqların fiktincə, utancaq uşaqlara daha çox avtoritar valideynləri olan ailələrdə rast gəlinir. Qadağanlar, danlaq və cəza lap kiçik yaşlarından uşaqlarda uyğunsuzluq kompleksinin inkişafına yol açır. Nəticədə uşaq hər addımda müstəqil hərəkət etməkdən qorxur, onda təşəbbüskarlıq inkişafdan qalır. O, səhv edərək danlanacağından və ya cəza alacağından qorxur. Bu isə uşaqda “fəaliyyətdən qaçma” simptomunun yaranmasına səbəb olur. Yaşlıların uşağın bacarıqsız, fərsiz və qabiliyyətsiz olması haqqındakı rəyi onda dərin sarsıntı yaradır, psixoloji müdafiə mexanizmlərinin formalaşmasına əngəl törədir.

Utancaq uşaqlara daha çox ünsiyyət dairəsi məhdud olan təkuşaqlı ailələrdə və ana ilə uşağın birgə yaşadığı natamam ailələrdə rast gəlinir. Yeganə uşağını itirməkdən qorxan analar onları daim nəzarətdə saxlayır, həmyaşıdları ilə ünsiyyətdən məhrum edirlər.

Qorxu utancaqlığın simptom komplekslərinə aid edilən əlamətlərdən biridir. Qorxunun mexanizmi ondan ibarətdir ki, uşaq daim problem və münaqişələrin yaranmasına bais olmaqdan ehtiyatlanır, xoşagəlməz hallara qarşı gözləmə mövqeyində olur.

Utancaq uşaqlarla iş zamanı psixoloq aşağıdakı istiqamətlərə üstün diqqət yetirməlidir:

- pozitiv özünüdərketmənin inkişaf etdirilməsi;
- uşaqda özünə və öz qüvvəsinə inamın yüksəldilməsi;
- başqalarına qarşı inam hissinin inkişaf etdirilməsi;
- qorxunun korreksiya edilməsi;
- bədən gərginliyinin aşağı salınması;
- öz emosiyalarını ifadə etmək bacarıqlarının inkişafı;
- kollektiv iş vərdişlərinin inkişaf etdirilməsi;
- özünənəzarət vərdişlərinin formalaşdırılması;

Uşaqlarda utancaqlığın səbəblərinin diaqnostikasında psixoloq aşağıdakı metodikalardan istifadə edə bilər:

1. "Ailə rəsmi" testi;
2. Qorxunun diaqnostikası metodikası (Amen testinin modifikasiyası);
3. P. Beyker və M.Alvordun "Uşaqda həyəcanlılığın müəyyən edilməsi kriteriyaları" sorğusu;

Utancaq uşaqlarla iş zamanı əsas çətinlik onlarla əlaqənin, etibarlı münasibətlərin yaradılmasında özünü göstərir. Bu zaman tələsmək lazım deyildir. Psixoloq çalışmalıdır ki, uşaq ona alışsın, qarşılıqlı ünsiyyətə qoşulmaqda təşəbbüs göstərsin. Bundan sonra psixoloqun iş otağında uşaqla fərdi iş aparmaq olar. Kiçik yaşlı uşaqlarla **psixoterapiya**, **oyun terapiyası** və **tanışlıq situasiyaları** metodlarından istifadə etmək məqsədəuyğundur. Psixoloq çalışmalıdır ki, fəaliyyət zamanı uşağın ən kiçik uğurları belə, təqdir edilsin, bəyənilsin. Psixoloq uşaqla sakit tonda, yumuşaq

səslə danışmalı, onunla nəzakətli rəftar etməlidir. Burada əsas şərt psixoloqun səbrliliyi və taktiki məharətə malik olmasıdır.

### 1.8.4. Psixoloqun valideynlərlə aparacağı psixokorreksiya işinin məzmunu və formaları

Uşağın şəxsiyyətinin formalaşmasında onun əhatə olunduğu **ətraf mikrososial mühitin** xüsusilə kiçik qrupların (ailə, həmyaşıdlar və qeyri-formal ünsiyyət qrupları və s.) müstəsna əhəmiyyəti və rolu danılmazdır. Uşağın ətraf sosial əhatəsi tərbiyə məqsədlərinin həyata keçirilməsində həlledici əhəmiyyət kəsb edir. Psixoloq uşağın vaxtının çox hissəsini keçirdiyi ailənin təsirinə daha çox üstünlük verir, haqlı olaraq davranışda meydana gələn qüsurların səbəblərini münasibətləri sağlam olmayan ailə mühitinin təsirində axtarırlar.

Bu sahədə uzun illər boyu tədqiqat aparmış rus psixoloq və pedaqoqlarından Q.P.Boçkareva, E.A.Liçko, B.N.Almazov, T.M.Mişina, V.M. Qarbuzov, A.İ.Zaxarov, D.N.İsayev və b.qüsurlu davranışın simptomlarını və onların yaranma səbəblərini təhlil edərkən qarşılıqlı münasibətləri və **daxili mühiti sağlam olmayan ailə tiplərinin** təhlilini vermiş, ailədaxili qeyri-sağlam iqlimin təzahürlərini göstərmişlər. Q.P.Boçkareva əlverişsiz tərbiyə amilini əsas göstərərək çətin uşaqların çıxdığı ailələri 2 əsas qrupa ayırmışdır:

1. uşaqlara qarşı münasibətdə laqeyd və kobud olmaqla yanaşı, hörmət bəsləyən, emosional mühiti əlverişsiz olan ailə;
2. üzvləri arasında emosional əlaqələri olmayan uşağın tələbatlarına qarşı etinasızlıq göstərən ailə. Belə ailələrdə uşaq onun üçün əhəmiyyətli olan mənəvi-emosional tələbatları ailədən kənarda tapmağa cəhd göstərir.

E.A.Liçko əlverişsiz situasiyaların mövcudluğunu əsas götürərək çətin uşaqların yetişdiyi ailələrin 4 əsas xarakterik xüsusiyyətlərini qeyd etmişdir:

1. uşaqların daxili həyatının hər cür təzahürlərinin yaranmasının iştirakçısı olmaq istəyindən tutmuş, qəddarlığa qədər müxtəlif səviyyəli himayədarlıq;
2. hərdən baxımsızlıq həddinə qədər çatan hədsiz himayədarlıq;
3. ailədə "sitayiş" yaradan situasiyalar. Belə ailələrdə uşaqların istənilən hərəkətlərinə göz yumulur, onun bütün ciddi uğurlarının hədsiz təriflənməsi xarakterikdir;
4. "zoluşka" (valideynlərin gözündən düşmüş qız) effektinin yaranmasına səbəb olan ailə. Müəllif qeyd edir ki, ötən əsrin 80-cı illərində elə ailələr yaranmağa başladı ki, onlar əsas diqqəti özlərinə yönəldərək uşaqlarını gözdən salmağa, etinasızlıq göstərməyə başladılar. Bunun nəticəsində qəddar və daşürəkli yeniyetmələrin sayı artmağa başlamışdır.

Çətin uşaqların çıxdığı əlverişsiz mühiti olan ailələri B.N.Almazov 4 tipə ayırmışdır:

1. **tərbiyə resuslarının çatışmadığı ailələr.** Belə ailələrə a) dağılmış və ya natamam ailələr; b) ümumi inkişaf səviyyəsi zəif olan ailələr. (Belə ailələrdə uşağa təlimdə qarşılaşdığı çətinliklərin aradan qaldırılmasında kömək göstərən olmur); ç) maddi təminat səviyyəsi aşağı olan ailələr.

   Qeyd olunan belə ailələr öz-özünə çətin uşaqlar yetişdirmir, əksinə çox vaxt mənəvi cəhətdən sağlam uşaqların əksəriyyəti məhz belə əməllərdən çıxır. Lakin qeyd olunan çatışmazlıqlar uşağın normal tərbiyəsi üçün əlverişsiz fon yaradır.
2. **konfliktli ailələr.** Belə ailələrdə vülideynlər öz xarakterlərindəki qüsurları aradan qaldırmağa cəhd göstərmir, bir-birinə qarşı dözümsüzlük nümayiş etdirirlər. Odur ki, belə ailələrdə uşaqlar münaqişələrin yaranmasına bais olan valideynlərinə sevgi bəsləmir, əksinə, müxtəlif mövqe tuturlar. Ailənin böyük yaşlı uşaqları çox vaxt

baş verən konfliktə qarşı qiyam qaldırır və valideynlərindən birinin tərəfini tuturlar.

3. **mənəvi cəhətdən əlverişsiz mühitli ailə**. Belə ailələrdə ailə üzvləri öz dünyagörüşünə və ailənin qurulması prinsiplərinə münasibətdə fərqli mövqeyə malikdirlər. Ailə üzvlərindən ən azı biri öz məqsədinə başqalarının marağına zərbə vurmaqla, onun əməyindən istifadə etməklə, digərlərini öz iradəsinə tabe etdirmək yolu ilə nail olmağa çalışır.
4. **pedaqoji baxımdan səriştəsiz ailə**. Onlarda uşağın inkişaf mənzərəsi haqqında real deyil, köhnə, dumanlı və ziddiyyətli təsəvvürlər hakim olur. Belə valideynlərin fikrincə, uşağa tam sərbəstlik vermək olmaz, nəzarətsizlik bəlalara səbəb ola bilər.

T.M.Mişina ailədə ər-arvad münasibətlərindəki **diskomfortun** üç əsas tipini qeyd edir.

1. **aildaxili münasibətlərdə dostluq-düşmənçilik xarakterli, qəriblik mühiti.** Belə tip ailələrdə hər iki cütlük özlərinin qeyri-yetkinliyi, ailə rollarının formalaşmaması ilə seçilir və onların hər biri ailənin bütövlüyündə məsuliyyəti öz üzərinə götürmək iqtidarında deyildir.
2. **yalançı əməkdaşlıq.** Belə ailələrdə zahirən ailə cütlüyü bir-birinə qarşı qayğıkeş görünsələr də, ailədaxili konfliktlərə heç də az təsadüf olunmur. Bu halda konfliktlərin yaranması ailədənkənar sferada ər-arvadın fərdi uğursuzluqları, işdəki yorğunluq və çətinliklərlə və ya ünsiyyət çətinlikləri ilə bağlı olur.
3. **təcrid olunma**. Ər və arvad arasında emosional əlaqələr zəiflədiyinə görə onlar ər-arvad kimi bir-birinin problemləri ilə maraqlanmırlar. Belə ailələrdə təcrid olunmanın sərhədləri dəyişdikdə, yəni yaxınlaşma artdıqda konfliktlər meydana gəlir.

Ailənin uşağın tərbiyəsində əsas sosial istitutlardan biridir. Bu cəhətdən onun fərqləndirici cəhətlərini aşağıdakılardır;

- ailə öz psixoloji strukturu ilə mürəkkəb daxili quruluşa malik bir sistemdir;
- ailə onu təşkil edən ayrı-ayrı fərdlərin bir sıra xassə və xüsusiyyətlərini özündə əks etdirir;
- ailə ona daxil olan ayrı-ayrı fərdlərin sadəcə mexaniki məcmuyu deyildir;
- ailə sisteminə daxil olan hər bir fərd başqalarına təsir göstərməklə yanaşı, özü də başqalarının təsirinə məruz qalır;
- ailə sistemi özünütənzimetmə qabiliyyətinə malikdir.

Ailənin bir sistem kimi qəbul edilməsi öz növbəsində uşaq və yeniyetmələrin tərbiyəsi işində müşahidə olunan qüsurların pedaqoji-psixoloji korreksiyasının təşkilinə **sistemli yanaşmanın** zəruriliyini irəli sürür. Yalnız ailənin bütün üzvləri ilə aparılan birgə iş arzu edilən müsbət nəticələrin əldə edilməsinə təminat yarada bilər. Psixoloji ədəbiyyatlarda davranışında qüsurlar olan uşaq və yeniyetmələrin tərbiyəsi sahəsində aparılan korreksiyaedici rəngarəng formaların adları qeyd olunur. Bunların sırasında 3 əsas forma - **qrup ailə psixoterapiyası** (bir neçə ailə cütü qrupları ilə iş), ayrıca bir ailə və ya onun üzvləri ilə aparılan **fərdi psixoterapevtik iş**, uşaq və valideynlərlə birgə aparılan **qrup psixoterapiyası** daxildir.

Ailədə fərdi və qrup halında aparılan **psixokorreksiya işi** eyni bir psixoterapevtik prosesin mərhələlərinə əsaslanır. Onun əsas məqsədi ailədə münasibətlərin normallaşdırılması vasitəsilə şəxsiyyətin psixoloji tamlığının bərpasına və möhkəmləndirilməsinə yönəldilir.

Psixoloji korreksiya uşağın psixoloji "**risk faktoru"nun** azadılması, yenidən qurulması və ailədə ahəngdar qarşılıqlı münasibətlərin bərpasına yönəlmiş fəaliyyətdir. Bu istiqamətdə həyata keçirilən işlərin sistemində ailədə psixoloji iqlimin normallaşdırılması, ər-arvad cütlüyü arasında qarşılıqlı ünsiyyətin, uşaqlara qarşı valideynlik hisslərinin yaxşılaşdırılması və

valideynlərdə aiə tərbiyəsinin məqsədi və vəzifələri haqqında təsəvvürlərin genişləndirilməsi mühüm yer tutur.

Valideynlərlə psixokorreksiya üzrə işi təşkil edərkən məktəb psixoloqu onlara uşağın ailədə tərbiyəsi üçün psixoloji təsir vasitələri haqqında məlumat verir, tərbiyəedici vərdişləri inkişaf etdirmək məqsədilə treninqlər təşkil edir və uşaqlarla qarşılıqlı münasibətlərin yeni formaları haqqında təsəvvürləri genişləndirir.

Valideynlərlə aparılan psixokorreksiya işlərinin kompleksi qarşılıqlı əlaqədə olan bir neçə blokdan ibarət sistemdir. Hər bir blok müxtəlif vəzifələrin yerinə yetirilməsinə yönəlməklə, spesifik metod və priyomlara əsaslanır.

***I.İstiqamətləndirici blok.***

**Məqsədlər:**

- kəskin ailədaxili böhran nəticəsində yaranmış gərginliyin aradan qaldırılması;
- uşağın davranışında və ailədəki münasibətlərin yaxşılaşdırılmasına, müsbət dəyişikliyin yaranması mümkünlüyünə inamın yaradılması.

**Metodlar:**

- “Valideyn yığıcağı” metodu;
- Şagird gündəliyindəki qeydlərin psixoloji təhlili;

***II. Korreksiyaedici blok***

**Məqsədlər:**

- ailədaxili böhranın aradan qaldırılması;
- tərbiyə metodlarının genişliyi haqqında fikirlərin dərk olunması;
- münaqişə edən tərəflər arasındakı ziddiyyətlərin aradan qaldırılması;

- uşağa qarşı münasibətdə valideynlik mövqelərinin dəyişdirilməsi, valideynlərə, uşaqlarla ünsiyyətin yeni formalarının öyrədilməsi, ailə tərbiyəsi haqqında psixoloji biliklərin genişləndirilməsi.

**Metodlar:**

- "qrup valideyn korreksiyası" metodikası;
- "valideyn seminarı" metodikası;
- valideynlərin uşaqlarla birgə məşğələsi metodikası.

***III. Səmərəliliyin qiymətləndirilməsi bloku***

**Məqsədlər:**

- korreksiya işinin cəmərəliliyinin qiymətləndirilməsi;

**Metodlar:**

- valideynlərin hesabatları.

Məktəb psixoloqunun valideynlərlə aparacağı işin sistemində psixoloji maarifləndirmə, psixoprofilaktika, psixoloji məsləhətvermə ilə yanaşı psixo-korreksiya işləri də mühüm yer tutur. Psixoloqun ailə ilə işi ilk növbədə uşaqların mənafeyinin qorunmasına, ailə tərbiyəsində yol verilən qüsurların vaxtında qarşısını ailamğa və nəhayət problemli ailələrdə uşaq üçün normal inkişafetdirici mühitin yaradılamsına xidmət edir.

Uşaqların ailələri və onların valideynləri ilə ünsiyyətə daxil olan psixoloq ilk növbədə hamı üçün məcburi olan tələb və normaların daşıyıcısı, uşaq hüquqlarının müdafiəçisi rolunda çıxış edir. Təlimdə geridə qalan, tez-tez dərs buraxan və ya mürəkkəb davranışlı ("çətin") uşaqların məktəbi narahat edən problemlərinin həllində məktəb psixoloqu formal mövqe nümayiş etdirməklə, həmin problemlərin həllində maraqlı olan qarşı tərəf rolunda çıxış edir. O, yaranmış vəziyyətdən asılı olaraq, valideynlərlə işgüzar dialoji ünsiyyətə daxil olur, problemi doğuran səbəbləri təhlil edir və optimal çıxış yolu göstərir. Valideynlərlə psixoloq arasında etibarlı ünsiyyət şəraiti o zaman yarana bilər ki, sonuncu səbr və səbrli müsahib

– tərəfdaş mövqeyi nümayiş etdirə bilsin. Səbrli müsahib kimi məktəb psixoloqu daim başqalarını dinləməyi bacarmalıdır. Təsadüfi deyildir ki, pedaqoq və psixoloqun zəruri peşə keyfiyyətləri sırasında bu ən mühüm keyfiyyətlərdən biri kimi dəyərləndirilir.

Valideynlərlə söhbət edərkən psixoloq öz baxışlarını onların üzünə yönəltməməlidir, kənara yönəlmiş baxışlar gərginliyi və həyəcanı aradan qaldırır, etibarlı ünsiyyətin baş tutmasına yol açmış olur. Psixoloqla valideynlər arasındakı söhbət yalnız psixoloqun onları dinlədiyi halda deyil, həm də onun dinlənildiyi halda dialoq xarakterli ola bilər. Əlbəttə, dinlənilmək üçün həm də yaxşı dinləməyi bacaran müsahib olmaq lazımdır. Psixoloqun sözü valideynlərə o vaxt təsir göstərə bilər ki, onun sözü inandırıcı, doğru və qərəzkarlıqdan uzaq olsun. Əgər psixoloq öz fikirlərini laqeyd və inamsızlıqla bildirirsə, onda valideylərlə söhbətin mövzusunun əhəmiyyətsizliyi haqqında təəssürat meydana gələcəkdir.

**Ünsiyyət texnikası** ilə məşğul olan mütəxəssislər qeyd edirlər ki, irəli sürülən mülahizələri, məsləhətləri və verilən qiymətləri yumşaltmaq üçün **"mənə elə gəlir ki,"**, **"fikrimcə", "hesab edirəm ki,"**, **"təklif edirəm ki,"** və s. tipli giriş sözlərindən istifadə etmək lazımdır. Nəzakətli formada ifadə olunan istənilən rəyləri müsahiblər daha asan qavrayır və səmimi qəbul edirlər.

Məktəblə valideynlər arasında konfliktlərin yaranmasının çoxsaylı səbəbləri vardır. Bu cür konfliktlər əsasən problemli ailələrlə müəllimlər arasındakı qarşıdurmadan yaranır. Çox vaxt valideynlər yaranmış böhranlı vəziyyətə, konfliktə görə müəllimləri və məktəb rəhbərlərini onların oğluna və ya qızına münasibətdə ədalətsiz olmalarına görə günahlandırırlar.

Adətən müəllimin avtoritar iş üslubu və mövqeyi valideynlər tərəfindən qəbul edilmir. İrəlicədən məktəb haqqında mənfi rəyə malik olan valideynlərdə məktəblə işgüzar əməkdaşlığın mümükünsüzlüyü qənaəti yaranmış olur. Müəllimdən narazı qalan, onun nüfuzuna hörmət

bəsləməyən valideynlər şübhəsiz ki, hər hansı problemin həlli ilə əlaqədar həmin müəllimə yardım üçün müraciət etmir. Uşağın problemini görən nüfuz sahibi olan peşəkar müəllim isə valideynlərlə əməkdaşlığın zəruriliyini dərk edir və özü əməkdaşlıq üçün təşəbbüs göstərmiş olur.

Valideynlərlə müəllimlər arasında qarşılıqlı münasibətlər pozulduqda və ya inamsızlıq yarandıqda psixoloq vəkil rolunda çıxış edir. Ailə və məktəbin münasibətlərində **qarşılıqlı günahlandırma** bəzən kəskin münaqişələrə gətirib çıxarır. Müəllim özü haqqında formalaşmış məlumatları müxtəlif mənbələrdən - ilk növbədə, valideynlərdən, başqa müəllimlərdən və uşaqların özlərindən alır.

Psixoloq məktəblə valideynlər arasında yaranan konfliktləri vaxtında görməli və onların genişlənməsinin qarşısını almaq üçün müvafiq tədbirlərə əl atmalıdır. Belə bir fikir geniş yayılmışdır ki, konfliktlər normal həyata mane olur, sağlamlığa zərbə vurur, ona görə də mümükün qədər konfliktlərdən qaçmaq, uzaq olmaq lazımdır. Psixoloqlar isə bunun əksinə olaraq, təsdiq edirlər ki, konfliktlərdə həyatın rəngarəngliyi üzə çıxır, onlar nəinki qaçılmazdır, həm də zəruridir.

**Konflikt – insanlar arasındakı ziddiyyətlərin ifadəsi, bir-birinə əks olan cəhətlərin, maraqların, təsəvvürlərin, dəyərlərin toqquşmasıdır.**

Konflikt zamanı özünü düzgün aparan şəxs və ya şəxslər onun konstruktiv həllini təmin etdikləri halda, digərləri qeyri - konstruktiv mövqe nümayiş etdirərək həmin konfliktin inkişafına təkan vermiş olurlar.

Tutaq ki, A və B adlı iki şəxs eyni məqsədə can atır, məsələn eyni bir vəzifəni tutmaq istəyirlər. Aydındır ki, bu vəzifəni yalnız onlardan biri tuta bilər. Deməli, mənafelər toqquşur. Tərəflərin hər biri başa düşür ki, situasiya konfliktlidir. Ona görə də, bu məsələdə güzəştə getmək istəməyən tərəflərin hər biri digərinin mövqelərinin zəifləməsinə, onun maraqlarına zərbə vurmağa çalışır. Belə halda konflikt aktuallaşır və qaçılmaz olur. Əvvəlcə bu konflikt tərəflər arasında qapalı baş verdiyi

halda, sonralar konfliktli hərəkətlərə doğru yüksəlir və açıq konfliktə çevrilmiş olur.

**Konfliktli hərəkətlər** bu və ya digər səviyyədə adətən impulsiv, iştirakçıların emosional vəziyyətləri ilə xarakterizə olunur və onları eyni hərəkətlərə təhrik edir ki, bu halda da konflikt daha da kəskinləşmiş olur. Belə halda konflikt o vaxt öz həllini tapa bilər ki, situasiya dəyişmiş olsun (məsələn, həmin vəzifəni A və B-dən hər hansı biri yox, üçüncü bir şəxs tutmuş olsun). Bu halda A bə B-nin situasiyaya münasibəti dəyişir. Bu və digər səbəbdən onlar bir-birinə rəqib kimi baxır. Onlar bir-birinə qarşı konfliktli hərəkətlərdən əl çəkir, konflikt zəifləməyə başlayır. Onların hər biri bu vəzifəyə ən layiqli adamın kim olduğunu müəyyən etməyin müəssisə müdriyyətinin səlahiyyətində olduğunu qəbul edirlər.

Konfliktlər insan cəmiyyətində, ayrı-ayrı sosial qruplarda baş verən hadisələrdən biridir. Belə hadisələr və situasiyalar ailələrdə, pedaqoji kollektivlərdə olduğu kimi, valideynlərlə müəllimlər arasında da tez-tez baş qaldırır. Belə konfliktlərə **məktəb konfliktləri** də deyilir. Müəllimlərlə valideynlər arasında konfliktli situasiyalar adətən onların təlim və tərbiyəsinin məqsəd və vasitələri haqqında təsəvvürlərinin uyğunsuzluğu zamanı yaranır. Belə halda situasiyanın konfliktli olmasını tərəflərdən hansının tez qavramasından asılı olaraq onlardan biri konfliktə girişir və konfliktli hərəkətlər edir.

Polyak psixoloqu E.Melbrud konfliktli situasiyada **konstruktiv davranışın** və konfliktlərin həllinin müxtəlif modellərini təklif etmişdir. Onun fikrincə, müəllimlərlə valideynlər arasında istənilən konfliktin konstruktiv həllinin əsas şərti **tərəflərin açıq ünsiyyətidir**. Əgər müəllim konflikti konstruktiv olaraq həll etmək istəyirsə, o, şagirdin ailəsini əməkdaşlığa cəlb etməlidir. Bunun üçün o, müəyyən səylər göstərməlidir: valideynlərə qarşı mənfi hissləri özündən uzaqlaşdırmalı, bu hissləri şagirdə kömək etməyin zəruriliyi ilə əvəz etməlidir. Real həyatda müəllimlərlə valideynlər

arasında yaranmış bir neçə konflikti nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, bu misallarda konflikti yaradan valideynlər olmuş və onların bu təşəbbüsləri uşaqlarının müdafiəsinə yönəlmişdir.

*Raisa səkkizinci sinif şagirdidir. Orta qabiliyyətli olan bu qız özünə olduqca inamlı və təkəbbürlüdür. Bu cəhətdən hamıdan fərqlənir, məktəbdə ictimai işlərdən boyun qaçırır. Məktəbdə baş verən hər bir şey haqqında faktları təhrif etməklə, bəzən isə özündən uydurmaqla danışır. Onun sözlərinə görə, sinifdəki uşaqların çoxu siqaret çəkir, söyüş söyür, bir-biri ilə savaşırlar. Oğlanlar özlərini xuliqan kimi, qızlar isə sırtıq aparırlar. Müəllimlər ədalətsizliyə yol verir: öz xoşlarına gələn uşaqlara şişirmə qiymətlər yazır, başqalarını, o cümlədən onu sıxışdırırlar.*

*Ana məktəbə narazı görkəmdə gəlir, müəllimlərin və məktəb rəhbərlərinin ünvanına təhqiredici sözlər işlədir. Onların Raisanın söylədiklərinin yalan olması haqqında fikirləri ananı heç cür sakitləşdirmir. O, qızına qarşı münasibətdə ədalətin bərpa olunmasını, sinifdə qayda-qanun yaradılmasını tələb edir. Direktorun işə qarışması heç bir fayda vermir. Raisanın evdə danışdıqlarından asılı olraq konflikt gah alovlanır, gah da sönür. Bu hal üç il davam edir. Ana əvvəlki tək ədalət tələb edir. Raisa evə yalan məlumatlar çatdırır. Sinif yoldaşlarında Raisaya qarşı biganəlik və yad münasibət yaranır.*

Göründüyü kimi, bu konflikt yalnız və yalnız Raisanın həmin məktəbi tərk etməsi ilə öz həllini tapa bilərdi.

Qeyd olunan nümunədə konflikt **qeyri-konstruktivdir**. Raisa və onun anası sinif rəhbərini və məktəb müdriyyətini səriştəsizlikdə, ədalətsizlikdə, ayrı-seçkiliyə yol verməkdə günahlandırır, əks tərəf isə öz hərəkətlərinin düzgün olmasında israrlıdırlar.

Raisanın daxili emosional diskomfortundan irəli gələn şəxsi narahatçılığı, öz iddialarını həyata keçirə bilməməsi onu ətrafdakıların, o cümlədən sinif yoldaşlarının gözündən saldı. Qızının sözlərinə qeyri-tənqidi yanaşan ana isə bu konflikti böyüdərək öz qızına hədsiz iddiaçılıq və adamlara qarşı inamsızlıq təlqin etmiş oldu.

*Şəhər məktəblərinin birində Uşaq-Gənclər Birliyi “Növbətçinin səsi” adlı divar qəzeti buraxırdı. Qəzetin növbəti nömrəsində onlar dördüncü sinifdə oxuyan Türkan adlı şagirdin karikaturasını qulaqlarında sırğa ilə təsvirini vermişdilər. Şəklin altından*

*"Türkan öz sırğaları ilə" sözləri yazılmışdı. Axşam UGB-nin rəhbərinə Türkanın anası zəng edib bu biabırçılığa nə üçün yol verildiyini soruşdu. Ana deyirdi ki, qızı ağlayır, dərsə getmək istəmir, qorxur. Deyir ki, bütün uşaqlar ona güləcəklər. UGB-nin rəhbəri anaya bildirdi ki, qəzetdə nə çəkildiyindən xəbəri yoxdur, uşaqlar qəzeti onsuz hazırlayıb asıblar. O, Türkanın anasını əmin etdi ki, sabah hökmən həmin qəzetlə tanış olacaq və bu barədə tədbir görəcək, onu tələsdirməsinlər. Bir neçə gün keçdi. Ana bu müddətdə bir neçə dəfə zəng etdi və nəhayət məktəbə gələrək qəzetin ona göstərilməsini tələb etdi. O, sinif rəhbərini bə UGB-nin rəhbərini sinfə nəzarət etməməkdə təqsirləndirir, onları təhqir edir və deyirdi ki, bu sinifdə kim nə istəsə onu da edir. Sırğa taxmaqda heç bir qəbahət yoxdur, onsuz da indi hamı taxır. Sinif rəhbəri və UGB-nin rəhbəri onların bu işdə günahlarının olmadığını deyir və bildirirlər ki, divar qəzeti üçün mövzuları redaksiya heyəti özü seçir, uşaqlar qəbahətli bir iş tutmamışlar. Məktəb bəzək-düzək yeri deyil.*

*Ana onları məhkəmə ilə hədələyir, qızının təhqir olunduğunu israr edirdi. Türkanın sırğaları isə hələ də üstündə idi. Məktəb direktoru işə qarışdırdıqdan sonra münaqişə aradan qalxdı və ana müəllimlərdən üzr istədi.*

Bu situasiyada müəllimlər uşaqlara qarşı yolverilməz sanksiyaya yol verməkdə təqsirləndirilir. Əslində müəllimlər qəzetdəki materiallarla irəlicədən tanış olmalı idilər. Bu onlara ana ilə danışığa daha yaxşı hazırlaşmaq imkanı verərdi. Faktiki olaraq ana müəllimlərə emosional və iradi təzyiqlər göstərir. Müəllimlərin zəruri özünümüdafiə hərəkətləri isə konfliktli situasiyanı daha da kəskinləşdirirdi. Direktorun səyləri nəticəsində bu konflikt konstruktiv həllini tapmış oldu.

*Fizika müəllimi VII sinif şagirdi Aidaya rüblük qiymətləndirmədə "3" yazmışdı. Aida bu məktəbə iki ay əvvəl başqa məktəbdən gəlmişdi. Əvvəlki məktəbdə o, fizikadan "əla" qiymət alırdı. Evdə Aida anasına fizikadan aldığı "üç" qiymətin düzgün verilmədiyindən şikayətlənir və müəllimin ona qarşı ədalətsiz olduğunu bildirirdi. Bundan xəbərdar olan müəllim dərsdə Aidaya bu narazılığı istehzalı şəkildə xatırlatdı. Buna etiraz olaraq Aida dərsi tərk edib sinifdən çıxdı.*

*Müəllim Aida və onun anasından direktora şikayət etdi. Direktor ananı məktəbə dəvət edərək Aidadan dərsi anasının və başqa fizika müəlliminin yanında soruşmağı məsləhət gördü. Belə də oldu. Aidanın biliyi fizikadan əvvəlki kimi "kafi" qiymətləndirildi. Ana komissiyanın qərarı ilə razılaşdı. Müəllim Aida üçün fərdi məşğələ proqramı tərtib*

*etdi və qiymətini artırmaq istəyən bütün şagirdlər üçün belə proqramlar tərtib edəcəyinə söz verdi. Göründüyü kimi, fizika müəllimi ilə Aidanın anası arasındakı konflikt artıq açıq və kəskin şəkil almışdı. Direktorun ağıllı təklifi qarşıdurmanı aradan qaldırdı və əməkdaşlığa yol açdı. Konflikt konstruktiv yolla həll olundu.*

*İbtidai sinifdə təhsili başa vurduqdan sonra müəllimə ilə münasibətlərinin pisləşdiyinə görə valideynləri Elbrusu başqa məktəbə köçürdülər. Elbrus yeni məktəbdə bir il oxudu, yeni dərs ili başlayarkən isə dərslərə gəlmədi. Elbrusun valideynləri şagirdlə maraqlanan sinif rəhbərinə bildirdilər ki, uşağı əvvəlki məktəbinə göndərəcəklər. İki ay uşaq heç bir məktəbə getmədi. Hər iki məktəbdən uşağın məktəbə gətirilməsi üçün zənglər olsa da, bu nəticəsiz qaldı. Valideynlər Elbrusun evdə fərdi təhsil alacağını bildirdilər. Məsələ ilə əlaqədar Şəhər İcra Hakimiyyətinə edilən müraciətlərə müsbət cavab verilmədi. Hakimiyyət orqanı evdə təhsilin yalnız xəstə və zəif uşaqlar üçün mümkün olduğunu bildirmişdi.*

*Elbrus dərslərindən zəif olmasa da, öz qabiliyyətləri ilə seçilmirdi. Dərslərdə passiv idi, lakin hər şeyə maraq göstərir, ev tapşırıqlarını yerinə yetirir, böyüklərlə nəzakətli rəftar edirdi. O, bir qədər mütəhərrik və xəstə uşaq təsiri bağışlayırdı.*

*Konfliktli situasiya bu halda onunla izah oluna bilər ki, valideynlər yeganə övladlarının təlimi və tərbiyəsini məktəbə etibar etmirlər. Onlar məktəblə hər hansı əməkdaşlıqdan, açıq dialoqdan imtina edir, məktəbin hər hansı köməyinə bel bağlamırlar. Çıxış yolu uşağın hər hansı üçüncü bir məktəbə göndərilməsi idi. Ötən müddət ərzində Elbrus dərsə getmədiyindən təlimdə xeyli geridə qalmışdı.*

Göstərilən həyati nümunələrdə konfliktli situasiyaların və toqquşmaların yaranmasında əsas səbəb tərəflər arasında dialoji ünsiyyətin yaradılmasında müəllimlərin səriştəsizliyi, onların psixoloji baxımdan məharətinin olmamasıdır. Belə hallarda konfliktlərin idarə olunması mümükünsüz olur.

Qeyd olunan tip situasiyalarda, həmçinin valideynlərlə məktəb arasında yaranan konfliktlərin həllində praktik psixoloq ağırlığı öz çiyinlərinə götürməli, tərəflər arasında açıq dialoq və əməkdaşlıq mühiti yaratmalıdır. O, məktəbin və müəllimlərin deyil, uşağın təmsilçisi olmaqda valideynləri inandırmalıdır ki, məktəb uşağın mənafelərini müdafiə edir. Uşağın yaxşı oxuması, intizamlı olması, məktəbdaxili qaydalara əməl etməsi hər bir məktəblinin borcudur. Məktəbdə hər bir şagirdə qarşı eyni münasibət,

eyni qayğı və eyni tələbkarlıq vardır. Mümükün konfliktlərin konstruktiv həll yolunun tapılmasında psixoloq yalnız müəllimlərə deyil, məktəb rəhbərlərinə də optimal və konstruktiv davranış yolu tapmaqda yardımçı olmalıdır.

**VIII fəslə aid suallar və tapşırıqlar:**

1. *Psixoloji korreksiyanın mövzusu nədən ibarətdir?*
2. *Psixoloji korreksiyanın keçirilməsinə zərurət yaradan amillər hansılardır?*
3. *Psixoloji korreksiyanın əsas metod və priyomları hansılardır?*
4. *Psixokorreksiyanın başlıca məqsəd və vəzifələrini sadalayın.*
5. *Psixokorreksiyanın hansı konkret sahələri vardır?*
6. *Psixokorreksiya üzrə işin əsas formaları hansılardır?*
7. *Psixokorreksiya qruplarının hansı tipləri vardır? Hər bir qrupda işin qısa məzmununu şərh edin.*
8. *Autogen məşq texnikasının tətbiqi metodikasını izah edin.*
9. *Təlimdə geridəqalmanın determinantları hansılardır?*
10. *Təlimdə geridəqalmanın aradan qaldırılamsı üçün hansı korreksiya proqramlarından istifadə etmək olar?*
11. *Psixoloqun valideynlərlə psixokorreksiya işi aparmasının zəruriliyini şərtləndirən amillər hansılardır?*
12. *"Problemli ailə" dedikdə hansı ailə nəzərdə tutulur?*
13. *Psixoloqun valideynlərlə ünsiyyət texnikası necə qurulmalıdır?*
14. *Valideynlərlə müəllimlər arasında yaranan konfliktlərin mümükün səbəblərini göstərin.*

## Qısa terminlər lüğəti

- **Adaptasiya** – uyğunlaşma, orqanizmin yeni şəraitə vərdiş etməsi.
- **Aktivlik** – 1) orqanizmin və psixikanın xassəsi. Onun fiziki və psixi olmaqla iki növü fərqləndirilir. 2) Şəxsiyyətin xüsusiyyəti. Şəxsiyyət fiziki və psixi olmaqla yanaşı sosial fəallığa da malikdir.
- **Alturizm** – öz şəxsi həyatı və maraqlarını unudaraq başqa adamlara təmənnasız xidmətə yönəlmiş sosial yönəlişlik forması.
- **Anamnez** – xəstəliyin inkişaf tarixi.
- **Affekt** – güclü, coşqun cərəyan edən gərgin emosional halət
- **Affektiv davranış** – dalaşqanlıq, tərslik, höcətlik, kobudluq və s. kimi çətin davranış forması.
- **Aparıcı fəaliyyət** – ontogenezin müəyyən mərhələsində psixi inkişafın xarakterini müəyyən edən fəaliyyət növü.
- **Aqressivlik** – insanın başqalarına ziyan vurması ilə ifadə olunan davranış və müənasibət tərzi.
- **Ambivalentlik** – ikili, polyar, ziddiyyətli fikir, hiss və davranışın təzahürü. O, özünü eyni bir obyektə qeyr-müəyyən ikili münasibətdə göstərir. Məsələn, eyni bir adama qarşı məhəbbət və nifrət.
- **Astenik** – fiziki və psixoloji cəhətdən zəif adam. Alman psixiatrı E. Kreçmerin təliminə görə, asteniklər xüsusi bədən quruluşu ilə seçilir. Onlar dar çiyinlərə, qalın skletə, zəif əzələlərə, düz döş qəfəsinə malikdir. Şizod tipə və onlara məxsus davranış formalarına malik olurlar.
- **Autizm** – normal, məqsədyönlü məntiqi təfəkkürün pozulması.
- **Afaziya** – nitqin müxtəlif pozğunluqları.
- **Affiliasiya**- insanın ətrafdakı adamlarla emosional yaxınlığa, onlara xeyirxah dostluq və yoldaşlıq münasibətlərinin qurulmasına və qorunub saxlanılmasına olan tələbatı.

- **Appersepsiya** – qavrayışın keçmiş təcrübədən, insanın psixi fəaliyyətinin məzmunundan və onun fərdi xüsusiyyətlərindən asılılığı.
- **Bumeranq affekti** – sosial-psixoloji hadisə. İnsan onun sosial ustanovkalarını, mühakinə və rəylərini dəyişdirilməsinə yönəldilmiş informasiyanı qəbul edərkən və qiymətləndirərkən nəinki öz əvvəlki mövqeyini dəyişir, əksinə həmin mövqe üstündə daha təkidlə israr edir. Bu hal qəsdən göstərilən informasiya təzyiqi zamanı daha qabarıq özünü göstərir.
- **Deviant davranış** – normadan kənar, hüquqa və əxlaqa zidd asosial davranış.
- **Depressiya** – psixi və davranış fəallığının zəifləməsi ilə müşayət olunan ruhi dalğınlıq, təlatüm vəziyyəti. Bu zaman insan özünü qarşıya çıxan həyatı problemlərini həll etməkdə köməksiz və qabiliyyətsiz hiss edir.
- **Eyforiya –** heç bir obyektiv səbəb olmadan sevinmə, əhvalın səbəbsiz olaraq hədsiz yüksəlməsi.
- **Empatiya –** başqa adamların psixi halətlərini başa düşməklə onların dərdinə şərik olma qabiliyyəti.
- **Əhval**- insanın ümumi fəallığını müəyyən edən aktual emosional vəziyyətin ümumi fonu.
- **Fenomen –** insan şüurunun daxili psixoloji məzmununa aid olan fakt, hadisə.
- **Fəaliyyət** - ətraf gerçəkliyə fəal yanaşma forması, insanın dərk olunmuş məqsədi ilə tənzim olunan daxili və xarici fəallığı.
- **Fəaliyyət məhsullarının təhlili** – psixologiyanın metodlarından biri. O, uşağın dəyərli fəaliyyət məhsulları olan şəkilləri, şeirləri, hekayələri, applikasiya və quraşdırma nümunələrinin tədqiqini nəzərdə tutur.
- **Genezis** – mənşə, yaranma. Qanunauyğun inkişafın tarixi.

- **Görüş qrupları** – qrup psixoterapiyası (psixokorreksiyanın) metodlarından biri. İnsanın davranış xarakterli problemlərinin öyrənilməsi və həll edilməsi məqsədi ilə təşkil olunur.
- **Hipnoz** – hipnotik təlqin vasitəsilə insanda yaradılan xüsusi psixoloji vəziyyət. Hipnoz insanın öz fikirləri, hissləri və davranışı üzərində nəzarətin qismər itirməsi ilə səviyyələnir.
- **Xarizmatik –** təbiətin insanlara rəhbərlik etmək, lider olmaq xüsusiyuyətləri ilə doğulmuş adam.
- **Xarakterin aksentuasiyası** – insanda xarakter əlamətlərindən hər hansı birinin digərlərinə nəzərən hədsiz güclü inkişaf etməsi. Bu adətən xəstəlik və qocalıq zamanı, həmçinin yaş böhranları dövründə özünü daha qabarıq göstərir.
- **İradə** - insanın şüurlu və məqsədyönlü şəkildə öz davranışını tənzim etməsi.
- **İmitasiya** – uşağın müəyyən davranış modelini (yaşlı, yaşıd, müəllim və ya bədii film qəhrəmanı və s.) şüurlu şəkildə öz həyatına köçürməyə can atması.
- **İdentifikasiya** - yad davranış modelini, ustanovka və dəyərləri özününkü kimi mənimsəmək.
- **İdentik**- oxşar.
- **İmperativ üslub** – cəza və məcburetmə xarakterli avtoritar rəhbərlik üslubu.
- **İnfantilizm** - inkişafın ləngiməsi, fiziki və psixi simada daha erkən yaş dövrləri üçün səciyyəvi olan xüsusiyyətlərin olması.
- **İntuisiya**- insanın mürəkkəb həyat şəraitinə yaxşı uyğunlaşmasına imkan verən ümumi əqli qabiliyyətlərin məcmuyu.
- **İctimai rəy**- indiki anda kimin və ya nəyinsə haqqında insanların böyük əksəriyyətində formalaşmış fikir.

- **İddia səviyyəsi -** bu və ya digər fəaliyyət zamanı şəxsiyyətin seçdiyi və qarşıya qoyduğu məqsəd və vəzifələrin çətinlik dərəcəsi ilə müəyyən olunan xarakteristikası.
- **İntrospeksiya –** daxili psixoloji halət və proseslərin incə özünümüşahidəsi prosesi.
- **Kommunikativ bacarıq və vərdişlər** – insanın başqaları ilə ünsiyyətində təzahür edən bacarıq və vərdişlərin toplusu. O, özünü ünsüyyət zamanı verbal və qeyri-verbal vasitələrdən istifadə etməklə qarşılıqlı anlaşma məqsədilə insanlara təsir göstərməyi əks etdirir.
- **Kompetentlik** – bu və ya digər fəaliyyət sahəsində insanın yaralılığını, səriştəliliyini, problemləri həll etmək qabiliyyətini əks etdirən xarakteristikası.
- **Komplekslər**- insanın özündən və ətrafdakı adamlardan gizlətməyə çalışdığı və ona ağır təsir göstərən qüsur və çatışmazlıqlar. Onlar xarakterin anomal əlaməti hesab edilir.
- **Konflikt**- bir-birinə əks, zidd olan baxışların, maraq və nəzərlərin, davranış formalarının toqquşması. O, özünü insanın özü ilə və başqaları ilə daxili münaqişələrində əks etdirir.
- **Konformizm**- insanlar tərəfindən yad rəylərin qeyri-tənqidi şəkildə qəbul edilməsi. Bu, insanların başqalarından qorxusu və ya fayda əldə etmək, ziddiyyətdən qaçmaq istəkləri ilə bağlı yaranır.
- **Konfrantasiya**- cəbhələşmə, iki və daha çox rəyin, maraq və mövqenin toqquşması. Bu, adətən konfliktli vəziyyətə səbəb olur.
- **Qospitalizm** – qapalı uşaq tərbiyə müəssisələrində yaşlılarla ünsiyyət çatışmazlığı nəticəsində yaranan və uşağın kəskin şəkildə inkişafdan qalmasına səbəb olan hadisə.
- **Qeyri**- **adekvatlıq affekti** – mənfi emosional təəssüratların güclü və davamlı kompleksi. İnsan öz qüsurlarını dərk edərək həyati vacib məqsədlərinə çatmaqda çətinlik çəkir.

- **Qrup** – insanların onlar üçün ümumi olan hər hansı sosial-demoqrafik və ya psixoloji əlamətlər əsasında birliyini ifadə edən anlayış.
- **Libido**- insanın şüuraltı səviyyədə və seksual planda xüsusi həyat enerjisini ifadə edən psixoanalitik termin. Z.Freydə görə, libido insanların psixologiyası və davranışını idarə edir.
- **Lider**- sosial qrupun digər üzvləri tərəfindən səlahiyyətləri könüllü qəbul edilən nüfuzlu şəxs.
- **Maqiya**- sehirbazlıq, guya insana və dünyaya təbiətüstü qüvvələrlə əlaqə yolu və xüsusi hərəkətlərə təsir etmək.
- **Mazoxizm**- özünügünahlandırma, özünücəzalandırma.
- **Mnemotexnika**- insanın öz yaddaşını, xüsusilə materialı yaddasaxlama qabiliyyətini yaxşılaşdırmaq üçün istifadə etdiyi priyom və vasitələri sistemi.
- **Moda**- İndiki anda insanların üstün qiymətləndiridyi zövqlərin (məsələn, paltar, incəsənət, davrannış tərzi, maddi əşyalar və s.) sistemi.
- **"Mən" obrazı**- insanın özünün özü haqqında təsəvvürləri. "Mən" obrazı insana özünə kənardan baxmaq, hansı keyfiyyətlərə malik olduğunu dərk etmək imkanı verir.
- **Motiv** - bu və ya digər tələbatın təmin olunması ilə bağlı olan, fəaliyyətə təhrik edən amil.
- **Məna səddi –** insanlar arasında münasibətlər zamanı ünsiyyətdə istifadə olunan sözlərin mənasının düzgün anlamama, onlara müxtəlif məna vermə.
- **Nevrastaniya**- İnsanın sinir sisteminin funksional xəstəliyi. O, insanın tez yorulması, əsəbi olması ilə yanaşı, fiziki və əqli baxımdan uzunmüddətli gərgin işə dözümsüzlüyündə ifadə olunur.
- **Nevrozlar**- psixi dalğınlığın funksional forması. O, əlverişsiz həyat şəraitində özünü göstərir. Bu zaman insan özünün xəstəliyinə qarşı

düşüncəli və tənqidi münasibətini itirmir, öz davranışını şüurlu idarə etməyi bacarır.

- **Oliqofreniya**- əqli qabiliyyətlərin zəif inkişaf səviyyəsi, kəmağıllıq. O, anadangəlmə və qazanılma xarakterli xəstəliklər sırasına daxildir. Adətən erkən uşaqlıq (1-3 yaş) dövründə beyinin üzvi zədələnməsi nəticəsində meydana gəlir.
- **Oreal effekti**- insan haqqında ümumi təssüratların davranış və psixologiyası haqqında qiymətin onun qavrayışına təsirinin nəticəsi. Əgər insan haqqında ümumi təəssüratlar müsbətdirsə, onda onun müsbət psixoloji keyfiyyətləri oreal effektinin təsiri altında müsbət qiymətləndirilir, mənfilər hesaba alınmır. Mənfi ümumi təəssüratlar zamanı isə bunun əksi baş verir.
- **Ortodoksial**- insanların böyük əksəriyyəti üçün populyar olmayan hər hansı nöqteyi-nəzərin üstündə təkidlə durmaq. Belə adam öz fikrindən əl çəkmir və kompromissə getmir.
- **Psixoloji iqlim**- qrupda formalaşmış insan münasibətlərinin ümumi sistemi
- **Pantomimika-** insanın başqaları ilə ünsiyyət zamanı istifadə etdiyi ifadəli bədən hərəkətlərinin sistemi.
- **Parapsixologiya-** insanların psixologiyası haqqında elmi əsasları olmayan bilik və təsəvvürlər sahəsi. (Məsələn, telepatiya, telekinez, ekstrasensor qavrayış və s.)
- **Pedantizm-**artıq formalizm, hər şeydə-norma və qaydalara əməl edilməsində hədsiz xırdaçılıq.
- **Polemika-** insanlar arasında kəskin diskusiya və mübahisə, hər hansı məsələ və ya problemin yüksək emosional səviyyədə müzakirəsi.
- **Praktik psixoloq-** praktik psixoloji məsələlərin həlli ilə məşğul olan, ali psixoloji təhsilli mütəxəssis. O, psixologiyanın tədrisi və elmi-psixoloji tədqiqatlarla məşğul olmur.

- **Proyektiv metodlar –**proyeksiya (köçürmə) mexanizmi əsasında istifadə olunan psixodiaqnostik metodların sistemi.
- **Psixiatriya-** psixi xəstəliklərin qarşısının alınması və müalicəsi ilə məşğul olan tibb elminin bölməsi.
- **Psixi xəstəliklər-** insanın psixikasının və davranışının müxtəlif formalarda pozulmasında təzahür edən xəstəliklər (məsələn, psixozlar, nevrozlar, psixopatiyalar, əqli pozğunluqlar və s.)
- **Psixodiaqnostika-** xüsusi psixoloji bilik və metodların sahəsi. Onların köməyi ilə insanların psixi prosesləri, xassə və vəziyyətləri ölçülür, kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilir.
- **Psixozlar-** ciddi xroniki psixoloji xarakter daşımayan, öz təzahürlərinə görə insan psixikasının müxtəlif pozğunluqları.
- **Psixokorreksiya –** xəstəlik xarakteri daşımayan, insanın psixikası və davranışındakı müxtəlif qüsurların aradan qaldırılması ilə bağlı psixoloqun peşəkar fəaliyyət sahələrindən biri.
- **Psixoloji xidmət –** insanlara operativ psixoloji kömək məqsədi ilə xüsusi müəssisələrdə rəsmən yaradılmış sistem. Belə xidmət sahələri müxtəlif sosial institut və təşkilatlarda, məsələn, tibbdə, təhsildə, iqtisadiyyatda, siyasətdə, orduda, hüquq sistemində yaradılır.
- **Psixoloji məsləhətvermə -** praktik psixoloq tərəfindən insanlara məsləhət və tövsiyyələr formasında göstərilən yardım formalarından biri.
- **Psixoloji təhsil –** psixoloqların ali məktəblərdə aldığı xüsusi peşə hazırlığı.
- **Psixomotorika –** insanda psixi hadisə və hərəkətlərin qarşılıqlı əlaqəsi və təsiri.
- **Psixopatiya –** insanın xarakterində ifadəli dəyişikliklə nəzərə çarpan normal psixi fəaliyyətin pozulması. Məsələn, yüksək sinir-psixi

oyanıqlıq, özündən şübhələnmək, qətiyyətsizlik, fanatizm, aqressiv reyaksiyalara meyillilik, isteriklik və s.

- **Psixoterapiya –** müxtəlif xəstəliklərin psixoloji vasitələrlə müalicəsini həyata keçirən tibbin sahəsi.
- **Psixotrop vasitələr –** insanın psixi proseslərinə, vəziyyət və xüsusiyyətlərinə əhəmiyyətli təsir göstərən müxtəlif biokimyəvi vasitələr. Tibbdə bu vasitələrdən müxtəlif psixi xəstəliklərin müalicəsi məqsədi ilə istifadə olunur.
- **Psi ( $\Psi$ ) -** yunan əlifbasının hərfi. O, psixologiyanın emblemi kimi qəbul edilmişdir.
- **Psixoloji diaqnoz-** diaqnostik müayinənin nəticəsi və onun əsasında tərtib edilən rəy. Bu rəy əsasında sınanılan şəxsin fərdi-psixoloji xüsusiyyətləri aşkara çıxarılır. Psixoloji məsləhət və ya korreksiyaedici və inkişafetdirici proqramların tərtibində həmin rəydən istifadə edilir.
- **Rol-cins davranışı**- müəyyən cinsə mənsub olan insan üçün səciyyəvi olan sosial cəhətdən qəbul edilən davranış forması.
- **Reanimasiya –** orqanizmin əsas həyati funksiyalarının bərpa edilməsi (canlanma, ruhun "qayıtması").
- **Reytinq –** nüfuzun kəmiyyət göstəricisi. Hər hansı adamın digərləri ilə müqayisədə məşhurluğu.
- **Renutasiya –** hər hansı konkret adam haqqında onun ətrafındakılarının rəyi. Renutasiya müsbət və mənfi ola bilər.
- **Retrospektsiya –** fikrən keçmişə qayıtma, artıq keçmişdə baş vermiş hadisələrin təhlili.
- **Refleksiya –**insanın şəxsi təcrübəsi, xüsusilə, öz psixoloji xüsusiyyətləri haqqında düşüncələri.
- **Referent qrup –** insanların sosial birliyi. Referent qrup üzvü olan şəxs öz ideallarını, əqidəsini, sərvət meyllərini, ustanovka və davranış

normalarını qrup normasına uyğunlaşdırır, onun rəyini və qiymətini qəbul edir, ona layiq olmağa can atır.

- **Sindrom –**eyni mənbədən qidalanan simptomların, əlamətlərin məcmuyu.
- **Skeptik –** hər şeydən şübhələnən, demək olar ki, hər şeyə inamsız, tənqidi münasibət bəsləyən adam.
- **Sosial stereotip –** insanın sosial yönəlişliyinin davamlı sistemi. O, həmin cəmiyyətdə yaşayan insanların əksəriyyətinin bu cəmiyyətə və ya qrupa münasibətini əks etdirir.
- **Stereotip –** şablon, trafaret.
- **Senzitivlik** – həssaslıq
- **Senzitiv dövrlər** - ətraf gerçəkliyin müəyyən təsirlərinə qarşı həssaslıqla müşayət olunan ontogenetik yaş dövrləri.
- **Sensor inkişaf** - qavrayışın inkişafı.
- **Sinkretizm** – erkən və məktəbəqədər yaşlı uşaqların qavrayış və təfəkkürünün xüsusiyyəti. Obyektlərin bitişik qavranılması.
- **Sosiallaşma** – fərdin sosial təcrübəni fəal şəkildə mənimsəməsi prosesi.
- **Stimul** – təhrikedici amil.
- **Təqlid-** başqa adamların etdiklərini şüurlu və ya şüursuz olaraq yamsılama, təkrarlama. O, xüsusilə uşaqlıq dövründə öyrənmənin, həyat təcrübəsi əldə etmənin əsas üsullarından biridir.
- **Telepatiya –**fiziki enerji növlərinin köməkyi ilə insanın fikir və hisslərinin, informasiyanın ötürülməsi.
- **Tətbiqi psixologiya –** praktik psixoloji biliklərin tətbiqi ilə həll edilən məsələ və problemlərlə bağlı psixologiyanın bir çox sahələrinin ümumi adı.
- **Taksonomiya-** təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifatı.

- **Temperament –** insanın dinamik xüsusiyyətləri, psixi proses və vəziyyətləri, habelə xarici davranış formaları ilə ifadə olunan, onun fərdiyyətinin ümumi psixoloji xüsusiyyətlərindən biri.
- **Test –** standartlaşdırılmış psixodiaqnostik metodika. Onun vasitəsilə insanın bu və ya digər psixoloji xüsusiyyəti kəmiyyət və keyfiyyətcə ölçülərək qiymətləndirilir. Psixologiyada bir neçə min test növü vardır.
- **Treninq –** nəyinsə öyrədilməsinə xidmət edən xüsusi məşq. İnsanda faydalı bacarıq, vərdiş və adətlərin formalaşdırılması üçün tətbiqi psixologiyada müxtəlif treninqlərdən istifadə olunur.
- **Təlqin-** təsirə əhəmiyyət vermədən, dərk etmədən onun təsiri altına düşmə.
- **Təxəyyül** - əvvəllər birbaşa qavranılmamış tamamilə yeni obrazların yaradılması ilə müşayət olunan psixi proses.
- **Tərbiyə** - tərbiyə olunanda müəyyən davranış formalarının, dünyagörüşünün, xarakter və qabiliyyətlərinin, hisslərin formalaşdırılmasına yönəldilmiş məqsədyönlü və sistematik təsir prosesi.
- **Təbii imkanlar** – orqanizmin anadangəlmə anatomik-fizioloji xüsusiyyətləri, məsələn, sinir sistemi tipi, reseptorların quruluşu və s. Təbii imkanlar qabiliyyətlərin formalaşması və inkişafının təbii şərti kimi özünü göstərir.
- **Ünsiyyət**- İnsanlar arasında informasiya mübadiləsini, onların psixoloji və davranış baxımından bir-birinə qarşılıqlı təsirini əks etdirən proses.
- **Verbal** – sözlü
- **Yalan detektoru** – müəyyən texniki qurğular vasitəsilə tətbiq edilən xüsusi psixoloji test. Onun vasitəsilə insanın doğru və yalan danışdığını müəyyən etmək olur.
- **Yeni pedaqoji təfəkkür** – təhsilin pedaqoji və psixoloji dəyərlərə əsaslanan mentaliteti. Humanistləşdirmə, demokratikləşdirmə,

humanitarlaşdırma, fərdiləşdirmə və inteqrasiya yeni pedaqoji təfəkkürün əsas prinsipləridir.

- **Zeyqarnik effekti** - mənşəcə alman olan rus psixoloqu Bulyuma Vulfovna Zeyqarnik tərəfindən kəşf edilmiş, hafizə prosesinə aid hadisə. Zeyqarnikə görə, tamamlanmamış tapşırıqlar tamamlanmış tapşırıqlara nəzərən iki dəfə yaxşı yadda qalır. Lakin bu hadisə bir sıra amillərdən – sınanılan şəxsin yaşından, tamamlanmış və tamamlan-mamış tapşırıqlara münasibətindən, hər bir tapşırığın həllinə sərf olunan vaxtdan, onların nisbi çətinlik səviyyəsindən və s. asılıdır. Lakin bu hadisə heç də həmişə müşahidə olunmur.

## İstifadə olunmuş ədəbiyyatlar:

### Azərbaycan dilində:


1. Mərdanov M.C. Azərbaycan Təhsil Sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. (YUNESKO ilə əməkdaşlıq kontekstində) "Azərbaycan müəllimi" qəzeti, 15 iyul, 2006-cı il.
2. Xalq Təhsili Sistemində Psixoloji xidmət haqqında Əsasnamə. (rus dilindən tərcümə) B., 1999.
3. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin inkişafı. (1920-1985-ci illər) B., "Maarif", 1991.
4. Bayramov Ə.C., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri. Azərbaycan Dövlət Nəşriyyat. B., 1986.
5. Çələbiyev N.Z. Psixodiaqnostika məsələləri. B., ADPU, 2003.
6. Çələbiyev N.Z. Uşaq psixologiyası. B., ADPU, 2005.
7. Çələbiyev N.Z. Təlimdə geridəqalmanın klinik göstəriciləri və korreksiya imkanları. // AMİ-nin xəbərləri, B., 2007, №3, səh. 86-92.
8. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. B., "Pedaqogika"; 2004.
9. Əmrahlı L.Ş. Psixoloji xidmətin əsasları. I kitab. B., MBM, 2006.
10. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. B., "Maarif", 1991.
11. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. B., "Adiloğlu", 2003.
12. İsmayılov H.B. Psixiatriya. B., "Maarif", 1992.
13. Quliyev E.M. Kiçik məktəblinin psixologiyası. B., ADPU, 2003.
14. Məmmədov İ.Ə. Məktəb psixoloqlarının hazırlanması təcrübəsi haqqında. // İbtidai məkrəb və məktəbəqədər tərbiyə. B., 2004, N3, səh 52-56.
15. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. B., "Mütərcim", 2006.

16. Məmmədov İ.Ə. Məktəb psixoloqunun məlumat kitabı. B., "Pedaqogika", 2003.
17. Məmmədov İ.Ə. Azərbaycan məktəblərində psixoloji xidmətin təşkili təcrübəsi və elmi-metodik problemləri. B., "Gənclik", 1996.
18. Məmmədzadə P.H. Təhsil müəssisələrində psixoloji xidmət. (Metodik vəsait). B., 1996.
19. Zeynalabdinova Ə.X. Məktəbdə psixoloji xidmətin praktik məsələləri. B., 2003.

**Rus dilində:**

1. Абрамова Г.С. Практическая психология. Издание второе, стерео-типное. М., «Академия», 1997.
2. Аникеева Н.П. Психологический климат в коллективе. М., «Просвещение» , 1989.
3. Веселова В.В. Психолого-педагогическая служба «гайденс» в средней школе США.//«Советская педагогика»,1982,№6,стр.116-119.
4. Воспитание трудного ребёнка. Дети с девиантным поведением (Под. ред. М.И. Рожкова) М., «Владос», 2003.
5. Гамезо М.В., Петрова Е.А., Орлова Л.М. Возрастная и педагогическая психология. М., «Педагогическое общество России», 2003.
6. Детская практическая психология. (Под.ред. Т.Д.Марцинковской), М., «Гардарики", 2003.
7. Дубровина И.В.Практическая психология образования. М., 1998.
8. Зиновьева Н.О., Михайлова Н.Ф. Психология и психотерапия насилия. Ребёнок в кризисной ситуации. М., «Речь», 2003.
9. Интеллектуальное развитие и воспитание дошкольников. (Под. ред. Л.Г. Нисканен). М., «Академия», 2002.
10. Ковалев С.В. Психология современной семьи. М., «Просвещение», 1991.

11. Когнитивная психология. (Материалы финско - советского симпозиума). М., «Наука», 1986.
12. Лейтес Н.С. Возрастная одарённость школьников. М.,«Академия», 2001.
13. Маликова В.А. Теория и практика профессионального взаимодействия психолога и педагога. Оренбург, 1999.
14. Немов Р.С. Практическая психология. М., «Владос», 2001.
15. Немов Р.С. Психология. М., «Просвещение», 1990.
16. Немов Р.С. Психология 2. М., «Владос», 1999.
17. Обухова Л.Ф. Возрастная психология. М., «Педагогическое общество России», 2003.
18. Обучение и воспитание детей шестилетного возраста в школе. (Под. ред. И.Д.Зверева, А.М.Пышкало) М., «Педагогика», 1987.
19. Педагогика. Педагогические теории, системы, технологи. (Под.ред. С.А.Симирнова), М., «Академия», 2003.
20. Певзнер М.С. Клиническая характеристика детей с задержкой развития. // Дефектология. М., 1977, № 3
21. Педагогическая психология. (Под. ред. Н.В.Клюевой) М., «Владос-пресс», 2003
22. Психологическая диагностика. (Под. ред. М.К.Акимовой, К.М.Гуревича). 3-е издание. М., «Питер», 2005.
23. Практикум по патопсихологии (Под. ред. Б.В. Зейгарник, В.В.Николаевой, В.В. Лебединского) М., Изд-во Московского Университета. 1987.
24. Потапова А.В., Нартова - Бочавер С.К. Детская психологическая служба. курс  лекции. Часть II М., МОСУ, 2001.
25. Прихожан А.М., Толстых Н.Н. Дети без семьи М., «Педагогика», 1990.
26. Пенолопа Лич. Младенец и ребенок. От рождения  до пяти лет.

(Перевод с англ.) М., «Педагогика», 1985.
27. Психологический тренинг в группе. Игры и упражнения. (Авторы-составители Т.Л.Бука, М.Л.Митрефонова.) М., Изд-во Института Психотерапии. 2005.
28. Рогов Е.И.Настольная книга практического психолога. В двух книгах. Книга 1, 2. М., «Владос-пресс», 2006.
29. Ротенберг В.С., Бондаренко С.М. Мозг, обучение, здоровье . М., «Просвещение», 1989.
30. Рубинштейн С.Я. Психология умственного осталого школьника. М., «Просвещение», 1986.
31. Сластенин В.А. Исаев И.Ф., Шиянов Е.Н. М., «Академия», 2002.
32. Столяренко Л.Д. Основы психологии. Практикум. Ростов-на-Дону. «Феникс», 2002.
33. Фридман Л.М., Волков К.Н. Психологическая наука – учителю. М, «Просвещение», 1985
34. Фридман Л.М. О концепции школьной психологической службы. // «Вопросы психологии», М., 2001, №1, стр. 97-106.
35. Шнейдер Л.Б., Вольнова Г.Б., Зыкова М.Н. Психологическое консультирование. М., «Ижица», 2002.
36. Широкова Г.А. Справочник дошкольного психолога. Изд. Пятое. Ростов-на-Дону, «Феникс», 2007.
37. Щуркова Н.Е. Педагогическая технология. М., «Педагогическое общество России», 2002
38. Энциклопедия психологических тестов. ( Составитель С. Касянов) М., «Эксмо», 2002.